# MƏFATİH ƏL-HƏYAT

## HƏYATIN AÇARLARI

II HİSSƏ

Ayətullah Cavadi Amuli

# "MƏFATİH ƏL-HƏYAT"

## HƏYATIN AÇARLARI

**II HİSSƏ**

**BAŞQA İNSANLARA MÜNASİBƏT**

*Gürcüstan Müsəlmanları İdarəsi*

**Tbilisi 2019**

# “MƏFATİH ƏL-HƏYAT”

Müəllif:

**Ayətullah Cavadi Amuli**

Tərcümə edən:

**Maqsud Sayıl**

Redaktor:

**Şəfa Hətəmova**

© “LOQOS” Elmi Araşdırmalar Mərkəzi

*Tbilisi “Universal” nəşriyyatı 2019*

# ÖN SÖZ

Əzəli həmd-səna Allaha yaraşır! Sonsuz salamlar ilahi peyğəmbərlərə, xüsusilə sonuncu peyğəmbər Həzrət Məhəmmədə rəvadır! Əbədi salam "Taha","Yasin" ailəsinə layiqdir! Bu müqəddəs zatlara sevgimizi ifadə edir, onların inadkar düşmənlərinə nifrətimizi bildiririk!

Bu kitabın məzmununun əsas elementlərini bir sıra qaydalar tənzimləyir ki, onların bir hissəsini bu müqəddimədə diqqətinizə çatdırırıq:

**Birinci qayda:** İnsanın və cəmiyyətin bütün potensial imkanlarının üzə çıxması Allah yolçularının keçməli olduğu dörd mərhələdən dördüncüsündə qərarlaşmaqla gerçəkləşir.[1] Dörd mərhələnin dördüncüsü "Haqla birgə xalqdan xalqa doğru gediş"dir. Belə bir yolçu daim Haqla birgədir. Haqyönlü cəmiyyətdə həyatın bütün sahələri mütləq Haqqın nuru ilə işıqlanır.

Haqyönlülüyün tam nümunəsini Həzrət Əlinin həyat tərzində və davranışlarında görmək olar. Təbii ki, bu Haqdan başqa heç bir istəyi olmayan imamət və vilayətin təbiətindən irəli gəlirdi. Könül oxşayan "Əli haqq ilə, haqq da Əli ilədir, onun yönəldiyi

---

[1] Allaha doğru gedən, yolçunun keçməli olduğu yolun ilk mərhələsi Allahı tanımaq və Ona inanmaqdır ki, bu, "Xalqdan Haqqa doğru gediş" adlanır. İkinci mərhələ Allah-Taalanın gözəl adlarında, bu adların yeganəliyində, bir-biri ilə və Allahın zatı ilə vəhdətində seyr etməkdir ki, bu, "Haqla birgə Haqdan Haqqa doğru gediş" adlanır. Üçüncü mərhələ "Haqdan xalqa doğru gediş"dir. İkinci mərhələdə insan məsuliyyət pilləsindən uca kamillik pilləsinə yüksəlir və üçüncü mərhələyə çatır. Ümid, əfv və bağışlanma qığılcımını ən yaxşı nailiyyət olaraq özü ilə gətirir və yer əhli ilə səma əhli arasında münasibət qurulmasına səbəb olur. Dördüncü mərhələ isə "Haqla birgə xalqdan xalqa doğru gediş"dir ki, mətndə ona işarə olunur.

istiqamətə yönəlir!"[1] şüarı belə bir cəmiyyətin sərbəst və azad ab-havasında haqyönlü yolçuların yoluna işıq saçır.

**İkinci qayda:** Dörd mərhələdən dördüncüsünün əsas elementi olan haqyönlülük bəzən fəlsəfə və ilahiyyat, bəzən də siyasət, cəmiyyət, iqtisadiyyat, mədəniyyət və s. müstəvisində təzahür edir. "Məfatih əl-həyat" kitabında biz birinci yox, ikinci müstəvi haqda danışacağıq. Hərçənd bu mərhələyə yüksələn insan sözügedən bütün sahələrdə fəal olur, hətta əhatəli və mükəmməl olması etibarilə digər dörd mərhələyə şahid olaraq öz mahiyyətini daha yüksək mərhələdə görür. Lakin bu mərhələ haqqında danışmaq uca məqam tələb edir, bu isə hazırkı yazının mahiyyət və məqsədindən daha genişdir. Demək, dördüncü mərhələdə haqyönlülükdə məqsəd nə irfan elminin üzərinə düşən varlıq aləminin zahirini dəyərləndirmək, nə də fəlsəfə və ilahiyyatın öyrəndiyi vaciblik və mümkünlükdür. Əksinə, burada məqsəd əşya və fərdlərin yaradılış məqsədləri ilə bağlı hüquqlara riayət etmək, hər bir varlığı öz yerində qərarlaşdırmaq, ondan düzgün istifadə etmək və varlıq aləminin məcmusunda hər şeyin özünəməxsus yerini nəzərə almaqdır ki, bunu cəmiyyəti idarə etmək və sivilizasiya formalaşdırmaq sahəsi üzərinə alır.

**Üçüncü qayda:** İctimai sistemdə haqyönlülük üç önəmli elementlə – dünyanı tanımaq, dünyanı idarə etmək və dünyanı abadlaşdırmaqla tənzimlənir. Belə ki bunların hər biri digərinin əsasını təşkil edir və bir-birini tamamlayır. Varlıq səhnəsini bəzəyən incəsənətin gözəlliyi cəmiyyətin həyatına sevinc və fərəh bəxş edir, onun estetik cəhətini təmin edir. Həyat mühitini

---

[1] "Əl-Füsul əl-muxtarə", səh. 97; "Elam əl-vəra bi əlam əl-huda", səh. 159.

onun gözəlliyi olmadan əsla yaxşı idarə etmək olmaz. Sözügedən sənətdən istifadə etməklə cəmiyyətin təməli möhkəmlənir. Bu mühüm missiyanı dünyanı idarə etmək amili üzərinə alır. Hər bir sahənin idarə edilməsi o sahənin ontoloji idrakının tərkib hissəsidir. Yəni idarəçiliyin nizamlayıcı maddələri idarəetmənin əsaslarından qaynaqlanır. Bu əsaslar isə dünyanı tanımanın qaynaqlarından çıxarılır ki, bu qaynaqların kökü vəhyə söykənən idrak, onun aydınlaşdırıcı tərəfləri isə əqli sübut və mötəbər nəqldir. Əks təqdirdə azğınlıq, şəhvətpərəstlik haqyönlülüyün yerini qəsb edəcək, nəfsyönlülük ağıl və ədalətyönlülüyün yerini tutacaq.

Misal üçün, siyasət, cəmiyyət, iqtisadiyyat, idarəetmənin hüquqi əsaslarını ədalət, istiqlal, azadlıq, təhlükəsizlik, əmanət, sağlam ətraf mühit, sağlam qonşuluq münasibətləri, dinc yaşayış, qarşılıqlı hörmət və s. prinsiplər təşkil edir. Sözügedən əsaslar arasında ən önəmlisi Ədalətdir. Ədalətin mənası – yəni hər şeyi öz yerində qərarlaşdırmaq – çox aydındır. Ədalətin həqiqəti isə olduqca qapalı və gizlidir. Çünki o adam hər şeyi öz yerinə qoya bilər ki, əşyaların yerini, insanların – irqlərin, qövmlərin, qəbilələrin, qadınların, uşaqların, kişilərin və s. məqamını tam olaraq bilsin. Bu məlumat yalnız onları yaradanda ola bilər, O isə vahid Allahdır. Allahın məlumatlılığından o adam xəbərdar ola bilər ki, nübüvvətin müqəddəsliyindən, risalətin ruhaniliyindən, vəhy şərafətindən bəhrələnmiş olsun. Kamil insan olan məsumun, yəni peyğəmbər və imamların vəhyə əsaslanan bələdçiliyindən o adam xəbərdar ola bilər ki, zəkasını o müqəddəs zatlardan ilhamlanaraq inkişaf etdirsin. (Məsum şəxsiyyətlər) "Onların (insanların) ağıllarının

gizlənmiş tərəflərini üzə çıxarırlar"[1] . İlahi insan ilahi məharət olan idarəçilik sənətini bu iki güclü idrak qanadı ilə (vəhy və ağıl) birgələşdirməlidir ki, onların ahəngdarlığından dünyanı tanımaq, dünyanı idarə etmək və dünyanı abadlaşdırmaq üçlüyünün əsas elementlərini tənzimləsin.

**Dördüncü qayda:** Xalis sivilizasiya dindarlıq aynasında o zaman təzühur edir ki, onun əsas ünsürləri haqyönlülük olsun. Bu üç ünsür qanun, hökumət (icraçılar və hakimlər) və xalqdan ibarətdir.

1. Haqyönlü qanun ifratın bəlası və təfritin tənəzzülü kimi təhlükələrdən uzaqdır və bu, ədalətin nüvəsini təşkil edir. Üçüncü qaydada qeyd olunduğu kimi, ədalət hər şeyi özünə aid yerdə qərarlaşdırmaqdır. Yaradandan başqa heç kim əşyaların və şəxslərin yerindən xəbərdar deyil. Buna görə də ədaləti ilahi vəhydən əxz etmək lazımdır və Allahın qanunverici vəhyini peyğəmbərdən başqa heç kim mənimsəyə bilməz.

Dördüncü mərhələdən bəhrələnənlərin, yəni Haqq yolunu gedənlərin, Haqq sorağında olanların və haqyönlülərin özünəməxsus xüsusiyyəti odur ki, onlar ilahi vəhyi şeytani vəhydən,[2] doğru peyğəmbəri yalançı peyğəmbərdən, möcüzəni sehrbazlıqdan ayırd edə bilirlər. Çünki dördüncü mərhələdə yolçunun azuqəsu Haqq, vasitəsi Haqq, yolu Haqq, bələdçisi Haqq, bütün elmi və əməli məsələlərdə məqsəd və məramı Haqdır. Mütəaliyə fəlsəfəsi bu yolçudan başqasını dördüncü yolun yolçusu hesab etmir. Belə bir qanun və onu gətirən, Quran və sonuncu peyğəmbər həzrət Məhəmməddən (s) başqa birisi

[1] "Nəhc əl-bəlağə", xütbə: 1.
[2] "Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün (çirkin fikirlər və yaramaz əqidələr) təlqin edirlər. Əgər onlara itaət etsəniz, şübhəsiz ki, siz də müşrik olarsınız" ("Ənam", 121).

ola bilməz. Allah tərəfindən Həzrət Məhəmmədə (s) peyğəmbərlik missiyasının mükafatı olaraq verilən töhfə isə budur: insanların onun pak və məsum əhli-beytini sevməsi. "*Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir. (Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-Beytə sevgidən) başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabını (mükafatını) artırarıq!* ".[1]

2. Qanuna inanan hakim heyət (icraçılar və hakimlər) əqidə və əməldə – istər nəfsani əməl, istərsə də fiziki əməl – qanuna iman gətirənlər və daxilən qanuna inananlardır. Onlar Allahın Quran və Əhli-Beyt vasitəsilə göndərdiklərinə iman bəsləyir, onlara əməl edirlər. Bu birinci ünsür, əqidə və imandır. Onlar həm də əməldə iman əhlidirlər. Yəni cəmiyyətlə bağladıqları əhd-beymana sadiqdirlər. İstər milli, yerli, istər orta toplumda, regional səviyyədə, istərsə də qlobal səviyyədə beynəlxalq öhdəçiliklərə sadiqdirlər. Bu isə imanın əməldə olan təzahürüdür. Antidin, antiəxlaq səciyyəli müasir dövrün ən mühüm problemi bu ikinci ünsürün – yəni əməldə əhd-peymana sədaqətin olmamasıdır. Qurani-Kərim təcavüzkar müstəmləkəçilərə, imperialist, hiyləgər, müstəbid qüvvələrə qarşı mübarizə aparmağı vacib edən amili bunda, yəni beynəlxalq, qlobal öhdəçiliklərə sadiqliyin olmamasında görür:

"*Əgər əhd bağladıqdan sonra andlarını pozsalar və dininizi yamanlayıb təhqir etsələr, (sözlərinin üstündə durmayan) küfr başçıları ilə vuruşun. Onların həqiqətdə andları (əhdləri) yoxdur (onlar üçün heç bir andın, əhdin əhəmiyyəti yoxdur)*".[2]

[1] "Şura", 23.
[2] "Tövbə", 12.

“Onların imanı yoxdur” demir, “Onların andı yoxdur” buyurur. Çünki kafirlə yanaşı dinclik, sülh şəraitində yaşamaq olar, imperialistlə isə dinc, yanaşı yaşamaq olmaz. Hər halda, yalnız dindarlıq simasında təcəlla edən parlaq sivilizasiyanın ikinci elementi həm Allahla, həm özləri, həm də xalqla ədalət əsasında davranan hakimlərin olmasıdır. Elə bir ədalət ki, dördüncü mərhələnin yolçularının haqyönlülüyündən əxz olunmuşdur.

**Beşinci qayda:** Dindarlıq güzgüsündə zühur edən sivilizasiya öz legitimliyini şəriətə əsaslanan dindarlıqla ölçür. İlahi şəriət "sübut" və "isbat" oxu üzərində olur. Şəriətin "sübut"u qanunvericilik, "isbat"ı isə qanunşünaslıq adlanır. Qanunverici o kəsdir ki, hər şeyi öz yerində qərarlaşdırır. Belə önəmli bir işin öhdəsindən əşyaların və şəxslərin yerini bilən, onları əsl yerində yerləşdirməyə gücü çatan kəs gələ bilər. Bu isə yalnız heç bir şəriki və yardımçısı olmadan əşya və fərdləri yaradan zat, yəni Allah-Taaladır. Buna görə də qanunvericilik Onun mütləq haqqıdır. Qanunvericiliyin yalnız Allaha xas olması "*Hökm ancaq Allahındır!*"[1] şəklində bəyan olunur.

Qanundan xəbərdar olan birbaşa qanunşünas isə Həzrət Məhəmməd (s) adlı məsum və kamil insandır. O, bilavasitə və ya əmanətdar bir mələk vasitəsi ilə qanunverici Allahdan vəhyi əxz etmişdir. Qanunverici vəhyi almaqda ona heç kim şərik və yardımçı olmamışdır. Hərçənd bütün biliklər və vəhydən gələn hökmlər bu müqəddəs zatın bərəkəti ilə "Taha" və "Yasin" ailəsinə ötürülür. O müqəddəs zatlar da adi bəşər məktəbində təhsil görmədən səmavi biliklərdən xəbərdar olurlar.

Birinci mərhələdən, yəni yalnız Allahın ixtiyarında olan qanunvericilik mərhələsindən və ikinci mərhələdən, yəni yalnız

---

[1] "Yusif", 40.

kamil, məsum insana xas olan vəhyi qəbul etmə mərhələsindən sonra növbə üçüncü mərhələyə çatır. Bu mərhələ qanun-şünaslığın ikinci pilləsidir və bundan ibarətdir ki, bəşər cəmiyyəti əqli sübut və mötəbər nəqli dəlillər vasitəsi ilə Allahın peyğəmbərə öyrətdiyi qanunun nə olduğunu aydınlaşdırır. Deməк, mötəbər nəqli dəlil kimi, əqli sübutun təsiri də odur ki, hər hansı bir mütəfəkkir idrak qaynaqlarını araşdırmaq yolu ilə təməl prinsipləri aydınlaşdıra bilsin. Nəqli dəlilin nailiyyəti də eynilə budur. Məlum dini dəlillər vasitəsi ilə əldə olunan nəticələrlə, həqiqətən də, Allahın istəyini, ilahi qanunları aydınlaşdırmaq mümkün olur. Bu, sözügedən iki yoldan biridir. Ağıl və nəql – hər ikisi şəriətin dəlilidir. Şərtlər mövcud olduqda hər ikisinin nəticəsi mötəbər, hətta diqqətə alınması vacib olan dəlil olur.

**Altıncı qayda:** Hər hansı bir qanunun legitimliyi bəzən şəriət sahibinin (Allahın) fərmanı, bəzən də təsdiqi və imzası ilə gerçəkləşir. Birinci növə aid olan qanunların mənbəyi yalnız mötəbər nəqli dəlillər,yəni Vəhydir. Burada həmin qanunun əleyhinə əqli subutun olmaması da şərtdir. İmza və təsdiqlə gerçəkləşən qanunlar isə əslində qanunvericinin təşəbbüsü il yaranır. Əqli sübut onu tanımaq, aydınlaşdırmaq missiyasını üzərinə götürür. Bəzən onun təsdiqləndiyini göstərən xüsusi nəqli dəlil mövcud olur. Bəzən isə bu, ilahi qanunları (insanlara) çatdıranların susması ilə sübuta yetirilir. Yəni onlar bu və ya digər mətləbi cəmiyyətdəki ağıllı insanlar arasında tam olaraq müşahidə edir, ona qadağa qoymaq iqtidarında olduqları halda, bir söz demirlər. Dini qanunların bu qismi legitimliyini zəkadan almır. Dini qanun əsla bəşəri ola bilməz. Çünki insan zəkası yalnız bir çıraqdır. Çıraq heç vaxt yolun işini görə bilməz. Əksinə, yolu öncə Yaradan göstərir, sonra isə o, ağıl və nəql,

bəzən isə hər ikisi vasitəsi ilə bəşər cəmiyyəti üçün aydınlaşdırılır. Cəmiyyət vaxtı ötmüş qəbilə-tayfa adət-ənənələri ilə idarə olunduğu hallarda, bu ənənələr xüsusi və ya ümumi dəlillərlə rədd edilir. İlkin legitimliyin mühüm bir hissəsini ibadətlə bağlı göstərişlərdə görmək olar ki, əqli sübutlar onları təşkil və təyin etməkdə rol oynamır. Buna misal olaraq, xüsusi qaydada qılınan müəyyən namazları, həcc əməllərini, orucu və ya digər ibadət formalarını göstərmək olar ki, bunlar insan zəkası tərəfindən müəyyənləşdirilmir. Yuxarıda qeyd etdiyimiz ikinci növə aid olan qanunlara ticari müqavilələri misal kimi göstərmək olar. Həmin qanunlar ilk olaraq cəmiyyətdə müəyyən düşüncəli insanlar tərəfindən yaradılır. Sonra həmin qanunlar Din (Peyğəmbər və məsum imamlar) tərəfindən təsdiqlənir.

Müzaribə, müsaqat, müzariə, müğarisə və s. kimi müqavilə növlərini araşdırarkən tam aydın olur ki, bu müqavilə tiplərinin gerçək legitimliyi və onlara əməl olunma qaydası xüsusi göstərişlər verilmədən, təsdiq və imza (sükutla qarşılama) vasitəsi ilə müəyyənləşmiş və onlar islami müqavilə növlərinə çevrilmişlər.

**Yeddinci qayda: Sırf əqlin hökmü ilə** Zəka sahiblərinin rəyi arasında əsaslı fərq var. Tam (sırf) əqli dəlilin əsla nəqli dəlilə ehtiyacı yoxdur. Belə bir (nəqli) dəlil əldə olunduqda yalnız əqli sübutun təsdiqi kimi qiymətləndirilir. Lakin ağıl sahiblərinin rəyi mütləq imzalayıcı mötəbər nəqli dəlilə ehtiyaclıdır. Belə bir nəqli dəlil təsdiqedicisi yox, – imzalayıcısı kimi qəbul olunur. Burada Təsdiq-lə İmza-nın fərqi aydınılaşır. Bu əsaslı fərqin sirri ondadır ki, sırf əqli sübut əməl yox, elm növünə aiddir, o zatən mötəbərdir,onun mötəbərliliyi hətta vəhyə və nəqli dəlilə də söykənmir. Yəni İmza-ya ehtiyacı yoxdur. Ağıl sahiblərinin

rəyi və həyat tərzi isə əməl növündəndir. Məsum olmayanlarım əməli əsla etibarlı olmadığı üçün burada imzalayıcı və tamamlayıcıya ehtiyac var. Bu tamamlayıcı isə kamil insan olan məsumun Allahın hökmünü aydınlaşdıran sözü, əməli və ya sükutudur.

**Səkkizinci qayda:** Öz cahanşümulluğunu ümumilik və daimiliklə, yəni hamıya və həmişə aid olmaqla elan edən İslam dini bəşərin bir-biri ilə düzgün davranış qaydalarını, eləcə də zaman və məkana münasibət, metafizik aləmlə ünsiyyət qurma yollarını bəyan etmişdir. Onun bəyan olunma forması belədir: ümumi qaydaları və əsas prinsipləri Allahın hökmünü aydınlaşdıran,mötəbər dəlillər olaraq ağıl və nəql vasitəsilə açıqlamış,təfərrüatla bağlı təhlil, əsaslandırma, izah qabiliyyətini insana bəxş etmişdir. Onun fitri və əqli resurslarını inkişaf etdirmək üçün bəşərin əli çatmayan yeniliklərlə birgə öz peyğəmbərlərini göndərmiş və bu zaman insan həyatını yerli, regional və beynəlxalq olaraq üç hissəyə ayırmışdır. Sonra ondan bir tərəfdən əqli fitrət və zəka ilə, digər tərəfdən isə nəql vasitəsilə öz dövrünü və yaşadığı mühiti abadlaşdırmağı tələb etmişdir: "*Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. O, sizi (atanız Adəmi) yerdən (torpaqdan) yaradıb oranı abadlaşdırmanızı tələb etdi. (Allahdan) bağışlanmağınızı diləyin, sonra da Ona tövbə edin. Həqiqətən, Rəbbim (Öz elmi, qüdrəti, mərhəməti ilə yaratdıqlarına) yaxındır, (duaları) qəbul edəndir!*"[1] Ayədə işlənən "istemar" sözü Quran maarifində ən qabarıq ifadələrdəndir. Burada o nəzərdə tutulur ki, Allah insan üçün bütün lazımi nemətləri təşkil etmiş, onlardan düzgün istifadə imkanlarını yaratmış, ona texnologiya

---

1 "Hud", 61.

yaradacaq bir zəka, kəşf dühası bəxş etmiş, yolunun üstündən bütün maneələri götürmüş, hər şeydən daha üstünü isə ilahi fərman olaraq, bəşər cəmiyyətindən yaşadığı mühiti abadlaşdırmağı, hərtərəfli iqtisadi və mədəni müstəqilliyi sayəsində siyasi hökmranlığını, dini və ictimai istiqlalını təmin etməyi istəmişdir ki, nə kiməsə kölə olsun, nə də kimisə kölə etməyə çalışsın; nə yanlış yolda addımlasın, nə də kimsənin yolunu bağlasın. Çünki bu süfrədə başqalarının da payı var. Quranın işlətdiyi könül oxşayan "istemar" ifadəsi təcavüzkar və azğınlar tərəfindən ən xoşagəlməz söz şəklinə salındı və insanları öz hökmranlığı altına salmaq, bu yolla onların bütün milli imkanlarını, resurslarını öz xeyrinə işlətmək, xalqa isə yalnız həyatda qalıb işləmək üçün minimum imkan yaratmaq kimi izah edildi. Bu tip bəşəri zülmlər peyğəmbərlərin vəhyə əsaslanan strategiyasının ən pis təhrif formasıdır. Çünki bu, azad cəmiyyəti köləyə çevirmək, insanları təhqir etmək və ilahi xilafətə zülmdür.

**Doqquzuncu qayda:** İslamın həmişəyaşarlığının sirri, ilk növbədə, bu dinin zəngin qaynaqlara malik olmasında, ikincisi, insanları həmin qaynaqlardan təməl prinsiplərin çıxarılmasına rəğbətləndirməsində, üçüncüsü, yenə də həmin mənbələrdən konkret fiqhi, hüquqi, iqtisadi, əxlaqi, mədəni, iqtisadi, ictimai hökm və maddələrin əxz edilməsinə təşviq etməsində yatır. Əqli və nəqli dəlillərdən çıxarışlar edilməsi prosesini təkmilləşdirmək və onlarla daha çox ünsiyyətdə olmaq məqsədi ilə bəşər cəmiyyətinə iki ictihad metodu öyrədilmişdir ki, hər biri digərinin tamamlayıcısı, təkmilləşdiricisidir. Hərçənd onlardan biri başlıca əhəmiyyət daşıyır. Başlıca ictihad metodu hesab olunan birinci ictihad metodu bu gün də teoloji mərkəzlərdə, fiqh və üsul biliciləri arasında geniş yayılmışdır. Belə ki burada

müctəhid uzun illər çalışaraq ictihad bacarığına yiyələnir, Allahın hökmünü ağıl və nəql çırağının işığında anlayır, ona əməl edir və başqalarının yoluna da işıq salır. Bəşər zəkasının qəbul etdiyi və mədəni xalqlar arasında məlum olan, hər bir xalqın mədəniyyətinin qoruyucuları tərəfindən istifadə olunan bu təməl prinsiplər Əhli-Beytin  nurlu kəlamlarında da öz təsdiqini tapmışdır. Həzrət İmam Sadiq (ə) və İmam Rza (ə) buyururlar: "Bizim vəzifəmiz sizə əsas qanunları öyrətmək, sizin vəzifəniz isə onlara əsaslanaraq təfərrüatı əldə etməkdir".[1]

İkinci ictihad metodu isə daha çox icra xarakteri daşıyır və müxtəlif təmayüllü xalqlar, millətlər arasında geniş yayılmışdır. İslam onun gözəl, yaxşı, ədalətli tərəfini təsdiqləmiş, bəşəriyyəti ona təşviq etmiş və bildirmişdir: "Hansı Allah bəndəsi hidayətçilik ənənəsinin əsasını qoysa, ona əməl edənin savabını qazanar, hərçənd başqalarının savabı azalmaz. Kim azdırıcı ənənənin əsasını qoysa, ona əməl edənin cəzasına şərikdir, hərçənd başqalarının cəzası azalmasa da".[2] Bu ictihad heç bir vəchlə qanunvericilik xarakteri daşımır. Çünki öz legitimliyini əqli və nəqli əsaslardan alır, bir şeyin arzuolunan, xoşagələn olduğunu ümumi müddəalardan aydınlaşdırır. Onun icra keyfiyyətində çox səy olunmuşdur ki, cəmiyyətdə məqbul praktiki şəkil alsın. Buna misal olaraq, İmam Xomeyninin Allahın dinini gücləndirmək, ədaləti dəstəkləyərək zülmə təzyiq göstərmək, (müsəlmanların ilk qibləsi olan) Qüdsü irqçilərin təcavüzündən xilas etmək məqsədi ilə ramazan ayının son cümə gününü Qüds günü elan etməsini, "Vəhdət həftəsi"ni  və s. göstərmək olar. Yaxud dövlətlər tərəfindən təbiət günü və s.

---

[1] "Kitab əs-sərair", c. 3, səh. 575; "Vəsail əş-şiə", c. 27, səh. 61-62.
[2] "Səvab əl-əmal", səh. 132.

kimi özəl günlərin elan olunması ikinci növ ictihada misaldır. Bu kimi qərarlar hər bir sahənin mütəxəssisləri tərəfindən hərtərəfli araşdırmalar aparıldıqdan və qanunauyğunluq müəyyən edildikdən sonra verilir. Əlqərəz, bir tərəfdən zəngin qaynaqlara, digər tərəfdən isə müxtəlif ictihad qaydalarına malik olan din zaman və məkanı fəth etməyə, dinamik və əbədi olmağa qadirdir.

**Onuncu qayda:** Əsl sivilizasiyanın yalnız din və mənəviyyat sayəsində gerçəkləşəcəyini əsas götürən birinci qaydaya görə, dörd səfərin dördüncüsü haqqında danışdıq. Ötən qaydalarda qeyd etdiklərimizin hamısı məhz belə bir səfərin yolçusunun səfər qaydaları idi. O, öncəki üç mərhələni ötüb geridə qoymaqla dördüncü mərhələyə, yəni "Haqla birgə xalqdan xalqa doğru gediş" mərhələsinə çatır. Dördüncü mərhələnin yolçuları bir-birinin yardımçılarıdır və hamısı qeybdən gələn köməklərdən faydalanır.

Bu yolun aparıcı vasitələri eyni deyil. Çünki bu tip səfərlərin əsas özülünü idrak təlimi təşkil edir, idrak təliminin prinsipləri, əsasları isə fərqlidir. Belə ki onlardan bəzisi mələkuti və mənəvi səfərlərə ümumiyyətlə biganədir. Ona aludə olan şəxs heç zaman maddənin çirkinliyindən, təbiətin aludəliyindən hicrət etməyi ayırd edə bilmir, maddi aləmdən mələkut aləminə, xalqdan Haqqa doğru getmək fikrinə düşmür. Çünki o, hiss və təcrübəni yeganə idrak vasitəsi hesab edir, halbu ki, tam əqli mücərrəd varlıqlar nəinki hiss və təcrübi, hətta yarımtəcrübi idrak bacarığından xaricdirlər.

Təcrübi idealizm tərəfdarları yalnız öz ətraflarına fırlanır və öz həvəsləri mühitində qapalı dairəni sınaqdan keçirirlər. Dörd səfərin yol azuqəsi əqli sübut, mötəbər nəqli dəlil və intuitiv ürfandır. İstər onun bütün mərhələləri vasitəli bilik və

subyektiv məfhumla təmin olunsun, istər vasitəsiz bilik və obyektiv müşahidə ilə hasil olsun, istərsə də bu mərhələləri əql və nəql, vasitəli və vasitəsiz bilik birlikdə üzərinə alsın. Əlbəttə, nəqli dəlilin əsası kamil və məsum insandan nəql olunanı etibarlı sayan əqli dəlildir. Nəzəri əqli hökmlərin dayağı məntiqi aksiomlardır ki, onların aydın olması sayəsində nəzəri hökmlər də aydın olur. Necə ki bəzi mürəkkəb nəzəri hökmlərin dayağı irfani intuisiya ola bilir. Hər halda, əqli və nəqli dəlillərə söykənərək sözügedən dörd mərhələni vasitəli biliklə aşmaq olar. Belə ki, transsedental teosofiyanın mürəkkəb məsələləri məlum dörd səfər əsasında tərtib olunmuşdur və sübutlar üzərində dayanan addımlarla keçilir. Əlbəttə ki, bu sahənin bəzi mütəxəssisləri var ki, onlar sözügedən dörd mərhələni obyektiv müşahidələr vasitəsi ilə keçməyə müvəffəq olmuşlar.

Qeyd olunan qaydaların müştərək tərəfi budur ki, ətrafındakı mühiti abadlaşdırmaq imanlı cəmiyyətin vəzifəsidir. O həmçinin ilahi öndərlərdən sözügedən iki ictihad yolunu öyrənməli, ətrafını hər cəhətdən abad saxlamalı,. əbədi həyatın açarlarını, daha yaxşı yaşamağın yollarını aramalıdır.

**On birinci qayda:** Nəql kimi, ağıl da şəriəti aydınlaşdıran amil, düzgün yolu ayırd etməkdə, onu başqalarına göstərməkdə önəmli rol oynayan nurlu çıraqdır. Onun parlaqlığı insanın daxilində yerləşdirilmiş ilahi sərmayədən qaynaqlanır. Bu fitri sərmayə iki qisimdir. Bir qismi nəzəri hikmətlə əməli hikmət arasında müştərəkdir. Nəzəri hikmət varlıq və yoxluqdan, əməli hikmət isə fiqhi, əxlaqi, ictimai və fərdi hüquq normalarından bəhs edir.

**On ikinci qayda:** Yaradılış aləmi bir sıra özüllər üzərində dayanmışdır. Aşağıda onlardan bəzisini diqqətinizə çatdırırıq:

1) Allah-Taala varlıqla bağlı ümumi qaydaları aydınlaşdırmışdır;

2) Yaradılış və ilkin törəmə yalnız Allaha məxsusdur və hər bir mümkün varlıq varlığını və kamilliyini Allahdan alır;

3) Allah bitkilər, ağaclar, canlılar (insan və heyvan), həmçinin bulud və yağış kimi bir çox varlıqların yaranma formasını bəyan etmişdir;

4) Allah bəzi varlıqları özünəməxsus ilahi iradə ilə yaratmışdır ki, onlar haqqında düşünmək nəticəsizdir.

Buna görə də yaradılış iki şəkildə gerçəkləşir. Onun bir qismi əməli yolla, digər qismi isə qeybi iradə ilə həyata keçir. Əlbəttə, Allahın bütün işləri O müqəddəs zatın iradəsi ilə gerçəkləşir, lakin onların bir qismini elmi yolla izah etmək mümkündür, digər qismini izah etmək üçün isə elmi yol yoxdur. Bu iki qismi tam şəkildə izah etməzdən öncə məsələni aydınlaşdırmaq üçün bir misala nəzər salaq: Bilik iki növdür – vasitəli və vasitəsiz. Vasitəli bilik yolu subyektiv idrak üçün yararlıdır. Vasitəsiz bilik isə yalnız obyektivdir. Buna görə də hər kəs özü obyektiv varlıqla ünsiyyət yaratmalıdır. Obyektiv idarəçilik və real əşyalara təsir göstərmək də iki cür olur: 1) Müqəddimələri, şərtləri, vasitələri, maneələri və s. bilmək yolu ilə; 2) Sarsılmaz iradə ilə. Birinci yolu öyrənmək və öyrətmək mümkündür. İkinci yol isə adi təlimdən daha yüksəkdə durur. İkinci yol bəzən xüsusi bir zümrəyə xas olur ki, adi, sıradan olan heç bir fərd ona nail ola bilmir. Buna misal olaraq, möcüzəni göstərmək olar. Belə ki heç bir adi insanın analoji bir iş görməsi mümkün deyil. İnsan Allahın varlıq aləmində bilik və tədbirlə yaratdığı bəzi şeyləri araşdıraraq öyrənə, dini təlimatların bələdçiliyi ilə onların bənzərini edə bilər və bu, tövhidlə heç bir ziddiyyət təşkil etmir. Çünki bütün lazımi maddələri Allah yaratmış, onları

öyrənmək üçün tələb olunan zəkanı Allah vermişdir. İnsana dünyada elmi məsələləri öyrənmək, onun qaydalarını işlətmək istedadını Allah bəxş etmişdir. Zaman, məkan, hava və s. kimi şəraiti Allah yaratmışdır. Belə olan halda əgər insanın, bitkinin və s. kök hüceyrələrinin klonlaşdırılmasından söhbət gedərsə, bu əsla Allahın qüdrətini əskiltməz, eynilə bəşərin acizliyini də azaltmaz. Çünki bütün bunlar ilahi sistem üzərində qurulmuşdur.

Varlıq bəxş etmək yalnız Allah tərəfindən gerçəkləşir. Ondan başqasının varlıq bəxş etməyə əsla gücü çatmaz. Möcüzə isə məsum və kamil insanın ruhunun müqəddəsliyi ilə bağlıdır. Bu, ilahi iradənin təcəssümüdür və əsla təlimlə, öyrənməklə əldə edilən bir şey deyil. Əks təqdirdə möcüzə sıradan bir elm hesab olunar, onu həyata keçirənlər elm dühalarından sayılar, hazırda və ya gələcəkdə onların gördüyü işin bənzərini görmək mümkün olardı. Bu kimi işlər nəinki xariqüladə hesab olunmaz, əksinə, ecazkarlıqdan kənar, adi məsələlər sırasında durardı.

Buradan aydın olur ki, tarix boyu heç bir peyğəmbərin möcüzəsinin bəşərin hansısa adi nümayəndəsi tərəfindən həyata keçirilməsi mümkün olmayıb. Bunu yalnız eyni ruhi müqəddəsliyə malik başqa bir peyğəmbər edə bilib.

**On üçüncü qayda: Dördmərhələli ilahi səfərin dördüncü mərhələsində qərarlaşan** sivilizasiyalı və dindar yolçunun baxışındakı dünya, həyat eşqi ilə zəngindir. Onda heç bir cansız, ölü varlıq yoxdur. O (dördüncü mərhələnin yolçusu) yetmiş millətin dilini anlayır. Nəinki müxtəlif quşların yaşam tərzini bilir, daim: "*Bizə quş dili öyrədildi*"[1], – deyə zümzümə edir, hətta nəbatat və cəmadat aləmindən də xəbərdardır. Onların təsbih

---

[1] "Nəml", 16.

və zikr səsini duyur. Onların Yaradan qarşısında təzim etməsini və səcdəsini müşahidə edir, buna görə də onlara xüsusi hörmətlə yanaşır. Heç bir varlığı yararsız hesab etmir, heç bir şeyi qınamır. Hamıya xüsusi hörmət göstərir. Heç zaman əşya və şəxslərin gözəlliyini, yaxud çirkinliyini insanın gözəlliyi və çirkinliyi meyarı ilə ölçmür. Özünü, yaxud bəşərin digər fərdlərini bütün mövcudatın kamillik və ya naqislik etalonu sanmır. Həzrət Peyğəmbər (s) haqqında nəql olunan rəvayətlərə görə, o, ev əşyalarının hər birinə xüsusi ad verirmiş ki, bu da dördüncü səfərə xas baxışdan irəli gəlir. Buna görə də "Məfatih əl-həyat" kitabının əsas qayəsi təkcə din və mənəviyyatı özündə əks etdirən, sivil həyata yol açmaq yox, həm də zahirən cansız, susqun, yaxud şüursuz olsa belə, varlıqdan pay almış hər bir şeyin yaşam keyfiyyətinin möhürlənmiş sirrinin üstünü açmaqdır. Çünki varlıq həqiqəti bəsit və mərhələli bir həqiqətdir. Belə bir həqiqət bütün kamilliklərə malikdir və bu kamilliklər onun zatı ilə eyniyyət təşkil edir. O, harada olsa, bütün kamilliklər də oradadır. Həyat və bilik varlıq həqiqətində yer aldıqları üçün onunla eyniyyət təşkil edirlər. Buna görə də hər bir varlıqda həyat və bilik payı var.

Qarşınızdakı kitab varlıq aləminin bütün cəhətlərinə nəzər salmaq niyyətindədir. Onda ölümdən əsla əsər-əlamət yoxdur. Xoşagəlməz hadisəyə ölüm deyilirsə bu qısa müddətlik ayrılığa görədir. Əslində isə hər bir varlıq məqsədə aparan yolda irəliləyir. Hər bir şey hərəkət və dəyişmə halında olduğu üçün ölüm adlı bir şey yoxdur. Həyatda ölüm varsa da, bu, nisbi meyardır. Əgər o biri dünya "*Axirət yurdu isə, şübhəsiz ki, əbədi həyatdır*"[1] ilə ölçülürsə, bu, dünya həyatına tam biganəlik

[1] "Ənkəbut", səh. 64.

anlamında deyil,axirətin dünya həyatından üstün olmasına görədir. Yoxsa dünya həyatında da da hər xəzanın baharı var. Hər ölümün yaşamı var.

Bu kitabın bələdçiliyi ilə "dirilmək və diri qalmaq uğrunda çalışmaq"dan çıxıb, "bütün varlıqların yaşamını müşahidə etmə-y"ə çatmaq olar:

***Fərqi miyani-abid-o arif nəhadeənd***
***İn xoş be eşqi-kar bud-o an be kari-eşq***[1]

Əşyaların diri olduğunu və onların həyatının o biri dünyada davam edəcəyini yerin və bu dünyada insana lazım olan bir sıra nəsnələrin məadda şahidlik edəcəyindən anlamaq olar. Belə ki əgər sözügedən nəsnələrin bu gün heç bir şeydən məlumatı yoxdursa, sabah – ilahi ədalət məhkəməsində onlar necə şahidlik edəcəklər?

**On dördüncü qayda:** İdeoloji, mədəni, siyasi və ictimai müstəqillik kimi, iqtisadi müstəqillik də sivilizasiyanın öz mahiyyətini ilahi dindən alan əsas elementlərindəndir. Belə bir yüksək məqsədə nail olmaq üçün bir tərəfdən hər bir xalqın və ölkənin əsas resursları tanınmalı, digər tərəfdən onlar başqa növ sərmayəyə çevrilməli, üçüncü tərəfdən ölkənin sərmayəsi gündəlik tələbatına sərf olunmamalı, dördüncüsü isə istehsalat inkişaf etdirilməli və digər xalqlara ehtiyacsızlıq təmin olunmalıdır. Əlbəttə, birtərəfli asılılıq çox acı nəticələr doğursa da, qarşılıqlı əlaqə, iqtisadi əməkdaşlıq problemlərin həllinə yardımçı olacaq.

[1] Tərcümə: "Abidlə arif arasında fərq qoyublar. Bu (abid) işin eşqi ilə xoş olur, o (arif) isə eşq işi ilə" ("Divani-Əbdürrəhman Cami", səh. 250).

Quran insanları ayələr haqqında düşünməyə çağırır. Burada yalnız sxolastik və fəlsəfi bəhslər, yaradılış sisteminin araşdırılması və Yaradanın varlığının anlaşılması yox, bütün elmi və əməli aspektlər nəzərdə tutulur. Qurandan bu kimi mətləblərin çıxarış edilməsinə təşviq edən amil yerin və göylərin insanların ixtiyarına verildiyindən söhbət açan ayələrdir.

Göylərin və yerin insanların ixtiyarına verilməsinin fəlsəfəsini bu ayədə görmək mümkündür: "*Yeri (Yer kürəsini) sizə ram edən Odur. Onun qoynunda gəzin, (Allahın) ruzisindən yeyin. Axır dönüş də Onadır!*"[1]

Yerin varlığı, digər planetlərlə birgə riyazi və astronomik düzümü, Günəşin ətrafına fırlanması – bütün bunlar hikmətli bir Yaradanın varlığına sübutdur. İstər Yer kürəsi insan üçün ram edilsin, istər edilməsin. Amma onun insana ram edilməsi, onun ixtiyarına verilməsi də ayrıca bir məsələdir. Demeli iqtisadi fəaliyyətlərdə də məad və ilahi hökmlər  xatırlamalıdır. Çünki hikmətli Allah Yer kürəsini heç zaman çövkən meydanı etməmiş və etmir. Əksinə, onda məqsəd iqtisadi və s. yüksəlişdir.

**On beşinci qayda:** Dördüncü mərhələnin yolçusu üç ünsürə – dünyanı tanımaq, dünyanı idarə etmək və dünyanı abadlaşdırmağa qadirdir. Belə bir yolçu böyük ustalıqla yaradılış sistemini izah edir, onun bütün ehtiyaclarına cavab verir. Cəmiyyətin bütün fərdi və ictimai ehtiyaclarını düzgün idarəçiliklə, ondan düzgün istifadə etməklə aradan qaldırır. Heç bir işdə haqq sahibini unutmur. Belə ki həm dəvənin ayağını bağlayarkən təvəkkül edir, həm də açarkən – yəni bütün işləri ürəyində Allahı xatırlayaraq, Onun adını dilə gətirərək görür.

Bu ahəngdarlığın nümunəsini bəzi fəqihlərin əsərlərində görmək olar. Qazi Əbd əl-Əziz ibn Bərrac Trablosinin (vəfat: hicri-

[1] "Mulk", 15.

qəməri 481) yazdığı "Kitab ət-tibb vəl-istişfa bi əl-birr və fel əl-xeyr" kitabında Peyğəmbərdən belə nəql olunur: "Müalicə edin, çünki Allah ölümdən başqa elə bir dərd göndərməmişdir ki, onun davasını da göndərməsin. Yalnız ölümə çarə yoxdur".[1] Daha sonra bəzi meyvə və bitkilərdən bəzi nəql olunmuş dualarla birgə istifadə olunması haqda xatırlanır.[2] Müalicə və dua arasında əlaqə olduğu kimi, günaha bulaşmaqla yeni, görünməmiş bir xəstəliyə yoluxmaq arasında da əlaqə var. İmam Rzadan nəql olunan bir hədisdə deyilir: "İnsanlar əvvəllər etmədikləri yeni bir günaha bulaşdıqda Allah onları yeni və o vaxtadək məlum olmayan bir bəlaya salır".[3]

Yaradılış aləmində gedən proseslərlə insanların əxlaqının və əməllərinin qarşılıqlı təsiri, eləcə də cəmiyyətin inanclarının, xüsusiyyətlərinin və əməllərinin bəzi təbii fəlakətlərin meydana gəlməsinə təsiri haqqında daha öncə söhbət etdiyimiz üçün burada sözügedən hədisin izahına ehtiyac duymuruq.

"Məairc" Vəhy Bilikləri Tədqiqat Mərkəzinin Fiqh Şurasına təşəkkür edir, möhtərəm tədqiqatçıların zəhmətini yüksək dəyərləndirir və Allahdan diləyirəm ki, sözügedən dörd mərhələni, xüsusilə də dördüncü mərhələni qət etməkdə, həyatını din və mənəviyyatla yaşamaqda İslam ümmətinə yardım etsin.

***Cavadi Amuli***
*Fevral, 2012*

---

[1] "Dəaim əl-İslam", c. 2, səh. 143; "Bihar əl-ənvar", c. 56, səh. 73; "Müstədrək əl-vəsail", c. 16, səh. 464.
[2] "Şərh əl-mühəzzəb", c. 2, səh. 816-827.
[3] "Əl-Kafi", c. 2, səh. 275.

## İKİNCİ HİSSƏ

# BAŞQA İNSANLARA MÜNASİBƏT

*Birinci fəsil:* ***Qohumlar***
*İkinci fəsil:* ***Dindaşlar (müsəlmanlar)***
*Üçüncü fəsil:* ***Əcnəbilər***
*Dördüncü fəsil:* ***Çarəsizlər (müstəzəflər)***
*Beşinci fəsil:* ***Təcavüzkarlar və düşmənlər***
*Altıncı fəsil:* ***Həmvətənlər***

BİRİNCİ FƏSİL

# QOHUMLAR

## QOHUMLARLA MÜNASİBƏT

Qohumlarla xoş münasibətdə olmaq, onlara, xüsusilə valideynlərə yaxşılıq etmək (bütün sahələrdə)[1] inkişaf və yüksəlişin, Allaha yaxınlaşmağın mühüm yollarındandır.[2] Bu, Allaha imandan sonra ən fəzilətli dini əməllərdən biridir[3] və saysız-hesabsız maddi-mənəvi mükafatı, savabı vardır.[4] Qohumlarla xoş münasibət o qədər önəmlidir ki, şiə alimlərinin üç əsas dəlilə – Quran, sünnə və ağla əsaslanan yekdil rəyinə görə, dinin ən mühüm vacibatından hesab olunur[5]. Onu həyata keçirmək üçün, lazım gələrsə, bir illik yol getmək də tövsiyə olunmuşdur.[6]

Qohumlarla əlaqəni kəsmək, bir növ, Allahla da əhd-peymanı kəsmək hesab olunur.[7] Bu işi görən şəxs Allah dərgahında o qədər mənfurdur ki, qohumları ilə əlaqəni kəsən insanla yoldaşlıq etmək, oturub-durmaq yasaq edilmişdir.[8] Belələrini Allah-Taala Quranın üç ayəsində lənətləmişdir.[9] Qohumlarla əlaqəni kəsmək fiqhdə də böyük günahlardan hesab olunur.[10] Din təlimlərində bu, tez bir zamanda bəşəriyyətin məhvinə yol

---

1 "Əl-Kafi", c. 2, səh. 157; "Mişkat əl-ənvar", səh. 165.
2 "Kitab əl-xisal", səh. 156.
3 "Bəqərə", 83; "Nisa", 36; "Ənam", 151.
4 "Əl-Kafi", c. 2, səh. 157; "Mişkat əl-ənvar", səh. 165; "Məkarim əl-əxlaq", səh. 431.
5 "Məfatih əş-şərai", c. 2, səh. 7-8.
6 "Əl-Fəqih", c. 4, səh. 361.
7 "Bəqərə", 27; "Rəd", 25.
8 "Əl-Kafi", c. 2, səh. 641.
9 "Bəqərə", 27; "Rəd", 25; "Məhəmməd", 22-23.
10 "Təhrir əl-vəsilə", c. 1, səh. 274.

açacaq amillərdən biri kimi də qiymətləndirilmişdir.[1] Rəvayətlərdən birində deyildiyinə görə, min illik məsafədən duyulan Behişt qoxusu qohumları ilə əlaqəsini kəsən şəxsə çatmayacaq.[2]

Bu fəsildə əvvəlcə qısa da olsa qohumlarla xoş münasibətin və onlarla əlaqəni kəsməyin önəmi, nəticələri, amilləri, nümunələri, hüdudları və mərhələləri kimi mövzulara toxunacaq, sonra isə qohumlarla münasibətə nümunələri diqqətinizə çatdıracağıq.

## QOHUMLARLA XOŞ MÜNASİBƏTİN ÖNƏMİ

Allah-Taala buyurur: "*Yadınıza gətirin ki, Biz bir zaman İsrail oğullarından: "Allahdan qeyrisinə ibadət etməyin, valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara ehsan (yaxşılıq, kömək) edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!" – deyə əhd-peyman aldıq*".[3]

İslam peyğəmbəri (s) dünya və axirətin ən üstün insanlarının kim olduğu barədə buyurub: "Bu, o adamlardır ki, onlarla əlaqəni kəsənlərlə əlaqə yaradırlar".[4]

Qohumlarla xoş münasibət Allah dərgahında o qədər önəmlidir ki, bu, savabı ən qısa zamanda əldə edilən bir ibadət hesab olunmuşdur. Axirət savabından əlavə, bunun üçün təcili dünya mükafatı da nəzərdə tutulmuşdur. Belə ki hətta günahkar nəsil belə öz aralarında qohumluq əlaqələrini bərkitdikdə, xoş münasibətlər qurduqda ruzi-bərəkətləri artır, bir-birinə yaxşılıq etməklə ömürləri uzanır.[5]

---

1 "İləl əş-şərai", səh. 584.
2 "Əl-Kafi", c. 6, səh. 50.
3 "Bəqərə", 83.
4 "Əz-Zöhd", səh. 39.
5 "Kitab əl-xisal", səh. 124.

İmam Rzadan (ə) nəql olunan bir rəvayətdə qohumlarla xoş münasibətin əhəmiyyəti haqqında deyilir: "Allah üç şeyi üç şeyə yaxın etmişdir: namaz və zəkatı əmr etmişdir – deməк, kim zəkat verməsə, namazı məqbul deyil, Allaha və valideynlərə təşəkkür etməyi əmr etmişdir – demək, kim valideyninə təşəkkür etməsə, Allaha şükür etməsi məqbul deyil, ilahi təqva və qohumlarla xoş münasibətə fərman vermişdir – demək, qohumlarla xoş münasibətdə olmayan ilahi təqvaya riayət etməmişdir".[1]

İslam peyğəmbəri (s) buyurur: "Burada olan və olmayan, Qiyamətədək dünyaya gələcək ümmətimə tövsiyə edirəm ki, arada bir illik yol qədər məsafə olsa belə, qohumları ilə xoş münasibətdə olsunlar, get-gəl etsinlər. Bu, İslam dininin tərkib hissəsidir".[2]

## QOHUMLARLA XOŞ MÜNASİBƏTİN FAYDALARI

Qohumlarla xoş münasibətin çoxlu sayda önəmli dünya və axirət faydaları var ki, onlardan bəzilərini diqqətinizə çatdırırıq:

Həzrət Məhəmməddən (s) gələn hədislərdə deyilir:

"Kim əcəlin təxirə düşməsini və ruzisinin çoxalmasını istəyirsə, Allahdan qorxsun (təqvalı olsun) və qohumları ilə xoş münasibətdə olsun".[3]

"Ömrünün sonuna üç ildən az vaxt qalan birisi qohumları ilə get-gəl etdikdə Allah onun ömrünü otuz üç ilə qədər uzadır".[4]

---

[1] "Kitab əl-xisal", səh. 156.
[2] "Əl-Kafi", c. 2, səh. 151.
[3] "Əz-Zöhd", səh. 39.
[4] "Təfsir əl-Əyyaşi", c. 2, səh. 220.

"Kim mənə bir əməli zəmanət versə, mən ona dörd şeyi zəmanət verərəm: kim qohumları ilə xoş münasibətdə olsa, Allah onu sevər, ruzisi artar, ömrü uzanar və vəd olunan Behiştə gedər".[1]

İmam Baqir (ə) buyurur: "Qohumlarla əlaqə saxlamaq əməllərin təmizliyinə, ruzi-bərəkətin artmasına, bəlaların dəf edilməsinə, hesabın asan keçməsinə və əcəlin təxirə salınmasına səbəb olur".[2]

Həzrət Musa (ə) Allahdan: "Qohumları ilə əlaqə saxlayanın mükafatı nədir?" – deyə soruşmuşdur. Allah-Taala buyurmuşdur: "Əcəlini təxirə salıram. Ölüm iztirablarını asanlaşdırıram. Behişt mələkləri ona səslənir: "Bizə tərəf gəl və istədiyin qapıdan daxil ol".[3]

İmam Sadiq (ə) buyurur: "Qohumlarla əlaqə saxlamaq, yaxşı qonşu olmaq şəhərləri abad, ömrü uzun edir".[4]

## QOHUMLARLA ƏLAQƏNİ KƏSMƏYİN NƏTİCƏLƏRİ

İmam Rza (ə) buyurur: "Allah ilahi təqvanı qohumlarla xoş münasibətdə olmaqla əlaqələndirib. Deməк, kim qohumları ilə əlaqə saxlamasa, təqvası yoxdur və nəticədə başqa əməlləri də qəbul olunmayacaq.[5] Onun bu əməlinin dünya və axirət üçün ağır nəticələri olacaq".[6]

İslam peyğəmbəri (s) buyurur:

---

[1] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 37.
[2] "Əl-Kafi", c. 2, səh. 150.
[3] "Rəvzə əl-vaizin", səh. 370.
[4] "Əl-Kafi", c. 2, səh. 152.
[5] "Allah yalnız müttəqilərdən qəbul edər!" ("Maidə", 27).
[6] "Kitab əl-xisal", səh. 156.

"Qohumlarla əlaqəni kəsmək duaya mane olur və onun qarşısına sədd çəkir".[1]

"Qohumlarla münasibəti pozmaq geniş hal alanda var-dövlət şər adamların (quldurların, yolkəsənlərin) əlinə keçir".[2]

İmam Baqirdən (ə) nəql olunan bir rəvayətdə deyilir: "Dörd şey əzabın tez gəlməsinə səbəb olur ki, onlardan biri qohumlarla əlaqəni kəsməkdir".[3]

İmam Sadiqdən (ə) gələn hədislərdə isə buyurulur:

"İnsanı ən tez məhv edən günah qohumlarla əlaqəni kəsməkdir".[4]

"Ömrünə otuz üç il qalan birisi qohumları ilə münasibətini pozarsa, Allah bu müddəti üç ilə endirər".[5]

İslam peyğəmbərindən (s) gələn daha iki hədisə nəzər salaq:

"Qiyamətdə zahirdə yaxşı yolda olan bir insanın yanına əlaqəni kəsdiyi qohumu gəlib, onu Cəhənnəmin ən dərin dərəsinə atacaqdır".[6]

"Min illik məsafədən duyulan Behişt rayihəsi valideyninə zülm edənə və qohumları ilə əlaqəsini kəsənə çatmayacaq".[7]

## QOHUMLARLA ƏLAQƏNİN KƏSİLMƏSİNƏ SƏBƏB OLAN BƏZİ AMİLLƏR

---

[1] "Müstədrək əl-vəsail", c. 15, səh. 185.
[2] "Əl-Kafi", c. 2, səh. 374.
[3] "Kitab əl-xisal", səh. 230.
[4] "İləl əş-şərai", səh. 584.
[5] "Əl-Kafi", c. 2, səh. 153.
[6] "Əl-Kafi", c. 2, səh. 156.
[7] "Əl-Kafi", c. 2, səh. 349.

Qohumlarla münasibəti pozmağın və valideynin hörmətini saxlamamağın müxtəlif amilləri var. Lakin burada iki mühüm amilə – həyasızlıq və hərisliyə toxunacağıq:

İmam Sadiq (ə) buyurur: "Bəziləri utanmasaydılar, ata-analarının və qohumlarının hüquqlarına hörmət etməzdilər".[1]

İslam peyğəmbərindən (s) nəql olunan hədislərdən birində isə bu barədə deyilir: "Hərislikdən həzər edin. Çünki sizdən qabaqkılar (hərislik ucbatından) qan tökməyə və qohumları ilə əlaqələrini kəsməyə sürükləndilər".[2]

## QOHUMLARLA MÜNASİBƏTİN QAYDASI VƏ NÜMUNƏLƏRİ

Qohumlarla xoş münasibət yalnız onların evinə getməklə gerçəkləşmir. Bunun nümunələri çoxdur, ən mükəmməl nümunəsi isə onların ehtiyacları ilə başqalarından qabaq maraqlanmaq, problemlərini həll etmək və onları sevindirməkdir.[3] Deməli, qohumlarla münasibət dedikdə hər qohumun özünə uyğun münasibət nəzərdə tutulur. Bəzən bu, maddi köməyə ehtiyacı olmayan bir qohuma sadəcə salam verməkdən və ya salamın cavabında iki kəlmə xoş söz deməkdən ibarət ola bilər.

Qohumlarla xoş münasibətin qaydalarına onları incitməmək, salamlaşmaq, hörmət etmək, bir qurtum suya belə olsa qonaq etmək, xəstə olduqda baş çəkmək,[4] yas mərasimlərində iştirak

---

1 "Tövhid əl-Müfəzzəl", səh. 79.
2 "Kitab əl-xisal", səh. 176.
3 "Təsnim", c. 2, səh. 560.
4 "Əl-Kafi", c. 2, səh. 636.

etmək,[1] görüşlərinə getmək,[2] hədiyyə vermək,[3] ehtiyaclarını başqalarından qabaq təmin etmək nümunə ola bilər.

Həzrət Məhəmməd (s) buyurur: "Ey qohum-əqrəba! Bir-birinizə baş çəkin, hədiyyə verin, amma qonşu olmayın. Çünki görüşmək, bir-birinə baş çəkmək dostluğu möhkəmlədir. Qonşuluq aradakı əlaqələrin kəsilməsinə gətirib çıxara bilər. Hədiyyə insanın xasiyyətini yumşaldır (onu mülayimləşdirir)".[4]

İmam Sadiq (ə) hədislərdə buyurur: "Quru salam verməklə olsa belə qohumlarınızla əlaqə saxlayın.[5] Bir qurtum su verməklə olsa belə qohumlarınızla münasibət qurun.[6] Qohum-əqrəbanızla əlaqə saxlayın. Onların dəfn mərasimlərində iştirak edin. Xəstələrinə baş çəkin, hüquqlarına hörmətlə yanaşın.[7] Ən gözəl qohumluq münasibəti budur ki, onları incitməyəsən".[8]

## QOHUMLARLA MÜNASİBƏTİN HÜDUDLARI

Qohumlarla əlaqə saxlamaq yalnız yaxşı və inanclı qohumlara aid deyil. Bu ilahi və əxlaqi vəzifə daha ümumi xarakter daşıyır. Buna görə də ata-ana və ya digər qohumlar, hətta mömin olmasalar belə, onlara hörmət etmək vacibdir və ehtiyaclarının təmin edilməsi təkidlə tövsiyə olunmuşdur. Lakin bu əlaqə o vaxta qədər davam etdirilməlidir ki, başqa dini hökmlərə xələl gətirməsin. Əgər nəticədə digər dini ayinlərə

---

[1] "Əl-Kafi", c. 2, səh. 636.
[2] "Əl-Cəfəriyyat", səh. 153.
[3] "Əl-Fəqih", c. 2, səh. 68.
[4] "Müstədrək əl-vəsail", c. 13, səh. 205.
[5] "Əl-Kafi", c. 2, səh. 155.
[6] "Əl-Kafi", c. 2, səh. 151.
[7] "Əl-Kafi", c. 2, səh. 636.
[8] "Əl-Kafi", c. 2, səh. 151.

xələl gələrsə, imansız qohumlarla münasibət qurmaq nəinki gərəkli deyil, hətta buna icazə verilmir.[1]

Allah-Taala buyurur: "*Biz insana ata-anasına (yaxşılıq etməyi, valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı) tövsiyə etdik. Anası onu (bətnində) çox zəif bir halda daşımışdı. (Uşağın süddən) kəsilməsi isə iki il ərzində olur. (Biz insana buyurduq: ) "Mənə və ata-anana şükür et. Axır dönüş Mənədir! Əgər (ata-anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, (bu işdə) onlara itaət etmə. (Qalan) dünya işlərində onlarla gözəl keçin (onlara itaət et). Tövbə edib Mənə tərəf dönənlərin (İslamı qəbul edənlərin) yolunu tut. Sonra (Qiyamət günü) Mənim hüzuruma qayıdacaqsınız. Mən də (dünyada) nə etdiklərinizi (bir-bir) sizə xəbər verəcəyəm!*"[2]

İmam Sadiq (ə) buyurur: "Bir kişi Həzrət Məhəmmədin yanına gələrək deyib: "Ey Allahın elçisi! Qohumlarımdan zülmdən, pis münasibətdən, söyüşdən başqa bir şey görmürəm. Onları tərk edimmi?"

Həzrət buyurub: "O halda Allah sizin hamınızı tərk edəcək".

Həmin adam soruşub: "Elə isə nə edim?"

Həzrət buyurub: "Səninlə əlaqəsini kəsənlə münasibət qur. Səni məhrum edənə bəxşiş ver. Sənə zülm edənin günahından keç. Belə etdiyin halda Allah onlara qarşı sənə dayaq olacaq".[3]

Cəhm ibn Hümeyd İmam Sadiqdən (ə) soruşub: "Mənim dini əqidəmin əleyhinə olan qohum-əqrəbam var. Mənim üzərimə bir haqq düşürmü?"

---

[1] "Təsnim", c. 2, səh. 560-561.
[2] "Loğman", 14-15.
[3] "Əl-Kafi", c. 2, səh. 150.

Həzrət buyurub: "Bəli, onların sənin üzərində qohumluq haqqı var və o, heç nə ilə aradan qalxmır. Əgər səninlə eyni əqidədə olsalar, iki haqları olur: qohumluq və İslam".[1]

## QOHUMLUQ MÜNASİBƏTLƏRİNİN PRİORİTET ARDICILLIĞI

Qohumluq anlayışı geniş bir anlayışdır və bütün qohumlarla əlaqə saxlamaq insanın imkanları xaricində olan bir şeydir. Məhz bu baxımdan da ayə və rəvayətlərdə qohumluq münasibətlərində prioriteti müəyyən edən sıralama qeyd olunmuşdur.[2] Rəvayətlərə görə, qohumluq əlaqələrində mərhələli sıralama aşağıdakı şəkildədir:

1. Ata və ana (burada ana daha öndədir);
2. Qardaş və bacılar;
3. Digər qan qohumları (əmi, bibi, dayı, xala, onların övladları və s.);
4. Nikah vasitəsilə qohum olanlar (kürəkən və s.). Bu haqda növbəti səhifələrdə ətraflı söhbət açacağıq.

İslam peyğəmbərindən (s) nəql olunan bir rəvayətdə deyilir: "Əlində beş gilə xurma, beş dənə çörək, yaxud beş dinar və ya dirhəm olan bir insan xeyriyyəçilik etmək istəsə, birinci növbədə öz valideynlərinə versin, ikinci, özünə və ailəsinə sərf etsin, üçüncü, yoxsul qohumlara, dördüncü, yoxsul qonşulara, beşinci sırada isə Allah yolunda (sədəqə) versin. Sonuncunun savabı ən azdır".[3] Yəni yuxarıda qeyd olunan beş qismin hamısı

---

[1] "Əl-Kafi", c. 2, səh. 157.
[2] "Bəqərə", 180-215.
[3] "Əl-Kafi", c. 5, səh. 65.

Allah yolunda və Onun göstərişi ilədir, lakin sədəqənin savabı digər dörd əməlin savabından daha azdır.

İmam Hüseyn (ə) babası Peyğəmbərdən (s) belə eşitdiyini nəql edir: "(Qohumların haqqına riayət edərkən) Öz ailəndən başla. Öncə ananın, atanın, bacının və qardaşının hüquqlarını təmin et. Sonra yaxınlıq mərtəbələrini nəzərə alaraq davam et".[1]

Peyğəmbər (s) Həzrət Əliyə (ə) buyurmuşdur: "Ey Əli! Valideynlərinə yaxşılıq üçün iki il, qohumlarınla əlaqə saxlamaq üçün bir il yol get".[2]

## QOHUMLUQ MÜNASİBƏTLƏRİNƏ NÜMUNƏLƏR

Ayə və rəvayətlərdə qohum-əqrəba qismində adı çəkilən şəxslər bunlardır: valideynlər, ana, ata, ailə, övladlar, qız, oğul, arvad, ər, qardaş, bacı və nəsildəki digər qohumlar, evlənmək yolu ilə qohum olanlar – misal üçün, qayınata, qayınana, gəlin, kürəkən və s. Bunlara aid rəvayətləri ardıcıllıqla diqqətinizə çatdırırıq.

### 1. Valideynlərə yaxşılıq;

### Valdieynlər

Valideynlərə yaxşılıq (geniş mənada) o qədər önəmlidir ki, hətta onların müşrik olması belə onlara yaxşılıq edilməsinə mane ola bilmir. Doğrudur, onların yanlış əqidələrindən uzaq olmaq lazımdır, amma onlara zərrəcə hörmətsizlik etmək, ziyan vurmaq yasaqdır. İstər həyatda olduqları, istərsə də həyatdan köçdükləri zaman onlara sayğı, sevgi, mehribanlıq tövsiyə

---

1 "Əl-İxtisas", səh. 219.

2 "Əl-Fəqih", c. 4, səh. 361.

olunmuş, valideynə gözəl yanaşma namaz, həcc və cihada bərabər tutulmuşdur. Hətta onlara təşəkkür etmək Allaha edilən şükrə yaxın bir əməl kimi dəyərləndirilmişdir. Quran ayələri valideynlərə hörmətin əhəmiyyətinə ən yaxşı sübutdur:

1. "*Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!* "[1]

2. "*Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına salıb: "Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!" – de*".[2]

3. "*Əgər (ata-anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, (bu işdə) onlara itaət etmə. (Qalan) dünya işlərində onlarla gözəl keçin (onlara itaət et). Tövbə edib Mənə tərəf dönənlərin (İslamı qəbul edənlərin) yolunu tut. Sonra (Qiyamət günü) Mənim hüzuruma qayıdacaqsınız. Mən də (dünyada) nə etdiklərinizi (bir-bir) sizə xəbər verəcəyəm!"*"[3]

Mənsur ibn Hazim İmam Sadiqdən (ə) soruşmuşdur: "Ən dəyərli əməl hansıdır?" Həzrət buyurmuşdur: "Vaxtında qılınan namaz, ata-anaya yaxşılıq və Allah yolunda cihad".[4]

İmam Baqir (ə) buyurur: "Allah üç iş üçün heç kimə rüsxət verməmişdir: əməlisaleh və günahkarın əmanətini qaytarmaq, əməlisaleh və günahkara münasibətdə əhdə vəfa etmək, əməlisaleh və günahkar valideynə yaxşılıq etmək".[5]

---

[1] "İsra", 23.
[2] "İsra", 24.
[3] "Loğman", 15.
[4] "Əl-Kafi", c. 2, səh. 158.
[5] "Əl-Kafi", c. 2, səh. 162.

Valideynlərlə bağlı olan bu vəzifə onlar öləndən sonra da davam edir. Allahın rəsulu (s) buyurmuşdur: "Qiyamətdə əməli-salehlərin önündə o adam duracaq ki, valideynləri öləndən sonra da onlara yaxşılıq (hörmət) etsin".[1]

## VALİDEYNƏ YAXŞILIQ ETMƏK ÜÇÜN MÜNASİB OLAN BƏZİ VAXTLAR

Valideynə yaxşılığın konkret zamanı yoxdur, amma bəzi vaxtlar bu, ikiqat mükafata səbəb olur. İmam Baqirdən nəql olunan bir hədisə görə, Qurban bayramı günü ən yaxşı əməllərdən biri valideynlərə yaxşılıq etməkdir.[2]

Həzrət Məhəmməd (s) buyurur: "Kim hər cümə günü ata-anasının məzarını ziyarət edərsə, günahları bağışlanar və əməlisalehlərdən hesab olunar".[3]

## VALİDEYNƏ YAXŞILIĞIN BƏZİ NƏTİCƏLƏRİ

**Allahın rizası:** Rəvayətlərdən birində deyildiyinə görə, Allahın "Lövhi-məhfuz"da yazdığı ilk şey budur: “Məndən başqa Tanrı yoxdur və kimin ata-anası ondan razı olsa, Mən də ondan razı olacam".[4]

**Səmavi rəhmət:** Həzrət Məhəmməd (s) buyurur: "Səmanın rəhmət qapıları dörd vaxtda açılır: yağış yağanda, övlad valideyninin üzünə baxanda, Kəbə evinin qapısı açılanda və nikah bağlananda".[5]

**Behiştin ən yaxşı köşklərinə sahib olmaq:** İmam Baqir (ə) buyurur: "Dörd xislət var ki, hansı mömində olsa, Allah onu

[1] "Bihar əl-ənvar", c. 71, səh. 86.
[2] "Kitab əl-xisal", səh. 298.
[3] "Bihar əl-ənvar", c. 86, səh. 359.
[4] "Müstədrək əl-vəsail", c. 15, səh. 176.
[5] "Came əl-əxbar", səh. 101.

Behiştin ən yüksək pilləsində, Behişt köşklərinin ən üstünündə və şərafətin ən uca mərtəbəsində yerləşdirəcəkdir. Bu xislətlər ata-anaya pul xərcləmək, onlarla mehriban olmaq, onlara yaxşılıq etmək və onları kədərləndirməməkdir".[1]

**İlahi ərşin kölgəsində yer almaq:** İmam Sadiq (ə) buyurur: "Bir gün Həzrət Musa Allahla minacat edərkən ilahi ərşin kölgəsində bir kişi görüb soruşdu: "İlahi! Sənin ərşinin kölgə saldığı bu insan kimdir?"

Allah-Taala buyurdu: "O, ata-anasına yaxşılıq edən və söz gəzdirməyən biridir".[2]

**Şiəliyin əlaməti:** İmam Sadiq (ə) buyurur: "Ey Cabir! Bizim şiələrimiz yalnız valideynlərinə yaxşılıqla tanınarlar".[3]

## ANA

Ananın məqamı ilə tanış olmaq üçün onun övladına görə qatlaşdığı zəhmətin böyüklüyünə diqqət yetirmək kifayətdir. Məhz buna görə də İmam Səccad buyurur: "Ananın haqqı budur ki, onun səni öz bətnində necə daşıdığını biləsən, belə ki heç kim başqa birisini belə daşımaz. O, sənə öz qəlbinin meyvəsindən elə bir şey vermişdir ki, heç kim başqasına verməz. Səni bütün bədən üzvləri ilə qorumuşdur. Onun olasan deyə, özü ac qalıb səni yedizdirməkdən, özü susuz qalıb səni su ilə doyurmaqdan, özü çılpaq qalıb səni örtməkdən, özü qızmar günəş altında qalıb səni kölgədə saxlamaqdan, sənin üçün yuxusuna haram qatmaqdan, səni isti və soyuqdan qorumaqdan çəkinməyib. Bil

[1] "Əl-Əmali", Şeyx Mofid, səh. 168.
[2] "Əl-Əmali", Şeyx Səduq, səh. 180.
[3] "Əl-Kafi", c. 2, səh. 74.

ki, Allahın yardımı və dəstəyi olmadan ona təşəkkür etmək iqtidarında deyilsən".[1]

## ANANIN HAQQININ BİRİNCİLİYİ

Ananın haqqı o qədər böyük və önəmlidir ki, hətta atanın haqqından da üstündür. Buna görə də İslam peyğəmbəri Həzrət Məhəmməd (s) buyurur: "Müstəhəb namaz qılarkən atan səni çağırsa, namazını kəsmə.[2] Əgər səni anan çağırsa, namazını poz (və ona cavab ver)".[3]

## ANAYA DAHA ÇOX YAXŞILIQ ETMƏK

İmam Baqir (ə) buyurur: "Həzrət Musa ibn İmran Allaha üç dəfə deyib: "İlahi! Mənə tövsiyə et".

Allah-Taala buyurub: "Sənə özümü tövsiyə edirəm".

Həzrət Musa yenə deyib: "İlahi! Mənə tövsiyə et".

Allah-Taala buyurub: "Sənə ananı tapşırıram".

Həzrət Musa yenə deyib: "İlahi! Mənə tövsiyə et".

Allah-Taala buyurub: "Sənə ananı tapşırıram".

Həzrət Musa yenə deyib: "İlahi! Mənə tövsiyə et".

Allah-Taala buyurub: "Sənə ananı tapşırıram".

Həzrət Musa yenə deyib: "İlahi! Mənə tövsiyə et".

Allah-Taala buyurub: "Sənə atanı tapşırıram".

İmam (ə) əlavə edir: "Ananın yaxşılıqda payı üçdə iki, atanınkı isə üçdə birdir".[4]

---

[1] "Əl-Fəqih", c. 2, səh. 621.

[2] Şəriətə görə, müstəhəb namazı kəsməyə, pozmağa və yarımçıq qoymağa icazə verilir.

[3] "Müstədrək əl-vəsail", c. 15, səh. 181.

[4] "Əl-Əmali", Şeyx Səduq, səh. 511.

**Qeyd:** Doğrudur, bu hədisdə anaya yaxşılıq ataya yaxşılıqdan daha çox tövsiyə edilmişdir, amma ola bilər ki, buna səbəb Həzrət Musanın (ə) anasının xüsusi şəraitə malik olmasıdır.

İmam Rza (ə) buyurur: "Bil ki, ananın haqqı ən zəruri və ən vacibdir. Çünki o, öz övladını heç kimin başqasını daşımadığı şəkildə daşımışdır. O, qulağı, gözü və bütün bədən üzvləri ilə övladına qayğı göstərmiş, onu qorumuş, bu işindən şad və ümidvar olmuşdur. O, övladını heç kimin dözə bilməyəcəyi bir çətinliklə daşımışdır. Özü ac olduğu halda, övladının yeyib doymasına, özü təşnə olduğu halda, övladının doyunca su içməsinə, özünün çılpaq, övladının isə paltarlı, özünün günün altında, övladının isə kölgədə olmasına razı olmuşdur. Odur ki anaya edilən yaxşılıq və təşəkkür bu fədakarlığa uyğun olmalıdır. Sizin onun haqqını tam olaraq ödəməniz mümkün olmasa da, Allahın yardımı sayəsində bunu edə bilərsiniz. Allah onun haqqını öz haqqı ilə yanaşı qiymətləndirmiş və buyurmuşdur: "*Biz insana ata-anasına (yaxşılıq etməyi, valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı) tövsiyə etdik. Anası onu (bətnində) çox zəif bir halda daşımışdı. (Uşağın süddən) kəsilməsi isə iki il ərzində olur. (Biz insana buyurduq:) "Mənə və ata-anana şükür et. Axır dönüş Mənədir!*" ("Loğman" surəsi, ayə 14)[1]

## ATA

Ataya yaxşılığın ilk addımı onun haqqını, dəyər və məqamını bilməkdir. Allahın rəsulu (s) buyurur: "Allahın razılığı atanın razılığında, qəzəbi atanın qəzəbindədir".[2]

---

[1] "Fiqh ər-Rza (ə)", səh. 334.
[2] "Sünəni-Tirmizi", c. 3, səh. 207.

## ATA NEMƏTLƏRİN KÖKÜDÜR

İmam Səccad (ə) buyurur: "Atanın haqqı budur ki, onun sənin kökün, sənin isə onun budağı olduğunu biləsən. Nə vaxt özündə səni sevindirən bir nemət görsən, bil ki, o nemətin kökü atandır. Allaha həmd-səna et və həmin nemət qədər Ona şükür et".[1]

İmam Rza (ə) bu barədə buyurur: "Atanın sözündən çıxma, ona yaxşılıq et, ona qarşı təvazökar ol, onunla hörmətlə davran, onun yanında səsini qaldırma. Çünki ata kök, övlad isə şaxədir. Əgər ata olmasaydı, Allah övlada da həyat verməzdi. Malını, nüfuzunu və canını ondan əsirgəmə. Çünki sənin canın və malın atana məxsusdur. Elə isə dünyada atalarınızın sözünə baxın, öləndən sonra isə onlar üçün dua edin və əfv diləyin".[2]

Əlbəttə, bu heç də o demək deyil ki, atanın övlada əziyyət vermək, cəfa çəkdirmək haqqı var. Əgər ata övladına cəfa çəkdirərsə, bu, övladın onun üzünə ağ olmasına səbəb olar.

Ravi İmam Sadiqdən (ə) soruşur: "Kişinin öz övladının malında nə qədər haqqı var".

Həzrət buyurur: "Öz imkanı olmadıqda, naəlac və ehtiyaclı vaxtlarında gündəlik israfsız qida qədərincə".

Ravi deyir: "Elə isə Həzrət Peyğəmbərin bir kişiyə buyurduğu "Sən və malın atana aidsiniz" kəlamı haqda nə düşünürsünüz?"

İmam (ə) buyurur: "Həmin adam atasını Peyğəmbərin yanına gətirib demişdi: "Ey Allahın rəsulu! Atam anamdan qalan mirasla bağlı mənə zülm edib".

Atası demişdi: "Mən mirası bu oğluma və özümə sərf etmişəm".

---

[1] "Tühəf əl-üqul", səh. 263.
[2] "Fiqh ər-Rza (ə)", səh. 334; "Bihar əl-ənvar", c. 71, səh. 76-77.

Peyğəmbər (s) övlada buyurmuşdu: "Sən və malın atana aidsiniz".

Atanın heç bir şeyi olmadığı halda, (sizcə) Peyğəmbər atanı oğlunun xeyrinə həbs etməli idimi?"[1]

## ATAYA YAXŞILIĞIN DAVAMLILIĞI

İmam Rza (ə) atanın ölümündən sonra onun üçün dua etməyi təkidlə tövsiyə edərək buyurur: "Rəvayətə görə, kim atası sağ ikən ona hörmət edib, dünyasını dəyişəndən sonra onun üçün dua etməsə, Allah onu "qohumları ilə ünsiyyətini kəsmiş" adlandırar".[2]

İmam Baqir (ə) buyurur: "Kim valideynləri sağ ikən onlara yaxşı baxıb, öləndən sonra borclarını ödəməsə, onlar üçün bağışlanma diləməsə, Allah onu ağvalideyn hesab edər".[3]

---

[1] "Əl-Kafi", c. 5, səh. 136.
[2] "Bihar əl-ənvar", c. 71, səh. 77.
[3] "Əz-Zöhd", səh. 33.

## VALİDEYNLƏ MÜNASİBƏTİ POZMAQ

Allah-Taala valideyni ilə əlaqəni kəsən şəxsləri qınamış, bunun bəyənilməyən bir iş olduğu, ata-anasını təhqir edən, onlara hörmətsiz yanaşanların aqibətinin pis olacağı barədə insanlara xəbərdarlıq etmişdir.

Quranda oxuyuruq: "*Ata-anasına: "Tfu sizə! Məndən əvvəl neçə-neçə nəsillər gəlib-getdiyi (öləndən sonra dirilmədiyi) halda, siz mənə (Qiyamət günü dirildilib qəbirdən) çıxarılacağımımı vəd edirsiniz?!" – deyən kimsəyə, (valideynləri) Allahdan mədəd diləyərək: "Vay halına! (Ay yazıq) inan, Allahın vədi haqdır!" – deyərlər. O isə: "Bu (dedikləriniz) qədimlərin əfsanələrindən (yalan sözlərdən) başqa bir şey deyildir!" – deyə cavab verər. Belələri özlərindən əvvəl gəlib getmiş cinlərdən və insanlardan ibarət (kafir) ümmətlərlə birlikdə haqlarında əzab sözünün (hökmünün) gerçəkləşdiyi kimsələrdir. Onlar, doğrudan da, ziyana uğrayanlardır!*"[1]

Bu ayə yalnız küfr yolunu gedən övladlara aid deyil. Burada əsas diqqət valideynə təhqir və hörmətsizliyə yönəlmişdir. Allah başqa bir ayədə də bunu qınamış və pisləmişdir: "*Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!*"[2]

---

[1] "Əhqaf", 17-18.
[2] "İsra", 23.

Həzrət Məhəmməd (s) buyurur: "Valideyninizə zülm etməkdən çəkinin. Çünki min illik məsafədən hiss olunan Behişt iyi ağvalideynə çatmaz".[1]

İmam Sadiq (ə) buyurur: "Ağvalideyn olmağın ən aşağı mərhələsi onlara "Uf!" deməkdir. Əgər Allah bundan daha aşağı bir hörmətsizlik bilsəydi, deyərdi".[2]

O həzrətdən gələn başqa bir hədisdə deyilir: "Kim ona zülm etmiş valideynlərinə qəzəblə baxsa, Allah onun namazını qəbul etməz".[3]

Ağvalideynliyin ən ağır mərtəbəsi onları öldürməkdir. İslam peyğəmbəri (s) buyurmuşdur: "Valideynə zülmün ən böyüyü öz valideynini öldürməkdir. Bundan daha pis ağvalideynlik yoxdur".[4]

Ağvalideyn olmaq dedikdə ata-anaya zülm etmək, onları incitmək, onlarla əlaqələrin kəsilməsinə səbəb olmaq başa düşülür.[5]

## ATA-ANAYA QARŞI PİS DAVRANMAĞIN BƏZİ NƏTİCƏLƏRİ

Ata-anaya pis münasibət bəsləməyin[6], axirət cəzasından əlavə, dünya cəzası da var. "Hədisi-qüdsi"yə görə, Allah-Taala buyurmuşdur: “İzzət və cəlalıma, uca şanıma and olsun, ağvalideyn bütün peyğəmbərlərin ibadəti qədər ibadət etsə də, qəbul etməyəcəyəm".[7]

---

[1] "Əl-Kafi", c. 2, səh. 349.
[2] "Əl-Kafi", c. 2, səh. 349.
[3] "Əl-Kafi", c. 2, səh. 349.
[4] "Əl-Kafi", c. 2, səh. 348.
[5] "Məcmə əl-bəhreyn", c. 5, səh. 215.
[6] "Əl-Kafi", c. 6, səh. 50; "İləl əş-şərai", səh. 749.
[7] "Came əs-səadət", c. 2, səh. 271.

İmam Hadi (ə) buyurur: "Valideynin üzünə ağ olmaq azalmağa (ailə üzvlərinin ölməsinə) və dünyada xar olmağa gətirib çıxarır".[1]

İmam Sadiqin (ə) buyurduğuna görə, valideyni incitməyin dünyəvi nəticələrindən biri duanın qəbul olunmaması və mənəvi əhval-ruhiyyənin geriləməsidir.[2]

## VALİDEYN ÜÇÜN DUA

Yaxşı olar ki, möminlər valideynlərinə yaxşılıq etməklə yanaşı, İmam Səccadın valideynlərlə bağlı oxuduğu duaları oxusunlar və Allahdan valideynlərinə yaxşılıq, hörmət etməkdə mənəvi dəstək diləsinlər. Həmin dua budur:

"İlahi! Öz qulun və rəsulun Məhəmmədə, onun pak və müqəddəs Əhli-Beytinə salam göndər. Mərhəmətin, salamın, xeyir-bərəkətin ən yaxşısını onlara məxsus et!

İlahi! Ata-anama öz dərgahında hörmət və salam ayır, ey rəhmlilərin ən rəhmlisi!

İlahi! Məhəmməd və onun ailəsinə salam göndər. Onlara qarşı öhdəmə düşən vəzifələri tam olaraq bilməyi, öyrənməyi mənim qəlbimə sal. Yardım et ki, öyrəndiklərimi həyata keçirim. Sənin vasitənlə öyrəndiklərimi yerinə yetirim. Bildiklərimdən heç biri əməlsiz qalmasın. Bədən üzvlərim öyrəndiklərimə qarşı ağırlıq etməsin.

İlahi! Məhəmməd və ailəsinə salam göndər, necə ki bizə onlara görə şərəf vermisən. Məhəmməd və ailəsinə salam

---

1 "Bihar əl-ənvar", c. 71, səh. 84.
2 "Əl-Kafi", c. 2, səh. 448.

göndər, necə ki onun bərəkəti ilə insanların üzərinə bizim üçün haqlar qoymusan.

İlahi, elə et ki, ata-anamın heybəti mənim qəlbimdə müstəbid bir padşahın heybəti tək özünə yer etsin. Mən isə onlara mehriban bir ana münasibəti bəsləyim. İlahi, ata-anama itaəti, onlara yaxşılığı mənim üçün yorğun gözlərə yuxu tək şirin, təşnəyə soyuq su tək dadlı et. Belə ki onların istəklərini öz istəklərimdən önə keçirim, onların razılığını öz razılığımdan qabağa salım, onların mənə qarşı yaxşılığını az da olsa, çox, onlara qarşı öz yaxşılığımı isə çox da olsa, az hesab edim.

İlahi! Mənim səsimi onların yanında alçaq, sözümü xoş, xasiyyətimi mülayim, ürəyimi onlara qarşı mehriban et. Məni onlarla yaxşı davranan və onlara can yandıran et.

İlahi! Məni boya-başa çatdırdıqları üçün onları yaxşı mükafatlandır. Məni əzizləmələrinin qarşılığında onlara rəhm et. Uşaq ikən məni təhlükələrdən qoruduqları kimi, Sən də onları təhlükələrdən qoru.

İlahi! Əgər onları incitmişəmsə, məndən narazı qalmışlarsa, hüquqlarını tapdamışamsa, bunu onların günahlarının bağışlanmasına, axirət dərəcələrinin, savablarının artmasına vəsilə et. Ey pislikləri qat-qat artıq yaxşılıqlara çevirən Allah!

İlahi! Əgər mənə cəfa etmişlərsə, acılamışlarsa, incitmişlərsə, hüquqlarımı tapdamışlarsa və ya haqqımda səhlənkarlıq etmişlərsə, onları bağışlayıram. Səndən istəyirəm ki, (bunların) nəticələrini onların üzərindən qaldırasan. Çünki mən onların mənə qarşı davranışlarını yaxşı sayıram. Onların yaxşılığını mükəmməl görürəm. Mənimlə bağlı etdikləri heç bir şey üçün narahat deyiləm, ey mənim Tanrım!

Onların mənim üzərimdəki haqqı daha vacibdir. Onların yaxşılığı və nemətləri ədalət divanına çıxarılacaq, qarşılığı

veriləcək həddən daha çox və daha böyükdür. Ey mənim Allahım! Onlar məni boya-başa çatdırmaq üçün nə qədər uzun günlər keçiriblər, məni saxlamaq üçün nə qədər əziyyətlər çəkiblər. Mənim rahatlığım üçün canlarını dişlərinə sıxıblar.

Əfsus ki, nə etsəm də, onların haqqını ödəyə bilməyəcək, onlarla bağlı üzərimə düşənin öhdəsindən gələ bilməyəcəm. Onlara xidmətdə öhdəmə düşən vəzifəyə əməl edə bilməyəcəm. Məhəmməd və ailəsinə salam göndər və mənə yardım et, ey məxluqatın imdad dilədiyi ən yaxşı varlıq! Məni müvəffəq et, ey bələdçilik istənilən ən yaxşı bələdçi! Hər kəsin öz əməlinin cəzasını görəcəyi və kimsəyə zülm olunmayacağı gün məni ata-anası ilə pis davrananlardan etmə.

İlahi! Məhəmmədə, ailəsinə və övladlarına salam göndər. Ata-anama mömin ata-analara verdiyin ən yaxşı mükafatları ver, ey rəhmlilərin ən rəhmlisi!

İlahi! Onları namazlardan sonra, gecə və gündüz saatlarında xatırlamağı heç zaman yadımdan çıxartma.

İlahi! Məhəmməd və ailəsinə salam göndər və məni bağışla. Onlar üçün xeyir-dua etdiyimə görə günahlarından keç. Mənə daim yaxşılıq etdikləri üçün daim onlardan razı ol. Mənim şəfaətim və Öz kəramətinlə onları əmin-amanlıq içində et.

İlahi! Əgər onları bundan qabaq bağışlamısansa, onların mənimlə bağlı şəfaətini qəbul et. Əgər məni bundan qabaq bağışlamısansa, mənim onlar haqqında şəfaətimi qəbul et. Qəbul et ki, Sənin mərhəmətin sayəsində kəramət sarayında, əfv və mərhəmət məkanında toplaşaq. Çünki böyük lütf və əzəli nemət sahibi, mehribanlar mehribanı Sənsən!"[1]

[1] "Səhifeyi-Səccadiyyə", 24-cü dua.

## 2. Ailəyə yaxşılıq;

### Ailə

Ailə bəşəriyyətin ilk inkişaf və asayiş ocağıdır.[1] Onu qorumaq ağır məsuliyyət hesab olunur, dünya və axirət əzabından xilas olmağa yol açır.[2] Quran və rəvayətlərdə ailəyə xüsusi önəm verilmiş, onun inkişaf və yüksəlişi istiqamətində çoxlu sayda şəriət hökmləri və etik qaydalar nəzərdə tutulmuşdur[3]. Ailənin rifahı, dincliyi, asayişi, inkişaf və yüksəlişi üçün bunlara riayət etməklə yanaşı, bu işdə Allahdan da imdad diləmək lazımdır.

Həzrət İbrahim (ə) Allahın fərmanı ilə arvadı və oğlunu Məkkəyə gətirib, əllərini Allah dərgahına açdı və dedi: "*Ey Rəbbimiz! Mən əhli-əyalımdan bəzisini (İsmayılı və anası Hacəri) Sənin Beytülhəramının (Kəbənin) yaxınlığında, əkin bitməz bir vadidə (dərədə) sakin etdim. Ey Rəbbimiz! Onlar (vaxtlı-vaxtında, lazımınca) namaz qılsınlar deyə belə etdim. Elə et ki, insanların bir qisminin qəlbləri onlara (Kəbənin ziyarətinə, əhli-əyalıma mərhəmət göstərməyə) meyil etsin. Onlara (bu yerin ağaclarının) meyvələrindən ruzi ver ki, (nemətinə) şükür edə bilsinlər!*"[4]

Həzrət Lut (ə) yolunu azmış qövmünü əlindən gəldiyi qədər maarifləndirməyə səy göstərdikdən sonra onları acınacaqlı durumdan xilas edə bilmədiyini görüb, öz imanlı ailəsini

---

[1] "Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir" ("Rum" surəsi, ayə 21). " Sizi tək bir nəfərdən (Adəmdən) xəlq edən və onunla ünsiyyət etmək (sakit, rahat olmaq) üçün özündən (qabırğasından) zövcəsini (Həvvanı) yaradan Odur" ("Əraf" surəsi, ayə 189).

[2] "Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar (daşdan düzəlmiş bütlər), xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirən daş qəlbli (heç kəsə zərrəcə rəhm etməyən) və çox sərt təbiətli mələklərdir (zəbanilərdir) " ("Təhrim" surəsi, ayə 6)

[3] Nikah, talaq, dolanışıq xərci, miras və s. məsələlərlə bağlı ayələr.

[4] "İbrahim", 37.

qurtarmaq üçün belə dua etdi: "*Ey Rəbbim! Məni və ailəmi bunların gördüyü (pis) işdən (onların bəd əməllərinin cəzasından) qurtar!*"[1]

Həzrət Yaqub (ə) ailəsinin ehtiyacını təmin etmək üçün övladlarını Misir hökmdarının sarayına göndərdi ki, buğda tələbatını qarşılasın və qıtlığı yola versin. Hətta ikinci dəfə buğda almaq üçün sevimli oğlu Binyamini də qardaşları ilə birgə Misirə göndərdi.[2]

Mömin insanın öz ailəsinə münasibəti ilə bağlı Həzrət Məhəmməddən (ə) gələn aşağıdakı kəlamlara nəzər salaq:

"Hər bir yaxşı iş sədəqə hesab olunur. Həmçinin möminin özü, ailəsi və həyat yoldaşı üçün xərclədikləri, nüfuzunu qorumaq üçün sərf etdikləri onun üçün sədəqə kimi yazılır".[3]

"Sizin ən yaxşınız öz ailəsinə qarşı ən yaxşı olandır. Mən öz ailəmə qarşı sizin hamınızdan ən yaxşıyam".[4]

"Kim bazara gedib ailəsi üçün töhfə alsa və onu evinə aparsa, ehtiyaclılar üçün sədəqə aparan kimidir".[5]

İmam Rza (ə) buyurur: "Kim halal yolla ruzi qazanıb, özü və ailəsi üçün xərcləsə, Allah yolunda cihad etmişdir".

Həzrət hədisin davamında əlavə edir: "Bir kişi yoxsulluğa düçar olsa, Allahın və rəsulunun zəmanəti ilə ailəsinin qida ehtiyacı qədər borc alsa və borcu ödəməzdən qabaq ölsə, onun borcunu ödəmək müsəlmanların rəhbərlərinin üzərinə düşür".[6]

---

1 "Şüəra", 169.
2 "Yusif", 58-68.
3 "Müstədrək əl-vəsail", c. 7, səh. 239.
4 "Əl-Fəqih", c. 3, səh. 555.
5 "Əl-Əmali", Şeyx Səduq, səh. 577.
6 "Əl-Kafi", c. 5, səh. 93.

İmam Sadiq (ə) buyurur: "Sizdən biri kasıbladıqda səfərə getsin və Allahın lütfünü axtarsın. Özünü və ailəsini narahat etməsin".[1]

Ailəyə yaxşılıq insanın imkanlarına və bacarığına uyğun olmalıdır. Buna görə də İmam Rza (ə) buyurmuşdur: "Nemət sahibi ailəsini firavan yaşatmalıdır".[2]

## AİLƏ İLƏ BİRGƏ SÜFRƏYƏ OTURMAQ

Mömin öz ailəsinin bütün xoş anlarına, firavan günlərinə şərik olmalı, hətta yemək yeyərkən belə onlarla birgə olmalıdır. Quranda oxuyuruq: "*Allah ruzi baxımından birinizi digərinizdən üstün etmişdir. Üstün olanlar (varlılar) tabeçiliyində olanları (qulları, kənizləri) öz ruzilərinə şərik etməzlər ki, bu cəhətdən bərabər olsunlar*".[3]

İmam Sadiq (ə) yuxarıdakı ayəni izah edərkən buyurur: "İnsanın bir yeməyi özünə ayırması və onu ailəsi ilə bölüşməməsi yaxşı deyil".[4]

İslam peyğəmbəri (s) ailə ilə birgə süfrəyə oturmağı təvazökarlıq əlamətlərindən biri hesab edir və buyurur: "Sizə beş şey deyim, onlar kimdə varsa, təşəxxüslü (təkəbbürlü) deyil: çobanlıq və qoyun saxlamaq, yun paltar geyinmək, yoxsullarla ünsiyyətdə olmaq, ulağa minmək (ucuz minik nəzərdə tutulur – red.) və ailə ilə birgə yemək yemək".[5]

---

[1] "Təhzib əl-əhkam", c. 6, səh. 193. Bu hədis azacıq fərqli şəkildə "Əvali əl-ləali" (c. 3, səh. 193) kitabında Peyğəmbərdən (s) nəql olunmuşdur.
[2] "Əl-Kafi", c. 4, səh. 11.
[3] "Nəhl", 71.
[4] "Təfsir əl-Qumi", c. 1, səh. 387.
[5] "Müstədrək əl-vəsail", c. 3, səh. 254-255.

## AİLƏYƏ ÜSTÜNLÜK VERMƏK

İslam mədəniyyətində ailəni önə keçirmək, ona üstünlük vermək təməl qanunlardan hesab olunur və bunu sübut edən çoxlu sayda rəvayətlər var.

İslam peyğəmbəri (s) buyurur: "Allah sizdən birinə bir nemət versə, öncə özünə və ailəsinə sərf etsin".[1]

O həzrət başqa bir kəlamında bildirir: "Ailədən başlayın. Kim daha yaxındırsa, daha layiqlidir".[2]

İmam Səccad (ə) buyurur: "Bazara girib ailəmin ehtiyacı olan əti almağa pulumun olması mənim üçün bir qul azad etməkdən daha sevimlidir".[3]

## CÜMƏ GÜNÜ (İSTİRAHƏT GÜNÜ) AİLƏYƏ QAYĞI

Ailəyə diqqət və qayğı hər zaman bəyənilən bir əməl olsa da, bu baxımdan cümə gününün xüsusi önəmi var. Bu yolla həm də ailənin cümə gününün özəlliyinə və mənəviyyata diqqət yetirməsi üçün zəmin yaradılmalıdır. Buna görə də Həzrət Peyğəmbər (s) buyurur: "Cümə günü ailənizin meyvə və ya ət ehtiyacını təmin edin ki, cümə günü gəlib çatdıqda sevinsinlər".[4]

## AİLƏYƏ YAXŞILIĞIN MÜKAFATI

Həzrət Məhəmməd (s) İmam Əliyə (ə) buyurur: "Ailəyə qulluq böyük günahların kəffarəsi, Behişt hurilərinin mehri, Allahın qəzəbinin sönməsinə, yaxşılıq və dərəcələrin artmasına

---

[1] "Əl-Came əs-səğir", c. 1, səh. 73.
[2] "Əl-Kafi", c. 5, səh. 67.
[3] "Əl-Kafi", c. 4, səh. 12.
[4] "Əl-Kafi", c. 6, səh. 299.

yol açan səbəbdir. Ey Əli! Ailəyə yalnız doğru yolda olanlar, şəhidlər və ya Allahın onlar üçün dünya və axirət xeyri istədiyi adamlar qulluq edər, qayğı göstərərlər".[1]

İslam peyğəmbərindən (s) nəql olunan rəvayətlərdən birində deyilir: "Qiyamətdə mənim olacağım məkana sizdən ən yaxını əxlaq baxımından ən əməlisaleh və ailəsi üçün ən faydalı olandır".[2]

Ailəyə yaxşılıq etmək və qayğı göstərməyin axirət savabı olduğu kimi, dünyada da yaxşı nəticələri var. Allahın rəsulu (s) buyurur: "Evə daxil olanda salam ver ki, Allah xeyir-bərəkətini artırsın".[3]

İmam Səccad (ə) ailəyə yaxşılıq etməyin önəmi haqqında buyurur: "Allah dərgahında sizdən ən sevimlisi ailəsi üçün daha faydalı olandır".[4]

İmam Sadiq (ə) buyurur: "Kim ailəsinə qayğı göstərsə, Allah onun ömrünü artıracaq".[5]

İmam Kazım (ə) buyurur: "Kim (mömin) qardaşlarına və ailəsinə yaxşılıq etsə, ömrü uzun olar".[6]

## AİLƏ ÜÇÜN KƏDƏRLƏNMƏYİN SAVABI

Həzrət Əli (ə) buyurur: "Bir gün Peyğəmbərin yanına getdim. Həzrət buyurdu: "Ey Əli! Sübhü necə açdın?"

---

[1] "Came əl-əxbar", səh. 103.
[2] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 38.
[3] "Bihar əl-ənvar", c. 66, səh. 396.
[4] "Əl-Kafi", c. 8, səh. 69.
[5] "Əl-Kafi", c. 8, səh. 219.
[6] "Tühəf əl-üqul", səh. 388.

Dedim: "Sudan başqa heç nəyim yox idi, buna görə də Həsən və Hüseyn üçün narahat idim".

Buyurdu: "Ey Əli! Ailə üçün narahat olmaq Cəhənnəm oduna maneədir".[1]

## AİLƏYƏ QAYĞI GÖSTƏRMƏMƏYİN CƏZASI

Həzrət Məhəmməd (s) buyurur: "Ailəsinə qayğı göstərməyən Allahın rəhmətindən uzaqdır".[2]

Başqa bir hədisində o həzrət özü tox olub, ailəsini ac saxlamağı qadağan etmiş və buyurmuşdur: "Bir kişinin məhv olması üçün ailəsinə önəm verməməsi kifayətdir".[3]

## AİLƏ İLƏ PİS DAVRANMAĞIN CƏZASI

İslam peyğəmbəri (s) Səd ibn Məazın dəfn mərasimindən qayıtdıqda ondan soruşublar: "Ey Allahın rəsulu! Səd üçün etdiyinizi heç kim üçün etməmisiniz. Onun cənazəsini cübbəsiz və ayaqyalın müşayiət etdiniz".

Həzrət buyurub: "Onun dəfn mərasimində mələklər də cübbəsiz və ayaqyalın iştirak etdilər. Mən də onlar kimi etdim".

Deyiblər: "Bir dəfə cənazənin sağ tərəfindən, bir dəfə də sol tərəfindən tutdunuz".

Buyurub: "Əlim Cəbrayılın əlində idi. O haradan tutsa, mən də oradan tuturdum".

---

[1] "Came əl-əxbar", səh. 91.
[2] "Əl-Kafi", c. 4, səh. 12.
[3] "Dəaim əl-İslam", c. 2, səh. 193.

Deyiblər: "Onun qüsl edilməsini əmr etdiniz. Cənazə namazını özünüz qıldınız. Torpağa özünüz tapşırdınız. Sonra da buyurdunuz ki, həqiqətən, qəbir əzabı Sədə çatdı".

Allahın rəsulu (s) buyurub: "Bəli, onun öz ailəsi ilə davranışı pis idi".[1]

Peyğəmbərin (s) ailəyə qarşı pis davranışı qınayan digər bir hədisində oxuyuruq: "İnsanların ən pisi ailəsi ilə pis davranandır".[2]

Bir nəfər soruşub: "Ey Allahın rəsulu! Ailəsi ilə pis davranmaq dedikdə nə nəzərdə tutulur?"

Həzrət buyurub: "Belə ki kişi evə gələndə arvadı qorxsun, övladları xoflanıb qaçsın. Evdən gedəndə isə arvadı gülsün (sevinsin)".[3]

## ÖVLADLAR

Övladlar ilahi əmanət, nemət və Allahın nişanələridir.[4] Valideynlər onların sağlamlığı, boya-başa çatması, təlim-tərbiyəsi üçün məsuliyyət daşıyırlar.[5] Valideynlər övladlarına yaxşı

---

[1] "İləl əş-şərai", səh. 310.

[2] "Əl-Came əs-səğir", c. 2, səh. 77.

[3] "Məcmə əz-zəvaid", c. 8, səh. 25.

[4] "*Allah sizin üçün özünüzdən (Adəm və Həvvadan, yaxud öz cinsinizdən) zövcələr yaratdı, zövcələrinizdən də sizin üçün oğullar, nəvələr əmələ gətirdi, pak (halal) nemətlərindən sizə ruzi verdi*" ("Nəhl", 72). "*Qorxun o kəsdən ki, anlayıb bildiyiniz şeyləri (nemətləri) sizə əta etdi! Sizə heyvanat, oğul-uşaq, bağlar və çeşmələr verdi!*" ("Şüəra", 133)

[5] "*Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar (daşdan düzəlmiş bütlər), xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirən daş qəlbli (heç kəsə zərrəcə rəhm etməyən) və çox sərt təbiətli mələklərdir*" ("Təhrim", 6). "*Nə bir ana, nə də bir ata uşağına ziyan vurmasın! (Ata öləndən sonra) bu vəzifə həmin qaydada varisin üzərinə düşür*" ("Bəqərə", 233).

tərbiyə verdikləri üçün mükafat alacaq,[1] pis tərbiyə verdikləri üçün isə cəza çəkəcəklər.[2]

Əhli-Beytdən gələn rəvayətlərdə övladın valideyn üzərində bir sıra haqları olduğu bildirilmişdir. Bu haqlar aşağıdakılardır:

1. Övlada yaxşı ad seçmək; 2. Anasına hörmət etmək; 3. Valideynə mənsub olduğuna diqqət yetirmək; 4. Sağlamlığına (təmizliyinə və sünnət edilməsinə) diqqət yetirmək; 5. Lazımınca qidalandırmaq; 6. Təlim-tərbiyə etmək; 7. Sevgi göstərmək; 8. Hörmətlə yanaşmaq; 9. Yaxşı işdə kömək etmək.

Həzrət Məhəmməd (s) buyurmuşdur: "Övladın ata üzərindəki haqqı budur ki, onun anasına hörmət etsin, ona yaxşı ad qoysun, oğlandırsa, ona Quran öyrətsin, onu paklasın (sünnət etsin), ona üzməyi öyrətsin. Əgər qızdırsa, ona "Nur" surəsini öyrətsin, "Yusif" surəsini öyrətməsin. Onu balaxanada (yuxarı mərtəbədəki otaqda) qalmağa qoymasın (yəni onun təhsil, iş, həyat mühiti naməhrəmlərin gözü qarşısında olmasın) və onu ərə verməyə tələssin".[3]

İmam Səccad (ə) buyurur: "Övladının haqqı budur ki, onun səndən olduğunu, bu dünyada pis və yaxşısının səndən asılı olduğunu biləsən".[4]

---

[1] "*O öz əhli-əyalına namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı. (İsmailin əməli Allah dərgahında bəyənilmişdi)*" ("Məryəm", 55).

[2] "*İman gətirənlər deyəcəklər: "Həqiqətən, (əsl) ziyan çəkənlər qiyamət günü özlərini və ailələrini (özlərinə bağlı olanları) ziyana uğradanlardır!" Bilin ki, zalımlar (kafirlər) daimi əzab içində olacaqlar*" ("Şura", 45).

[3] "Əl-Kafi", c. 6, səh. 49.

[4] "Əl-Fəqih", c. 2, səh. 622.

## UŞAĞIN SAĞLAMLIĞI

**Uşağın cinsi sağlamlığı:** İmam Sadiq (ə) buyurur: "Heç kim uşaq olan otaqda arvadı ilə yaxınlıq etməməlidir. Çünki bu, uşağın cinsi pozğunluğuna səbəb olur".[1]

**Önləyici tədbirlər:** Uşağın sağlamlıqla bağlı hüquqlarından biri xəstəliklərə qarşı önləyici tədbirlərin görülməsidir. Həzrət Məhəmməd (s) buyurur: "Kişinin arvadı ilə aybaşı halında yaxınlıq etməsi haramdır. Əgər belə etsə, uşaq cüzam və ya ağ ləkə xəstəliyinə yoluxaraq dünyaya gəlsə, özündən başqa heç kimi qınamasın. Kişinin boynuna vacib qüsl gəldikdən sonra cənabət qüslü vermədən arvadı ilə yaxınlıq etməsi məkruhdur. Əgər belə etsə və uşağı dünyaya dəli gəlsə, özündən başqa heç kimi qınamasın".[2]

Xəstəliyin qarşısını almağın yollarından biri də müəyyən vaxtlarda yaxınlıq etməkdən çəkinməkdir. İslam peyğəmbəri (s) bu haqda buyurur: "Ey Əli! Qəməri ayların əvvəlində və ortasında gecə xanımınla yaxınlıq etmə. Görmürsənmi ki, dəlilər ayın əvvəlində və ortasında gecələr daha çox özlərindən gedirlər".[3]

İmam Sadiq (ə) buyurur: "Xanımınla ayın əvvəlində, ortasında və sonunda yaxınlıq etmə. Çünki bunu edən şəxs uşağının düşməsini qəbul etməli, ya da uşağı ruhi xəstə olmalıdır".[4]

Doğrudur, Həzrət Əliyə (ə) aid edilən bir rəvayətdə ramazan ayının ilk gecəsi bu qadağadan istisna olunmuşdur.[5]

---

1 "Əl-Kafi", c. 5, səh. 499-500.
2 "İləl əş-şərai", səh. 514.
3 "Tühəf əl-üqul", səh. 12; "Vəsail əş-şiə", c. 20, səh. 131.
4 "Vəsail əş-şiə", c. 20, səh. 129.
5 "Əl-Kafi", c. 4, səh. 180.

Uşağın xəstəliyinin qarşısını almağın yollarından biri də yaxınlıq zamanı danışmamaqdır. İslam peyğəmbəri (s) yaxınlıq edərkən danışmağı yasaq etmişdir. Çünki bu, uşağın anadangəlmə lal olmasına səbəb ola bilər.[1]

**Yuyundurub-təmizləmək:** Həzrət Məhəmməd (s) buyurur: "Uşaqlarınızı yuyundurub çirkdən təmizləyin. Çünki Şeytan çirki iyləyir, yuxuda uşağın qorxmasına, onun yanındakı mələklərin inciməsinə səbəb olur".[2]

**Uşağı yeddinci gün sünnət etmək:** Uşağın sağlamlığı üçün şərait yaradan amillərdən biri də onu sünnət etməkdir. Məsumlardan nəql olunan bir rəvayətdə deyilir: "Körpələrinizi (oğlan uşaqlarını dünyaya gəlmələrinin) yeddinci günü sünnət edin ki, paklansınlar".[3]

**Xəstəliklərin qarşısını mənəvi amillərlə almaq:** Övladlar üçün faydalı olan önləyici mənəvi tədbirlərdən biri də körpənin sağ qulağına azan, sol qulağına isə iqamə oxumaqdır. İslam peyğəmbəri (s) buyurur: "Ey Əli! Oğlan və ya qız uşağın dünyaya gəldikdə sağ qulağına azan, sol qulağına isə iqamə oxu ki, Şeytan ona zərər verməsin".[4]

O həzrətdən gələn digər bir hədisdə deyilir: "Ey Əli! Arvadınla yaxınlıq etdikdə de: "Bismillahi əllahummə cənnibnəş-şeytanə və cənnibiş-şeytanə ma rəzəqtəni". Belə etsən, dünyaya gələcək övladınıza Şeytan heç bir ziyan vura bilməz".[5]

---

[1] "Kitab əl-xisal", səh. 520.
[2] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 69.
[3] "Əl-Kafi", c. 6, səh. 35.
[4] "Tühəf əl-üqul", səh. 13.
[5] "Tühəf əl-üqul", səh. 12.

## UŞAĞIN QİDALANMASI

**Qidalanma haqqı:** Allah-Taala uşağın qidalanmasına, xüsusilə südəmər vaxtı qidalanmasına xüsusi diqqət yetirmiş və İslam şəriətində bunun üçün bir sıra hökmlər nəzərdə tutulmuşdur. Quranda oxuyuruq: "*Analar (istər boşanmış, istərsə də boşanmamış olsun) uşaqlarını əmizdirmə müddətini tamamlatmaq istəyən (atalar) üçün tam iki il əmizdirsinlər. Anaların yeməyi və geyimi öz qüvvəsi dairəsində (uşağın) atasının üzərinə düşür. Heç kəs gücü çatdığından artıq yüklənməz*".[1]

**Uşağı əmizdirməyin mükafatı:** İslam peyğəmbəri Həzrət Məhəmməd (s) buyurur: "Qadın hamilə qaldıqda oruc tutan, namaz qılan, Allah yolunda canı və malı ilə savaşan mücahid kimidir. Körpəsini dünyaya gətirdikdə onun mükafatının nə qədər böyük olduğunu isə heç kim bilmir. Körpəni əmizdirdikdə onun hər dəfə sovurması İsmayıl övladlarından bir qul azad etməyə bərabərdir. Körpəni süddən ayırdıqda bir mələk qadının böyrünə vurur və deyir: "Allah səni bağışlamışdır. İşinə yenidən başla".[2]

## UŞAĞIN TƏLİM-TƏRBİYƏSİ

İslam dinində uşağın təlim-tərbiyəsi ilə bağlı aşağıdakı məsələlərə xüsusi diqqət ayrılmışdır:

1. Dini maariflənmə (əqayid, əxlaq, qiraət, şəriət hökmləri, ibadət və s. ilə tanışlıq);
2. İctimai bacarıqlar;
3. Müdafiə (döyüş) məharətləri.

---

[1] "Bəqərə", 233.
[2] "Əl-Əmali", Şeyx Səduq, səh. 411-412.

Bunlardan bəziləri haqqında ötən səhifələrdə söhbət açdıq, bəziləri haqqında isə irəlidə söhbət açacağıq.

## ÖVLADA QURAN VƏ ŞƏRİƏT HÖKMLƏRİNİ ÖYRƏTMƏYİN MÜKAFATI

Həzrət Məhəmmədin (s) kəlamlarında bu barədə oxuyuruq:

"Kim övladına Quran öyrətsə, Qiyamət günü onun ata-anasını çağıracaqlar. Onlara iki libas geydirəcəklər. Üzlərinin nurundan Behişt əhli aydınlanacaq".[1]

"Qiyamət günü Quran bənizi solmuş bir kişini gətirib, Allaha deyəcək: "Bu şəxsin gündüzlərini susuzluqla, gecələrini oyaqlıqla aldım. Sənin mərhəmətinə olan tamahını gücləndirdim, məğfirətinə olan arzularını genişlətdim. Elə isə onunla mənim gümanıma uyğun davran".

Allah buyuracaq: "Sağ əlinə mülkü, sol əlinə əbədiyyəti verin. Ata-anasına bütün dünyanın çata bilməyəcəyi dəyərdə zinət verin".

Qiyamət günü bütün insanlar bu ata-anaya baxacaq, onların əzəmətinə tamaşa edəcəklər. Bu məqamın heyrəti onların özlərini də bürüyəcək və soruşacaqlar: "İlahi, bu əzəmət haradandır?"

Allah buyuracaq: "Bu əzəmətə səbəb övladlarınıza Quran öyrətməyiniz, onlara İslam dininə uyğun tərbiyə verməyiniz, Məhəmməd və Əliyə sevgi ilə böyütməyinizdir".[2]

---

[1] "Əl-Kafi", c. 6, səh. 49.

[2] "Ə-Təfsir əl-mənsub ilə əl-İmam əl-Əskəri (ə)", səh. 450; "Bihar əl-ənvar", c. 89, səh. 32.

## ÖVLADLARA DİNİ ÖYRƏTMƏMƏYİN CƏZASI

Həzrət Peyğəmbər (s) bəzi uşaqlara baxıb buyurdu: "Axırzaman uşaqlarına ataları sarıdan vay olsun!"

Soruşdular: "Ey Allahın rəsulu! Müşrik olacaqları üçünmü?"

Buyurdu: "Xeyr, mömin olduqlarına rəğmən, övladlarına dinin vacibatından bir şey öyrətməyən, əksinə, onları öyrənməyə qoymayan atalara. Onlar yalnız övladlarından gələn dünya malını düşünəcəklər. Mən onlara nifrət edirəm".[1]

## UŞAQLARA İCTİMAİ BACARIQLAR VƏ DÖYÜŞ MƏHARƏTİ ÖYRƏTMƏK

İslam peyğəmbəri Həzrət Məhəmməddən (s) gələn hədislərdə buyurulur:

"Övladlarınıza atıcılığı və üzməyi öyrədin".[2]

"Övladlarınızı əzizləyin, onlara yaxşı tərbiyə verin ki, bağışlanasınız".[3]

O həzrətin daha bir kəlamında İmam Əliyə (ə) xitabən deyilir: "Ey Əli! Övladın ata üzərində haqqı budur ki, ona ədəb-ərkan öyrətsin və layiqli yerini tutmağa kömək etsin".[4]

---

[1] "Came əl-əxbar", səh. 106.
[2] "Əl-Kafi", c. 6, səh. 47.
[3] "Məkarim əl-əxlaq", səh. 222.
[4] "Əl-Fəqih", c. 4, səh. 372.

## ÖVLADLARA SEVGİ BƏSLƏMƏK

Allahın rəsulu (s) buyurur:

"Kim övladlarını öpsə, Allah onun üçün yaxşılıq (savabı) yazar".[1]

"Övladlarınızı çox öpün. Həqiqətən, hər öpüş qarşılığında sizə Cənnətdə beş yüz illik məsafəsi olan dərəcə veriləcək".[2]

Abdullah ibn Məsud deyir: "Peyğəmbərin yanında idim. Hüseyn ibn Əli daxil olduqda Həzrət Peyğəmbər onu tutub öpdü. Ağzını onun ağzına yaxınlaşdırıb buyurdu: "İlahi! Mən onu sevirəm, sən də onu və onu sevəni sev".[3]

**Qeyd:** Yuxarıdakı şərif hədisdən və Həzrət Peyğəmbərin (s) duasından belə başa düşülür ki, o həzrət: "Övladlarınızı İmam Hüseyn sevgisi ilə tərbiyə edin" – demək istəyir. Belə ki Peyğəmbərin duası İmam Hüseyni sevən övladlarınıza aid olacaqdır.

## ÖVLADA SOYUQ MÜNASİBƏTİN CƏZASI

Bir gün Həzrət Peyğəmbər (s) İmam Həsən (ə) və İmam Hüseyni (ə) öpür. Üyəynə və ya Əqrə ibn Habis adlı bir nəfər deyir: "Mənim on övladım var. Heç vaxt onlardan birini öpməmişəm".

Həzrət Peyğəmbər (s) buyurur: "Rəhm etməyənə rəhm olunmaz".

---

[1] "Əl-Kafi", c. 6, səh. 49.

[2] "Rəvzə əl-vaizin", səh. 369. Bu gün elm inkişaf etdikcə uşaqları əzizləməyin, onlara sevgisini ifadə etməyin, xüsusilə onları öpməyin tərbiyədə və sağlam şəxsiyyətin formalaşmasında oynadığı mühüm rol daha da aydın olur.

[3] "Kifayə əl-əsər", səh. 81.

Başqa bir rəvayətə görə, peyğəmbər onun bu sözlərindən o qədər narahat olub ki, üzünün rəngi dəyişib və buyurub: "Allah sənin qəlbindən duyğunu qazıyıbsa, mən nə edim? Kim bizim uşaqlarımıza məhəbbət göstərməsə, böyüklərimizə hörmət etməsə, bizdən (müsəlmanlardan) deyil".[1]

## ÖVLADLARA HÖRMƏT

Genişqəlblilik və alicənablıq sağlam davranışın önəmli amilləridir.[2] Buna görə də övlada sevgi göstərməklə yanaşı, ona alicənablıq ruhu da aşılamaq lazımdır.

Həzrət Məhəmməd (s) buyurur: "Övladlarınıza hörmət edin (onlara şəxsiyyət kimi yanaşın) və yaxşı tərbiyə verin ki, bağışlanasınız".[3]

## ÖVLADA YAXŞI AD QOYMAQLA ONA HÖRMƏT ETMƏK

Həzrət Peyğəmbər (s) buyurur: "Hər atanın övladına ilk hədiyyəsi ona yaxşı ad qoymaqdır".[4]

O həzrətin başqa bir hədisində deyilir: "Övladınıza "Məhəmməd" adı qoyduqda onunla hörmətlə davranın, məclislərdə ona yer verin, ona qaşqabaq tökməyin".[5]

---

[1] "Bihar əl-ənvar", c. 43, səh. 282-283.
[2] "Ğürər əl-hikəm", səh. 231.
[3] "Məkarim əl-əxlaq", səh. 222.
[4] "Ən-Nəvadir", səh. 6.
[5] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 29.

## UŞAĞA PEYĞƏMBƏRİN ADINI QOYMAĞIN MÜKAFATI

İslam peyğəmbəri (s) buyurur: "Elə bir süfrə yoxdur ki, onun başında Əhməd ya Məhəmməd adlı bir nəfər əyləşsin və o ev gündə iki dəfə mədh edilməsin (müqəddəs tutulmasın)".[1]

## ÖVLADI EVLƏNDİRMƏK

İslam peyğəmbəri (s) buyurur: "Övladın ata üzərində üç haqqı var. Onlardan biri budur ki, yetkinlik yaşına çatanda onu evləndirsin".[2]

## ÖVLADA KÖMƏK ETMƏK

Allahın rəsulu (s) buyurmuşdur: "Yaxşılıqda övladına kömək edənə Allah rəhmət eləsin".

Ondan soruşmuşlar: "Övlada yaxşılıqda kömək etmək necə olur?"

Həzrət buyurmuşdur: "Gücü çatanı ondan qəbul etmək, onun üçün ağır olandan isə keçmək".[3]

## ÖVLADLAR ARASINDA AYRI-SEÇKİLİYƏ YOL VERMƏMƏK

İslam peyğəmbəri (s) buyurur: "Övladlarınıza hədiyyə verəndə ayrı-seçkilik etməyin".[4]

---

[1] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 29.
[2] "Rəvzə əl-vaizin", səh. 369.
[3] "Kitab əs-sərair", c. 3, səh. 595.
[4] "Əl-Xilaf", Şeyx Tusi, c. 3, səh. 564.

O həzrət iki övladı olan, lakin onlardan yalnız birini öpən bir kişini görüb buyurmuşdur: "Nə üçün onların arasında ayrı-seçkilik etdin?"[1]

Həzrət Peyğəmbərdən (s) gələn daha bir hədisdə deyilir: "Sizə qarşı yaxşılıq və lütfdə ədalətlə davranılmasını istədiyiniz kimi, övladlarınız arasında da ədalətlə davranın".[2]

## QIZ UŞAĞINA YAXŞILIĞIN BİRİNCİLİYİ

Həzrət Məhəmməd (s) buyurur: "Kim bazara gedib ailəsi üçün töhfə alsa və onu evə aparsa, ehtiyaclılar üçün sədəqə aparan kimidir. (Hədiyyə verməkdə) Qızları oğlanlardan önə salmaq lazımdır. Çünki kim qız uşağını sevindirsə, elə bil ki, İsmayıl övladlarından bir qul azad etmişdir".[3]

O həzrət başqa bir kəlamında bildirir: "Övladlarınıza hədiyyə verərkən ayrı-seçkilik etməyin. Hansınasa daha çox hədiyyə vermək istəsəniz, qız uşağına verin".[4]

## ÖVLADLAR ÜÇÜN DUA

Yaxşı olar ki, insan övladlarına tərbiyə vermək və onlara yaxşılıq etməklə yanaşı, onlar üçün dua da etsin və İmam Səccaddan (ə) bu mövzuda nəql olunmuş aşağıdakı duanı oxusun:

"İlahi! Mənə minnət qoy, övladlarımı qoru, onları əməlisaleh et və mənə onların xeyrini göstər.

---

[1] "Əl-Cəfəriyyat", səh. 55.
[2] "Məkarim əl-əxlaq", səh. 220.
[3] "Əl-Əmali", Şeyx Səduq, səh. 577.
[4] "Əl-Xilaf", Şeyx Tusi, c. 3, səh. 564.

İlahi! Onların ömrünü uzat, əcəllərini təxirə sal, kiçiklərini böyüt, zəiflərini gücləndir. Onlara cansağlığı ver, doğru dində, yaxşı xasiyyətdə boya-başa çatdır. Onların cismini və ruhunu bəlalardan, mənim nigaran olduğum hər şeydən qoru. Mənim ruzimi çoxalt, mənim vasitəmlə onların ruzisini də bol et.

Onları əməlisaleh, pəhrizkar, düşüncə sahibi, nəsihət eşidən və Özünə müti et. Dostlarını sevən, onların xeyrini istəyən, düşmənlərinə qarşı bədxah və kinli et. Amin!

İlahi! Mənim qolumu onlarla gücləndir, işlərimdəki çatışmazlıqları onlarla düzəlt. Onlara köməyimi artır. Süfrəmi onlarla bəzə, adımı onlarla əbədiləşdir. Mən olmayanda işlərimi onlarla sahmana sal. Hacətlərimdə onları mənə yardımçı et. Onları məni sevən, mənə qarşı mehriban et. Qoy ürəkləri həmişə mənimlə olsun. Qəlblərini mənə müti et. Onları mənə qarşı asi, müxalif, ədəbsiz, yaramaz etmə.

Onları boya-başa çatdırmaqda, tərbiyə verməkdə, onlara yaxşılıq etməkdə mənə yardımçı ol. Mənə onlardan oğul övladları ver. Mənim xeyrimi onlarda qərar ver. Səndən istədiklərimdə Onları mənə dəstək et.

Məni və övladlarımı Öz pənahından qovduğun Şeytandan qoru. Bizi Sən yaratmısan, əmrlər vermisən, qadağalar qoymusan. Əmrlərinin mükafatı ilə müjdələmiş, asi olmağın cəzası ilə hədələmisən. Bizim üçün bizi aldadan düşmən də yaratmısan. Onu bizə hakim kəsdiyin qədər bizi ona hökmran etməmisən. Ona qəlblərimizdə yer vermisən, onu damarlarımıza axıtmısan. Biz qafil olsaq da, o olmur. Biz unutsaq da, o unutmur. Bizi Sənin əzabından amanda qalacağımıza inandırır, Səndən qeyrisindən qorxudur. Pis iş görməyi qərara aldıqda bizi cürətləndirir, yaxşı iş görməyi qərara aldıqda isə bizi çəkindirir. Nəfsani meyilləri bizim gözümüzdə bəzəyir. Etiqadımıza şübhə toxumu səpir. Öz

vədinə vəfa etmir, arzularımızı həyata keçirmir. Onun hiyləsini bizdən uzaqlaşdırmasan, bizi yolumuzdan çıxaracaq, bizi ondan qorumasan, bizi büdrədəcək.

Öz qüdrətinlə onu zəiflət ki, bizim çoxlu dualarımızla onun əllərini bağlayasan, Sənə sığınaraq onun hiyləsindən amanda qalaq.

İlahi! Səndən istədiklərimi mənə ver. Hacətlərimi əta qıl. Məni (dualarımın qəbul olunmasına) naümid etmə, çünki Sən özün dualarımı qəbul edəcəyini vəd vermisən. İstəklərim səndən gizli deyil. Dünya və axirətdə – xatırlayıb-xatırlamadığım, gizli və ya aşkar istəklərimdən – mənə layiq olanını ver.

Məni bütün hallarda layiqli bəndə et ki, Səndən istəyim və istədiyimə nail olum. Sənə sığınmağa vərdiş edənlərdən olum. Səninlə alış-verişdə qazanc əldə edim. Sənin izzətin sayəsində əmin-amanlıqda olum. Sənin geniş səxavətin sayəsində halal ruzi qazanım. Məni xar olduğu halda, Səninlə hörmətli olanlardan, zalım olduğu halda, ədalətinə sığınanlardan, bəla və əzabdan rəhmətinə tapınanlardan, xəzinənlə zəngin olan yoxsullardan, təqvan ilə günah və büdrəmədən qorunanlardan, itaətinlə doğru yolu gedib nicat tapanlardan, qüdrətin sayəsində günahla aralarında maneə yarananlardan, itaətsizliyi tərk edib pənahına daxil olanlardan et.

İlahi! Bütün bunları öz rəhmətin və uğurunla mənə əta et. Məni Cəhənnəm əzabından öz pənahına al. Mənim özüm və övladlarım üçün istədiklərimi bütün müsəlman və mömin kişi və qadınlara ver. Sən bəndələrinə yaxınsan, onların istəklərini verirsən. Hər kəsin səsini eşidir, ürəklərdəki bütün sirləri bilirsən. Günahkarları bağışlayırsan. Sən mehriban və rəhmlisən.

Bizə dünya və axirətdə yaxşılıq nəsib et. Bizi odun əzabından qoru".[1]

Bu duanı oxumaq mənəvi xeyir-bərəkətdən əlavə, bizə valideynlərimizin hüquqlarını da öyrədir, onların məqamını, mövqeyini göstərir.

## KİŞİNİN ÖZ HƏYAT YOLDAŞINA QAYĞISI

### HƏYAT YOLDAŞININ VARLIĞININ DƏYƏRİ

Kişi üçün evdə həyat yoldaşının olması o qədər böyük dəyər və əhəmiyyətə malikdir ki, bu, onun həyatına dinclik bəxş edən amillərdən hesab olunur.[2] Evli adamın qıldığı iki rükət namaz subayın bütün gecə etdiyi ibadətdən daha üstündür.

Bu barədə hədislərdə deyilir ki, evli adamın iki rükət namazı subayın yetmiş rükət namazından üstündür.[3]

İmam Sadiq (ə) buyurur: "Atam bir kişidən soruşdu: "Ailəlisənmi?" Kişi: "Xeyr!" – deyə cavab verdi. Atam buyurdu: "Bütün dünya mənim olsa belə, bir gecəni həyat yoldaşım olmadan keçirmək istəmərəm". Sonra əlavə etdi: "Evli adamın qıldığı iki rükət namaz subayın gündüzü oruc tutub, bütün gecəni ibadət etməsindən daha üstündür". Atam ona yeddi qızıl sikkə verib dedi: "Bu pulla ailə qur". Ardınca isə peyğəmbərin belə buyurduğunu nəql etdi: "Evlənin, bu, sizin ruzinizi, həqiqətən, çoxaldar".[4]

---

[1] "Səhifeyi-Səccadiyyə", dua: 25.

[2] "*Sizi tək bir nəfərdən (Adəmdən) xəlq edən və onunla ünsiyyət etmək (sakit, rahat olmaq) üçün özündən zövcəsini (Həvvanı) yaradan Odur*" ("Əraf", 189).

[3] "Əl-Muqniə", səh. 497.

[4] "Təhzib əl-əhkam", c. 7, səh. 239-240.

Allahın rəsulu (s) buyurur: "Möminin əyləncəsi yalnız üç halda doğrudur: at əhliləşdirmək, ox atmaq və həyat yoldaşı ilə dilxoşluq etmək".[1]

Qadının bir ana kimi hüquqları haqqında söhbət açdıq, indi isə qadının bir həyat yoldaşı kimi hansı haqlara sahib olduğundan danışacağıq. Ər və arvad bir-birinə münasibətdə bir sıra haqlara malikdirlər. Onlara riayət etdikdə həyat şirin və ürəkaçan olur [2], onları nəzərə almadıqda isə uğursuzluq və kədər qapını döyür.

Allah-Taala qadınları kişilər, kişiləri də qadınlar üçün libas kimi təqdim etmişdir.[3] Geyim insanı qoruyur, eyiblərini örtür, istidən və soyuqdan saxlayır, ona zinət bəxş edir və rahatlandırır. Ər və arvad da bir-biri üçün belədir, bir şərtlə ki, həyata iki önəmli prinsip – dostluq və mehribanlıq hakim olsun.[4]

Allah-Taala buyurur: "*Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!*"[5]

Allah-Taala kişilərə həyat yoldaşları ilə yaxşı davranmağı dəfələrlə tövsiyə edir, "*Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin*"[6] – deyir. Quranın müxtəlif ayələrində mehrin (kəbin

---

[1] "Əl-Kafi", c. 5, səh. 50.
[2] "əl-Fəqih", c. 4, səh. 392.
[3] "*Onlar sizin, siz də onların libasısınız*" ("Bəqərə", 187).
[4] "Təsnim", c. 9, səh. 460-462.
[5] "Rum", 21.
[6] "Nisa", 19.

haqqının) ödənilməsində,[1] qarşılıqlı hüquqlara riayət edilməsində,[2] gündəlik həyat xərclərinin təmin olunmasında,[3] hətta ayrılıq və talaq zamanı[4] kişilərə qadına qarşı yaxşı davranmaq tövsiyə edilmişdir. Demək, heç bir halda, hətta qadın səhv etmiş olsa belə, həyat yoldaşına qarşı pis davranmaq, ona zülm etmək, hüquqlarını nəzərə almamaq olmaz. Hətta kişiyə talağını verdiyi qadına gücü çatan bir hədiyyə verməsi tövsiyə olunmuşdur:

"*Yaxınlıq etmədiyiniz (toxunmadığınız) və mehrini (kəbin haqqını, başlığını) təyin etmədiyiniz qadınları boşamaq sizə günah sayılmaz. Qəbul olunmuş qayda üzrə, varlı öz imkanı daxilində, kasıb da gücü çatdığı qədər, yaxşılıq (ehsan) edənlərə layiq şəkildə onlara bir şey (mütə) versin!*"[5]

Bir neçə ayədən sonra Allah-Taala bu önəmli və qurucu göstərişi təkrar edir, bu məsələni bir daha vurğulamaqla onu pəhrizkarlıq niyyətində olan insanlar üçün zəruri bir vəzifə hesab edərək buyurur: "*Boşanan qadınları qəbul olunmuş tərzdə (layiq olduqları şəkildə) faydalandırmaq müttəqilərin vəzifəsidir*".[6]

Quranın bu təlimlərinə əsasən, vəhy ailəsinin kəlamlarında həyat yoldaşına (qadına) yaxşılıqla bağlı bir çox tövsiyələr öz

---

[1] "*İffətini qoruyub saxlayan, zinakarlıq etməyən və aşnası olmayan cariyələrlə sahiblərindən icazə alıb evlənin və onların mehrlərini qəbul olunmuş qaydada verin!*" ("Nisa", 25).

[2] "*(Kişilərin qadınlar) üzərində şəriətə görə hüquqları olduğu kimi, (qadınların da) onlar (kişilər) üzərində hüquqları vardır*" ("Bəqərə", 228).

[3] "*Anaların yeməyi və geyimi öz qüvvəsi dairəsində (uşağın) atasının üzərinə düşür* " ("Bəqərə", 233).

[4] "*Qadınlarınızı (rici talaqla) boşadığınız və onların gözləmə müddəti başa çatdığı zaman onları ya xoşluqla saxlayın, ya da xoşluqla buraxın. (Əziyyət və) zərər vermək məqsədilə haqlarına təcavüz edib onları saxlamayın! Hər kəs bunu etsə, şübhəsiz ki, özünə zülm etmiş olar*" ("Bəqərə", 231).

[5] ("Bəqərə", 236).

[6] "Bəqərə", 241.

əksini tapmışdır ki, onların bir hissəsini ailə bəhsində diqqətinizə çatdırdıq, bəzilərinə isə burada nəzər salacağıq.

## HƏYAT YOLDAŞINA (QADINA) YAXŞILIĞIN SAVABI

Qadına yaxşılıq və qayğının ən önəmli nümunələrindən biri ona sevgi göstərmək və zahiri səliqə-sahmana diqqətli olmaqdır. Bu, ailənin təməlini möhkəmləndirən amillərdən biridir.

Əmirülmöminin Əli oğlu Məhəmməd Hənəfiyyəyə vəsiyyətində buyurur: "Həqiqətən, qadın reyhandır (gül şaxəsidir), qəhrəman deyil. Odur ki hər vəziyyətdə onunla mehriban davran, daim yanında ol ki, həyatın xoş keçsin".[1]

İmam Sadiq (ə) buyurur: "Arvadına münasibətdə ərə üç şey vacibdir: onunla razılaşmaq və bu yolla onun meylini, sevgisini özünə çəkmək, ona münasibətdə xoşəxlaqlı olmaq və onun gözündə zahiri görkəmcə səliqəli olmaqla, onu firavan yaşatmaqla könlünü çalmaq".[2]

İmam Kazım (ə) buyurur: "Kişinin öz həyat yoldaşı üçün bəzənməsi qadının ismətini artıran amillərdəndir".[3]

---

[1] "Əl-Fəqih", c. 4, səh. 392.
[2] "Tühəf əl-üqul", səh. 323.
[3] "Məkarim əl-əxlaq", səh. 97.

## HƏYAT YOLDAŞINA (QADINA) YAXŞILIĞIN AXİRƏT MÜKAFATI

Ailəyə qayğı ilə bağlı bundan əvvəl qeyd olunmuş rəvayətlərin qadına yaxşılıq və qayğıya da aid olduğuna baxmayaraq, bu bölmədə həyat yoldaşına (qadına) xidmət və qayğının savabı haqqında nəql olunan hədisləri diqqətinizə çatdırırıq.

Həzrət Əli (ə) buyurur: "Bir gün Allahın rəsulu bizə gəldi. Həzrət Fatimə qazanın yanında əyləşmişdi, mən isə mərci arıtlayırdım. Həzrət buyurdu: "Ey Əbül-Həsən! Məni eşit, mən Allah tərəfindən olmayan sözü demirəm. Elə bir kişi yoxdur ki, evdə həyat yoldaşına kömək etsin və bu, onun üçün oruc və gecə ibadətlərindən daha çox ibadət hesab olunmasın".[1]

Sonra buyurdu: "Ey Əli! Əyalına (arvadına) yalnız doğru yolda olanlar, şəhid və Allahın onun üçün dünya və axirət xeyri istədiyi kişi qayğı göstərər".[2]

## KİŞİNİN ÖZ HƏYAT YOLDAŞININ PİS XASİYYƏTİNƏ DÖZMƏSİNİN SAVABI

Allahın rəsulu (s) buyurur: "Allah Onun xətrinə arvadının bədxasiyyətliyinə dözən kişinin səbri qarşılığında hər dəfə ona Həzrət Əyyubun bəlalar qarşısında etdiyi səbrin savabını verir".[3]

## KİŞİNİN QADINA YAXŞILIĞININ SƏRHƏDİ

Kişinin həyat yoldaşına qarşı yaxşılığı qadının gerçək ehtiyaclarına qayğı və diqqət, onun rifah və asayişini layiqincə

---

[1] "Came əl-əxbar", səh. 102.
[2] "Came əl-əxbar", səh. 103.
[3] "Səvab əl-əmal", səh. 287.

təmin etmək çərçivəsində olmalıdır. Belə ki hətta onunla söhbət və ünsiyyətdə belə nəfsani meyillərə alət olmamaq tövsiyə edilmişdir. Eynilə valideynə itaət də, onun yüksək məqamına baxmayaraq, şirkə qarışmamaq, onun istəklərinin ilahi göstərişlərə zidd olmaması ilə şərtlənmişdir.

Həzrət Məhəmməd (s) buyurur: "Ey Əli! Hansı kişi arvadına tabe olsa, Allah onu üzüqoylu Cəhənnəm oduna atacaq".

Həzrət Əli (ə) soruşur: "O tabeçilik nədir?"

Həzrət (s) buyurur: "Arvadına (örtüksüz halda) ümumi hamamlara, toy və yas mərasimlərinə getməyə, nazik paltar geyinməyə icazə vermək".[1]

İslam peyğəmbərinin (s) digər kəlamlarında deyilir:

"Qadın süslənib ətirlənərək evdən bayıra çıxsa, əri də onun bu əməlindən razı qalsa, o ər üçün arvadının atdığı hər addım qarşılığında alovdan bir ev tikilir. Elə isə arvadlarınızın qanadlarını qısaldın (onların cövlan etməsinə imkan verməyin). Qanadlarının uzun olması peşmançılıq gətirir, cəzası alovdur. Qanadlarının qısalığında razılıq və sevinc var, Cənnətə hesabatsız daxil olmaq var. Mənim qadınlarınızla bağlı tövsiyəmi nəzərə alın ki, hesabatın (Qiyamət gününün) çətinliyindən xilas olasınız. Kim mənim tövsiyəmə əməl etməsə, Allah yanında çox pis vəziyyətdə olacaq".[2]

"Ümmətim bir neçə şeyi etsə, ona bəla nazil olacaq. (Onlardan biri) kişinin arvadına tabe olub, anasına baş əyməməsidir".[3]

---

[1] "Əl-Fəqih", c. 4, səh. 362.
[2] "Came əl-əxbar", səh. 158.
[3] "İrşad əl-qülub", səh. 71.

## KİŞİNİN HƏYAT YOLDAŞINA KOBUD MÜNASİBƏTİNİN CƏZASI

Allahın rəsulu (s) buyurur: "Kim bir qadına zülm edərək onu vursa, Qiyamət günü mən ona düşmən olacağam. Qadınlarınızı vurmayın. Kim onlara zülm edərək vursa, Allah və peyğəmbərinə asi olmuşdur".[1]

## QADININ MEHRİNİ ÖDƏMƏMƏYİN CƏZASI

Qadının mehri (başlığı) ödənilməsi vacib, bilərəkdən yubadılması isə günah olan borclardandır.

Abdullah ibn Abbasın söylədiyinə görə, İslam peyğəmbəri (s) dünyasını dəyişməzdən öncə Mədinə şəhərindəki son çıxışında bir sıra tövsiyələr verib ki, onları eşidənlərin gözləri yaşarıb, ürəkləri xoflanıb. Həzrətin buyurduqlarından biri budur: "Kim bir qadına mehrini ödəməkdə zülm etsə, Allah dərgahında zinakar hesab olunur. Qiyamət günü Allah ona buyuracaq: "Mənim bəndəm, kənizimi öz əhdimlə sənin nikahına verdim, amma sən əhdimə vəfa etmədin".

Bu halda Allah həmin qadının haqqını almağı öz üzərinə götürür. Kişinin bütün yaxşı əməllərinin mükafatını qadına verir, amma o qadının haqqı yenə ödənmir. Buna görə də o kişinin oda atılması əmr olunur".[2]

---

[1] "İrşad əl-qülub", səh. 175.
[2] "Səvab əl-əmal", səh. 208-283.

## ƏRƏ YAXŞILIQ

Hər bir insanın inkişaf və yüksəliş üçün həyat yoldaşına ehtiyacı var. Buna görə də Allahın rəsulu (s) qadınların nikahı rədd edib ərə ehtiyac duymamalarını yasaq etmişdir.[1] Bu nöqteyi-nəzərdən, kifayət qədər maddi imkanı olduğundan və ya hansısa başqa bir səbəbdən evliliyin, müştərək həyatın çətinliklərinə dözməyən qadınlar böyük və əvəzolunmaz fəzilətləri əldən vermiş olurlar.

Bir qadın İmam Sadiqə (ə) deyir: "Mən dünyadan əlini üzmüş bir qadınam".

İmam (ə) buyurur: "Bununla nə demək istəyirsən?"

Qadın deyir: "Ailə qurmuram".

İmam Sadiq (ə) soruşur: "Nə üçün?"

Qadın: "Fəzilət əldə etmək istəyirəm", – deyə cavab verir.

Həzrət (ə) buyurur: "Bu fikrindən dön. Ailə qurmamaqda fəzilət olsaydı, Həzrət Fatimə buna səndən daha layiq olardı. Çünki fəzilətdə heç kim ondan önə keçməyib".[2]

Dini təlimlərdə qızları ərə vermək üçün tələsmək məsələsi də yer alıb. İmam Rza (ə) buyurur: "Cəbrayıl Həzrət Peyğəmbərin yanına gəlib dedi: "Ey Məhəmməd! Allahın sənə salam göndərir və buyurur: "Qızlar ağacdakı meyvə kimidirlər. Meyvə yetişəndə dərilməsə, günəş onu korlayacaq, küləklər onu ətrafa dağıdacaq. Qızlar da yetkinləşəndə onlar üçün ən yaxşı şey ərə getməkdir. Əks təqdirdə fitnə-fəsaddan amanda qalmayacaqlar".[3]

İmam Sadiq (ə) buyurur: "Kişinin xoşbəxtliyi odur ki, qızı onun evində heyz (aybaşı) görməsin".[4]

---

[1] "Əl-Kafi", c. 5, səh. 509.
[2] "Əl-Kafi", c. 5, səh. 509.
[3] "Üyun əxbar ər-Rza (ə)", c. 1, səh. 289.
[4] "Əl-Kafi", c. 5, səh. 336.

**Ər qarşısında qadının məsuliyyəti:** Həzrət Peyğəmbər (s) buyurur: "Qadın kişinin ailəsinin və övladlarının keşikçisidir. O, bu keşikçilik üçün məsuliyyət daşıyır".[1]

**Ərə hörmət:** İslam peyğəmbəri (s) buyurur: "Əgər kiminsə başqa birisinə səcdə etməsini istəməli olsaydım, qadına öz ərinə səcdə etməsini əmr edərdim".[2]

**Ərə xoş üz göstərmək:** Həzrət Peyğəmbərin (s) kəlamında bu barədə deyilir: "Qadının ərinə qəzəblə baxması yolverilməzdir".[3]

**Ərə qayğının mükafatı:** Bəzi rəvayətlərə görə, ərinə bir qurtum su verən qadına çoxlu savab yazılır və onun altmış günahı bağışlanır.[4]

Həzrət Məhəmməd (s) buyurur: "Allah ərinə yeddi gün xidmət edən qadının üzünə Cəhənnəm odunun yeddi qapısını bağlayır. Behiştin səkkiz qapısını isə onun üzünə açır ki, hansından istəsə, daxil olsun".[5]

Ümmü-Sələmə Həzrət Peyğəmbərdən (s) soruşur: "Qadının öz ərinə xidmət göstərməsinin dəyəri nədir?"

Həzrət (s) buyurur: "Allah ər evində bir şeyin yerini düzəliş etmək məqsədi ilə dəyişən qadına mərhəmətlə baxır. Allah kimə mərhəmətlə baxsa, ona Cəhənnəm əzabı verməyəcək".[6]

**Ərə itaətin mükafatı:** İmam Sadiqdən (ə) nəql olunan rəvayətdə bu barədə deyilir: "Peyğəmbər zamanında mədinəli bir kişi səfərə gedir. Xanımı ilə əhd-peyman bağlayır ki, səfərdən qayıdınca evdən bayıra çıxmasın. Qadının atası xəstələnir. Qadın

---

[1] "İrşad əl-qülub", səh. 184.
[2] "Əl-Kafi", c. 5, səh. 508.
[3] "Müstədrək əl-vəsail", c. 14, səh. 243.
[4] "İrşad əl-qülub", səh. 175.
[5] "Əvali əl-ləali", c. 1, səh. 270.
[6] "Əl-Əmali", Şeyx Tusi, səh. 618; "Bihar əl-ənvar", c. 100, səh. 251.

Peyğəmbərə xəbər göndərir ki, ərim səfərdədir və qayıdana qədər evdən çıxmayacağım haqda onunla əhd-peyman bağlamışam. İndi atam xəstədir. Ona baş çəkməyə getməyimə izin verirsənmi? Allahın rəsulu (s) buyurur: "Xeyr, evində otur və ərinə itaət et".

Atasının xəstəliyi ağırlaşır. Qadın bir daha Peyğəmbərə ismarış göndərir. Peyğəmbər (s) buyurur: "Evində otur və ərinə itaət et".

Qadının atası ölür və o, Peyğəmbərə xəbər göndərib, atasının cənazə namazında iştirak etmək üçün izin istəyir. Həzrət (s) buyurur: "Xeyr, evində otur və ərinə itaət et".

Qadının atasını torpağa tapşırırlar. Peyğəmbər həmin qadına xəbər göndərir ki, ərinə itaət etdiyin üçün Allah səni və atanı bağışladı".[1]

**Qeyd:** İslam peyğəmbərinin (s) yuxarıdakı konkret situasiyada verdiyi əmrin, mütləq, müəyyən sirləri vardır və onu ümumiləşdirərək hamıya, bütün zamanlara aid etmək olmaz. Ümumilikdə isə əhvalat qadının ərinə itaətinin əhəmiyyətini göstərir.

**Ərin razılığını əldə etməyin savabı:** İmam Baqir (ə) buyurur: "Qadın üçün ərin razılığından daha təsirli şəfaətçi yoxdur. Həzrət Fatimə dünyasını dəyişəndə Həzrət Əli onun məzarı başında demişdi: "İlahi! Mən peyğəmbərinin qızından razıyam".[2]

Ərə yaxşılıq, ona itaət və gözəl münasibət o qədər önəmlidir ki, rəvayətlərdə bu, cihad kimi təqdim olunmuşdur.[3]

---

[1] "Əl-kafi", c. 5, səh. 513.
[2] "Kitab əl-xisal", səh. 588.
[3] "Əl-kafi", c. 5, səh. 507.

**Səbirli qadınların savabı:** Həzrət Məhəmməd (s) buyurur: "Allah üç dəstə qadının üzərindən qəbir əzabını götürəcək və onları məhşərə peyğəmbər qızı Fatimə ilə birgə çıxaracaq: ərinin qeyrətinə (qısqanclığına) dözən qadınlar, ərinin pis xasiyyətinə dözən qadınlar və mehrini (başlığını) ərinə bağışlayan qadınlar. Allah onların hər birinə min şəhidin savabını verəcək".[1]

**Ərə itaətsizliyin cəzası:** İmam Baqir (ə) buyurur: "Allahın rəsulu Qurban bayramı günü Mədinədən çıxdı və yolda qarşılaşdığı qadınlara dedi: "Ey qadınlar! Sədəqə verin və ərinizə müti olun. Sizin çoxunuz, həqiqətən, oddasınız (Cəhənnəmdə olacaqsınız)".

Onlar bu sözü eşidib ağladılar. Sonra aralarından bir qadın qalxıb dedi: "Ey Allahın rəsulu! Biz odda (Cəhənnəmdə) kafirlərlə bir yerdəmi olacağıq? Allaha and olsun, biz kafir deyilik ki, Cəhənnəmdə də olaq".

Allahın rəsulu buyurdu: "Siz ərlərinizin hüquqlarına qarşı kafirsiniz".[2]

**Ərin cinsi tələbatına etinasızlığın cəzası:** Həzrət Peyğəmbər (s) buyurur: "Mələklər ərinin cinsi tələbatını təmin etmək üçün çağırdığı və hər dəfə həvəsi soyuyub yatıncaya qədər yubanan qadına əri yuxudan oyanana qədər lənət oxuyurlar".[3]

**Qeyd:** Ərin cinsi tələbatına laqeydliyin təhlükəsi budur ki, o, arzuolunmaz günahlar işləyə və bu çirkinliklər ailənin təməlini sarsıda bilər.

---

[1] "İrşad əl-qülub", səh. 175.
[2] "Əl-Kafi", c. 5, səh. 514.
[3] "Məkarim əl-əxlaq", səh. 249.

**Əri incitməyin cəzası:** Həzrət Məhəmməd (s) buyurur: "Allah öz ərini incidən qadının namazını və heç bir yaxşı əməlini – hətta o, bütün ömrünü oruc tutsa, ibadət etsə, çoxlu qul azad etsə, malını Allah yolunda bağışlasa belə – ərinə kömək edib, onu razı salmayınca qəbul etmir. (Bu hal davam etdiyi müddətdə) Cəhənnəmə ilk daxil olacaq insan o qadındır".

Sonra əlavə edir: "Bu cəzanın eynisi həyat yoldaşına zülm edərək onu incidən ər üçün də keçərlidir".[1]

İslam peyğəmbərinin (s) digər bir hədisində oxuyuruq: "Qadın öz ərini sözləri ilə incitsə, Allah onun heç bir əməlini qəbul etmir".[2]

Başqa bir rəvayətdə deyilir: "Qadın öz əri ilə razılaşmır, Allahın verdiyi ruziyə qane olmur, ərini sıxışdırır, onu bacarmadığı işə vadar edirsə, Allah onu Cəhənnəm odundan xilas edə biləcək heç bir yaxşı əməlini qəbul etmir. O, belə olduqca Allahın qəzəbi də davam edir".[3]

**Ərə itaətin sərhədi:** Allahın qadınlara qarşı qəzəb və razılığı onların ərlərinin qəzəb və razılığına əsaslanır. Amma bu heç də o demək deyil ki, qadın ərinin bütün istəklərinə boyun əyməlidir. Ərin istəkləri şəriətə uyğun olmalı və kişilərin qadınlar üzərindəki haqlarına dayanmalıdır.

İmam Sadiq (ə) buyurur: "Qadın gecəni əri ondan haqlı olaraq narazı olduğu halda keçirirsə, əri ondan razı qalana qədər heç bir namazı qəbul olunmur".[4]

### 3. Qardaş və bacılara yaxşılıq;

---

[1] "Bihar əl-ənvar", c. 73, səh. 363.
[2] "Əl-Fəqih", c. 4, səh. 14.
[3] "Səvab əl-əmal", səh. 287.
[4] "Əl-Kafi", c. 5, səh. 507.

Qohumlarla əlaqə məsələsində qardaşlara xüsusi diqqət ayrılmışdır. İmam Səccad (ə) buyurur: "Qardaşının sənin üzərində haqqı budur ki, onun sənin əlin (dayağın), nüfuzun və gücün olduğunu biləsən. Elə isə ondan Allaha qarşı günah yolunda silah kimi faydalanma, Allahın məxluqatına zülm yolunda kömək alma. Ona düşmənlərinə qarşı yardım etməkdən, xeyrini istəməkdən əl çəkmə".[1]

Rəvayətlərdən birində deyilir ki, kim qardaşına hörmət etsə, Allaha hörmət etmişdir. Görün Allaha hörmət edənin mükafatı nə qədərdir!

Peyğəmbər (s) yeddi yaşında ikən anası (dayəsi) Həliməyə deyir: "Ana, qardaşlarım haradadır?"

Həlimə deyir: "Əziz balam, onlar qoyunları otlağa aparıblar. Allah o qoyunları bizə sənin sayəndə verib".

Həzrət buyurur: "Ana, mənimlə insafla davranmırsan".

Həlimə soruşur: "Nə üçün, oğlum?"

Buyurur: "Mən kölgədəyəm, qardaşlarım isə istidə, qızmar günün altında".[2]

## BÖYÜK QARDAŞIN YERİ

İmam Rzanın (ə) buyurduğuna görə, qardaşlar arasında böyük qardaşın özünəməxsus yeri və məqamı var və o, ata əvəzidir.[3]

---

[1] "Əl-Fəqih", c. 2, səh. 621.
[2] "Bihar əl-ənvar", c. 15, səh. 376.
[3] "Tühəf əl-üqul", səh. 442.

## SÜD QARDAŞ-BACISINA YAXŞILIQ

İmam Sadiqdən (ə) nəql edilən rəvayətdə deyilir: "Peyğəmbərin süd bacısı onun yanına gəlir. Həzrət onu görüb sevinir, əbasını sərib, üstündə oturdur. Sonra onunla söhbət etməyə başlayır. Söhbət əsnasında üzündən gülüş əskik olmur. Sonra süd bacısı gedir və süd qardaşı gəlir. Amma Peyğəmbər (s) ona bacısına göstərdiyi münasibəti göstərmir. Ondan soruşurlar: "Bacına göstərdiyin münasibəti ona göstərmədin. Halbuki o, kişidir".

Həzrət buyurur: "Çünki bu qadının valideynlərinə yaxşılığı onun yaxşılığından daha çoxdur".[1]

Bu hədis Həzrət Peyğəmbərin (s) həm qardaş və bacıya, həm də valideynlərə münasibətini göstərir.

**4. Digər qohumlara yaxşılıq;**

Ötən bəhslərdə qohumlarla yaxşı münasibətdə olmağın, bütün uzaq və yaxın qohum-əqrəba ilə ünsiyyət saxlamağın əhəmiyyəti aydın oldu. Burada isə digər qohumlarla bağlı bəzi məqamları diqqətinizə çatdırırıq.

İmam Sadiq (ə) Zeyd Şəhhama buyurub: "Mənim salamımı mənə tabe olanlara, sözümü eşidib əməl edənlərə yetir. De ki, sizi təqvalı olmağa çağırıram. Qohum-əqrəbanızla (başqa məzhəbdən olsalar da) ünsiyyətdə olun. Onların dəfn mərasimində iştirak edin, xəstələrinə baş çəkin, hüquqlarına hörmət edin. Belə etsəniz, "Bu kişi cəfəridir" – deyiləcək və bu, məni sevindirəcək".[2]

---

[1] "Əl-Kafi", c. 2, səh. 161.
[2] "Əl-Kafi", c. 2, səh. 636.

## XALAYA YAXŞILIĞIN MÜKAFATI

İmam Sadiq (ə) buyurur: "Bir kişi Peyğəmbərin yanına gəlib dedi: "Bir qızım var idi. Onu böyüdüb boya-başa çatdırdım. Yetkinlik yaşına çatanda geyindirib-keçindirdim və bir quyuya atdım. Ondan eşitdiyim son söz bu oldu: "Atacan, bu günahın kəffarəsi nədir?"

Həzrət buyurdu: "Anan sağdırmı?"

Dedi: "Xeyr!"

Buyurdu: "Xalan varmı?"

Dedi: "Bəli".

Buyurdu: "Xalana yaxşılıq et. Həqiqətən o, ana əvəzidir. Ona yaxşılıq etmək sənin günahının kəffarəsi olacaq".[1]

### 5. Sonradan qohum olanlara yaxşılıq;

İnsanın qohumu sayılan şəxslərdən biri də nikah vasitəsilə ona qohum olan kürəkəndir. İslamda qohumlar dedikdə həm qan (soy, nəsil) qohumları, həm də evlənmək yolu ilə qohum olan insanlar nəzərdə tutulur. Çünki bəzi dini mətnlərdə və nikah xütbələrində sonradan (evlənmək yolu ilə) qohum olanlar da həqiqi qohum-əqrəba hesab olunmuşlar. İmam Cavadın nikahı zamanı oxunan xütbədən bəlli olur ki, Allah-Taala kürəkəni "əlavə nəsil" hesab edir.[2] Buna görə də insan nikah vasitəsilə qohum olduğu şəxslərlə də münasibətini kəsməmə-lidir.

Allah-Taala Quranda buyurur: "*İnsanları sudan (nütfədən) yaradan, onları (bir-biri ilə) əsl qohum (qan qohumu) və sonradan qohum edən Odur. Rəbbin (hər şeyə) qadirdir! (Birinci,*

---

[1] "Əl-Kafi", c. 2, səh. 163.
[2] "Mənaqibi-Ali-Əbu Talib", İbn Şəhraşub, c. 3, səh. 350.

*ata-ana tərəfdən, ikinci isə bacı, qız tərəfdən olan qohumluqdur)*".[1]

Allah tərəfindən Həzrət Peyğəmbərə (s) qızı Fatiməni Həzrət Əliyə ərə vermək əmr olunduqdan sonra o, söylədiyi nitqdə belə buyurmuşdur: "Allah-Taala kürəkənliyi kürəkənin qohumlara qatılması üçün bir vasitə etmişdir".[2]

Peyğəmbərin (s) başqa bir kəlamında deyilir: "Ey qohum-əqrəba! Bir-birinizlə görüşün, amma qonşu olmayın. Bir-birinizə hədiyyə verin. Çünki hədiyyə kin-küdurəti aradan qaldırır. Görüş dostluğu möhkəmlədir".[3]

Bu, bütün qohumlara – həm qan qohumlarına, həm də sonradan qohum olanlara aiddir. Buna görə də dində əsl qohumlar kimi, sonradan qohum olanlarla da yaxşı münasibət saxlamaq tövsiyə olunmuşdur. Hərçənd birincilik qan qohumlarına aiddir. Kürəkən nikah yolu ilə qohumlar sırasına girdiyi kimi, gəlinin da qan qohumları, xüsusilə ata-anası kürəkənin qohumları hesab olunur.

## QOHUMLARLA ÜNSİYYƏTİN BU DÜNYADAKI FAYDALARI

Qohumlarla əlaqə saxlamağın mənəvi və axirət savabı olduğu kimi, bu dünyada da faydaları var. Həzrət Əli (ə) buyurur: "Bilin ki, sizin heç biriniz öz qohumlarınızdan üz döndərməməlisiniz. Qohumlarınızı yoxsulluq və pərişanlıq içində gördükdə onlara ehsan etməlisiniz. Onlara verməyə qıymadığınız mal artmayacaq, onlara sərf etdiyiniz mal azalmayacaq (Allah onun əvəzini verəcəkdir.) Kim öz tayfasından əl çəkirsə (onlara

---

[1] "Furqan", 54.
[2] "Mənaqibi-Ali-Əbu Talib", İbn Şəhraşub, c. 3, səh. 350.
[3] "Əl-Cəfəriyyat", səh. 153.

kömək edib əl tutmursa), onlardan bir əl azalmış olur, ondan isə çoxlu əllər. (Öz qohumları ilə) təvazökar, mehriban və dost olan kimsə onların əbədi dostluğunu qazanmış olar".[1]

**6. Ən üstün qohumluqlar;**

Bəşəriyyətin ən böyük xadimləri İslam peyğəmbəri (s) və onun Əhli-Beytidir. Onlar insanlara əbədi həyat qazandıran vasitəçilər olduqları üçün bəşəriyyətin üzərində mənəvi haqları var. Onları tanımaq, onlara itaət etmək ən gözəl qohumluq münasibəti və qohumluq hüquqlarına ən yaxşı hörmətdir. İmam Sadiq (ə) buyurur: "İlahi! Mənimlə əlaqələrini möhkəm edənlərlə əlaqəni möhkəm et, mənimlə əlaqəsini kəsənlərlə əlaqəni kəs".[2]

## SEYİDLƏRƏ HÖRMƏT VƏ YAXŞILIQ

Həzrət Peyğəmbərin (s) nəvələri olan seyidlərə hörmət o həzrətin özünə hörmətdir. Peyğəmbər (s) özü belə buyurmuşdur: "İnsana hörmət onun övladlarının hörmətini saxlamaqla gerçəkləşir".[3]

Allah-Taala Quranda buyurur: "*(Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-Beytə sevgidən) başqa bir şey istəmirəm*".[4]

İbn Abbasın söylədiyinə görə, bu ayə nazil olduqda Həzrət Peyğəmbərdən (s) soruşublar: "Ey Allahın rəsulu! Allahın sevməyi əmr etdiyi insanlar kimlərdir?"

---

[1] "Nəhc əl-bəlağə", xütbə: 23.
[2] "Əl-Kafi", c. 2, səh. 151.
[3] "Əl-İhticac", səh. 103.
[4] "Şura", 23.

Həzrət buyurub: "Bunlar Əli, Fatimə və onların övladlarıdır".[1]

Bu ayənin əsl nümunəsi məsum imamlardır, lakin Peyğəmbərin (s) Həzrət Fatimə (s) nəslindən olan digər övladları da hörmətə layiqdir. Bu baxımdan, şəriət hökmlərinə görə, rəvayətlərdə "insanların əlinin çirki" adlandırılan vacib sədəqə, yəni zəkat bütün seyidlərə haramdır.[2] Əllamə Hilli bu haqda yazır: "Bəni-Haşim olmayanların Bəni-Haşimə (seyidlərə) zəkat verməsini bütün alimlər yekdilliklə haram hesab etmişlər".[3]

Allahın elçisi (s) Qədir-Xum günü buyurmuşdur: "Sədəqə (zəkat) nə mənə halaldır, nə də Əhli-Beytimə".[4]

İmam Sadiq (ə) buyurur: " Bəni-Haşimə (seyidlərə) sədəqə yalnız iki halda halal olur: susuz olduqda su tapıb içmələri və Bəni-Haşimdən olanların digər seyidlərə sədəqə verməyi".[5]

**Qeyd:** Zəkatın seyidlərə haram olmasının sirri aydın olmasa da, ümumilikdə bəllidir ki, din təlimlərində seyidlərin büdcəsinin qeyri-seyidlərin əlinin çirkindən qorunması bəyənilir.

## SEYİDLƏRƏ YAXŞILIĞIN MÜKAFATI

Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Qiyamətdə mən dörd dəstə insana şəfaət edəcəyəm:

---

[1] "Əl-Bürhan fi təfsir əl-Quran", c. 4, səh. 823; "Fəzail əs-səhabə", Əhməd ibn Hənbəl", c. 2, səh. 669; "əl-Ümdə", səh. 47.
[2] "Əl-Kafi", c. 4, səh. 58.
[3] "Təhrir əl-əhkam", c. 1, səh. 69.
[4] "Kəşf əl-qümmə", c. 1, səh. 395.
[5] "Kitab əl-xisal", səh. 62.

1. Məndən sonrakı övladlarıma hörmət edənlərə; 2. Onların ehtiyaclarını təmin edənlərə; 3. Naəlac olduqları zaman onların imdadına tələsənlərə; 4. Onları dili və ürəyi ilə sevənlərə".[1]

Peyğəmbərdən (s) gələn digər bir hədisdə buyurulur: "Bəni-Haşimə baş çəkmək fərzdir, onları ziyarət etmək sünnə".[2]

İmam Rza (ə) buyurmuşdur: "Bizim övladlarımıza baxmaq ibadətdir".

Ravi soruşmuşdur: "Sizin nəslinizdən olan imamlara baxmaq, yoxsa Peyğəmbər nəslindən olan hər kəsə?"

Həzrət buyurmuşdur: "Nə qədər ki doğru yoldan sapmayıb, özlərini günaha salmayıblar, Peyğəmbərin bütün övladlarına baxmaq ibadətdir"[3]

İslam peyğəmbəri (s) buyurur: "Kim mənim övladlarımdan biri üçün yaxşı iş görsə və o, zəhmət haqqını verməsə, mən özüm onun zəhmət haqqını verəcəyəm".[4]

Peyğəmbərin (s) nəslini incitməyin də cəzası var. İmam Sadiq (ə) ata-babaları vasitəsilə Peyğəmbərdən (s) nəql edir: "Mahmud məqamında dayandıqda ümmətimin günahkarları üçün şəfaət edəcəyəm və Allah mənim onlarla bağlı şəfaətimi qəbul edəcək. Allaha and olsun ki, nəvələrimi incidənlər üçün şəfaət etməyəcəyəm".[5]

---

[1] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 254.
[2] "Bihar əl-ənvar", c. 93, səh. 234.
[3] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 51.
[4] "Əl-Əmali" Şeyx Tusi, səh. 355.
[5] "Əl-Əmali" Şeyx Səduq, səh. 294.

## İKİNCİ FƏSİL

### DİNDAŞLAR (MÜSƏLMANLAR)

Bu bölmədə din qardaşlarının[1] hüquqlarına riayət etmək, möminlərə, günahkarlara və özünü müsəlman kimi qələmə verənlərə münasibət haqqında söhbət açacağıq.

### DİN QARDAŞLARININ HÜQUQLARI

İslam cəmiyyətində fərdlərin dəyəri Allah dərgahındakı dini inancları və ləyaqətləri əsasında ölçülür. Bu, Qurandan gələn bir prinsipdir: "*Məgər mömin kimsə ilə (Allahın itaətindən çıxmış) fasiq eynidirmi?! Əlbəttə, onlar eyni ola bilməzlər!*"[2] Bu mövzuya digər ayələrdə də rast gəlmək mümkündür:

"*Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin*".[3]

"*Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (hayandırlar)*".[4]

Qeyd etmək lazımdır ki, bütün müsəlmanların imanı eyni səviyyədə deyil, əksinə, müxtəlif mərtəbələrdədir. Buna görə də Həzrət Əli (ə) "Ey Əli! Mənə qardaşlar haqqında danış" – deyən bir nəfərə cavab olaraq buyurur: "Qardaşlar iki cürdür: etibarlı və etibarsız qardaşlar. Etibarlı qardaşlar insanın qol-qanadı, ailəsi və var-dövləti kimidir. Belə qardaşları tapmaq çox

---

[1] Səmimi dostluq əlaqələri qurulan möminlər nəzərdə tutulur.
[2] "Səcdə", 18.
[3] "Hucurat", 10.
[4] "Tövbə", 71.

çətindir. Etibarsız qardaşlardan isə sənə xeyir gəlirsə, kifayətdir. Onlarla əlaqəni kəsmə, onlardan bundan artığını gözləmə. Onlar sənin üzünə gülür, şirin-şirin danışırlar. Sən də onlarla güləruz və şirindil ol".[1]

Deməli, hər bir müsəlmanın hüquqlarına hörmətlə yanaşmaq vacibdir.

İslam peyğəmbərinin (s) mübarək kəlamlarında bu barədə oxuyuruq:

"İslam odur ki, qəlbini Allaha təslim edəsən, müsəlmanlar əlindən və dilindən amanda qalsınlar".[2]

"Bir müsəlmana xəyanət edən, yaxud ona ziyan vuran və ya hiylə gələn şəxs bizdən deyil".[3]

"Kim müsəlman qardaşının pisliyini istəyərək yatsa, tövbə edincəyə qədər onun yuxusu da, oyaqlığı da Allahın qəzəbinə tuş gələr".[4]

İmam Sadiq (ə) buyurur: "Kim insanlarla davranışında onlara zülm etmirsə, danışığında onlara yalan demirsə, verdiyi vədləri pozmursa, qeybəti haram bilirsə, mürüvvəti tam, ədaləti göz önündədir və onunla qardaşlıq etmək vacibdir".[5]

İmamın (ə) başqa bir kəlamında deyilir: "Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməməli, aldatmamalı, tərk etməməli, qeybətini etməməli, xəyanət etməməli və onu məhrum vəziyyətə salmamalıdır".[6]

### 1. Möminlərlə davranış;

---

[1] "Əl-Kafi", c. 2, səh. 248-249.
[2] "Kənz əl-ümmal", c. 1, səh. 26.
[3] "Tühəf əl-üqul", səh. 42.
[4] "Əl-Fəqih", c. 4, səh. 15.
[5] "Əl-Kafi", c. 2, səh. 239.
[6] "Əl-Kafi", c. 2, səh. 167.

## MÖMİNLƏRİN BİRLİKDƏ OLMASININ VACİBLİYİ

Möminlərin iman mehvəri Allah, Peyğəmbər və onun Əhli-Beytidir. Onlar bütün işlərində bu mehvər ətrafında bir yerə toplaşmalı, bir-biri ilə əməkdaşlıq etməlidirlər. Təfriqə və ayrılıqdan çəkinməlidirlər ki, dində qarşıya qoyduqları hədəfə nail ola bilsinlər. Məhz buna görə də Allah Quranda buyurur: "*Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın!*"[1]

Allahın rəsulu (s) buyurur: "Ey insanlar! Bir araya gəlməyə can atın, təfriqədən uzaq durun".[2]

İmam Əlidən (ə) bir araya gəlmək və təfriqə haqqında soruşulduqda o həzrət buyurmuşdur: "Allaha and olsun ki, bir araya gəlmək dedikdə haqq ardıcıllarının – sayları az olsa belə – bir yerə toplaşması, bir olması nəzərdə tutulur. Təfriqə isə batil əhlinin – çox olsalar belə – bir yerə toplaşması deməkdir".[3]

İmam Sadiqdən (ə) gələn hədislərdə deyilir:

"Mömin qardaşlarınızın sayını artırın. Çünki hər möminin bir məqbul duası var".

"Mömin qardaşlarınızın sayını artırın. Çünki hər möminin bir şəfaəti var".

"Mömin qardaşlarınızın sayını artırın. Çünki onların Allah dərgahında elə bir haqqı var ki, Qiyamət günü həmin haqla onların savabını verəcəkdir".[4]

---

[1] "Ali-İmran", 103.
[2] "Kənz əl-ümmal", c. 1, səh. 206.
[3] "Kənz əl-ümmal", c. 1, səh. 378.
[4] "Müsadəqə əl-ixvan", səh. 46.

## MÖMİNLƏRİN BİRLİKDƏ OLMASININ FAYDALARI

Həzrət Məhəmməd (s) buyurur: "Əgər (din) qardaşlarından biri dostlarının sıxıntılarına səbir edib, onlardan ayrılmasa, aclıqlarına, kədərlərinə dözsə (şərik olsa), ona Təbuk döyüşündə mənimlə olan yetmiş nəfərin savabı veriləcək".[1]

İmam Baqir (ə) buyurur: "Bir yerə yığışın və bir-birinizlə söhbət edin ki, mələklər sizi əhatə etsin. Allah bizim əmrlərimizi gerçəkləşdirənlərə rəhmət etsin".[2]

İmam Sadiq (ə) buyurur: "Üç və ya daha çox mömin bir yerə yığılarsa, özləri kimi mələklər orada iştirak edərlər ki, onlar xeyir-dua etdikdə "Amin!" desinlər. Hansısa şərdən Allaha sığınırlarsa, Allahdan həmin pisliklərin onlardan uzaq olmasını istəsinlər. Nə isə diləmək istəsələr, Allah yanında şəfaət etsinlər ki, hacətləri qəbul olsun".[3]

## MÖMİNLƏRƏ YAXŞILIQ VƏ ONUN NÖVLƏRİ

Ayə və rəvayətlərə görə, möminlərin bir-birinə yaxşılıq etməsi vacibdir. Bu, əsasən, üç sferaya aiddir: maddi dəstək, mənəvi dəstək və emosional dəstək.

**A) Maddi dəstək;**

**Din qardaşlarının ehtiyaclarını təmin etməyin savabı:**

İbn Abbas deyir: "(İmam) Həsən ibn Əli ilə birgə Məscidül-həramda idik. O, etikafda idi və (müstəhəb) təvaf edirdi. Şiələrdən biri ona dedi: "Ey Peyğəmbər övladı! Filankəsə borcum var. Mənim borcumu ödəyərsənmi?"

---

[1] "Ət-Təhsin", səh. 24.
[2] "Vəsail əş-şiə", c. 12, səh. 22.
[3] "Əl-Kafi", c. 2, səh. 187.

İmam Həsən (ə) buyurdu: "Kəbənin Allahına and olsun ki, bu gün üstümdə bir şey yoxdur".

Kişi dedi: "Əgər məsləhətdirsə, ondan mənim üçün möhlət al. Çünki o, məni həbslə hədələyir".

İbn Abbas deyir: "İmam Həsən təvafını yarımçıq qoyub, həmin kişinin problemini həll etməyə getdi. Dedim: "Ey Allah rəsulunun övladı! Etikafda deyilsinizmi?"

Buyurdu: "Etikafdayam, amma atamdan eşitmişəm ki, Peyğəmbər buyurmuşdur: "Mömin qardaşının ehtiyacını təmin edən insan doqquz min il boyu gündüzləri oruc tutan, gecələri Allaha ibadət edən şəxs kimidir".[1]

İmam Baqir (ə) buyurur: "Bir dəfə həccə getmək mənim üçün bir və ya on, hətta yetmiş qul azad etməkdən daha xoşagələndir. Müsəlman bir ailəni himayəmə almaq, onların qarnını doyurmaq, dilənçilik etmələrinə mane olmaq isə mənim üçün bir, iki, hətta yetmiş həcdən daha gözəldir".[2]

İslam peyğəmbəri (s) buyurur: "Kim gözləri görməyən birinin maddi ehtiyaclarını təmin etsə, yaxud Allahın o ehtiyacları təmin etməsi üçün addım atsa, Allah onu nifaqdan uzaq tutar, Cəhənnəm odundan xilas edər, bu dünya ilə bağlı yetmiş diləyini verər. Qayıdana qədər daim Allahın rəhmətində olar".[3]

## MÖMİNİ YEDİRMƏYİN ÖNƏMİ

Yedirmək başqalarına yaxşılığın ən mühüm nümunələrindən biridir. Quran ayələrində başqalarını yedirmək məsələsi vurğulanır, bunu gözəl şəkildə edənlər vəsf olunaraq deyilir:

---

[1] "Üddə əd-dai", səh. 224-225.
[2] "Səvab əl-əmal", səh. 141.
[3] "Əl-Əmali", Şeyx Səduq, səh. 431.

"*Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya: Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. (Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər: ) "Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik*".[1]

İmam Sadiq (ə) ata-babaları vasitəsilə Həzrət Peyğəmbərdən (s) belə nəql edir: "Sizin ən yaxşınız (başqalarını) yedirən, hündürdən salam verən və insanlar yuxuda ikən namaz qılandır".[2]

**Mömini yedirməyin savabı:** İslam peyğəmbəri (s) buyurur: "Allahın insanı bağışlamasına səbəb olan şeylərdən biri (ac adamı) yedirməkdir".[3]

İmam Sadiqdən (ə) gələn hədislərdə bu barədə oxuyuruq:

"Kim öz yeməyi ilə bir mömini doyursa, onun axirət mükafatını Allahdan başqa heç kəs bilməz – nə Allah dərgahına yaxın olan mələklər, nə də Allah tərəfindən göndərilmiş peyğəmbərlər".[4]

"Kim imkanlı bir mömini yedirsə, onun savabı İsmayıl övladlarından bir köləni qurban kəsilməkdən xilas etməyin savabı qədərdir. Kim imkansız bir mömini yedirsə, onun savabı İsmayıl övladlarından yüz köləni qurban kəsilməkdən xilas etmiş adamın savabı qədərdir".[5]

**Mömini yedirməyə cəhd göstərməməyin cəzası:** İmam Səccad (ə) buyurur: "Kim yaxınlığında ac bir mömin olduğu halda, tox yatsa, Allah buyurar: "Ey mələklərim! Sizi bu

---

[1] "İnsan", 8-9.
[2] "Əl-Kafi", c. 4, səh. 50.
[3] "Əl-Kafi", c. 4, səh. 52.
[4] "Əl-Kafi", c. 2, səh. 201.
[5] "Əl-Kafi", c. 2, səh. 203.

bəndəmin əməlinə şahid çəkirəm: Mən ona əmr etdim, o isə itaət etmədi. Məndən başqasına itaət etdi. Onu əməli ilə baş-başa qoyuram. İzzət və calalıma and olsun ki, onu heç vaxt bağışlamayacağam".[1]

**Qeyd:** Möminləri yedirmək, onlara kömək etmək həmin insanların xar və pərt olmasına səbəb olmamalıdır. Səfər qaydalarında da qeyd olunduğu kimi, Hüseyn ibn Əbu-Əla deyir: "Möminlərdən ibarət iyirmi neçə nəfərlik bir qrupla Məkkəyə getmək məqsədi ilə yola çıxdıq. Yolda hər düşərgədə dayanırdıq və mən onlar üçün qoyun kəsirdim. İmam Sadiqin hüzuruna gəlib çatanda o həzrət buyurdu: "Ey Hüseyn! Sən möminləri alçaltmısan".

Dedim: "Belə bir şeydən Allaha sığınıram".

Buyurdu: "Mənə xəbər çatıb ki, sən hər düşərgədə onlar üçün qoyun kəsirmişsən".

Dedim: "Mənim Allahdan başqa niyyətim olmayıb".

Buyurdu: "Bilmirdinmi ki, onlardan bəziləri sənin gördüyün işi görmək istəyirlər, amma maddi imkanları olmadığı üçün bu, onların özlərini alçalmış hiss etmələrinə səbəb olur?"

Dedim: "Allahdan əfv diləyirəm və bir daha belə iş tutmaram".[2]

## MÖMİNƏ SU VERMƏK

İslam peyğəmbəri (s) buyurur: "Hər kim su əldə etmək iqtidarında olan bir möminə su versə, Allah ona hər qurtum suyun qarşılığında yetmiş min yaxşılıq verər. Suya əli çatmayan

---

[1] "Səvab əl-əmal", səh. 250.
[2] "Kitab əs-sərair", c. 3, səh. 643-644.

bir möminə su versə, elə bil ki, İsmayıl soyundan on qul azad etmişdir".[1]

İmam Səccad (ə) buyurmuşdur: "Kim susuzlamış bir möminə su versə, Allah Behiştdə ona (gözəl ətirli, təmiz) möhürlü (qablarda olan) şərab (rəhiq) içirəcəkdir".[2]

## MÖMİNİN GEYİM EHTİYACINI TƏMİN ETMƏYİN MÜKAFATI

Həzrət Məhəmməd (s) buyurur: "Kim yoxsul və çılpaq bir müsəlmanı geyindirsə, yaxud ehtiyacı olan qida maddələrinin bir hissəsini təmin etməkdə ona kömək etsə, Allah onun üçün yetmiş min mələk ayırır ki, Qiyamət gününədək onun hər bir günahına görə əfv diləsinlər".[3]

İmam Sadiq (ə) buyurur: "Kim geyimi olmayan bir mömini geyindirsə, Allah ona Behişt ipəyindən bir libas geyindirər. Kim imkanlı bir mömini geyindirsə, o paltardan bircə tikə belə olsun parça qalıncaya qədər daim Allahın pənahında və rəhmətinin himayəsində olar".[4]

İmam Səccad (ə) geyimi olmayan bir möminin bu ehtiyacını nəzərə almamaq haqqında buyurur: "Artıq paltarı olan bir insan yaxınlığında olan möminin onlara ehtiyacı olduğunu bilə-bilə öz geyimlərindən ona verməsə, Allah onu üzüstə oda (Cəhənnəmə) atacaq".[5]

---

[1] "Əl-Kafi", c. 2, səh. 201.
[2] "Əl-Kafi", c. 2, səh. 201.
[3] "Əl-Kafi", c. 2, səh. 205.
[4] "Əl-Kafi", c. 2, səh. 205.
[5] "Səvab əl-əmal", səh. 250.

## MÖMİNƏ YER VERMƏMƏYİN NƏTİCƏSİ

İmam Sadiq (ə) buyurur: "İnsanın evi varsa və onu yaşamağa yeri olmayan bir möminə vermirsə, Allah mələklərə buyurur: "Ey mələklər! Mənim bəndəm dünya məskənini başqa bir bəndəmə qıymadı. And olsun izzətimə ki, Behiştdə ona heç vaxt yer verməyəcəyəm".[1]

## MÖMİNİ EVLƏNDİRMƏK

İmam Musa Kazım (ə) Məhəmməd ibn Cəfərin xanımının mehrinin ödənilməsi barədə öz bibisinə yazmışdır: "Qiyamətdə Allahın (qüdrəti) kölgə salacaq. O kölgənin altında yalnız Peyğəmbər, onun canişini, qul azad edən, başqa bir möminin borcunu ödəyən və ya subay mömini evləndirən möminlər dincələcək".[2]

## MÖMİNƏ QAYĞI

İmam Musa Kazım (ə) buyurur: "Allahın (mərhəmət) kölgəsindən başqa sığınacaq olmayan gündə üç qrup insan Allahın ərşinin kölgəsindən faydalanacaq: müsəlman qardaşına evlənməkdə kömək edənlər, ona qayğı göstərənlər və sirrini gizlədənlər".[3]

Allahın rəsulu (s) buyurur: "Bir-birinizə hədiyyə verin ki, bir-birinizlə dost olasınız. Çünki hədiyyə kin-küdurəti aradan qaldırır".[4]

---

[1] "Səvab əl-əmal", səh. 241.
[2] "Qürəb əl-əsnad", səh. 123.
[3] "Kitab əl-xisal", səh. 65.
[4] "Əl-Kafi", c. 5, səh. 144.

Peyğəmbərdən (s) gələn başqa bir hədisdə deyilir: "Hədiyyə dostluq gətirir, qardaşlığı layiqli səviyyəyə qaldırır, kin-küdurəti aradan götürür. Bir-birinizə hədiyyə verin ki, sevginiz artsın".[1]

**Hədiyyəni qəbul etmək:** İbrahim Kərxi deyir: "İmam Sadiqdən soruşdum: "Bir kişinin böyük bir bağı var. Novruz bayramında və ya digər bayramlarda insanlar onun diqqətini cəlb etmək üçün (bağından daha çox istifadə edə bilsinlər deyə) imkanlarından artıq hədiyyələr aparırlar".

İmam soruşdu: "O, namaz qılırmı?"

Dedim: "Bəli!"

Buyurdu: "Elə isə hədiyyələri qəbul etsin və onları mükafatlandırsın. Çünki Allahın rəsulu buyurmuşdur: "Mənə qoyun paçası da versələr, qəbul edərəm.[2] Bu, dinə uyğun sayılır. Kafir və ya münafiq mənim üçün bir dəvə yükü hədiyyə gətirsə də, qəbul etmərəm. Bu da dinə uyğundur. Çünki Allah mənim müşrik və münafiqlərin hədiyyəsini qəbul etməyimi, onların yeməyini yeməyimi sevmir".[3]

**Müsəlmana borc vermək:** İmam Sadiq (ə) buyurur: "Kim Allah rizası üçün başqa bir müsəlmana borc verərsə, malı qayıdana qədər Allah ona sədəqə savabı verər".[4]

---

[1] "Bihar əl-ənvar", c. 74, səh. 166.

[2] Həzrət Peyğəmbər dönəmində əti halal olan heyvanların paçasından hazırlanan xörək ucuz xörək hesab olunurdu. Bəzi ərəb regionlarında indi də belədir.

[3] "Əl-Kafi", c. 5, səh. 141-142.

[4] "Səvab əl-əmal", səh. 138.

## TİCARƏTDƏ MÖMİNLƏ YOLA GETMƏK

Alğı-satqıda müsəlman öz dindaşı ilə mənfəətpərəstliklə, zülmkarcasına yox, himayəkarcasına davranmalıdır.

İmam Sadiq (ə) buyurur: "Möminin mömindən mənfəət götürməsi sələmdir. Yüz dirhəmdən (məqsəd böyük məbləğdir) çox alsa, eybi yoxdur. Bu halda ondan gündəlik ehtiyacın qədər mənfəət tut. Ticarət məqsədilə alırsa da onlardan qazanc tut, (amma) müdara et".[1]

**B) Mənəvi dəstək;**

**Mömin qardaşlarını maarifləndirmək:** İmam Sadiq (ə) yoldaşlarının yanında buyurmuşdur: "İlahi təqva yolunu tutun, bir-birinizə xeyirxah qardaş olun, Allah yolunda dost olun, mehriban yoldaş olun, bir-birinizlə görüşüb bizim gördüyümüz işlər haqqında söhbət edin və onları yaşadın".[2]

**Xeyirxah tənqid:** Həzrət Əli (ə) oğlu İmam Həsənə (ə) buyurur: "Qardaşına qarşı xeyirxah və qərəzsiz ol. İstər yaxşı işində, istərsə də pis işində – hər bir halda ona yardım et".[3]

İmam Sadiq (ə) buyurur: "Ən sevimli qardaşım eyiblərimi mənə hədiyyə edəndir".[4]

---

[1] "Əl-Kafi", c. 5, səh. 154.
[2] "Məsadəqə əl-ixvan", səh. 34.
[3] "Tühəf əl-üqul", səh. 81.
[4] "Əl-Kafi", c. 2, səh. 639. İmam Sadiq (ə) qüsursuz bir şəxsiyyət olub, lakin bu incə və dəqiq bəyanı ilə mömin qardaşların bir-birinə qarşı vəzifələrini açıqlayır. Hədisdən alınan ibrətamiz məna bundan ibarətdir ki, həm mömin qardaşın eybini özünə bildirmək lazımdır, həm də onun deyiliş tərzi bir hədiyyə verirmiş kimi olmalıdır ki, tənqidə məruz qalan şəxs də onun səmimi olduğunu hiss edib müsbət qarşılasın və qəbul etsin; nəinki incimәsin, hətta razı qalsın.

**Möminin düşmənləri ilə dostluğu kəsmək:** Həzrət Əli (ə) buyurur: "Dostunun düşməni ilə dost olma. Çünki bu zaman dostunla düşmənçilik etmiş olacaqsan".[1]

O həzrətin başqa bir kəlamında deyilir: "Dostların da üçdür, düşmənlərin də: dostların sənin öz dostun, dostunun dostu və düşməninin düşmənidir, düşmənlərin isə sənin öz düşmənin, dostunun düşməni və düşməninin dostudur".[2]

**Möminin sirrini saxlamaq:** Həzrət Əli (ə) buyurur: "Din qardaşın etibarlı olsa, malını və canını ona bağışla. Dostları ilə dost, düşmənləri ilə düşmən ol. Sirlərini və eyiblərini ört-basdır et, yaxşı cəhətlərini isə üzə çıxart".[3]

**Mömin haqqında şayiələrə önəm verməmək:** Allah-Taala Həzrət Peyğəmbərin xanımlarından biri haqqında yayılmış şayiə ilə bağlı möminlərə buyurur: "*Məgər o yalan sözü eşitdiyiniz zaman mömin kişilər və qadınlar öz ürəklərində (özləri haqqında yaxşı fikirdə olduqları kimi, dostlarının da əhli-əyalı barəsində) yaxşı fikirdə olub: "Bu, açıq-aydın bir böhtandır!" – deməli deyildilərmi?*"[4]

Həzrət Əli (ə) buyurur: "Ey camaat! Hər kim öz qardaşını (dindaşını) tanıyıb, onun öz dinində (etiqadında) möhkəm, sözləri və əməlləri ilə doğru yolda olduğunu bilsə, camaatın onun barəsində dediklərinə (qeybətinə) qulaq asmamalıdır".[5]

O həzrət başqa bir hədisdə buyurur: "Qardaşının işini yaxşılığa yoz. Qardaşın haqqında eşitdiyin hər sözü yaxşıya yoza bildikcə ona haqq qazandır".[6]

---

[1] "Əl-Fəqih", c. 4, səh. 390.
[2] "Nəhc əl-bəlağə", qısa kəlamlar: 295.
[3] "Əl-Kafi", c. 5, səh. 248-249.
[4] "Nur", 12.
[5] "Nəhc əl-bəlağə", xütbə: 141.
[6] "Tühəf əl-üqul", səh. 368.

**Mömini suçlamaqdan çəkinmək:** "Bir mömin öz qardaşını ittiham etsə, haqqında pis gümana düşsə, iman onun qəlbindən duz suda həll olduğu kimi silinər".[1]

**Mömininin abrını qorumaq:** Həzrət Məhəmməd (s) buyurur: "Ey dildə İslamı qəbul edib, qəlbində xalis iman olmayan müsəlman! Müsəlmanları qınama, eyiblərini üzə çıxarma. Çünki kim müsəlmanların eyiblərini üzə çıxarsa, Allah onun eybinin üstünü açar".[2]

İmam Baqir (ə) buyurur: "Müsəlman qardaşını sev. O sənə dayaq olduğu kimi, sən də ona dayaq ol. Özü olmadıqda onun abrını qoru. Özü olduqda ona hörmətlə yanaş. Naəlac olduqda imdadına yetiş, onun üçün çıxış yolu tap".[3]

Əbu-Bəsir deyir: "İmam Baqirə dedim: "Bizim dostlarımızdan biri zəkat almaqdan utanır. Mən adını çəkmədən (zəkat olduğunu demədən) ona zəkat verirəm".

Həzrət buyurdu: "Ona zəkat ver və zəkat sözünü dilinə gətirib mömini pərt etmə".[4]

**Mömininin abrını qorumağın mükafatı:** İslam peyğəmbəri (s) buyurur: "Hər kim müsəlman qardaşının abrını qorusa, Behişt ona vacib olar".[5]

İmam Sadiq (ə) buyurur: "Kiminsə yanında iman qardaşının qeybəti olunarsa və o, buna qarşı çıxıb, qardaşını müdafiə edərsə, Allah dünya və axirətdə ona yardım edər. Əlindən gəldiyi halda, qeybətə qarşı çıxıb, qardaşını müdafiə etməzsə, Allah onu dünya və axirətdə xar və rəzil edər".[6]

---

[1] "Əl-Kafi", c. 2, səh. 361.
[2] "Əl-Kafi", c. 2, səh. 354.
[3] "Mişkat əl-ənvar", səh. 181.
[4] "Əl-Kafi", c. 3, səh. 564.
[5] "Səvab əl-əmal", səh. 145.
[6] "Üddə əd-dai", səh. 191.

**Möminin səhvini bağışlamaq:** Həzrət Məhəmməd (s) buyurur: "Allah yolunda bir-birinizə qardaş olun. Allahın sizə fərman verdiyi kimi, bir-birinizə nifrət etməyin. Bir-birinizə sitəm etməyin, kin bəsləməyin, arxa çevirməyin".[1]

O həzrət dualarından birində Allaha üz tutaraq deyir: "İlahi! Mənim ümmətimlə yola gedənlərlə yola get, onları sıxışdıranları Sən də sıxışdır".[2]

Həzrət Əli (ə) buyurur: "Camaatla yola get, alimlərə hörmət et, qardaşlarının səhvlərindən keç. Çünki keçmişdəkilərin və gələcəkdəkilərin böyüyü (Peyğəmbər) öz kəlamı ilə bunu sənə öyrətmiş və buyurmuşdur: "Sənə zülm edən birini bağışla. Səninlə əlaqəsini kəsənlə əlaqə yarat. Səni məhrum edənə sən bağışla (səndən əsirgəyəndən əsirgəmə)".[3]

**Müsəlmanı azad etmək:** İslam peyğəmbəri (s) buyurur: "Hər kim köləlikdə olan bir müsəlmanı (əlacsız müsəlmanı) azad etsə, Allah onun (azad edilənin) hər bədən üzvünün qarşılığında azad edənin bir üzvünü Cəhənnəm odundan xilas edəcək".[4]

**Mömin üçün dua:** Allah-Taala Quranda buyurur: "*(Ya Peyğəmbər!) Bil ki, Allahdan başqa heç bir tanrı yoxdur. (Ondan) həm öz günahlarının, həm də mömin kişilərin və qadınların günahlarının bağışlanmasını dilə. Allah gəzib-dolandığınız yeri də, dayanıb-duracağınız yeri də bilir!*"[5]

Həzrət Peyğəmbər (s) buyurur: "Heç bir dua başqası olmadıqda onun üçün edilən dua qədər tez qəbul olunmur".[6]

---

1 "Qürəb əl-əsnad", səh. 15.
2 "Tənbih əl-xəvatir və nəzhə ən-nəvazir", c. 1, səh. 4.
3 "Bihar əl-ənvar", c. 75, səh. 71.
4 "Əl-Kafi", c. 6, səh. 180.
5 "Məhəmməd", 19.
6 "Əl-Kafi", c. 2, səh. 510.

İmam Baqir (ə) buyurur: "Ən tez qəbul olunan dua qardaşın özü olmadıqda qardaşı üçün etdiyi duadır. Duaya başladıqda onun üçün ayrılmış mələk deyir: "Amin! Sənə də bu istəyin iki qatı verilsin".[1]

İmam Sadiq (ə) buyurur: "İnsanın qardaşı olmadıqda onun üçün etdiyi dua ruzinin çoxalmasına səbəb, xoşagəlməz işlərə maneə olur".[2]

Məsumların tövsiyələrinə görə, biz dostlarımız yanımızda olmadıqda onlar üçün dua etməliyik. Yaxşı olar ki, İmam Səccadın (ə) dostlar üçün oxuduğu duanı oxuyaq.[3]

**Müsəlmana kömək etmək:** Həzrət Peyğəmbər (s) buyurur: "Kim müsəlman qardaşının dadına yetib, onu qəm-qüssədən, əlacsızlıqdan qurtarsa, Allah onun üçün on yaxşılıq yazar, onu yuxarı pilləyə qaldırar, ona on qul azad etməyin savabını verər, on bəlanı ondan uzaq edər. Qiyamətdə onun üçün on şəfaət hazırlayar".[4]

İslam peyğəmbəri (s) həmişə buyurarmış: "Müsəlmana kömək etmək yaxşı işdir. Onun savabı bir az orucdan və Məscidül-həramda etikaf saxlamaqdan daha çoxdur".[5]

İmam Zeynülabidin (ə) buyurur: "Kim bir zalıma qarşı çıxmaqda öz qardaşına kömək edərsə, Allah ona Sirat körpüsündən keçərkən ayaqlar əsdiyi zaman kömək edər".[6]

Möminə yardım etməməyin nəticələri haqqında isə Həzrət Peyğəmbər (s) belə buyurmuşdur: "Səhərini müsəlmanların

---

1 "Üddə əd-dai", səh. 183.
2 "Üddə əd-dai", səh. 183.
3 Bu duanın mətni "Qonşular üçün dua" başlığı ilə verilmişdir – "Səhifeyi-Səccadiyyə", 26-cı dua
4 "Səvab əl-əmal", səh. 148.
5 "Bihar əl-ənvar", c. 75, səh. 217-218.
6 "Səvab əl-əmal", səh. 146.

işinə önəm vermədən açan şəxs müsəlman deyil. Kiminsə: "Ey müsəlmanlar, dadıma yetin" – söylədiyini eşidib cavab verməyən şəxs müsəlman deyil".[1]

**Mömini ziyarət etməyin savabı:** İmam Sadiq (ə) buyurur: "Hər bir şey nəyinsə yanında dinclik tapır. Quş öz cütünün yanında dinclik tapdığı kimi, mömin də mömin qardaşının yanında dinclik tapır".[2]

İmam Sadiqin (ə) başqa bir kəlamında deyilir: "Kim qardaşını yalnız Allah rizası və Allahın vəd etdiklərini əldə etmək üçün ziyarət etsə, Allah onu səsləmək üçün yetmiş min mələk ayırar. Mələklər deyərlər: "Xoş halına, Behişt sənə halal olsun!"[3]

Allahın rəsulu (s) buyurur: "Bir mələk bir kişini sahibi evdə olmayan bir evin qarşısında görüb soruşur: "Səni bura nə gətirib?"

Kişi deyir: "Qardaşımı ziyarət etməyə gəlmişəm".

Mələk soruşur: "Aranızda bir qohumluq əlaqəsi var, yoxsa ona işin düşüb?"

Kişi deyir: "Bizim aramızda qohumluqdan daha sıx bir bağ olan İslam var. Məni bura gətirən ehtiyac deyil. Onu görməyə yalnız Allaha görə gəlmişəm".

Mələk deyir: "Müjdələr olsun, mən Allahın sənə göndərdiyi elçiyəm. O sənə salam göndərir və buyurur: "Sən niyyətində Məni tutmusan, məqsədin Məndə olanı əldə etməkdir. Mən də Cənnəti sənə vacib edirəm və qəzəbimi səndən uzaq tuturam".[4]

---

[1] "Əl-Kafi", c. 2, səh. 164.
[2] "Üddə əd-dai", səh. 187.
[3] "Üddə əd-dai", səh. 188.
[4] "Üddə əd-dai", səh. 189.

**Möminə baxmaq:** Həzrət Peyğəmbər (s) buyurur: "(Mömi-nin) onu Allaha görə sevən qardaşına baxması ibadətdir".[1]

**Möminə xoş üz göstərmək:** İmam Baqir (ə) buyurur: "İnsanın öz qardaşının qarşısında gülümsəməsi yaxşı haldır (savabdır)".[2]

İmam Sadiqdən (ə) soruşublar: "Yaxşı əxlaq nədir?"

Həzrət (ə) buyurub: "Yumşaqxasiyyətli və xoşrəftar olmaq, qardaşınla gülər üzlə qarşılaşmaq".[3]

**Salamlaşmaq və əl vermək:** Allahın elçisi (s) buyurur: “Bir-birinizlə qarşılaşdıqda salam və əl verərək görüşün. Ayrıldıqda bir-biriniz üçün bağışlanma diləyərək ayrılın".[4]

İmam Baqir (ə) buyurur: "Möminlər bir-biri ilə qarşılaşarkən əl verib görüşdükdə Allah əlini onların əlinin arasına qoyar və qardaşını daha çox sevənin əlini sıxar".[5]

**Mömininin dəvətini qəbul etmək:** İmam Sadiq (ə) buyurur: "Müsəlmanın qardaşı üzərindəki ən vacib haqlarından biri budur ki, onun dəvətini qəbul etsin".[6]

İslam peyğəmbəri (s) buyurur: "Mömininin dəvətini qəbul etmək üçün üç mil (təxminən 6 kilometr – red.) səfərə gedin".[7]

**Qeyd:** Hədisdə qeyd olunan məsafə o dönəmin nəqliyyat vasitələrinə uyğundur. Hazırkı dövrdə bu məsafə fərqlidir.

---

[1] "Tənbih əl-xəvatir və nəzhə ən-nəvazir", c. 2, səh. 175.
[2] "Əl-Kafi", c. 2, səh. 188.
[3] "Əl-Fəqih", c. 4, səh. 412.
[4] "Üddə əd-dai", səh. 189.
[5] "Üddə əd-dai", səh. 189.
[6] "Əl-Kafi", c. 2, səh. 188.
[7] "Əl-Fəqih", c. 4, səh. 412.

**Mömінin çörəyini yemək:** İmam Sadiq (ə) buyurur:

"İnsanın (mömin) qardaşına sevgisi onun çörəyini yeməklə bilinir".[1]

**Möminin qayğılarını az sanmağın nəticəsi:** Həzrət Məhəmməd (s) buyurur: "(Mömin) qardaşlarının qayğılarını az sanmağın günahı insanlara bəsdir".[2]

**C) Emosional dəstək;**

**Mömini sevindirmək:** İslam peyğəmbəri (s) buyurur: "Kim bir mömini sevindirsə, məni sevindirmişdir. Kim məni sevindirsə, Allahı sevindirmişdir".[3]

**Qeyd:** Mömini sevindirməyin müxtəlif nümunələri var. Bu bəhsdə haqqında danışdığımız himayədarlıqların hamısı buna nümunə ola bilər.

İmam Sadiq (ə) buyurur: "Mömini qəbrindən qaldırdıqda qəbirdən onunla birgə bir qaraltı çıxır və onun önündə gedir. Mömin Qiyamətə aid qorxulu bir hadisə görəndə qaraltı ona deyir: "Qorxma, Allah tərəfindən sənə sevinc və kəramətlə bağlı bir müjdə var".

Mömin ona deyir: "Allah mərhəmətini üzərindən əskik etməsin. Yaxşı ki, mənimlə məzardan çıxmısan və daim Allah tərəfindən sevinc və kəramət müjdəsi verirsən. Sən kimsən?"

O qaraltı deyir: "Mən sənin dünyada mömin qardaşına bəxş etdiyin sevincəm. Allah məni (həmin sevincdən) yaradıb ki, sənə müjdə verim".[4]

---

[1] "Əl-Məhasin", səh. 413.
[2] "Əl-Məhasin", səh. 414.
[3] "Əl-Kafi", c. 2, səh. 188.
[4] "Əl-Əmali", Şeyx Tusi, səh. 196.

**Mömini əzizləmək və ona hörmət göstərmək:** İslam peyğəmbəri (s) buyurur: "Hər kim müsəlman qardaşına lütf göstərərək onu bir sözlə əzizləsə, qəmini azaltsa, onu əzizlədiyi müddətcə Allahın rəhməti üzərində olacaqdır".[1]

Həzrət Əli (ə) buyurur: "Kim qardaşına hörmət göstərsə, Allaha hörmət göstərmişdir. Sizcə, Allaha hörmət göstərməyin mükafatı nə ola bilər?"[2] (Yəni möminə hörmət göstərməyin savabı insan təsəvvürünün fövqündədir).

İmam Baqir (ə) buyurur: "Müsəlman qardaşını sev. Özün üçün istədiyini onun üçün də istə. Özün üçün istəmədiyini onun üçün də istəmə. Ona hörmət et, əzizlə. Çünki o səndən, sən də ondansan".[3]

**Mömini yaxşı qarşılamaq:** İmam Səccad (ə) buyurur: "Kim qardaşına xoşgəldin etsə, Allah Qiyamət gününə qədər ona: "Xoş gəldin!" – deyəcək".[4]

**Gülərüzlülük:** İmam Baqir (ə) buyurur: "Bir kişi Peyğəmbərin yanına gələrək deyib: "Ey Allahın rəsulu! Mənə tövsiyə ver".

Həzrət buyurub: "Qardaşınla gülər üzlə görüş".[5]

Həzrət peyğəmbərin (s) özündən gələn hədislərdən birində isə bu barədə deyilir: "Allah qardaşlarına qaşqabaq sallayan insanı sevmir".[6]

---

[1] "Əl-Kafi", c. 2, səh. 206.
[2] "Üddə əd-dai", səh. 190.
[3] "Mişkat əl-ənvar", səh. 83.
[4] "Əl-Kafi", c. 2, səh. 206.
[5] "Əl-Kafi", c. 2, səh. 103.
[6] "Kəşf ər-reybə", səh. 83.

**Xəstəliyini mömin qardaşlarına bildirmək:** İmam Sadiq (ə) buyurur: "Yaxşı olar ki, mömin xəstələndikdə bunu qardaşlarına desin və onlar ona baş çəksinlər. Nəticədə həm özü, həm də qardaşları bu ziyarətdən faydalansınlar".

İmamdan (ə) soruşublar: "Onlar xəstəyə baş çəkdikləri üçün savab qazanırlar. Xəstə necə savab qazanır?"

Həzrət (ə) buyurub: "Xəstə də onların savab qazanmasına şərait yaratdığı üçün savab qazanır. Bu əməldən ona on yaxşılıq yazılır, on pillə yüksəlir və on günahı silinir".[1]

**Möminlərlə məktublaşmaq:** İmam Sadiq (ə) buyurur: "Qardaşların əlaqəsi vətəndə görüşməklə, səfərdə məktublaşmaqla olur".[2]

**Möminə ağız açmamaq:** İmam Sadiqdən (ə) gələn bir hədisdə bu barədə oxuyuruq: "Ehtiyacınızı qardaşınızdan istəməyin. Çünki əgər istədiyinizi sizdən əsirgəsə, qəzəblənəcək və küfr edəcəksiniz".[3]

**Qeyd:** Din qardaşlarının ehtiyaclarını təmin etmək möminlərə vacib olsa da, bu həmişə mümkün olmur. Buna görə də onlara ağız açmaq həm onları incitməyə, həm də ağız açan şəxsin narahatlığına səbəb olur.

**Möminlərdən təmənna etmək:** İmam Baqir (ə) buyurur: "Müsəlman qardaşını sev. Özün üçün istədiyini onun üçün də istə, özün üçün istəmədiyini onun üçün də istəmə. Ehtiyacın olduqda ondan istə. O da sənə ağız açanda əsirgəmə".[4]

**Qeyd:** Həyatda heç kimə, hətta möminlərə belə ağız açmamaq daha yaxşıdır. Amma bəzən müəyyən situasiyalarda

---

[1] "Əl-Kafi", c. 3, səh. 117.
[2] "Müsadəqə əl-ixvan", səh. 56.
[3] "Müsadəqə əl-ixvan", səh. 54.
[4] "Mişkat əl-ənvar", səh. 181.

və mömin qardaşın imkanını nəzərə alaraq ona ağız açmaq zəruri hal alır. Belə olduqda həmin insana da ondan istənilən şeyi əsirgəməmək düşür.

**Möminin üzrünü qəbul etmək:** Həsən ibn Raşidin nəql etdiyinə görə, İmam Sadiq (ə) buyurmuşdur: "Mömindən bir şey istədikdə o üzrxahlıq etməzdən qabaq sən onun üçün üzrlər nəzərə al (üzrlü olduğunu nəzərə al). Əgər üzr istəsə, onun söylədiklərinin əksini düşünsən belə, üzrünü qəbul et".[1]

**Möminlərin sözünə etibar etmək:** İmam Sadiq (ə) buyurur: “Bir nəfəri ticarətdə şərikim kimi Yəmənə göndərməyi qərara aldım. İmam Baqirin yanına gedib, şərik seçməklə bağlı o həzrətlə məsləhətləşdim. Həzrət (ə) buyurdu: "Bilmirsənmi ki, o, içki düşkünüdür?"

Dedim: "Möminlərdən bu barədə eşitmişəm".

Buyurdu: "Onların sözünü təsdiq et. Çünki Allah buyurur: "... *Allaha da inanır, möminlərə də*".[2]

**Möminə sevgini bildirmək:** Həzrət Peyğəmbər (s) buyurur: "Sizdən kim qardaşını çox istəyirsə, bunu ona bildirsin. Çünki bu, aranızdakı əlaqələrin möhkəmlənməsi üçün yaxşıdır".[3]

## MÜSƏLMAN (ƏHLİ-SÜNNƏ) QARDAŞLARA YAXŞILIQ

İmam Sadiq (ə) buyurur: "Ey şiələr! Siz bizə aidsiniz, elə isə bizim üçün zinət olun, bizə ar olmayın. Xalq (əhli-sünnə)

---

[1] "Müsadəqə əl-ixvan", səh. 63-64.

[2] "*(Münafiqlər içində) Peyğəmbəri incidib: “O (hamını dinləyən, hər sözü eşidib inanan) bir qulaqdır”, - deyənlər də var. De: “O qulaq sizin üçün bir nemətdir. Allaha da inanır, möminlərə də. O sizdən iman gətirənlər üçün rəhmətdir. Allahın Rəsuluna əzab verənləri isə şiddətli bir əzab gözləyir!”* ("Tövbə", 61) Ayə Peyğəmbəri vəsf edir.

[3] "Təfsir əl-Əyyaşi", c. 2, səh. 95. Möminin sözünün əksinə bir dəlil olmadığı, yaxud möminlərin sözü bir-birinə zidd olmadığı halda o sözü təsdiq etmək lazımdır.

arasında İmam Əlinin yoldaşlarından biri kimi olmanıza nə mane olur? Əgər onlardan biri indi sağ olsaydı, öz qəbiləsində başçı, azançı və əmanətdar olardı. Xəstələrə baş çəkər, dəfn mərasimlərində iştirak edər, məscidlərində namaz qılardı. Onlar yaxşı işlərdə sizi qabaqlamasınlar. Allaha and olsun ki, siz yaxşı işlərə onlardan daha layiqsiniz".[1]

**2. Fasiqlərə[2] münasibət;**

Fasiqlərlə bağlı, bir çox ayələrdə göstərişlər verilmişdir:

**Günahkarların sözünü araşdırmaq:** "*Ey iman gətirənlər! Əgər bir fasiq sizə (önəmli) bir xəbər gətirsə, dərhal (onun doğruluğunu) yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!*"[3]

**Günahkarların şəhadətini qəbul etməmək:** "*İsmətli qadınlara zina isnad edib, sonra (dediklərini təsdiqləyəcək) dörd şahid gətirə bilməyən şəxslərə səksən çubuq vurun və onların şəhadətini heç vaxt qəbul etməyin. Onlar, sözsüz ki, (Allahın itaətindən çıxmış) əsl fasiqlərdir*".[4]

**Fasiqlərdən uzaq gəzmək:** Quranda buyurulur: "*(Musa) dedi: "Ey Rəbbim! Mənim yalnız özümə və qardaşıma (Haruna) gücüm çatar (sözüm keçər). Sən bizi bu günahkar və azğın camaatdan ayır!"*[5]

Həzrət Peyğəmbər (s) fasiqin dəvətini qəbul etməyi və onun süfrəsi başında oturmağı yasaq etmişdir.[6]

---

[1] "Əl-Cəfəriyyat", səh. 195.
[2] Günah işlərlə məşğul olan adam.
[3] "Hucurat", 6.
[4] "Nur", 4.
[5] "Maidə", 25.
[6] "Əl-Fəqih", c. 4, səh. 7.

Həzrət Əli (ə) Kumeylə buyurur: "Ey Kumeyl! Fasiqlərdən uzaq gəz".

İmam Baqirdən (ə) gələn bir hədisdə deyilir: "Atam Əli ibn Hüseyn mənə buyurdu: "Oğlum! Beş nəfərdən həzər et. Onlarla danışma, yoldaşlıq etmə".

Dedim: "Ata, onlar kimlərdir?"

Buyurdu: "Yalançı ilə yoldaşlıq etməkdən həzər et – o, ilğım kimi uzağı sənə yaxın, yaxını isə uzaq göstərər. Fasiqlə yoldaşlıq etməkdən həzər et, çünki o səni bir loğmaya, hətta bundan da azına satar. Xəsis adamla yoldaşlıq etməkdən həzər et – onun malına ən çox ehtiyac duyduğun anda səni xar edər. Axmaqla yoldaşlıq etməkdən həzər et – o hətta xeyir vermək istədikdə belə sənə ziyan vurar. Qohumları ilə əlaqəsini kəsənlə yoldaşlıq etməkdən həzər et, çünki o, Allahın kitabında lənətlənmişdir".[1]

## GÜNAHKARLA YOLA GETMƏK

Həzrət Məhəmməd (s) buyurur: "Camaatla yola getmək imanın yarısıdır, onlara qarşı mülayim olmaq həyatın yarısıdır"[2]. İmam Sadiq İslam peyğəmbərinin bu kəlamını nəql etdikdən sonra buyurur: "Günahkarlarla üzdə yola gedin. Onlarla qarşıdurmaya girməyin, çünki sizə sitəm edərlər".[3]

Həzrət Əli (ə) İmam Həsənə (ə) vəsiyyətində buyurur: "Fasiqlə (dinini) qorumaq üçün yola get, ürəyində isə ona haqq qazandırma. Davranışınla ondan uzaq ol ki, onun kimi olmayasan".[4]

---

[1] "Tühəf əl-üqul", c. 4, səh. 173.
[2] "Əl-Kafi", c. 2, səh. 641.
[3] "Əl-Kafi", c. 2, səh. 117.
[4] "Əl-Əmali", Şeyx Tusi, səh. 8.

## GÜNAHKARLARA HÖRMƏTİN NƏTİCƏSİ

Həzrət Əli (ə) Peyğəmbərdən (s) nəql edərək deyir: "Camaata fasiq ağalıq etsə, qövmün başçısı onun ən rəzili olsa, günahkar yuxarı başa çıxarılsa, bəla gözləmək lazımdır".[1]

### 3. Özünü müsəlman kimi qələmə verənlərə münasibət.

Müsəlman cəmiyyətində azğın və çox təhlükəli kəsimlərdən biri də fasiqlərin bir qolu sayılan münafiqlərdir.[2] Onlar (yalan) andlarını özlərinə sipər edərək zərbələrdən qorunur və bu hiylə ilə xalqı Allahın yolundan yayındırırlar.[3] Zahirləri çox aldadıcı olsa da, əslində, möminlərin və dinin gerçək düşmənləridirlər. Allah müsəlmanları bu zümrədən çəkindirmişdir.[4] Münafiqləri tanımaq da bəsirət tələb edir.

## MÜNAFİQLƏRİN BƏZİ ƏLAMƏTLƏRİ

Münafiqlər möminlərin qarşısına dindar görkəmində çıxdıqlarına görə hər şeydən əvvəl onları tanımaq lazımdır. Buna görə

---

1 "Tühəf əl-üqul", səh. 36.

2 "*Münafiq kişilərlə münafiq qadınlar (ikiüzlülükdə) bir-birinin eynidirlər. Onlar (insanlara) pis işlər görməyi əmr edər, yaxşı işləri qadağan edərlər. Hələ əlləri də bərkdir (xəsisdirlər). Onlar Allahı unutdular, Allah da onları unutdu. Həqiqətən, münafiqlər (Allahın itaətindən çıxmış) fasiqlərdir!*" (Tövbə", 67)

3 "*Onlar (yalan) andlarını özlərinə sipər edib (xalqı) Allah yolundan döndərirlər. Həqiqətən, onların törətdikləri əməllər necə də pisdir!*" ("Munafiqun", 2)

4 "*(Ya Peyğəmbər!) Sən onları gördükdə cüssələri (boy-buxunları, gözəllikləri) xoşuna gəlir, danışanda sözlərinə qulaq asırsan. Onlar, sanki (divara) söykədilmiş dirəklərdir (ruhsuz bədən, müqəvva kimidirlər). Onlar (ikiüzlülüklərinin Peyğəmbərə və möminlərə əyan olacağından qorxub) hər bir qışqırığın (səs-küyün) öz əleyhlərinə olduğunu zənn edirlər. Onlar düşməndirlər, sən onlardan həzər et! Allah onları öldürsün, necə də haqdan döndərilirlər!*" ("Munafiqun", 4)

də bu bölmədə onların bəzi xüsusiyyətlərini diqqətinizə çatdırmağı zəruri hesab edirik:

**Yalançı iman iddiası:** "*İnsanlar içərisində elələri də vardır ki, iman gətirmədikləri halda: "Biz Allaha və Qiyamət gününə iman gətirdik",– deyirlər*".[1]

**Hiyləgərlik:** "*Onlar elə güman edirlər ki, (qəlblərində olan küfrü gizlətməklə) Allahı və möminləri aldadırlar. Bilmirlər ki, əslində, ancaq özlərini aldadırlar*".[2]

**İnhisarçılıq:** "*Onlar: "Əgər biz (Bəni-Müstəliq vuruşunda) Mədinəyə qayıtsaq, ən güclülər (ən şərəflilər – münafiqlər) ən zəifləri (ən həqirləri – Peyğəmbəri və ona iman gətirənləri), əlbəttə, oradan çıxardacaqlar!" – deyirlər. Halbuki şərəf-şan da, (qüvvət və qələbə də) yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur, lakin münafiqlər (bunu) bilməzlər!*"[3]

**Ölüm qorxusu:** "*Onlara cihad etmək vacib olduqda isə içərilərindən bir qismi Allahdan qorxan kimi və ya daha artıq bir qorxu ilə insanlardan qorxuya düşərək: "Ey Rəbbimiz! Cihad etməyi nə üçün bizə vacib etdin, nə olardı ki, bizi yaxın zamana qədər (öz əcəlimiz çatana qədər) yubandıraydın!*"[4]

**Təbəqələşmə zorakılığı:** "*Onlara: "Başqaları (mühacir və ənsar) iman gətirdikləri kimi, siz də iman gətirin!" – deyildiyi zaman (öz aralarında): "Biz də səfehlər (ağılsızlar) kimi iman gətirək?" – deyə cavab verirlər. (Ey möminlər!) Agah olun ki, səfeh onların özləridir, lakin (bunu) bilmirlər*".[5]

---

[1] "Bəqərə", 8.
[2] "Bəqərə", 9.
[3] "Munafiqun",8.
[4] "Nisa", 77.
[5] "Bəqərə", 13.

**Düşmənlə sazişə girmək:** "*Bu onların Allahın nazil etdiyini (cihad əmrini) bəyənməyənlərə (münafiqlərə): "Biz bəzi işlərdə (Allahın və Məhəmməd əleyhissəlamın əmrlərini yerinə yetirməməkdə) sizə itaət edəcəyik!" – demələrinə görədir. Allah onların (bütün) sirlərini (gizli danışıqlarını) bilir!*"[1]

**İbadətdə tənbəllik və özünü gözə soxmaq:** "*Münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki, əslində, (Allah) onları aldadır. Onlar namaza durduqları zaman (yerlərindən) tənbəlliklə (könülsüz) qalxar, özlərini (yalandan) xalqa göstərər və Allahı olduqca az yad edərlər*".[2]

**Qeyd:** Münafiqlər daxilən kafir olduqları üçün Allahı qəbul etmir, Onu əsla – nə az, nə də çox yada salmırlar. Həzrət Əli (ə) yuxarıdakı ayəni izah edərkən buyurur: "Münafiqlər Allahı yalnız dünya üçün yad edirlər, dünyanın dəyəri isə çox azdır. Buna görə də Allah-Taala: "*Allahı olduqca az yad edərlər*" – deyə buyurur".

**Möminlərə istehza etmək:** "*Onlar möminlərlə qarşılaşdıqları zaman: "Biz də (sizin kimi) iman gətirdik", – deyirlər. Halbuki öz şeytanları ilə (onları aldadan dostları ilə) təkbətək qalanda: "Biz də sizinləyik, biz ancaq (möminlərə) istehza edirik", – deyirlər*".[3]

**Vədə xilaf çıxmaq və yalan:** "*(Allaha) verdikləri vədə xilaf çıxdıqlarına, yalan danışdıqlarına görə Allah da onların ürəyinə qarşılaşacaqları günə (Qiyamət gününə) qədər (davam edəcək) nifaq saldı*".[4]

---

[1] "Məhəmməd", 26.
[2] "Nisa", 142.
[3] "Bəqərə", 14.
[4] "Tövbə", 77.

**Gizli fəaliyyət:** "*Məgər (o münafiqlər) bilmirdilər ki, Allah onların (ürəklərindəki) sirlərini də bilir, gizli danışıqlarını da. Və Allah qeybləri (gizli şeyləri) çox gözəl biləndir?!*"[1]

**Möminlərdə nöqsan axtarmaq:** "*Könüllü surətdə (bollu) sədəqə verən möminlərə tənə edənləri və güc-bəla ilə əllərinə düşəni təsəddüq edən kəsləri məsxərəyə qoyanları Allah Özü məsxərəyə qoyacaqdır. Onlar şiddətli bir əzaba düçar olacaqlar!*"[2]

**Xəyanət:** İmam Sadiq (ə) buyurur: "Bu üç xüsusiyyət kimdə varsa, oruc tutub namaz qılsa da, münafiqdir: danışanda yalan demək, vəd verəndə xilaf çıxmaq, etimad qarşılığında xəyanət etmək".[3]

**Nankorluq:** İmam Sadiq (ə) buyurur: "Üç zümrə var ki, onlara yalnız münafiqlikdə məşhur olanlar hörmətsizlik edərlər: saçını İslamda ağardanlar, quranşünas alimlər və ədalətli rəhbərlər".[4]

**Əyyaşlıq:** Həzrət Məhəmməd (s) buyurmuşdur: "Ey İbn Məsud! Məndən sonra elə qövmlər gələcək ki, yaxşı və çeşidli yeməklər yeyəcək, qadınların ərləri üçün bəzəndikləri kimi bəzənib miniklərə minəcək, qadınlar kimi naz satacaq, padşahlar kimi zülm edəcəklər. Onlar axırzamanda ümmətin münafiqləridir. Şərab içər, qızlarla əylənər, camaat namazlarını tərk edər, səhlənkarlıqdan axşam namazını qılmaz, yeməkdə ifrata vararlar". Ardınca o həzrət Qurandan bir ayə oxumuşdur: "*Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi.*

---

1 "Tövbə", 78.
2 "Tövbə", 79.
3 "Tühəf əl-üqul", səh. 315.
4 "Əl-Kafi", c. 2, səh. 658.

*Onlar (Cəhənnəmdəki) Ğəyy dərəsinə düşəcəklər (yaxud onlar da öz əməllərinin cəzasını alacaqlar)*". ("Məryəm", 59).[1]

## MÜNAFİQLƏRLƏ DAVRANMA QAYDASI

Həzrət Əli (ə) buyurur: "Ey Kumeyl! Münafiqlərdən uzaq ol, xainlərlə yoldaşlıq etmə. Ey Kumeyl! Zülmkarların qapısına getməkdən, onlara qarışmaqdan və onların vasitəsilə gəlir əldə etməkdən həzər et. Onlara itaət etməkdən, məclislərində iştirak etməkdən çəkin, çünki bu iş Allahın qəzəbinə səbəb olacaq. Ey Kumeyl! Onların yanına getməyə məcbur olsan, Allahı yad et, Ona təvəkkül et və onların şərindən Allaha sığın. Yanlarına get, amma ürəyində onların əməllərinə nifrət et. Uca səslə Allahın əzəmətini yad et ki, onlar da eşitsinlər. Çünki bu halda sənin heybətin onlara təsir göstərəcək və şərlərindən amanda qalacaqsan".[2]

İmam Sadiq buyurur: "Ey İshaq! Münafiqlərlə dilin danışsın, amma qəlbin möminlərlə olsun".[3]

---

[1] "Məkarim əl-əxlaq", səh. 448-449.
[2] "Bihar əl-ənvar", c. 74, səh. 271. Diqqətəlayiq bir məqamdır ki, zülmkarlar da münafiqlərə nümunə kimi göstərilmişdir.
[3] "Əl-Fəqih", c. 4, səh. 404.

## ÜÇÜNCÜ FƏSİL

## ƏCNƏBİLƏR

### 1. Monoteistlər (kitab əhli) ;

“Kitab əhli” dedikdə səmavi kitabların ardıcılları nəzərdə tutulur. Hərçənd Quranda bu ifadə (əhli-kitab) daha çox yəhudi və xristianlar haqqında işlənmişdir.[1]

### ÜNSİYYƏTİN ÜMUMİ QANUNU

İstər kafir, istərsə də müsəlman olsun – Allahın bəndələri ilə ünsiyyətin ümumi ilahi qanunu onlara yaxşılıq etməkdir. Allah-Taala Quranda buyurur:

"*İnsanlarla xoş danışın*."[2]

"*Allah sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et*".[3]

"*Yaxşılıq da etsəniz, özünüzə etmiş olursunuz, pislik də!*"[4]

"*Bu dünyada yaxşılıq edənləri (gözəl həyat) gözləyir. Axirət yurdu (Cənnət) isə, sözsüz ki, daha yaxşıdır*".[5]

Peyğəmbər (s) və imamlar (ə) da onlara qarşı düşmənçilik etmədikləri müddətcə müşriklər və kitab əhli ilə yaxşı davranmışlar. Buna baxmayaraq, dini təlimlərdə kitab əhli ilə davranışla bağlı üç fərqli göstəriş mövcuddur (onlarla yaxşı davranmaq, onlara könül verməmək və onlarla ehtiyatla davranmaq). Bu tövsiyələr bir-biri ilə ziddiyyət təşkil etmir. Əksinə, ayə və rəvayətlərdə yer alan əlavə dəlillərdən bəlli olur

---

[1] "Bəqərə", 101; "Ali-İmran", 64.
[2] "Bəqərə", 83.
[3] "Qəsəs", 77.
[4] "İsra", 7.
[5] "Nəhl", 30.

ki, bu fərq müxtəlif zaman və məkan şəraitinə, kitab əhlinin mövqe və davranışına nəzərən meydana gəlmişdir. Həmin göstərişlərin şərhini üç hissədə diqqətinizə çatdırırıq:

**A) Kitab əhlinə ədalətpərvər yaxşılıq;**

Quranda oxuyuruq: "*Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!*"[1]

Bu ümumi ilahi qanun bütün əcnəbilərə aiddir. Nə qədər ki onlar müsəlmanlara ziyan vurmur, İslam sistemi ilə döyüşmürlər, insan olmaları etibarilə möminlərlə dinc, yanaşı yaşamaq hüququna malikdirlər. Bu, insan haqları və humanizmin də tələbidir.[2]

## KİTAB ƏHLİ İLƏ İNSANSEVƏR DAVRANIŞA NÜMUNƏLƏR

**Kitab əhlini suçlamaqdan çəkinmək:** İmam Sadiq (ə) buyurur: "Müsəlmana yaraşmaz ki, yəhudini, xristianı və məcusini bilmədiyi şeydə ittiham etsin".[3]

**Yəhudi yoldaşa yaxşılıq:** İmam Sadiq (ə) buyurur: "Əgər bir yəhudi səninlə yoldaşlıq etsə, ona yaxşı yoldaş ol".[4]

**Xəstə yəhudiyə baş çəkmək:** Həzrət Əli (ə) buyurur: "İslam peyğəmbəri xəstə yəhudiyə baş çəkərdi".[5]

---

1 "Mumtəhinə", 8.
2 "Təsnim", c. 5, səh. 75.
3 "Dəaim əl-İslam", c. 2, səh. 460.
4 "Əl-Fəqih", c. 4, səh. 404.
5 "Əl-Cəfəriyyat", səh. 159.

**Kitab əhlinin şəxsi toxunulmazlığını qorumaq:** İslam peyğəmbəri (s) buyurur: "Allah-Taala kitab əhlinin evinə icazəsiz girməyə icazə vermir".[1]

**Kitab əhlinin malını qorumaq:** Həzrət Peyğəmbər (s) buyurur: "Allah kitab əhlinin meyvəsini icazəsiz yeməyi sizə halal etməmişdir".[2]

**Kitab əhlindən olan yol yoldaşına yaxşılıq:** Birinci hissədə belə bir rəvayət qeyd etmişdik ki, Həzrət Əli (ə) Kufədə müsəlmanların himayəsində olan kitab əhlindən bir nəfərlə yol yoldaşı olur. Ayrılarkən həzrət onu ötürür. Onun bu hərəkəti əhli-kitabdan olan həmin şəxsdə təəccüb doğurur və sual yaradır. Həzrət cavabında buyurur: "Bizim peyğəmbərimiz belə fərman vermişdir".

Əhli-kitab olan kişi bu hörmətcil davranışdan təsirlənərək İslamı qəbul edir.

**Kitab əhlindən olan həkimə müraciət etməyə icazə verilməsi:** Məhəmməd ibn Müslim İmam Baqirdən (ə) yəhudi və ya xristian bir həkim tərəfindən müalicə olunmaq, onun hazırladığı dərmanı qəbul etmək haqda soruşub. Həzrət buyurub: "Eybi yoxdur. Həqiqətən, şəfa Allahın əlindədir".[3]

**Kitab əhlinə məktub yazmağın qaydası:** Əbu-Bəsir deyir: "İmam Sadiqdən soruşdular: "Əgər kiminsə məcusi, yəhudi və ya xristian birinə işi düşsə və ehtiyacını aradan qaldırmaq üçün məktub yazmaq məcburiyyətində qalsa, məktubda həmin şəxsin adını (Allahın adından) əvvəl yaza və salam verə bilərmi?"

---

[1] "Əl-Came əs-səğir", c. 1, səh. 468.
[2] "Əl-Came əs-səğir", c. 1, səh. 468.
[3] "Tibb əl-əimmə", səh. 63.

İmam Sadiq (ə) buyurur: "Məktubun əvvəlində o adamın adını yazmağı yaxşı deyil, amma məktubunda ona salam yaza bilər. Çünki Allahın rəsulu Kəsra və Qeysərə məktub yazırdı".[1]

Əlbəttə, məcusilik haqqında danışarkən qeyd etməliyik ki, bu, şəraitə görə dəyişir və çıxılmaz halda icazəlidir.[2] Bu hədislərdə salam vermək deyərkən söz və ünsiyyətdə deyil, yalnız məktubda salam vermək nəzərdə tutulur.

**Kitab əhlinə keçid icazəsi:** Əli ibn Cəfər deyir: "İmam Kazımdan soruşdum ki, yəhudi, xristian və ya məcusilər yaşamaq üçün İslam ölkələrinə köçə bilərlərmi? İmam buyurdu: "Dayanmaqları (məskunlaşmaqları) yaxşı deyil, amma gündüz gəlib, gecə çıxa bilərlər".[3]

**Kitab əhlinin hüquqlarına hörmət:** İmam Səccad (ə) buyurur: "Kitab əhlinin haqqı budur ki, Allahın onlardan qəbul etdiyini qəbul edəsən. Nə qədər ki Allahın əhdinə vəfalıdırlar, onlara sitəm etməyəsən".[4]

**Kitab əhlinə zülm etməyin cəzası:** İmam Səccad (ə) buyurur: "Onlarla ticarətdə Allahın hökmünə riayət et. Onlar müsəlmanların himayəsində olduqları üçün ilahi əhd-peymana əməl et. Bu əhd-peymana əməl və onlara zülm etmək arasında maneə olmalıdır (məbada onlara zülm edəsən). Çünki Allahın rəsulu (s) buyurmuşdur: "Kim (müsəlmanların himayəsində olan) kitab əhlinə zülm etsə, mən onun düşməniyəm. Elə isə Allahdan qorx".[5]

---

[1] "Əl-Kafi", c. 2, səh. 651.
[2] "Əl-Kafi", c. 2, səh. 651.
[3] "Məsaili-Əli ibn Cəfər", səh. 296.
[4] "Əl-Fəqih", c. 2, səh. 625.
[5] "Tühəf əl-üqul", səh. 272.

Həzrət Peyğəmbərdən (s) gələn bir hədisdə deyilir: "Kitab əhli aldadıldıqda və xəyanətə məruz qaldıqda düşmənlər müsəlmanlar üzərində zəfər çalar".[1]

**Kitab əhlini müdafiə etmək:** Din təlimlərində nəinki təkcə kitab əhlinə zülm etmək rəva bilinməmiş, hətta onları zülmdən müdafiə etmək də tövsiyə olunmuşdur. Çünki onların müsəlmanlarla bağladıqları əhd-peymana görə, canlarının və mallarının təhlükəsizliyi qorunmalı, əvəzində isə onlar da İslam cəmiyyətinin qayda-qanunlarına riayət etməlidirlər. Müsəlman hətta qeyri-müsəlmanla da olsa, öz əhd-peymanına xilaf çıxmamalıdır. Burada da onları zülmdən qorumaq, müdafiə etmək müsəlmanlara vacibdir.

Həzrət Əli (ə) buyurur: "Mənə xəbər çatdı ki, onların bir döyüşçüsü bir müsəlman qadına və müsəlmanların amanında olan bir kafir qadına hücum edərək xalxalı, bilərzik, boyunbağı və sırğalarını qoparmış, o qadın da zar-zar ağlayaraq öz qohumlarını köməyə çağırmaqdan başqa cür onlara mane ola bilməmişdir. Düşmənlərdən heç birinin yaralanmadığı, qanları tökülmədiyi halda onlar (bu döyüşdən) böyük qənimət və sərvətlə qayıtdılar. Əgər müsəlman kişi bu hadisəni eşidib qəm-qüssədən ölərsə ona eyib deyil. Mənə görə isə ölüm bundan daha layiqlidir. Nə qədər də heyrətli və təəccüblüdür!"[2]

**B) Kitab əhlinə (qeyri-müsəlmana) könül verməyə qadağa;**

Allah-Taala buyurur: "*Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost (vəli) tutun! Onlar (kafirlər)*

[1] "İrşad əl-qülub", səh. 39.
[2] "Nəhc əl-bəlağə", xütbə: 27.

*sizə gələn haqqı (Quranı, Məhəmməd əleyhissəlamı) inkar etdikləri halda, siz onlarla dostluq edirsiniz (mehribanlıq göstərirsiniz). Siz Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi (Məkkədən) çıxardırdılar*".[1]

Başqa bir ayədə buyurulur: "*Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri (özünüzə) dost tutmayın! Onlar bir-birinin dostudurlar*". Ayənin davamında isə deyilir: "*Sizdən kim onlarla dostluq edərsə, o da onlardandır. Allah zalım tayfanı düz yola yönəltməz!*"[2]

## KİTAB ƏHLİNİ DOST TUTMAĞIN YASAQ EDİLMƏSİNİN SƏBƏBLƏRİ

**Yoldan çıxmamaq:** Allah-Taala Peyğəmbərə (s) buyurur: "*(Ya Peyğəmbər!) Sən yəhudi və xaçpərəstlərin millətlərinə (dinlərinə) tabe olmayınca onlar səndən qətiyyən razı qalmayacaqdır. (Onlara) de: "Düzgün yol yalnız Allahın göstərdiyi yoldur!" Əgər sənə gələn elmdən (vəhydən) sonra onların (nəfslərindən gələn) istəklərinə uysan, o zaman səni Allahdan (Allahın əzabından) qoruyacaq nə bir dost, nə də bir köməkçi tapılar*".[3]

**Onların möminlərə qarşı kinindən qorunmaq:** "*(Ya Peyğəmbər!) Yəhudiləri və müşrikləri iman gətirənlərin ən pis düşməni, "Biz xaçpərəstik", – deyənləri isə onların ən yaxın dostu görəcəksən. Bu onların (möminlərin) içində (bilikli, abid) keşiş və*

---

1 "Mumtəhinə", 1.
2 "Maidə", 51.
3 "Bəqərə", 120.

*rahiblərin olması və onların özlərini yuxarı tutmamalarına görədir*".[1]

**Onların ilahi kitaba laqeydliyindən xilas olmaq:** "*Allah tərəfindən onlara əllərindəkini (Tövratı) təsdiq edən bir peyğəmbər gəldikdə kitab verilənlərdən (yəhudilərdən) bir qismi (Tövratda Məhəmməd əleyhissəlamın həqiqi peyğəmbər olduğu barədə deyilənləri) guya bilmirmiş kimi, Allahın kitabına arxa çevirdi*".[2]

**Onların azdırıcı etiqadlarından qorunmaq:** "*Yəhudilər dedilər: "Allahın əli bağlıdır!" Bu dedikləri sözə görə onların öz əlləri bağlandı və lənətə gəldilər. (Və ya dedikləri sözə görə onların öz əlləri bağlansın və lənətə gəlsinlər!) Xeyr, Allahın əlləri açıqdır. (O, kərimdir, səxavətlidir), istədiyi kimi lütf (və ehsan) edər*".[3] Bu ayə onların Həzrət Musanın (ə) dinindən və tövhiddən yayındıqlarını açıqlayır.

**Onların özlərini yuxarı tutmalarından qorunmaq:** "*Yəhudilər və xaçpərəstlər dedilər: "Biz Allahın oğulları və sevimliləriyik". (Onlara) de: "Bəs onda Allah nə üçün günahlarınıza görə sizə əzab verir?"*[4]

**Onların hiylələrindən qorunmaq:** "*Kitab əhlindən (yəhudilərdən) bir dəstə (bir-birinə) dedi: "Möminlərə nazil edilənə (Qurana) günün əvvəlində (səhər vaxtı) inanın, həmin günün axırında (axşam vaxtı) isə onu inkar edin! Bəlkə, (möminlər öz dinlərindən) üz döndərsinlər*".[5]

---

[1] "Maidə", 82.
[2] "Bəqərə", 101.
[3] "Maidə", 64.
[4] "Maidə", 18.
[5] "Ali-İmran", 72.

**Qeyd:** Ehtimal ki, kitab əhlindən olan ayrı-ayrı qruplar günün əvvəl saatlarında Peyğəmbərin (s) yanına gəlib İslamı qəbul edir, günün sonunda isə inkar edərək dindən üz döndərir, bununla: "Biz yeni meydana gəlmiş dini sınaqdan keçirdik, onda bir şey görməyib, üz döndərdik", – deyə mesaj vermək istəyirdilər.

**C) Kitab əhli ilə ehtiyatlı davranış.**

**Kitab əhlinə birinci olaraq salam verməyin yasaq edilməsi:** Həzrət Əli (ə) buyurur: "Kitab əhli ilə görüşdükdə onlar salam verərlərsə, siz də cavabında "əleykəssalam" deyin".[1]

**Kitab əhlinə oxşamağın yasaq edilməsi:** Həzrət Peyğəmbər (s) buyurur: "Bığınızı qısaldın, saqqalınızı isə yox. Özünüzü yəhudilərə oxşatmayın".[2]

**Kitab əhlinin mərasimlərində iştirak etməmək:** Rəvayətdə deyilir: "Kitab əhlinin dəfn mərasimlərində iştirak etməyin".[3]

**Qeyd:** Bu qadağa onların mədəniyyət və etiqadlarının müsəlmanlara təsirinin qarşısını almaq məqsədi daşıyır.

## YƏHUDİ VƏ XAÇPƏRƏSTLƏR

Yəhudi və xaçpərəstlərlə davranış qaydalarının böyük əksəriyyəti haqqında kitab əhli ilə bağlı bəhslərdə söhbət açdıq. Burada yalnız xüsusi məsələlərə toxunuruq.

---

1 "Əl-Kafi", c. 2, səh. 649.
2 "Əl-Fəqih", c. 1, səh. 130.
3 "Əd-Dəavat", səh. 227.

## XAÇPƏRƏSTLƏRİN YƏHUDİLƏRDƏN ÜSTÜN OLMASI VƏ MÜNASİBƏTDƏ İMTİYAZLARI

Allah-Taala buyurur: "*(Ya Peyğəmbər!) Yəhudiləri və müşrikləri iman gətirənlərin ən pis düşməni, "Biz xaçpərəstik", – deyənləri isə onların ən yaxın dostu görəcəksən. Bu onların içində (bilikli, abid) keşiş və rahiblərin olması və onların özlərini yuxarı tutmamalarına görədir*".[1]

Başqa bir ayədə buyurur: "*Kitab əhlindən elə kəslər vardır ki, əgər onlara bir qintar (çoxlu qızıl) əmanət versən, onu tamamilə sənə qaytararlar; elələri də vardır ki, onlara təkcə bir dinar (qızıl) əmanət versən, başlarının üzərində möhkəm durub tələb etməyincə sənə qaytarmazlar. Bunun səbəbi budur ki, onlar: "Ümmilərə görə (kitab əhli olmayan cahil ərəblərin mallarını mənimsəməyə görə) bizə irad tutulmayacaq", – deyər və bilə-bilə Allaha qarşı yalan söyləyərlə*r".[2]

## MƏCUSİLİK[3]

Məcusilərlə davranış qaydalarının böyük əksəriyyəti haqqında da ötən bəhsimizdə söhbət açdığımız üçün burada yalnız xüsusi məqamlara toxunuruq.

---

[1] "Maidə", 82.
[2] "Ali-İmran", 75.
[3] Məcuslar iki qüvvəyə – nur (Yəzdan) və zülmətə (Əhrimən) etiqad bəsləyirlər. Düşünürlər ki, xeyir, yaxşılıq və mənfəət Yəzdandan, fəsad, pislik və ziyan isə Əhrimənden gəlir ("Miləl vən-nihəl", Şəhristanı).

## MƏCUSİLƏRİ TƏHQİR ETMƏYİN YASAQ OLUNMASI

Məcusilər yəhudi və xristianlara nisbətən daha aşağı pillədə yer aldıqlarına baxmayaraq, İslama görə, insan haqlarına və bir insan kimi hörmətə malikdirlər.

Əbül-Həsən Həzza deyir: "İmam Sadiqin yanında idim. Bir şəxs məndən soruşdu: "Borc yiyəsi nə etdi?"

Dedim: "O, zinazadədir".

İmam acıqla baxdı. Dedim: "Qurbanın olum, anası və bacısı ilə nikah bağlayan məcusidir".

Həzrət buyurdu: "Bu, onların dinində nikah deyilmi?"[1] (Yəni məcusidir deyə onu zinazadə adlandırmaq olmaz)”[2]

### 2. Bütpərəstlər (müşriklər);

**Bütpərəstlərin verdiyini yeməyin qadağan edilməsi:** Allahın rəsulu buyurur: "Əgər mömin bir şəxs məni qoyun paçasından hazırlanmış yeməyə dəvət etsə, gedərəm. Bu, dindən sayılır. Kafir və ya münafiq mənim üçün bir dəvə yükü hədiyyə gətirsə də, qəbul etmərəm. Bu da dindəndir. Çünki Allah müşrik və münafiqlərin hədiyyəsini qəbul etməyimi, yeməklərini yeməyimi xoşlamır".[3]

**Müşriklərin hədiyyəsini qəbul etməyin qadağan edilməsi:** İmam Sadiq (ə) buyurur: "İyaz cahiliyyət dönəminin önəmli şəxsiyyətlərindən biri və Ukaz əhlinin qazısı idi. O, hər dəfə Məkkəyə gələndə günah və çirkinlik libasını çıxarır, pak olduğu üçün Peyğəmbərin libasını (nübüvvətdən qabaq) alır,

---

[1] "İləl əş-şərai", səh. 540.

[2] Digər səmavi dinlərdən fərqli olaraq, məcusiliyin şəriətində məhrəmlərlə (ana, bacı, qız) nikah bağlamağa icazə verilir. Bu, bir çox hədislərədə və fiqh qaynaqlarında əks olunmuşdur. Nümunə üçün bax: "Əl-Kafi", c. 5, səh. 574; c. 7, səh. 146; "Təhzib əl-əhkam", c. 9, səh. 365; "Müxtələf əş-şiə", c. 9, səh. 93-94.

[3] "Əl-Məhasin", səh. 411.

Kəbəni təvaf edir, sonra geri qaytarırdı. Həzrət Məhəmmədə (s) peyğəmbərlik verildikdə İyaz onun üçün bir hədiyyə gətirdi. Amma Allahın rəsulu (s) onun hədiyyəsini qəbul etmədi və buyurdu: "Ey İyaz! Əgər İslamı qəbul etsəydin, sənin hədiyyəni qəbul edərdim. Çünki Allah mənə müşriklərin hədiyyəsini qəbul etməyi qadağan etmişdir". Bu sözlərdən sonra İyaz iman gətirdi və İslama ən gözəl şəkildə əməl etməyə başladı. Yalnız bundan sonra Həzrət Peyğəmbər (s) onun gətirdiyi hədiyyələri qəbul etdi".[1]

**Kafirlərə bənzəməyin qadağan edilməsi:** İmam Sadiq (ə) buyurur: "Allah peyğəmbərlərə belə vəhy etmişdir: "Öz qövmünə de ki, düşmənlərin paltarını geyinməsinlər, düşmənlərin xörəyini yeməsinlər, özlərini düşmənlərimin görkəminə salmasınlar. Çünki onlar mənim düşmənim olduqları kimi, bunlar da düşmənim sayılarlar".[2]

Həzrət Əli (ə) buyurur: "Kim özünü hansı dəstəyə bənzətsə, onlardan olar. Çünki belə şey çox az olur ki, insan özünü hansısa dəstəyə bənzətsin və onlardan olmasın".[3]

**Müşriklərin şəhərlərini zəhərləməyin qadağan edilməsi:** Həzrət Əli (ə) buyurur: "İslam peyğəmbəri müşriklərin şəhərlərinə zəhər səpməyi qadağan etmişdir".[4]

**Müşriklərin uşaqlarını və yaşlılarını öldürməyin qadağan edilməsi:** Həzrət Məhəmməd (s) buyurur: "Döyüşlərdə müşrikləri öldürün, yaşlılarına və uşaqlarına isə toxunmayın".[5]

---

[1] "Əl-Kafi", c. 5, səh. 142.
[2] "Təhzib əl-əhkam", c. 6, səh. 172; "əl-Fəqih", c. 1, səh. 252.
[3] "Nəhc əl-bəlağə", qısa kəlamlar: 207.
[4] "Əvali əl-ləali", c. 3, səh. 186.
[5] "Təhzib əl-əhkam", c. 6, səh. 142.

**3. Azğın firqələr.**

İmam Rza (ə) buyurur: "Kimin yanında sufi firqəsi haqqında söz düşsə, dili və qəlbi ilə onları inkar etməsə, bizdən deyil. Kim onları inkar etsə, elə bil ki, Peyğəmbərlə çiyin-çiyinə kafirlərlə savaşmışdır".[1]

**Qeyd:** Burada tövhid, vilayət və ya şəriətdə qüsura yol verənlər nəzərdə tutulur.

**Xatırlatma:**

İslamda azğın firqələrin hər biri ilə davranış qaydası ayrı-ayrılıqda adları çəkilərək qeyd olunmasa da, bəzi firqələrlə bağlı göstərilən ümumi qaydalardan bənzər firqələrin də hökmləri aydın olur. Ümumi qayda bundan ibarətdir ki, bu firqələr möminlər üçün müsəlmanlar kimi hörmətli və dəyərli olmamalı, imanlı insanlar onlara ürəkdə və əməldə nifrət etməlidirlər. Lakin heç kimin onlara zülm etmək, canlarına, mallarına, namuslarına təcavüz etmək hüququ yoxdur. Bu yalnız qanunun təyin etdiyi şərtlər daxilində ola bilər ki, fiqh kitablarında bu haqda ətraflı məlumat verilmişdir.

[1] "Hədiqə əş-şiə", c. 2, səh. 747; "Müstədrək əl-vəsail", c. 12, səh. 323.

## DÖRDÜNCÜ FƏSİL

## ÇARƏSİZLƏR (MÜSTƏZƏFLƏR)

Burada “müstəzəf” dedikdə küfr və azğınlıqdan xilas olmaları üçün bir yol, çarə olmayan, lakin Allah tərəfindən əfv ediləcəklərinə ümid yeri olan[1] kişi, qadın və uşaqlar nəzərdə tutulur.[2]

İmam Baqir (ə) buyurur: "(Əqidə baxımından) çarəsiz o kəsdir ki, nə küfr edə, nə də iman gətirə bilir. Buna görə də ondan təklif götürülmüşdür".[3]

Bu qrupa daxil olan insanlar nə möminlərdəndir, nə də kafirlərdən. Onlara düşdükləri şəraitə nəzərən çarəsiz adı verilmişdir və belələrinə münasibət və köməklə bağlı xüsusi göstərişlər var.

## ÇARƏSİZLƏRDƏN ÜZ DÖNDƏRMƏK OLMAZ

Zürarə deyir: "Həmran və Bükeyrlə birgə İmam Baqirin yanına gedib dedim: "Biz (insanlarla dostluqda) müəyyən meyarları əsas götürürük. Ələvi, yaxud qeyri-ələvi olmalarından asılı olmayaraq, vilayət məsələsində bizimlə həmfikir olsalar, onlarla dostluq edirik. Kim bizə müxalif olsa, ondan üz döndəririk".

İmam Baqir (ə) buyurdu: "Ey Zürarə! Allahın sözü sənin sözündən daha doğrudur. Bəs Allahın barələrində: "*Yol və çarə tapmağa qadir olmayan aciz kişi və qadınlar*",[4] – deyə buyurduğu kəslər necə olsun? Müsəlmanlar içərisindən nə əzab

---

[1] "Ola bilsin ki, Allah onları əfv etsin. Allah əfv edəndir, bağışlayandır!" ("Nisa", 99)
[2] "Yalnız hicrət etməyə yol və çarə tapmağa qadir olmayan aciz kişi, qadın və uşaqlar müstəsnadır" ("Nisa", 98).
[3] "Əl-Kafi", c. 2, səh. 404.
[4] "Nisa", 98.

verilmələrinə qəti səbəb, nə də bağışlanmalarına qəti dəlil olmayanların aqibəti Allahın fərmanından asılıdır. Həmçinin saleh əməllə günahı bir-birinə qarışdıranlar, Əraf əhli, hədiyyə almaqla İslama maraq göstərənlər necə olsun bəs?"[1]

## ÇARƏSİZLƏRƏ MADDİ DƏSTƏK

Allahın rəsulundan (s) soruşublar: "Zəkatı almağa layiq olan kimlərdir?"

Buyurub: "Məhəmməd və Əhli-Beytinin ardıcıllarından çarəsiz olanlar, dində bəsirəti zəif olanlar. Amma bəsirəti güclü olanlar, övliyalar tərəfindən himayə olunduqları və düşmənlərdən üz döndərdikləri üçün idrakı artanlar (bəsirətsiz) doğma qardaşlarınızla müqayisədə sizə daha yaxındırlar".[2]

---

[1] "Əl-Kafi", c. 2, səh. 382-383.
[2] "Vəsail əş-şiə", c. 9, səh. 229.

## BEŞİNCİ FƏSİL

### TƏCAVÜZKARLAR VƏ DÜŞMƏNLƏR

Vəziyyətdən asılı olaraq, düşmənçilik bəzən ibadət, bəzən isə günah hesab olunur. Buna görə də Quranda düşmənçilik həm əmr, həm də qadağan olunmuşdur. Allah-Taala möminlərə Şeytana, münafiqlərə və Allahı inkar edənlərə düşmən olmağı tövsiyə etmişdir. Quranda Şeytan haqqında buyurulur: "*Həqiqətən, Şeytan sizin düşməninizdir, onu (özünüzə) düşmən tutun. O, özünə uyanları Cəhənnəm əhli olmağa çağırır*".[1]

Münafiqlər haqqında deyilir: "*Onlar düşməndirlər, sən onlardan həzər et! Allah onları öldürsün, necə də haqdan döndərilirlər!*"[2]

Allahı inkar edənlərlə bağlı isə oxuyuruq: "*İbrahim və onunla birlikdə olanlar (möminlər) sizin üçün gözəl örnəkdir. O zaman onlar öz qövmünə belə demişdilər: "Şübhəsiz ki, bizim sizinlə və sizin Allahdan başqa ibadət etdiklərinizlə (bütlərlə) heç bir əlaqəmiz yoxdur. Biz sizi (dininizi) inkar edirik. Siz bir olan Allaha iman gətirməyincə bizimlə sizin aranızda həmişə ədavət və nifrət olacaqdır!*"[3]

Bu deyilənlərin əksinə olaraq, Quranda və digər dini mənbələrdə ilahi övliyalara, möminlərə düşmən olmaq pislənmişdir. Quranda bu haqda oxuyuruq: "*Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaq və* sizi Allahı zikr etməkdən, *namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?*"[4]

---

[1] "Fatir", 6.
[2] "Munafiqun", 4.
[3] "Mumtəhinə", 4.
[4] "Maidə", 91.

İslami göstərişlərin əsasını Allahın bəndələrinə düşmən olmamaq, onlara sevgi göstərmək, onlarla yola getmək təşkil edir. Buna görə də Allahın rəsulu (s) buyurmuşdur: "Cəbrayıl insanların bir-biri ilə düşmənçilik aparmaması qədər heç nəyi tapşırmadı (Hamını düşmənçilikdən çəkindirdi)".[1]

Peyğəmbərdən (s) gələn digər hədislərdə buyurulur:

"Bütlərə pərəstişdən sonra heç nə mənə camaatla düşmənçilik qədər yasaq edilməyib".[2]

"Cəbrayıl hər dəfə mənim yanıma gələndə mənə moizə edib. Moizəsinin yekunu bu olub ki, camaat arasında düşmənçilik salmaqdan çəkinim. Çünki bu, eyiblərin üzə çıxmasına və hörmət-izzətin aradan qalxmasına səbəb olur".[3]

Loğman demişdir: "Özünə hətta bir düşmən belə seçmə. Çünki bir düşmən də çoxdur".[4]

## DÜŞMƏNİN NÖVLƏRİ

Düşmənlərlə bağlı mətləblər iki şəkildə – şəxsi düşmənlər və din düşmənləri şəklində verilmişdir və bunlardan hər biri ilə ayrıca davranış qaydaları var.

### 1. Şəxsi düşmənlər;

“Şəxsi düşmən” dedikdə yalnız insanın özü ilə düşmənçilik edənlər nəzərdə tutulur. Rəvayətlərdə onlarla davranış qaydaları haqqında bir sıra tövsiyələr verilmişdir. Burada onları diqqətinizə çatdırırıq:

---

1 "Əl-Kafi", c. 2, səh. 302.
2 "Tühəf əl-üqul", səh. 42.
3 "Əl-Kafi", c. 2, səh. 302.
4 "Əl-Əmali", Şeyx Səduq, səh. 669.

**Ədalət və insaf:** Yaxşı olar ki, müsəlmanın öz düşməni ilə davranışı ədalətli olsun və o, ədalətsizlikdən çəkinsin. Quranda bu haqda oxuyuruq: "*Ey iman gətirənlər! Allah qarşısında (borcunuzu yerinə yetirməkdə) sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır*".[1]

Həzrət Əli (ə) İmam Həsənə (ə) buyurur: "Sənə imkanlı və yoxsul vaxtlarında təqvalı olmağı, dost-düşməninə qarşı ədalətli olmağı tövsiyə edirəm".[2]

İmam Sadiq (ə) mömini vəsf edərkən deyir: "Mömin öz düşmənlərinə zülm etməz".[3]

Yaxşı olar ki, müsəlman öz düşməni ilə insafla davransın. Həzrət Əli (ə) oğlu Məhəmməd Hənəfiyyəyə tövsiyələrində buyurur: "Dostun üçün canından və malından keç, camaatla münasibətdə gülərüz ol və sevgi göstər, düşməninə qarşı insaflı və ədalətli ol".[4]

**Düşmən üçün şahidlikdən imtina etməmək:** Həzrət Əli (ə) müttəqiləri vəsf edərkən buyurur: "Müttəqilər onlara tapşırılan sirri ifşa etmir, düşmənin xeyrinə doğru şahidliyi əsirgəmirlər".[5]

**Əhdə vəfa:** İmam Əli (ə) buyurur: "Əgər düşməninlə bir əhd bağlasan və öz tərəfindən ona aman (pənah) versən, əhdinə vəfa et, verdiyin pənah və sığınacağa riayət et, özünü bağladığın əhd-peymana sipər et".[6]

---

[1] "Maidə", 8.
[2] "Tühəf əl-üqul", səh. 88.
[3] "Əl-Kafi", c. 1, səh. 47.
[4] "Kitab əl-xisal", səh. 148.
[5] "Sifat əş-şiə", səh. 24.
[6] "Nəhc əl-bəlağə", məktub: 53.

**Düşməni bağışlamaq:** Əmirülmöminin Əli (ə) buyurur: "Səni sevənə hörmət et və düşmənini bağışla, çünki bu, sənin üçün fəzilətdir".[1]

**Düşmənə qarşı sakitlik və hövsələ:** Cabir deyir: "İmam Əli bir nəfərin Qənbəri söydüyünü və Qənbərin də ona cavab vermək istədiyini eşitdi. O həzrət Qənbərə buyurdu: "Sakitləş, ey Qənbər! Ona fikir vermə ki, Allahın razılığını əldə edəsən, Şeytanı əsəbiləşdirəsən və düşməninə cəza verəsən. And olsun dənəni açan (cücərdən) və insanı yaradan Allaha, mömin hövsələ ilə olduğu kimi, heç vaxt heç nə ilə Allahını sevindirməmişdir. Susmaq kimi, heç nə ilə Şeytanı qəzəbləndirməmişdir. Sakit durmaq kimi, heç nə ilə axmağı cəzalandırmamışdır".[2]

## MÖMİNDƏN ŞİKAYƏT EDƏNİN HÜQUQU

Düşməninin hüquqlarına hörmət etməmək möminə yaraşmaz. Bunun özü zülmdür, mömin isə zülmdən çəkinməlidir. İmam Səccad (ə) buyurur: "Səninlə düşmənçiliyi olub, əleyhinə şikayət edənin haqqı budur ki, iddiası düzdürsə, onun xeyrinə (öz əleyhinə) şahidlik edəsən. Onun haqqını tam olaraq verəsən. Əgər iddiası yalandırsa, onunla təmkinlə davranasan. Bu məsələdə onunla yalnız mülayim rəftar edəsən, ona münasibətinlə Allahını qəzəbləndirməyəsən. Sənin əleyhinə şikayət etdiyin adamın haqqı budur ki, əgər iddianda haqlısansa, onunla xoş dildə və qısa danışasan, haqqını inkar etməyəsən. Əgər

[1] "Ğürər əl-hikəm", səh. 435.
[2] "Əl-Əmali", Şeyx Mofid, səh. 118.

iddianda haqlı deyilsənsə, Allahdan qorxasan, tövbə edəsən və iddianı geri götürəsən".[1]

## DÜŞMƏNÇİLİYİ AZALDAN AMİLLƏR

Mömin kiminsə düşmənçiliyinə məruz qalarsa, bunu zəiflətmək üçün tədbir görməlidir. Həzrət Əli (ə) bu haqda buyurur: "Qədimdə hikmət sahibləri deyərdilər ki, bir neçə dəstə ilə get-gəl etmək yaxşıdır ... Doqquzuncu dəstə fitnəsi təmkin və mülayim rəftar nəticəsində sönən, tədbir, mehribanlıq və lütflə düşmənçiliyi aradan qalxan düşmənlərdir".[2]

**2. Din düşmənləri.**

Şəxsi düşmənlərlə müqayisədə din düşmənləri olduqca təhlükəlidir. Buna görə də Quranda deyilir: "*Həqiqətən, Şeytan sizin düşməninizdir, onu (özünüzə) düşmən tutun*".[3]

Deməli, din düşməni ilə münasib şəkildə davranmaq daha mühüm, daha incə bir məsələdir. Burada xüsusi tədbirlərə, fərasətə ehtiyac var. Din düşməninə münasibətlə bağlı ayə və rəvayətlərdə yer alan bəzi tədbirləri aşağıda diqqətinizə çatdırırıq:

**Hədəfdən geri çəkilməmək:** Quranda oxuyuruq: "*İbrahim və onunla birlikdə olanlar (möminlər) sizin üçün gözəl örnəkdir. O zaman onlar öz qövmünə belə demişdilər: "Şübhəsiz ki, bizim sizinlə və sizin Allahdan başqa ibadət etdiklərinizlə (bütlərlə) heç bir əlaqəmiz yoxdur. Biz sizi (dininizi) inkar edirik. Siz bir olan*

---

[1] "Əl-Fəqih", c. 2, səh. 624.
[2] "Kitab əl-xisal", səh. 426-427.
[3] "Fatiq", 6.

*Allaha iman gətirməyincə bizimlə sizin aranızda həmişə ədavət və nifrət olacaqdır!*"[1]

İbrahim (ə) və onunla birlikdə olanların – möminlərin düşmənlərə münasibəti sizin üçün gözəl örnəkdir. Ayədə: "İman gətirməsəniz, düşmənçilik davam edəcək" – deyilir. Çünki kafirlə düşmənçilik Allaha sevginin təcəllasıdır.

İmam Sadiq (ə) buyurur: "Kim bir kafiri sevsə, Allahla düşmənçilik etmişdir. Kim bir kafirə nifrət etsə, Allahı sevmişdir".

Sonra buyurur: "Həqiqətən, Allahın düşməninin dostu Allahın düşmənidir".[2]

Allahın rəsulu (s) buyurur: "İmanın ən möhkəm dayağı Allah üçün sevmək və Allah üçün kin bəsləmək, Allah dostlarını sevmək, Allah düşmənlərinə kin bəsləməkdir".[3]

**Düşmənin qarşısında vüqarlı olmaq:** Mömin insan qadir Allaha arxalandığı üçün hər şeyini Ondan bilir. Ondan imdad diləyir, çətinliyə düşdüyü zaman dözümlü olub tədbir görməklə heysiyyətinin alçalmaması üçün düşmənə əl açmır. İmam Baqir bu haqda buyurur: "Ehtiyacınız olduqda bizim düşmənlərimizdən imdad diləməyin. Onlardan yeyəcək və içəcək bir şey almayın".[4]

**Düşmənlə eyniləşməkdən çəkinmək:** Düşmənin öz məqsədlərinə çatmaq üçün istifadə etdiyi yollardan biri də müsəlman toplumlarında müxtəlif sferalarda öz mədəniyyətini, tərzini yaymaq, onları təsir altına salmaqdır. Bura geyim tərzi, müxtəlif qida növləri, gündəlik davranış qaydaları və s. daxildir.

---

[1] "Mumtəhinə", 4.
[2] "Əl-Əmali", Şeyx Səduq, səh. 605.
[3] "Əl-Kafi", c. 2, səh. 126.
[4] "Əd-Dəvat", səh. 230.

Müsəlmanlar düşməni uğursuzluğa uğratmaq üçün hər cür yamsılama və bənzəmədən çəkinməlidirlər.

Həzrət Peyğəmbər (s) buyurur: "Düşmənlərin geyimini geyməyin, xörəklərini yeməyin, düşmənlərim kimi davranmayın. Əgər belə etsəniz, onlar mənim düşmənim olduqları kimi, siz də mənim düşmənlərimdən hesab olunacaqsınız"[1].

**Hərtərəfli müdafiə hazırlığı:** Müsəlmanların düşmənin hiylə və taktikalarına qarşı sayıq, hazırlıqlı olmaları ağıllı bir addımdır. Bu mövzu Quran və rəvayətlərdə də vurğulanmışdır. Allah-Taala buyurur: "*(Ey möminlər) Allahın düşmənini və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri (münafiqləri) qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və (cihad üçün bəslənilən) döyüş atları tədarük edin. Allah yolunda nə xərcləsəniz, onun əvəzi artıqlaması ilə ödənilər və sizə heç bir haqsızlıq edilməz!*"[2]

Həzrət Əli (ə) buyurur: "Onlar sizinlə döyüşə gəlməmiş, siz onlarla döyüşə çıxın. Allaha and olsun, hansısa qövmün öz evində *(diyarında)* elə bir müharibə olmayıb ki, orada onlar zəlil və məğlub olmasınlar".[3]

Müdafiə hazırlığı o qədər önəmlidir ki, bu məqsədlə, yəni düşməni vahiməyə salmaq üçün hətta görkəmi də dəyişmək mümkündür. İmam Sadiqdən (ə) gələn bir hədisdə oxuyuruq: "Bir kişi Peyğəmbərin yanına gəlir. Həzrət onun saqqalının ağardığını görüb buyurur: "Nurdur. Kim saqqalını İslam yolunda ağartsa, Qiyamətdə onun üçün nur olacaq".

---

[1] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 23.
[2] "Ənfal", 60.
[3] "Əl-Kafi", c. 5, səh. 5; "Nəhc əl-bəlağə", xütbə: 27.

Həmin kişi saqqalını xına ilə boyayır və o həzrətin yanına gəlir. Peyğəmbər onun xınalı saqqalını görüb buyurur: "Nur və İslamdır".

Kişi bu dəfə saqqalını qara rəngə boyayıb, yenə Peyğəmbərin hüzuruna gəlir. Həzrət buyurur: "Nur, İslam və imandır. Həyat yoldaşınızın ürəyinə sevgi, düşmənlərin ürəyinə vahimə salır".[1]

**Düşmən qarşısında təqiyyə etmək:** Yaxşı olar ki, düşmənlərin hakimiyyəti altında olan mömin canını və namusunu qorumaq üçün təqiyyə etsin. Təbii ki, əgər dinin əsasları təhlükədə olarsa və təqiyyə etmək dinin məhvinə səbəb olarsa, bu halda öz canından və namusundan əl çəkmək olar. Möminlər möminlərin əvəzinə kafirləri özlərinə dost və havadar tutmamalıdırlar. Quranda oxuyuruq: "*Möminlər möminləri buraxıb kafirləri dost tutmasınlar! Bunu edən (kafirləri özünə dost tutan) kəs Allahdan heç bir şey gözləməsin (onun Allah dərgahında heç bir qədir-qiyməti olmaz). Ancaq onlardan gələ biləcək bir təhlükədən qorxmanız (çəkinməniz) müstəsnadır. Allah sizi Öz əzabından çəkindirir. Axır dönüş Allaha tərəfdir! (Hamı Allahın hüzuruna qayıdacaqdır!)*".[2]

İmam Sadiq (ə) buyurur: "Düşmənin hakimiyyəti altında olduğun bir yerdə ona olan qəzəbini təqiyyə edərək udmaq uzaqgörən olmaq istəyən şəxs üçün uzaqgörənlik və dünya bəlalarından çəkinməkdir. Düşmənin hakimiyyəti altında olan yerdə təqiyyəyə riayət etmədən onunla düşmənçilik etmək, qızğın münaqişəyə girmək Allahın əmrini tərk etməkdir. Elə isə camaatla yaxşı münasibətlər qurun ki, onların yanında

---

[1] "Məkarim əl-əxlaq", səh. 79.
[2] "Ali-İmran", 28.

əzəmətiniz olsun. Onlarla düşmənçilik etməyin ki, onları özünüzə hökmran edib, xar olmayasınız".[1]

O həzrətdən gələn başqa bir hədisdə deyilir: "Mömin mücahiddir. Çünki batil dövlətdə Allahın düşmənləri ilə təqiyyəli davranır, haqq dövlətdə isə qılınc çalaraq mübarizə aparır".[2]

**Düşmənin təcavüzünü dəf etməyin mükafatı:** Həzrət Əli (ə) buyurur: "Kim təcavüzkar düşmənin müsəlmanlara təcavüzünün qarşısını alarsa, Allah onun günahını bağışlayar".[3]

## DÜŞMƏNİN ŞƏRİNİ DƏF ETMƏK ÜÇÜN DUA

Yaxşı olar ki, müsəlmanlar şəxsi və dini düşmənlərindən gələ biləcək təhlükələrin qarşısını almaq üçün tədbir görməklə yanaşı, dua da etsinlər. Yezid ibn Müaviyənin sərkərdəsi Müsrifin[4] müqəddəs Mədinə şəhərinə qoşun yürütdüyü zaman İmam Səccadın oxuduğu dua bu baxımdan xüsusi önəm daşıyır. Sözügedən dua budur:

"İlahi! Məni əsla yuxuya getməyən gözlərlə qoru. Əsla sarsılmayan təməl və əsaslarla saxla. Üzərimdəki qüdrət və hökmranlığınla günahlarımı bağışla. İlahi! Nə qədər ki mənim ümidim sənsən, həlak olmayacağam. İlahi! Sən mənə çoxlu nemətlər vermisən, amma mən az şükür etmişəm. Məni çox möhnətlərlə sınamısan, amma mən az dözüm gətirmişəm. Mən

---

[1] "Əl-Kafi", c. 2, səh. 109.
[2] "İləl-əş-şərai", səh. 467.
[3] "Qürəb əl-əsnad", səh. 62.
[4] Mədinə əhalisinin Hərrə hadisəsindən sonra, həddini aşdığına görə Müslim ibn Əqəbəyə verdiyi ləqəbdir.

çox itaətsizlik etmişəm, amma Sən onları örtüb, məni rüsvay etməmisən.

Ey nemətlərinin qarşılığında az şükür etdiyim halda, məni (nemətlərindən) məhrum etməyən! Ey sınaqları qarşısında dözüm gətirə bilmədiyim halda, məni başsız qoymayan! Ey məni günah edərkən görüb, rüsvay etməyən! Ey əbədi mərhəmət və saysız kəramət sahibi! Məhəmməd və ailəsinə salam göndər. (Filankəsin) Şərini məndən uzaq et. İlahi, mən onunla Sənin yardımına arxalanaraq qarşılaşıram. Şərindən (Sənə) sığınır və Səndən imdad diləyirəm. Öz güc və qüdrətinlə məni onun şərindən xilas et. Ey rəhmlilərin ən rəhmlisi!"[1]

[1] "Səhifeyi-Səccadiyyə", səh. 367-368.

## ALTINCI FƏSİL

## HƏMVƏTƏNLƏR

### XOŞXASİYYƏTLİLİKLƏ BAĞLI BƏZİ MƏQAMLAR

Allah dərgahında ən sevimli və ən dəyərli əməllərdən olan xoşxasiyyətlilik həm də ilahi vacibatdan biridir.

Rəvayətlərə görə, gülərüzlülük yalnız fərdi və ictimai həyatın xoş keçməsinə, ölkənin abadlaşmasına, ruzinin çoxalmasına və insanın cəmiyyətdə sevilməsinə yox, həm də onun qurtuluşuna, günahlarının bağışlanmasına, Qiyamət günü Peyğəmbərə yaxın olub, o həzrətin şəfaətindən faydalanmasına yol açır.

İslam mədəniyyətinə görə, xoşxasiyyətlilik Allahın rəhmətindən qaynaqlanır. Allah-Taala İslam peyğəmbərini gözəl xarakter və təbiətə ən yüksək nümunə[1] olaraq təqdim edir və ona müraciətlə buyurur: "*(Ya Peyğəmbər!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər*".[2]

Nəfsani fəzilət olan xoşxasiyyətlilik maddi mənafe naminə süni şəkildə üzə gülməkdən fərqlənir.

Bu fəslin bəhsləri üç mövzudan – gülərüzlülük, xoşsöhbətlilik və xoşrəftarlılıqdan ibarətdir. İmam Sadiq bu üç əxlaqi keyfiyyəti gözəl xasiyyətin göstəriciləri hesab edir.[3] Burada xoşxasiyyətliliyin dəyərinə, faydalarına, mükafatına, həmçinin bədxasiyyətliliyin törətdiyi nəticələrə toxunan rəvayətləri diqqətinizə çatdıracağıq.

---

[1] "*Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən*" ("Qələm", 4).
[2] "Ali-İmran", 159.
[3] "Əl-Fəqih", c. 4, səh. 412.

## GÖZƏL XASİYYƏTİN DƏYƏRİ

Həzrət Peyğəmbərdən (s) gələn hədislərdə bu barədə buyurulur:

"Qiyamət günü insanın əməl tərəzisində yaxşı xasiyyətdən üstün əməl olmayacaq".[1]

"Əməl tərəzisində yaxşı xasiyyətdən ağır şey yoxdur".[2]

İmam Sadiq (ə) buyurur: "Mömin vacibatdan sonra Allaha insanlarla yaxşı davranmaqdan daha sevimli bir əməl təqdim edə bilməmişdir".[3]

## GÜLƏRÜZLÜLÜYÜN FAYDALARI

İmam Sadiqin (ə) kəlamlarında bu barədə aşağıdakıları oxuyuruq:

"Yaxşılıq və gülərüzlülük ölkəni abadlaşdırır, ömrü uzadır".[4]

"Gülərüzlülük ruzini artırır".[5]

"Gülərüzlülük dostluq yaradır".[6]

## GÜLƏRÜZLÜLÜYÜN MÜKAFATI

**Allaha yaxın olmaq:** Həzrət Əli (ə) buyurur: " Heç bir şey yaxşı xasiyyət qədər Allaha yaxınlaşmağa səbəb olmur".[7]

İslam peyğəmbərindən (s) soruşublar: "Behiştə girməyə ən çox səbəb olan şey nədir?"

---

[1] "Əl-Kafi", c. 2, səh. 99.
[2] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 37.
[3] "Əl-Kafi", c. 2, səh. 100.
[4] "Əl-Kafi", c. 2, səh. 100.
[5] "Əz-Zöhd", səh. 30.
[6] "Əl-Kafi", c. 1, səh. 27.
[7] "Rəvzə əl-vaizin", səh. 377.

Həzrət buyurub: "İlahi təqva və xoşxasiyyətlilik".[1]

**Peyğəmbərə yaxın olmaq:** Allahın rəsulu (s) buyurur: "Qiyamət günü sizdən mənə ən yaxın olan, şəfaətimdən ən çox faydalanan ən doğruçunuz, ən əmanətdarınız, ən xoşxasiyyətliniz və insanlara ən yaxın olanınız olacaq".[2]

**Günahların örtülməsi:** İmam Sadiq (ə) buyurur: "Dörd şey var ki, kimdə olsa, imanı kamil olar və başdan-ayağa günah da olsa, dəyəri azalmaz. Bunlar doğruçuluq, əmanətdarlıq, həya və yaxşı xasiyyətdir".[3]

**Qeyd:** Hədisin mesajı budur ki, sözügedən dörd xislət kimdə olsa, bu, onun günahdan çəkinməsinə və imanının kamil olmasına səbəb olar.

**Namaz və orucun savabına nail olmaq:** Həzrət Peyğəmbər (s) buyurur: "Mömin insan gözəl xasiyyəti sayəsində, gündüzləri oruc tutub, gecələri ibadətlə keçirənin məqamına yüksələr".[4]

**Cihad savabına nail olmaq:** İmam Sadiq (ə) buyurur: "Allah bəndənin gözəl xasiyyətinin qarşılığında ona gecə-gündüz Allah yolunda döyüşən mücahidin savabını verir".[5]

## BƏDXASİYYƏTLİLİYİN NƏTİCƏLƏRİ

İslam peyğəmbərindən (s) gələn hədislərdə buyurulur:

"Bədxasiyyət adam özünü çətinliyə salır".[6]

---

[1] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 38.
[2] "Əl-Əmali", Şeyx Səduq, səh. 508.
[3] "Əl-Kafi", c. 2, səh. 99-100.
[4] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 37 (Bir çox rəvayətlərdə mömin və müsəlman ifadələri yer almışdır).
[5] "Əl-Kafi", c. 2, səh. 101.
[6] "Əl-Əmali", Şeyx Tusi, səh. 512.

"Sirkə balı korladığı kimi, pis xasiyyət də əməlləri məhv edir".[1]

Həzrət Əlinin (ə) kəlamlarında isə bu barədə deyilir:

"Bədxasiyyət adamın ailəsi ondan yorulur və bezir".[2]

"Bədxasiyyət adam bir gün yoxsul olacaq".[3]

Həzrət Peyğəmbərə (s) deyiblər: "Filan qadın gündüzləri oruc tutur, gecələri isə ibadət ilə keçirir. Amma bədxasiyyətdir – qonşularını acılayır".

Həzrət buyurub: "Onda xeyir yoxdur və Cəhənnəm əhlidir".[4]

## ƏXLAQİ ZİDDİYYƏTDƏN ÇIXIŞ YOLU

Yaxşı əxlaqi əməldə iki şeyi bilmək zəruridir:

**Yaxşını pisdən ayırd etmək:** Bunun üçün bir o qədər də zəhmət tələb olunmur. Çünki Allah-Taala yaxşını pisdən ayırmağı insana təlqin etmiş və buyurmuşdur: "*And olsun nəfsə və onu yaradana (ona biçim verənə); Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, nəfsini (günahlardan) təmizləyən, mütləq, nicat tapacaqdır!*"[5] Buna görə də "*Doğrusu, insan özü-özünə şahiddir! O, hər cür üzrxahlıq etsə də, (qəbul olunmaz)!*"[6]

**Mühüm və daha mühüm olanı, yaxşı və daha yaxşı olanı ayırd etmək:** Bəzən əməllər yaxşı və daha yaxşıya, pis və daha pisə ayrıla bilər və bu zaman onları ayırd etmək, bu dilemmadan çıxmaq üçün fərqli bir idrak lazımdır. Artıq bu, xəyal, fantaziya

[1] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 37.
[2] "Tühəf əl-üqul", səh. 214.
[3] "Ğürər əl-hikəm", səh. 264.
[4] "Tənbih əl-xəvatir və nəzhə ən-nəvazir", c. 1, səh. 90.
[5] "Şəms", 7-8.
[6] "Qiyamət", 14-15.

meydanı deyil ki, hisslərə uyub, kiməsə acıyıb iki tərəfdən birinə üstünlük verək. Əksinə, bu məqamda mühakimə səlahiyyətini daxildən zəka, xaricdən isə vəhydən qaynaqlanan nəqli dəlillər üzərinə alır.[1] İnsanın ürəyi yanaraq gördüyü iş ağıl və nəqli dəlillər tərəfindən dəstəklənərsə, təqdirəlayiqdir. Çünki ağıl Allaha bəndəlik və başqalarına canyandırma yolunun bələdçisidir.

İmam Sadiqdən (ə) soruşublar: "Zəka nədir?"

Həzrət buyurub: "Zəka odur ki, onunla Allaha ibadət olunsun və Behişt qazanılsın".[2]

**Qeyd:** Haqq və batili, doğru və yanlışı, xeyir və şəri, yaxşı və pisi ayırd etmək nəzəri zəkanın işidir. Haqqı, doğrunu, xeyri, yaxşını seçmək, bunların əksi olan əməllərdən çəkinmək isə əməli zəkanın funksiyasıdır.[3]

## ƏXLAQİ TƏZADIN NÜMUNƏLƏRİ

1. İmam Sadiq (ə) buyurur: "Osman ibn Məzunun həyat yoldaşı Peyğəmbərin yanına gələrək deyib: "Ey Allahın rəsulu! Osman gündüzləri oruc tutur, gecələri ibadətlə keçirir (mənə yaxın düşmür)”.

Allahın rəsulu (s) qəzəblənib, ayaqqabısı əlində tələsik evdən çıxıb və Osmanın yanına gedib. Onun namaz üstə olduğunu görüb. Peyğəmbəri (s) görən Osman namazı kəsib. Peyğəmbər (s) ona buyurub: "Allah məni tərki-dünyalıq üçün göndərməmişdir. O, məni mötədil, asan bir dinlə göndərmişdir. Mən oruc tuturam, namaz qılıram, həyat yoldaşımla yaxınlıq

[1] "Təfsiri-mövzui", c. 10, səh. 163.
[2] "Əl-Kafi", c. 1, səh. 11.
[3] Bu fərq haqqında ətraflı məlumat üçün bax: "Sərçeşmeyi-əndişə", c. 4, səh. 16-18.

edirəm. Kim mənim dinimi sevirsə, mənim sünnəmə əməl etsin (mənim yolumla getsin). Mənim sünnəmdən biri nikahdır (yaxınlıqdır)".[1]

2. İshaq ibn Əmmar deyir: "Bir gün İmam Sadiqin yanına getdim. O həzrət qaşqabaqla mənə baxdı. Dedim: "Sizin mənə münasibətinizi dəyişən, sizi narahat edən nədir?"

Buyurdu: "Sənin qardaşlarına münasibətini dəyişən şey (mənim də sənə münasibətimi dəyişib). Eşitmişəm qapına keşikçi qoymusan ki, yoxsul şiələri evə buraxmasın".

Dedim: "Qurbanın olum, mən tanınmaqdan çəkindim".

Buyurdu: "Bəs nə üçün bəlanın gəlməyindən qorxmursan? Bilmirsənmi ki, möminlər bir-birini görməyə gedəndə, əl sıxanda Allah onlara öz rəhmətini göndərir?"[2]

3. Qumun tanınmış şəxsiyyətlərindən olan Zəkəriyya ibn Adəm deyir: "İmam Rzanın yanına getdim. Gecənin əvvəlindən mənimlə söhbət etdi. Sübh olunca qalxıb namazını qıldı".[3]

İmam (ə) gecə namazının savabının daha çox olduğunu bildiyinə baxmayaraq, həmin gecə öz qonağı ilə maarifləndirici dini söhbət etməyi daha önəmli hesab etmiş, üstünlüyü buna vermişdir. Əlbəttə ki, o, Allahın hansı ibadətdən daha çox razı qaldığını daha yaxşı bilib.

---

[1] "Əl-Kafi", c. 5, səh. 494.
[2] "Əl-Kafi", c. 2, səh. 181-182.
[3] "Əl-İxtisas", səh. 86.

## TİBBİ MƏSƏLƏLƏRDƏ ƏXLAQİ TƏZAD

Tibbi etika sahəsində evtanaziya[1] adlanan və xüsusi önəm daşıyan mərhəmət üzündən öldürmək və ya uşaqsalma anlayışı var. Evtanaziya ilə bağlı aşağıdakı suallar meydana çıxır: bəzi ağır xəstələrin özlərinin və ya ailə üzvlərinin istəyi ilə, yaxud onların istəyi olmadan, xəstəni dözülməz ağrılardan xilas etmək üçün onun ölümünü tezləşdirmək olarmı? Uşağın doğuşdan sonra əlil qalmaq təhlükəsi varsa, abort etmək olarmı və s.?

Hərçənd sözügedən mövzunu burada açmağın yeri deyil və bu haqda daha münasib bir yerdə danışmaq lazımdır, lakin əxlaqi təzad mövzusu ilə əlaqəli olduğu üçün bu bəhsimizdə evtanaziya məsələsinə də toxunmağı lazım bilirik. Qərb məktəbləri bu məsələ haqqında fərqli baxışlar irəli sürmüşlər, lakin hamısı aktiv icbari evtanaziyanın qadağan olması haqda (xəstənin istəyi olmadan ölümünü tezləşdirmək proseduru) yekdil fikirdədirlər. Evtanaziyanın digər qisimləri ilə bağlı isə fikir ayrılıqları mövcuddur.

Məsələyə İslam nöqteyi-nəzərindən aydınlıq gətirmək üçün əvvəlcə "Həyat kimə məxsusdur?" sualına cavab tapmaq gərəkdir. Bu suala cavab olaraq, qeyd etmək lazımdır ki, hər şeyin gerçək sahibi Allahdır. Allahın qarşısında heç kim özünün və ya başqa birinin həyatının sahibi deyil. Buna görə də Quran buyurur: "*Öldürən də, dirildən də Odur!*"[2]

Bəli, insanın canını almaq hüququ yalnız Allaha aiddir. Bu yalnız Onun izni və icazəsi ilə baş verə bilər. Hətta insanın özünün belə öz həyatına son vermək haqqı yoxdur. Quranda

---

[1] Sağalmaz xəstəlikdən əziyyət çəkən insanı və ya heyvanı həyatdan məhrum etmə təcrübəsi.

[2] "Nəcm", 44.

oxuyuruq: "Allahın haram buyurduğu cana haqsız yerə qəsd etməyin".[1]

Evtanaziya haqqındakı suala gəlincə, qeyd etmək lazımdır ki, evtanaziyanın ən bariz nümunəsi kimi, xəstənin özünün və ya başqa birinin istəyi ilə, mərhəmət üzündən, tibbi üsullarla onun ölümünü tezləşdirmək, həyatına son qoymaq haramdır. Buna görə də böyük İslam fəqihləri evtanaziyanın istənilən şəkildə – yəni süni nəfəs aparatının saxlanılması və ya ölüm dozalı serum vasitəsilə gerçəkləşdirilməsini haram hesab edirlər. Eləcə də çoxsaylı fiziki və əqli qüsurlarla dünyaya gələcək uşağın süni yolla salınmasına da ruh daxil olduqdan sonra icazə verilmir. Əlbəttə, ananın həyatı ilə uşağın həyatı arasında seçim etmək lazım gəldikdə müəyyən meyarlar nəzərə alınmalıdır. Yəni analoji olaraq, suda batan insanları xilas edərkən və ya bənzər situasiyalarda alim və daha alim, ədalətli və daha ədalətli, imam və qeyri-imam və s. arasında seçim etmək lazım gələrsə müəyyən meyara əməl olunmalıdır. Seçim meyarı olmadıqda isə batanlardan hansını xilas etmək bizim öz ixtiyarımızdadır. Onlardan istədiyimizə üstünlük verə bilərik.

## HƏMVƏTƏNLƏRDƏN NÜMUNƏLƏR

İndi isə İslamda yaxşı davranmaq tövsiyə olunan həmvətənlərdən nümunələri diqqətinizə çatdırırıq:

### 1. Qonşular;

Allah-Taala Quranda qonşuya yaxşılıq haqqında buyurur: "*Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya,*

[1] "İsra", 33.

*qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın (yoldaş və) dosta, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), əlinizin altında olana (sahib olduğunuz qul və kənizlərə) yaxşılıq edin! Həqiqətən, Allah özünü bəyənənləri, lovğalıq edənləri sevməz!*"[1]

## QONŞUYA YAXŞILIĞIN ÖNƏMİ

Əmirülmöminin Əli (ə) buyurur: "Qonşularla münasibətdə Allahı unutmayın. Çünki Allahın rəsulu qonşuları o qədər tapşırdı və tövsiyələr verdi ki, onları varislər sırasına daxil etmək istədiyini düşündük".[2]

Allahın rəsulu (s) buyurmuşdur: "Ey Əli! Hətta kafir də olsa, qonşuna hörmət et".[3]

## QONŞUNUN MƏQAMI

İmam Baqir (ə) buyurur: "Əlinin kitabında oxudum ki, qonşu insanın özü kimidir. Hər cür ziyan və günahdan qorunmalıdır. Qonşuya hörmət anaya hörmət qədər vacibdir".[4]

## QONŞUNUN HÜQUQLARI

İmam Səccad (ə) buyurur: "Onu özü olmadıqda qoru, özü olduqda hörmət et, zülmə məruz qaldıqda kömək et, eybini yayma. Ondan pislik görəndə ört-basdır et. Nəsihətini dinləyəcəyini hiss etdikdə xəlvətdə ona nəsihət ver. Çətinliklərdə tək

[1] "Nisa", 36.
[2] "Əl-Kafi", c. 7, səh. 51.
[3] "Came əl-əxbar", səh. 84.
[4] "Əl-Kafi", c. 2, səh. 666.

qoyma. Səhvindən keç, günahını bağışla. Onunla hörmətlə davran".[1]

## QONŞUNUN SİRLƏRİNİ QORUMAQ

İmam Səccad (ə) buyurur: "Qonşunun hüquqlarından biri budur ki, onun eyiblərini və pis əməllərini axtarmayasan. Eybini və ya pis əməlini bildikdə ört-basdır edəsən".[2]

## QONŞULUĞUN HÜDUDLARI

Həzrət Peyğəmbər (s) buyurur: "Hər tərəfdən (ön, arxa, sağ və soldan, aşağı və yuxarıdan) qırx ev qonşudur".[3]

Həzrət Əlinin (ə) kəlamında bu barədə deyilir: "Məscidin sahəsi qırx dirsək, evin qonşuluğu isə dörd tərəfdən qırx evdir".[4]

**Qeyd:** Yalnız dörd tərəfin qeyd olunmasının səbəbi o dönəmdə bugünkü kimi göydələnlərin mövcud olmamasıdır. Təbii ki, çoxmərtəbəli bina evləri də qonşuluq qanununa daxildirlər.

## QONŞUNUN ƏZİYYƏTİ QARŞISINDA HÖVSƏLƏLİ OLMAQ

İmam Kazım (ə) buyurur: "Yaxşı qonşuluq (bir-birini) incitməmək deyil. Əksinə, qonşunun əziyyətinə dözməkdir".[5]

---

[1] "Əl-Fəqih", c. 2, səh. 623.
[2] "Əl-Fəqih", c. 2, səh. 623.
[3] "Əl-Kafi", c. 2, səh. 669.
[4] "Kitab əl-xisal", səh. 544.
[5] "Əl-Kafi", c. 2, səh. 544.

## QONŞUYA YAXŞILIĞIN SAVABI

**Abadlıq və uzun ömür:** İmam Sadiq (ə) buyurur: "Qohumlarla xoş münasibət, yaxşı qonşuluq əlaqələri ölkəni abad, ömrü uzun edər".[1]

**Ruzinin artması:** İmam Sadiq (ə) buyurur: "Yaxşı qonşuluq ömrü artırır".[2]

**İlahi rəhmət:** Həzrət Məhəmməd (s) buyurur: "Yaxşı işlərdə qonşusuna kömək edənə Allah mərhəmət etsin".[3]

**Cənnətə daxil olmaq:** "Bu dörd xislətdən biri kimə verilsə, Behiştə daxil olar: ata-anaya yaxşılıq, qohumlarla əlaqə, yaxşı qonşuluq və yaxşı xasiyyət".[4]

## QONŞUYA DİQQƏTSİZLİYİN CƏZASI

Həzrət Məhəmməddən (s) gələn hədislərdə bu barədə aşağıdakı fikirlərə rast gəlmək olar:

"Özü tox, qonşusu isə ac yatan şəxs mənə iman gətirməmişdir. Bir kəndin bütün sakinləri tox ikən aralarında bir nəfər ac yatsa, Qiyamət günü Allah onlara rəhmət gözü ilə baxmaz".[5]

"Kim yaşam üçün zəruri olan bir şeyi qonşusundan əsirgəsə, Allah Qiyamət günü onu öz lütfündən məhrum edər və özbaşına buraxar".[6]

---

[1] "Əl-Kafi", c. 2, səh. 668.
[2] "Əl-Kafi", c. 2, səh. 666.
[3] "Əmali", Şeyx Səduq, səh. 288.
[4] "Came əl-əxbar", səh. 106.
[5] "Əl-Kafi", c. 2, səh. 668.
[6] "Səvab əl-əmal", səh. 284.

## QONŞUNU İNCİTMƏYİN CƏZASI

**Möminlərin cərgəsindən çıxmaq:** Abdullah ibn Məsud deyir: "Bir gün bir kişi Həzrət Fatimənin yanına gələrək deyib: "Ey Peyğəmbərin qızı! Səndə Peyğəmbərdən elə bir şey varmı ki, mənə bir xeyri dəysin?"

Həzrət Fatimə kənizinə buyurub: "O yazını gətir".

Kəniz axtarıb, amma tapa bilməyib. O həzrət buyurub: "Vay olsun sənə, axtar. O yazı mənim üçün Həsən və Hüseynə bərabərdir (onlar qədər dəyərlidir)".

Kəniz yenə də axtarıb və həmin yazını atılmış, lazımsız əşyaların arasından tapıb. Orada bu sözlər yazılmış imiş: "Həzrət Məhəmməd buyurdu: "Qonşusunu incidən şəxs möminlərdən deyil. Kimin Allaha və axirət gününə imanı varsa, qonşusunu incitməz".[1]

İmam Sadiq (ə) buyurur: "Ey Məhəmməd Əhli-Beytinin ardıcılları, bilin ki, qonşusu ilə davranışı yaxşı olmayan bizdən deyil".[2]

**Allahın rəhmətindən məhrum olmaq:** Allahın rəsulu (s) buyurur: "Ey Əli! Kim qonşusunu incitsə, Allahın rəhmətindən məhrum olar. Kim mənim Əhli-Beytimə kin bəsləsə, məlun, münafiq və ziyankardır. Ey Əli! Qonşun kafir də olsa, ona hörmət et".[3]

**Rüsvayçılıq:** Həzrət Peyğəmbər (s) buyurur: "Qonşunun evini güdmək yaxşı iş deyil".[4]

O həzrətdən gələn başqa bir hədisdə deyilir: "Kim qonşunun evini güdüb, kişinin cinsiyyət orqanına, qadının saçına və ya

---

[1] "Dəlail əl-əimmə", səh. 1.
[2] "Əl-Kafi", c. 2, səh. 637.
[3] "Came əl-əxbar", c. 3, səh. 556.
[4] "Əl-Fəqih", c. 3, səh. 556.

bədən üzvlərinə baxarsa, Allahın onu bu dünyada başqalarının sirr və eyiblərini ifşa etməyə çalışan münafiqlərlə birgə Cəhənnəmə atmağa haqqı var. Allah onu rüsvay etmədən bu dünyadan aparmaz, axirətdə pisliklərini insanlar üçün aşkara çıxarar".[1]

## QONŞULAR ÜÇÜN DUA

Yaxşı olar ki, möminlər qonşularla xoş və ədəb-ərkanla davranmaqdan əlavə, Allahla öz aralarında qonşuları üçün dua da etsinlər və İmam Səccadın qonşularla bağlı bu duasını oxusunlar:

"İlahi! Məhəmməd və onun ailəsinə salam göndər. Haqqımızı tanıyıb, düşmənlərimizdən üz döndərən qonşularımın hüquqlarına riayət etməkdə mənə ən gözəl şəkildə kömək et.

Onları Sənin sünnəni həyata keçirməyə, Sənin gözəl ədəb-ərkanını öyrənməyə müvəffəq et. Müvəffəq et ki, çarəsizlərə kömək etsinlər, onların hacətlərini versinlər. Xəstələrə baş çəksinlər, haqq sorağında olanlara yol göstərsinlər. Məsləhət istəyənə xeyirxahlıq etsinlər, səfərdən qayıdanı ziyarət etsinlər, hamının sirrini saxlasınlar, camaatın eyiblərini örtsünlər. Məzlumların imdadına tələssinlər, mal və geyimdə bir-birinə yardım etsinlər, imkanlarını və yaxşılıqlarını bir-birindən əsirgəməsinlər. Verməli olduqlarını istəmişdən öncə versinlər.

İlahi! Məni müvəffəq et ki, pis davranana yaxşı davranışla cavab verim, zülm edənləri bağışlayım. Onların hamısı ilə xoş gümanla davranım, hamısının işini yaxşılıqla yoluna qoyum. İffətlə onlara göz yumum. Mülayim və təvazökar olum. Zərər çəkənlərinə ürək yandırım, qəlbimin dərinliklərində onları

---

[1] "Səvab əl-əmal", səh. 282.

sevim. Onların xeyrini istəyim, nemətlərinin davamlı olmasını diləyim. Öz qohumlarım üçün vacib saydıqlarımı onlar üçün də vacib sayım. Öz yaxınlarımla necə davranıramsa, onlarla da elə davranım.

İlahi! Məhəmməd və ailəsinə salam göndər. Elə et ki, qonşularım da mənimlə belə davransınlar. Onlarda olanlardan mənə daha mükəmməl pay ver. Onların mənə qarşı bəsirətlərini artır. Onların mənim fəzilətimlə bağlı biliklərini artır ki, onlar mənimlə xoşbəxt olsunlar, mən də onlarla. Qəbul et, ey aləmlərin Pərvərdigarı!"[1]

**2. Elm əhli (müəllim və şagirdlər);**

Biliyə və bilik sahiblərinə hörmət dinin təkidlə üzərində dayandığı təlimlərdəndir. İslam ümmətinin səadət və üstünlüyünü təmin edən istənilən bilik sahəsi Quran və ilahi din tərəfindən rəğbətlə qarşılanmışdır. Öz səyi, zəhməti ilə müsəlman cəmiyyətinin və xalqın problemlərini həll edən, onların yadellilər qarşısında nüfuz və müstəqilliyini təmin edən alim və tədqiqatçılara hörmətlə yanaşmaq İslam ümmətinə vacibdir. Bütün bunlar xalqa xidmətlə bağlıdır. Burada isə insanların azğınlıqdan xilas olub, tövhidə yönəlmələrinə səbəb olan elmlər və elm sahibləri haqqında danışacağıq. Bu mövzuda nəql olunan rəvayətlər elm sahiblərinə hörmətlə yanaşmaqdan əlavə, onlara kömək etməyi, tabe olmağı da zəruri hesab edir.[2]

[1] "Səhifeyi-Səccadiyye", dua: 26.
[2] Bax: "Süruşi-hdayət", c. 1, səh. 130-131.

## ELM VƏ ALİMİN DƏYƏRİ

Allah elm və alimin dəyəri haqqında buyurur: "*Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!*"[1]

Həzrət Məhəmməd (s) buyurur: "Alimin abiddən üstünlüyü on dörd gecəlik ayın digər ulduzlardan üstünlüyü kimidir".[2]

O həzrətin başqa bir kəlamında isə deyilir: "Cəbrayıldan soruşdum: "Allah dərgahında alimlər daha əzizdirlər, yoxsa şəhidlər?"

Dedi: "Allah dərgahında bir alim min şəhiddən əzizdir. Çünki alimlər peyğəmbərlərin ardınca gedirlər, şəhidlər isə alimlərin".[3]

Alimlərə hörmət etmək olduqca fəzilətli hesab olunan ibadətlərdən biridir. Bu hissədə hədisləri üç başlıq altında diqqətinizə çatdıracağıq: alimin dəyəri, elm öyrənməyin fəziləti və elm öyrətməyin fəziləti.

### A) Alimlər;

## ALİMƏ BAXMAĞIN FƏZİLƏT VƏ MÜKAFATI

İslam peyğəmbəri (s) buyurur: "Alimin üzünə baxmaq ibadətdir".[4]

O həzrətin başqa bir hədisində deyilir: "Alimin üzünə baxmaq min qul azad etməkdən daha üstündür".[5]

---

1 "Zümər", 9.
2 "Əl-Kafi", c. 1, səh. 34.
3 "İrşad əl-qülub", səh. 164.
4 "Əl-Fəqih", c. 2, səh. 205.
5 "Came əl-əxbar", səh. 38.

## ALİMİ ZİYARƏT ETMƏYİN FƏZİLƏT VƏ MÜKAFATI

Həzrət Məhəmməd (s) buyurur: "Kim Allahın Cəhənnəm alovundan azad etdiklərinə baxmaq istəsə, elm öyrənənlərə baxsın. And olsun canım əlində olana, elm öyrənən elə bir insan yoxdur ki, alimin evinə (təhsil müəssisəsinə) get-gəl etsin, amma Allah onun hər addımına bir ilin ibadətini yazmasın, hər addımının qarşılığında Behiştdə onun üçün bir şəhər salmasın. O, yerin üzərində getdikcə yer onun üçün bağışlanma diləyir, gecə və gündüzü Allahın məğfirəti altında keçir. Mələklər belələrinə şahid durub deyirlər ki, bunlar Allahın Cəhənnəm odundan azad olunmuşlarıdır.[1]

## ALİMLƏRƏ HÖRMƏT ETMƏYİN MÜKAFATI

Allahın rəsulu (s) buyurur: "Kim bir alimə hörmət etsə, mənə hörmət etmişdir. Kim mənə hörmət etsə, Allaha hörmət etmişdir. Kim Allaha hörmət etsə, yolu Behiştə doğrudur".[2]

İmam Sadiq (ə) buyurur: "Kim müsəlman və dinşünas bir alimə hörmət etsə, Qiyamət günü Allahın qarşısına çıxanda Allah ondan razı olacaq".[3]

## ALİMLƏRİN BAŞQALARI ÜZƏRİNDƏ HAQQI

Həzrət Əli (ə) buyurur: "Alimin hüquqlarından biri budur ki, ona çox sual verməyəsən, paltarını tutmayasan. Alimin yanına getdikdə yanında adam varsa, içəridəkilərə salam ver. Ona xüsusi hörmət göstər. Onun arxasında yox, qarşısında əyləş.

---

[1] "Münyə əl-mürid", səh. 100.
[2] "Came əl-əxbar", c. 1, səh. 59.
[3] "Əvali əl-ləali", c. 1, səh. 59.

Onun yanında olanda əlinlə, gözünlə işarə etmə. Ondan-bundan onun danışdıqlarına əks sözlər danışma. Onunla bir yerdə olmaqdan usanma və narahat olma. Çünki alim bir damla yağış üçün həsrətlə gözlənilən buluda bənzəyir".[1]

## ALİMLƏ ÜNSİYYƏTİN QAYDALARI

İmam Baqir (ə) buyurur: "Alimlə bir yerdə olduqda eşitməyə (dinləməyə) danışmaqdan daha həris ol. Yaxşı danışmağı öyrəndiyin kimi, yaxşı eşitməyi (dinləməyi) də öyrən".[2]

## ALİMLƏ ÜNSİYYƏTİN MÜKAFATI

Həzrət Peyğəmbər (s) buyurur: "Elə bir mömin yoxdur ki, bir anlıq alimin yanında otursun, amma Allah ona: "İzzət və calalıma and olsun, səni Cənnətdə onunla yoldaş edəcəyəm və bundan çəkinmirəm", – deyə səslənməsin".[3]

## ELMİ MƏCLİSLƏRDƏ İŞTİRAK ETMƏYİN SAVABI

Həzrət Peyğəmbər (s) buyurur: "Ey Əbuzər! Elmi müzakirə gedən məclisdə bir saat əyləşmək Allah dərgahında hər birində min rükət namaz qılınan min gecə ibadətdən daha sevimlidir. Ey Əbuzər! Elmi müzakirə məclisində bir saat iştirak etmək sənin üçün gündüzü orucla və gecəsi ibadətlə keçən bir ilin ibadətindən daha yaxşıdır".[4]

---

[1] "Kitab əs-sərair", c. 3, səh. 646.
[2] "Əl-İxtisas", səh. 245.
[3] "Əl-Əmali", Şeyx Səduq, səh. 37.
[4] "Came əl-əxbar", səh. 38.

Rəvayətə görə, ənsardan olan bir kişi Peyğəmbərin (s) yanına gələrək soruşub: "Ey Allahın rəsulu! Bir yanda dəfn mərasimi, digər tərəfdə isə elmi məclis keçirilsə, sizin üçün hansında iştirak etmək daha sevimlidir?"

Həzrət buyurub: "Əgər cənazəni götürən, torpağa tapşıran biri varsa, şübhəsiz ki, alimin məclisində iştirak etmək daha üstündür. (Elm məclisində iştirak etmək) min dəfn mərasimindən, min xəstəyə baş çəkməkdən, min günün orucundan, səfillərə min dirhəm sədəqə verməkdən, vacib həcdən başqa, min həcdən, mal və canla həyata keçirilməli olan vacib cihaddan başqa, Allah yolunda min cihaddan daha üstündür".[1]

**Qeyd:** Elmi məclislərdə iştirak etməyin belə çoxlu təsirlərə malik olmasının səbəbi bu əməlin müsbət nəticə və faydalarıdır. Belə ki dini biliklər və ilahi idrak insanın Allahı inkardan, şirkdən, küfrdən xilas olmasına, tövhid və imana yönəlməsinə, zülmdən qurtulub ədalətə qovuşmasına, günah və itaətsizlikdən çıxıb itaət və təqvaya üz tutmasına səbəb olur.

## QURANDA HÖRMƏTƏ LAYİQ BİLİNƏN ALİMLƏRİN XÜSUSİYYƏTLƏRİ

**Allahdan qorxmaq:** "*Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar*".[2]

**İlahi ismarışları heç kəsdən qorxmadan çatdırmaq:** "*O peyğəmbərlər ki, Allahın hökmlərini (onlara verdiyi risaləti) təbliğ edər, (risaləti tərk etməkdə) Ondan çəkinər və Allahdan*

---

[1] "Rəvzə əl-vaizin", səh. 12.
[2] "Fatir", 28.

*başqa heç kəsdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə kifayətdir*".[1]

**Quran qarşısında təvazö və təslimkarlıq:** "*Və elm verilən kəslər də bilsinlər ki, haqq (Quran) sənin Rəbbindəndir. Artıq ona inansınlar və ürəkləri ondan arxayın olsun. Şübhəsiz ki, Allah iman gətirənləri doğru yola yönəldər!*"[2]

**Göz yaşı və minacat:** "*(Ya Peyğəmbər, müşriklərə) de: "İstər (Qurana) inanın, istərsə də inanmayın. Şübhə yoxdur ki, ondan əvvəl elm verilmiş kimsələr (özlərinə Tövrat və İncil verilmiş kitab əhli) yanlarında (Quran) oxunduğu zaman üzüstə səcdəyə qapanar və: "Rəbbimiz pakdır, müqəddəsdir! Rəbbimizin (möminlərə mükafat, kafirlərə əzab veriləcəyi barəsindəki) əmri, mütləq, yerinə yetəcəkdir!" – deyərlər. Onlar üzüstə səcdəyə qapanıb ağlayar, (Qurandakı öyüd-nəsihət isə) onların (Allaha) itaətini daha da artırar*".[3]

Həzrət Peyğəmbər (s) bu ayəyə istinad edərək buyurur: "Kim onun ağlamasına səbəb olmayan bilik əldə edibsə, əslində, faydasız bilik öyrənib".[4]

**Zamanı və özünü tanımaq:** İmam Sadiq (ə) hörmətə layiq olan alimlər haqqında buyurur: "Onlar düşüncə və ağıl, kədər və qəm sahibi, gecələri oyaq qalan (ibadət edən), bəndəlik libası geyinən, gecənin qaranlığında ayağa qalxan, Allahın xofu canını bürümüş halda əməl edən, ürkərək Allahı çağıran, öz şəninə diqqət edən, zəmanəsinin insanlarını tanıyan, ən etibarlı qardaşlarından qorxan alimlərdir. Allah belə alimlərin əsasını

---

[1] "Əhzab", 39.
[2] "Həcc", 54.
[3] "İsra", 107-109.
[4] "Məkarim əl-əxlaq", səh. 462.

möhkəm etsin və Qiyamət günü onları (Cəhənnəm odundan) amanda saxlasın".[1]

Həzrət Əli (ə) daim buyurardı: "Ey elm ardınca gedən! Alimin üç əlaməti var: bilik, hövsələ və susqunluq. Özünü alim kimi qələmə verənlərin də üç əlaməti var: özündən üstün olanla haqsız yerə mübahisə etmək, özündən aşağısına qələbə çalmaqla zülm etmək, zülmkarları himayə etmək".[2]

## İTAƏTİ VACİB OLAN FƏQİHİN NİŞANƏLƏRİ

İmam Həsən Əskəri (ə) buyurur: "Fəqihlərdən hansı özünü (nəfsini) saxlayan, dinin keşiyini çəkən, nəfsani istəklərinə qarşı çıxan, Allahın əmrinə itaət edən olsa, xalq onun ardınca getməlidir. Şiə fəqihlərinin hamısı yox, bəziləri belədirlər".[3]

## ALİMLƏRƏ HÖRMƏTSİZLİYİN CƏZASI

Həzrət Peyğəmbər (s) buyurur: "Kim bir alimə hörmətsizlik etsə, mənə hörmətsizlik etmişdir. Kim mənə hörmətsizlik etsə, Allaha hörmətsizlik etmişdir, ona görə də aqibəti Cəhənnəmdir".[4]

İmam Sadiq (ə) buyurur: "Kim bir müsəlman fəqihə hörmətsizlik etsə, Qiyamət günü Allah onunla qəzəbli halda qarşılaşacaq".[5]

---

[1] "Əl-Kafi", c. 1, səh. 49.
[2] "Əl-Kafi", c. 1, səh. 49.
[3] "Əl-İhticac", 458.
[4] "Came əl-əxbar", səh. 38.
[5] "Əvali əl-ləali", c. 1, səh. 60.

## ALİMƏ HÖRMƏTSİZLİYİN NƏTİCƏLƏRİ

Həzrət Əli (ə) buyurur: "Alimlərə laqeydlikdən çəkin. Çünki bu, sənin dəyərinin azalmasına, sənə qarşı bədgümanlığa və sənin təşəxxüslü olmana səbəb ola bilər".[1]

Həzrət Peyğəmbərin (s) kəlamında isə bu barədə deyilir: "Kim bir bilik sahibini (alimi) xar etsə, məni xar etmişdir. Kim məni xar etsə, kafirdir".[2]

## ƏMƏLSİZ ALİMLƏRDƏN UZAQ OLMAQ

Həzrət Peyğəmbər (s) buyurub: "Nə qədər ki fəqihlər dünyaya daxil olmayıblar, peyğəmbərlərin əminləridirlər". O həzrətdən soruşublar: "Ey Allahın elçisi! Dünyaya daxil olmaq nə deməkdir?" Buyurub: "Zülmkar padşaha itaət etmək. Nə vaxt belə etsələr, dininiz naminə onlardan həzər edin!"[3]

Həzrət İsa (ə) buyurmuşdur: "İnsanların ən pisi dünyanı biliyindən üstün tutan, dünyanı sevən, onun üçün çalışıb-vuruşan alimdir. Beləsinin bu həvəsi elə bir şəkil alır ki, insanları sərgərdan qoymalı olsa belə, bunu edir. Biliyinə əməl etməyən alimin biliyinin ona faydası yoxdur. Necə ki günəşin işığı kor adam üçün (görmək baxımından) faydasızdır".[4]

Həzrət İsanın (ə) başqa bir kəlamında deyilir: "Dinar dinin bəlası, alim isə dinin təbibidir. Təbibin bəlanı özünə tərəf çəkdiyini görsəniz, ona etimad etməyin. Çünki beləsi başqasının xeyrini istəməz".[5]

---

1 "Ğürər əl-hikəm", səh. 47.
2 "İrşad əl-qülub", səh. 165.
3 "Əl-Kafi", c. 1, səh. 46.
4 "Tühəf əl-üqul", səh. 503.
5 "Kitab əl-xisal", səh. 113.

İmam Baqir (ə) buyurur: "Nadan abidlərdən və çirkin əməlli alimlərdən həzər edin. Çünki hər iki dəstə hər bir insanı aldada bilirlər. "[1]

İmam Sadiq (ə) buyurur: "Əgər bir alimin dünyanı sevdiyini görsəniz, onu dinində suçlayın (ona etibar etməyin). Çünki hər sevən sevdiyinin ətrafında fırlanar".[2]

Allah-Taala Davud peyğəmbərə (ə) belə vəhy etmişdir: "Dünyaya aldanmış alimi Mənimlə öz arana salma. Çünki o, səni Mənim sevgimə doğru gələn yoldan yayındırar. Belə alimlər Mənə bağlı olan bəndələrin yolunu kəsirlər. Onların ən kiçik cəzası minacatımın şirinliyini ürəklərindən çıxarmağımdır".[3]

**B) Müəllimin dəyəri;**

İslam peyğəmbəri (s) buyurur: "Alimin abiddən üstünlüyü mənim sizin ən aşağınızdan üstünlüyüm kimidir. Həqiqətən, Allah, mələklər, yer əhli, hətta yuvadakı qarışqalar və dənizdəki balıqlar belə, insanlara yaxşılıq öyrədən müəllimlərə salam göndərirlər".[4]

Allahın rəsulu (s) üç dəfə buyurur: "İlahi! Canişinlərimdən mərhəmətini əsirgəmə".

O həzrətdən soruşurlar: "Sənin canişinlərin kimlərdir?"

Buyurur: "Mənim sünnə və hədislərimi insanlara çatdıran, sonra isə onları ümmətimə öyrədənlər".[5]

---

[1] "Qürəb əl-əsnad", səh. 34.
[2] "İləl əş-şərai", səh. 394.
[3] "İləl əş-şərai", səh. 394.
[4] "Bihar əl-ənvar", c. 61, səh. 245.
[5] "Əl-Əmali", Şeyx Səduq, səh. 180.

**Qeyd:** Tədqiqat təlimdən, təlim isə təbliğdən daha üstündür. Həqiqi müəllimlər ümumi təbliği və xüsusi təlimi daim diqqətə alırlar.

## MÜƏLLİMİN HÜQUQLARINA RİAYƏT ETMƏK VƏ BUNUN SAVABI

İmam Zeynulabidin (ə) buyurur: "Müəllimin sənin üzərindəki haqqı budur ki, onu böyük sanasan, məclisinin hörmətini saxlayasan. Üzünü ona tutasan (dərsdə onunla üzbəüz əyləşəsən). Səsini onun üzərinə qaldırmayasan, ona sual verənə özü cavab verməyincə sən cavab verməyəsən, onun yanında başqası ilə danışmayasan, onun haqqında nalayiq sözlər deməkdən çəkinəsən, yaxşılıqlarını aşkara çıxarasan, düşməni ilə ünsiyyətdə olmayasan, dostu ilə düşmənçilik etməyəsən. Bu hüquqlara riayət etməyin savabı budur ki, Allahın mələkləri sənin üçün müəlliminin yanına camaata görə yox, Allaha görə getdiyin və ondan bu niyyətlə elm öyrəndiyin haqqında şahid duracaqlar".[1]

## MÜƏLLİMƏ HÖRMƏTSİZLİYƏ YOL AÇAN AMİL

Allahın rəsulu (s) buyurur: "Üç nəfərin haqqını yalnız münafiqlər heçə sayar: saçını İslamda (din yolunda) ağardanın, ədalətli rəhbərin və yaxşılıqları öyrədənin".[2]

**C) Elm öyrənənlər;**

---

[1] "Əl-Fəqih", c. 2, səh. 620.
[2] "Tənbih əl-xəvatir və nəzhə ən-nəvazir", c. 2, səh. 212.

## ELM ÖYRƏNƏNLƏRİN FƏZİLƏTİ

Allahın rəsulu (s) buyurur: "Elm öyrənən insan Allah dərgahında cihad edənlərdən, sərhədi qoruyanlardan, həccə gedənlərdən, ümrəyə gedənlərdən, etikaf saxlayanlardan, Allah evinin qonşularından daha üstündür. Ağaclar, küləklər, dənizlər, ulduzlar, bitkilər və günəşin saçdığı hər şey elm ardınca gedən şəxs üçün məğfirət (bağışlanma) diləyir".[1]

## ELM ÖYRƏNƏNLƏRİN SEVİLMƏSİ

Həzrət Məhəmməd (s) buyurur: "Elm ardınca gedən insan Allahın, mələklərin və peyğəmbərlərin sevimlisidir. Biliyi yalnız xoşbəxt insanlar sevərlər. Elm öyrənənlərin Qiyamətdə xoş halına!"[2]

Peyğəmbərdən (s) gələn başqa bir hədisdə deyilir: "Kim mənim razılığımı istəyirsə, dostuma hörmət etsin".

O həzrətdən bu haqda soruşublar: "Ey Allahın elçisi! Dostun kimdir?"

Buyurub: "Mənim dostum elm öyrənən şəxsdir. O, mənim üçün mələklərdən daha sevimlidir".[3]

## ELM ÖYRƏNƏNLƏRİN ŞƏFAƏTİ

Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Elm öyrənənlərin peyğəmbərlər kimi şəfaət hüququ var".[4]

---

1 "İrşad əl-qülub", səh. 37.
2 "Came əl-əxbar", səh. 37.
3 "Müstədrək əl-məsail", c. 17, səh. 301.
4 "İrşad əl-qülub", səh. 164.

## ELM ÖYRƏNƏNLƏRƏ HÖRMƏTİN MÜKAFATI

Allahın rəsulu (s) buyurur: "Kim elm öyrənənə hörmət etsə, mənə hörmət etmişdir. Kim mənə hörmət etsə, Allaha hörmət etmişdir. Kim Allaha hörmət etsə, mükafatı Behiştdir".[1]

O həzrət başqa bir hədisində buyurur: "Kim elm öyrənənlə əl sıxışsa, Allah onun bədənini Cəhənnəm oduna haram edər".[2]

## ELM ÖYRƏNƏNƏ KÖMƏYİN MÜKAFATI

Həzrət Peyğəmbər (s) buyurur: "Kim elm öyrənənə kömək etsə, peyğəmbərlərin sevimlisi və onlarla birgə olanlardan olar. Elm öyrənən insan ölərsə, Allah onun və dəfn mərasimində iştirak edənlərin günahlarını bağışlayar".[3]

## ELM ÖYRƏNƏNİ İNCİTMƏYİN VƏ ONA KİN BƏSLƏMƏYİN CƏZASI

Həzrət Məhəmməd (s) buyurur: "Kim elm öyrənən bir insanı düşmən tutsa, həqiqətən, peyğəmbərlərlə düşmənçilik etmişdir və cəzası Cəhənnəmdir".[4]

### 3. Həmkarlar;

**Həmkarlarla davranma qaydaları:** Həzrət Peyğəmbər (s) buyurur: "Bir-birinizlə görüşməyə salam vermək və əl sıxışmaqla başlayın. Bir-birinizdən ayrılanda isə bağışlanma diləyi ilə ayrılın".[5]

---

[1] "Müstədrək əl-vəsail", c. 17, səh. 301.
[2] "İrşad əl-qülub", səh. 164.
[3] "İrşad əl-qülub", səh. 164.
[4] "İrşad əl-qülub", səh. 164.
[5] "Əl-Əmali", Şeyx Tusi, səh. 215; "Üddə əd-dai", səh. 189.

İmam Sadiq (ə) buyurur: "Peyğəmbərin nübüvvətdən qabaq şəriki və həmkarı var idi. Besətdən sonra o, həzrətlə görüşüb dedi: "Allah səni həmkarın və şərikin tərəfindən mükafatalandırsın ki, sən şəriklikdə yola gedirdin, mübahisə etmirdin". Allahın rəsulu buyurdu: "Allah sənə də həmakarın və şərikin tərəfindən yaxşı mükafat versin ki, qazanc verirdin , ondan əsirgəmirdin. Tələbkar və xəsis deyildin"[1]

Rəvayətə görə, Peyğəmbərin (s) nübüvvətdən öncəki şəriki Əbus-Saib adlı bir nəfər olub. İslamdan sonra onun adı gələndə Peyğəmbər (s) buyurarmış: "Əbus-Saib çox yaxşı şərik idi. Nə əsəbiləşər (inad edər), nə də mübahisə edər və kin saxlayardı".[2]

**Həmkarın hüququ:** İmam Səccad (ə) buyurur: "Şərik və həmkarın haqqı budur ki, onu aldatmayasan, ona xəyanət etməyəsən, onun əleyhinə hiylə işlətməyəsən və ona münasibətində Allahdan qorxasan".[3]

**Həmkara yaxşılığın mükafatı:** Allahın rəsulu (s) buyurmuşdur: "Şərik və həmkarından yaxşılıqlarını əsirgəməyənə Allahın rəhməti olsun".[4]

### 4. Xəstələr;

Allah-Taala Quranda xəstələrə mərhəmət gözü ilə baxmış, onları bəzi dini vəzifələrdən azad etmiş və ya həmin vəzifələrin icrasını xəstəlikdən sonrakı dönəmə saxlamalarına icazə vermişdir. Belə ki oruc haqqında oxuyuruq: "*Aya (ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya*

---

[1] "Əl-Kafi", c. 5, səh. 308.
[2] "Əl-İstiab", c. 2, səh. 574.
[3] "Əl-Fəqih", c. 2, səh. 624.
[4] "Əl-Əmali", Şeyx Səduq, səh. 288.

*səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar*".[1]

Qüsl və ya dəstəmaz əvəzinə təyəmmüm edilməsi haqqında da belə buyurulur: "*Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaqyolundan gəldiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız, pak torpaqla təyəmmüm edin*".[2]

Quranda xəstə insanlardan cihad hökmünün götürülməsi haqqında deyilir: "*Allaha və Onun Peyğəmbərinə sadiq qalmaq (heç bir pisliyə meyil etməmək) şərtilə, acizlərə (qocalara və anadangəlmə zəiflərə), xəstələrə və (cihad yolunda) sərf etməyə bir şey tapa bilməyənlərə (cihadda öz xərcini təmin etməyə qadir olmayanlara döyüşə getməməkdə) heç bir günah yoxdur*".[3]

Xəstələrlə davranış qaydaları haqqında dinimizin öndərlərindən çoxlu tövsiyələr var. Burada xəstəyə baş çəkməyin savabı, xəstəni yoluxmağın qaydaları kimi mövzularla bağlı rəvayətləri diqqətinizə çatdırmaqla kifayətlənirik:

## XƏSTƏYƏ BAŞ ÇƏKMƏK

**Xəstəni yoluxmaqla bağlı tövsiyələr:** Həzrət Əli (ə) buyurur: "Allahın rəsulu bizə xəstələri yoluxmağı əmr etmişdir".[4]

İmam Sadiq (ə) buyurur: "Xəstələrinizi yoluxun, onlardan sizin üçün dua etmələrini istəyin. Çünki onların duası mələklərin duasına bərabərdir".[5]

---

1 "Bəqərə", 185.
2 "Maidə", 6.
3 "Tövbə", 91.
4 "Rəvzə əl-vaizin", səh. 388.
5 "Mişkat əl-ənvar", 281.

**Xəstə mömini yoluxmağın önəmi:** İmam Sadiq (ə) buyurur: "Möminin mömin üzərində yeddi haqqı var ki, əgər onlara riayət etməsə, ilahi himayə və itaətdən çıxmış olacaq. ... Yeddinci haqq budur ki, xəstə olduqda ona baş çəksin".[1]

**Xəstə yol yoldaşına qayğı göstərmək:** Həzrət Peyğəmbər (s) buyurur: "Səfərdə ikən sizdən biri xəstələnsə, üç gün dayanıb, ona qayğı göstərin".[2]

Mürazim ibn Həkim adlı bir nəfər deyir: "Məhəmməd ibn Müsadiflə həcc səfərində idim. Mədinədə xəstələndim. O, məni tək qoyub məscidə gedirdi. Mən atasının yanında ondan gileylənmişdim, o da məsələni İmam Sadiqə bildirmişdi. O həzrət Məhəmməd ibn Müsadifə ismarış göndərmişdi ki, əgər evdə qalıb xəstəyə qulluq etsəydin, savabı məsciddə ibadətin savabından daha çox olardı".[3]

**Əhli-sünnədən olan xəstələrə baş çəkmək:** İmam Sadiq (ə) Zeyd Şəhhama buyurmuşdur: "Ey Zeyd! Əhli-sünnə ilə öz ənənələrinə uyğun davranın. Məscidlərində namaz qılın, xəstələrinə baş çəkin, dəfn mərasimlərində iştirak edin. Əgər pişnamazlığı və azançılığı boynunuza götürə bilsəniz, bu işi görün. Əgər siz belə etsəniz, onlar deyəcəklər ki, bunlar cəfəridirlər. Allah Cəfərə rəhmət etsin ki, yoldaşlarını belə yaxşı yetişdirmişdir. Əgər belə etməsəniz, deyəcəklər ki, bunlar cəfəridirlər. Allah Cəfərə özü bildiyini etsin ki, yoldaşlarını belə pis yetişdirmişdir".[4]

**Dəri xəstələri ilə ünsiyyət:** Peyğəmbər (s) yoxsullara yemək verəndə çiçək (yoluxucu xəstəlik) çıxarmış qaradərili bir

---

1 "Rəvzə əl-vaizin", səh. 291-291.
2 "Qürəb əl-əsnad", səh. 64.
3 "Əl-Kafi", c. 4, səh. 545.
4 "Əl-Fəqih", c. 1, səh. 383.

nəfərin evinə daxil oldu. Xəstənin dərisi köpəşib suluqlamışdı. Kimin yanında oturardusa, həmin adam o yerdən qalxırdı. Bunu görən Peyğəmbər onu öz yanında əyləşdirdi".[1]

**Yoluxmağa ehtiyac olmayan xəstələr:** İmam Sadiq (ə) buyurur: "Gözü ağrıyanlara baş çəkməyə ehtiyac yoxdur. Üç gündən az xəstə yatanları da yoluxmağa ehtiyac yoxdur. Xəstəyə baş çəkmək lazım olarsa, bunu günaşırı etmək lazımdır. Əgər xəstəlik çox uzun çəkərsə, xəstəni ailəsinə tapşırmaq lazımdır (ki, xəstəyə necə rahatdırsa, elə də davransınlar)".[2]

**Xəstəyə baş çəkmək üçün səfər etmək:** Allahın rəsulu (s) buyurur: "Ey Əli! Xəstəni yoluxmaq üçün bir mil (təqribən 2 km) yol get".[3]

## XƏSTƏYƏ BAŞ ÇƏKMƏYİN MÜKAFATI

**Günahların silinməsi və çoxlu savab:** Allahın rəsulu (s) buyurur: "Kim xəstəyə baş çəksə, evinə qayıdınca atdığı hər addıma yetmiş milyon (hədsiz çox miqdar nəzərdə tutulur – red.) yaxşılıq (savab) yazılır. Bir o qədər də günahı silinir. Məqamı yüksəlir. Bir o qədər də mələk məzarında durub, Qiyamətədək onun üçün bağışlanma diləyir".[4]

**Mələklərin əfv diləyi:** İmam Baqir (ə) buyurur: "Bir mömin digər möminə baş çəkdikdə Allahın mərhəmətində üzür. Əyləşəndə Allahın rəhməti onu əhatə edir. Qayıdanda Allah onun bağışlanmasını istəmək üçün yetmiş min mələk ayırır.

---

1 "Tənbih əl-xəvatir və nəzhə ən-nəvazir", c. 1, səh. 201.
2 "Əl-Kafi", c. 3, səh. 361.
3 "Əl-Fəqih", c. 4, səh. 361.
4 "Rəvzə əl-vaizin", səh. 372.

Mələklər ona deyirlər: "Sabah bu saata qədər şux və pak qal, Behişt sənə halal olsun!"[1]

**Xəstənin duasının qəbul olunması:** İmam Baqir (ə) buyurur: "Kim Allah xatirinə bir xəstəyə baş çəksə, xəstə onun üçün nə istəsə, Allah ona verər".[2]

**Xəstə möminləri yoluxarkən Allahı ziyarət etmək:** Həzrət Musa ibn Cəfər (ə) ata-babaları vasitəsilə Peyğəmbərin (s) belə buyurduğunu bildirir: "Allah Qiyamət günü bəndələrindən birini bu şəkildə qınayacaq: "Ey Mənim bəndəm! Mən xəstə olanda nə üçün gəlib Məni yoluxmadın?" Bəndə cavab verəcək: "İlahi! Sən xəstəlik və ağrı-acıdan paksan. Sən bəndələrin Pərvərdigarısan. Əsla xəstələnmir, ağrı-acı çəkmirsən". Allah buyuracaq: "Mömin qardaşın xəstələndikdə ona baş çəkmədin. İzzət və calalıma and olsun, əgər onu yoluxsaydın, Məni yanında görərdin. Sonra Mən sənin ehtiyaclarını öhdəmə götürər, istəklərini verərdim. Bu, Mənim mömin bəndəmin hörməti üçündür. Mən mehriban və rəhmliyəm".[3]

**Xəstəyə baş çəkmək yolunda ölməyin mükafatı:** Həzrət Əli (ə) buyurur: "Beş dəstə üçün Cənnətə zəmanət verirəm. Onlardan biri xəstəni yoluxmağa gedib orada dünyasını dəyişənlərdir".[4]

**Xəstəyə baxmağın savabı:** Allahın rəsulu (s) buyurur: "Kim bir gün xəstəyə baxsa, (Qiyamətdə) Allah onu İbrahim Xəlillə yoldaş edəcək və bu zaman Siratdan ildırım kimi keçib gedəcək".[5]

---

[1] "Əl-Kafi", c. 3, səh. 120.
[2] "Səvab əl-əmal", səh. 194.
[3] "Vəsail əş-şiə", c. 2, səh. 417.
[4] "Əl-Fəqih", c. 1, səh. 140.
[5] "Səvab əl-əmal", səh. 289.

**Xəstənin ehtiyacını təmin etməyin savabı:** Allahın rəsulu (s) buyurub: "Kim xəstənin ehtiyacını təmin etməyə çalışsa və təmin etsə, günahlarından anadan doğulduğu gün olduğu kimi təmizlənəcək".

Ənsardan olan bir nəfər soruşub: "Ey Allahın rəsulu! Xəstə öz ailəsindən də olsa?"

Həzrət buyurub: "Ən çox savabı olan o şəxsdir ki, ailəsindən olan xəstənin ehtiyacını təmin etməyə çalışsın".[1]

Həzrət Peyğəmbərdən (s) bu məzmunda nəql edilən hədisə başqa bir mənbədə də rast gəlinir: "Kim bir xəstənin ehtiyacını təmin etməyə çalışsa və təmin etsə, günahlarından anadan doğulduğu gün olduğu kimi təmizlənəcək".[2]

**Xəstəni yedizdirməyin savabı:** Həzrət Məhəmməd (s) buyurur: "Kim bir xəstəyə onun ürəyi istəyən yeməyi versə, Allah ona Behişt meyvələrindən verəcək".[3]

O həzrət başqa bir hədisində buyurur: "Xəstələrinizi yeməyə məcbur etməyin, çünki Allah onlara yeyəcək və içəcək verir".[4]

**Xəstəni incitməyin qadağan edilməsi:** İmam Sadiq (ə) buyurur: "Gözünüzü xəstələrə dikməyin. Çünki bu, onları kədərləndirir".[5]

## XƏSTƏYƏ BAŞ ÇƏKMƏYİN QAYDALARI

Məsumların kəlamlarında təkidlə tövsiyə olunan xəstəyə baş çəkmək məsələsi xəstə insanda psixoloji rahatlıq yaratmaq,

---

1 "Səvab əl-əmal", səh. 289.
2 "Əl-Fəqih", c. 4, səh. 16.
3 "Əd-Dəəvat", səh. 230.
4 "Dəaim əl-İslam", c. 2, səh. 144.
5 "Mişkat əl-ənvar", səh. 28.

onun mənəvi ağrı-acılarını azaltmaq məqsədi daşıyır. Bu məqsədə nail olmaq üçün xəstəyə sevgi göstərmək, hədiyyə aparmaq kimi vasitələr var ki, rəvayətlərdə onlardan bəzilərinə də toxunulmuşdur:

**Xəstəyə hədiyyə vermək:** İmam Sadiqin (ə) dostlarından biri deyir: "Bir gün o həzrətin dostlarından biri xəstələnmişdi. İmamın dostlarından bir neçə nəfər birlikdə xəstəyə baş çəkməyə getdik. Yolda imamla qarşılaşdıq. Hara getdiyimizi soruşdu və biz: "Filankəsi yoluxmağa gedirik", – deyə bildirdik.

Həzrət buyurdu: "Dayanın, sizdən birinizdə alma, turunc (narınc) və ya bir az ətir, yaxud buxur üçün ud (aqar çubuğu) yoxdur?"

Dedik: "Bunlardan heç biri yoxumuzdur".

Buyurdu: "Bilmirsinizmi ki, xəstə insan hədiyyə almaqla dinclik tapır?"[1]

**Sevgisini bildirmək:** Allahın rəsulu (s) buyurmuşdur: "Xəstəni yoluxmağın qaydalarından biri budur ki, onun yanına getdikdə əlini başına qoyub deyəsən: "Gecəni və gündüzü necə keçirdin?"[2]

**Xəstənin yanında çox qalmamaq:** Həzrət Əli (ə) buyurur: "Xəstəni yoluxanlar arasında Allah dərgahında ən çox savab qazanan o adamdır ki, xəstənin yanında az qalsın. Təbii ki, əgər xəstə onu çox istəyib yanında saxlamasa".[3]

Bənzər bir hədisdə İmam Sadiq (ə) buyurur: "Xəstəyə baş çəkmək ən çoxu bir dəfə dəvə sağmaq qədər vaxt almalıdır".[4]

---

[1] "Əl-Kafi", c. 3, səh. 118.
[2] "Əl-Əmali", Şeyx Tusi, səh. 639.
[3] "Əl-Kafi", c. 3, səh. 118.
[4] "Əl-Kafi", c. 3, səh. 118.

**Xəstədən dua etməsini istəmək:** İmam Sadiq (ə) buyurur: "Xəstənin yanına getdikdə ondan sizin üçün dua etməsini istəyin. Çünki onun duası mələklərin duası kimidir".[1]

**5. Ölülər;**

İslam mədəniyyətində müsəlmanların diriləri kimi, ölüləri də bir sıra hüquqlara malikdirlər. Bunun kökü insanın ölümdən sonra da ruhən yaşamasına etiqadla bağlıdır. Dünyadan köçənlərin duaya, Quran oxunmasına, xeyrata, onlar üçün edilən saleh əmələ kəskin ehtiyac duyduqları ilə bağlı inanc da bu etiqaddan doğur. Dirilər ölülərin əlindən tuta, onlara yardım edə bilərlər. Quran bizə öyrədir ki, ölənlərimiz, xüsusilə möminlər üçün əfv diləyək: "*Onlardan (mühacirlərdən və ənsarlardan) sonra gələnlər belə deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə (həsədə) yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!""*[2]

## ÖLÜLƏRLƏ DAVRANIŞ QAYDASI

**A) Ölüm anı;**

Ağır bir an olan canvermə zamanı insanın yaxınlarına, dostlarına həmişəkindən daha çox ehtiyacı olur. İnsan can verdiyi zaman görülməli olan bəzi işlər aşağıdakılardır:

**Can verəni üzü qibləyə uzatmaq:** Həzrət Əmirülmöminin (ə) buyurur: "Allahın rəsulu can verməkdə olan Əbdül-Müttəlib övladlarından birinin yanına getdi. Onu qibləyə əks istiqamətə

---

[1] "Əl-Kafi", c. 3, səh. 117.

[2] "Həşr", 10.

uzatmışdılar. Həzrət buyurdu: "Onu üzü qibləyə çevirin. Çünki bu halda mələklər ona tərəf üz tuturlar. Allah da üzünü ona çevirir və bu, torpağa tapşırılıncaya qədər davam edir".[1]

**Kəlmeyi-şəhadəti təlqin etmək:** Həzrət Peyğəmbər (s) buyurur: "Can verən adamların yanında olun. Onlara "La ilahə illəllah" cümləsini təlqin edin, Behişt müjdəsi verin. Çünki dözümlü kişi və qadınlar bu anda özlərini itirirlər. Burada Şeytan Adəm övladlarına ən yaxın fərd olur. Canım əlində olana and olsun, insanın bütün damarları ölüm mələyini görmək nəticəsində ağrı çəkməyincə, canı alınmaz".[2]

Peyğəmbərdən (s) gələn digər bir hədisdə deyilir: "Ölülərə "La ilahə illəllah" cümləsini təlqin edin. Çünki kimin son sözü "La ilahə illəllah" olsa, Behiştə gedər".[3]

İmam Sadiq (ə) buyurur: "Ölüm anı çatanda İblis öz şeytanlarından birini can verən insan üçün ayırır ki, canını tapşırıncaya qədər onu küfrə sürükləsin, dinində şübhəyə salsın. Kim mömin olsa, Şeytanın ona gücü çatmaz. Can verənin yanına getdikdə "La ilahə illəllah" və "Məhəmmədun rəsulullah" cümlələrini ona təlqin edin".[4]

### B) Ölümdən sonra;

**Möminin ölümünü elan etmək:** İmam Sadiq (ə) buyurur: "Yaxşı olar ki, ölənin yaxınları dəfn mərasimində iştirak etmələri, mərhuma namaz qılıb, əfv diləmələri üçün din qardaşlarını, dostlarını onun ölümündən xəbərdar etsinlər. Bu yolla həm

1 "Əl-Fəqih", c. 1, səh. 133.
2 "Kənz əl-ümmal", c. 15, səh. 556.
3 "Əl-Fəqih", c. 1, səh. 132.
4 "Əl-Kafi", c. 3, səh. 123.

onlar üçün savab yazılar, həm də ölünün günahları bağışlanar. (Xəbər verən də) əfv diləyib, onların savabından, bağışlanma diləklərindən faydalanar".[1]

**Meyit qüslü:** İmam Baqir (ə) buyurur: "Musa ibn İmran Allaha minacatlarından birində deyib: "Ey mənim Allahım! Ölüyə qüsl verənin savabı nədir?" Haqq-Taala buyurub: "Onun günahlarını elə siləcəyəm ki, anadan doğulduğu gün kimi olacaq".[2]

İmam Baqirdən (ə) gələn daha bir hədisdə deyilir: "Kim meyitə qüsl versə və mərhumun eybini örtüb kimsəyə söyləməsə, günahları silinər və anadan doğulduğu gün kimi olar".[3]

**Meyiti kəfənləmək:** Allahın rəsulu (s) buyurur: "Kim bir ölünü kəfənləsə, Allah ona Behiştin atlas və ipəyindən libas geydirər".[4]

İmam Sadiqin (ə) kəlamında bu barədə aşağıdakı fikrə rast gəlmək olar: "Kim bir mömini kəfənləsə, elə bil ki, Allah Qiyamət günü onun geyiminə zəmanət vermişdir".[5]

**Dəfn mərasimi:** İmam Baqir (ə) buyurur: "Kim bir cənazəni dörd səmtindən tutmaqla müşayiət, Allah onun qırx günahını bağışlayar"[6]

İmam Sadiqdən (ə) gələn hədislərdə bu barədə oxuyuruq:

"Müsəlman mömінin cənazəsinin önündə get, kafirin isə cənazəsinin önündə hərəkət etmə. Çünki müsəlmanın cənazəsinin önündə onu tələsik Behiştə aparan mələklər, kafirin

---

[1] "Əd-Dəəvat", səh. 259.
[2] "Əl-Fəqih", c. 1, səh. 140.
[3] "Əl-Fəqih", c. 1, səh. 141.
[4] "Rəvzə əl-vaizin", səh. 372.
[5] "Əl-Fəqih", c. 1, səh. 152.
[6] "Əl-Kafi", c. 3, səh. 174.

cənazəsinin önündə isə onu tələsik Cəhənnəmə aparan mələklər var".[1]

"Kim möminin cənazəsini torpağa tapşırılıncaya qədər müşayiət etsə, Allah onu müşayiət edəcək yetmiş mələk ayırar. O, məzarından qalxdığında həmin mələklər onu Qiyamətdəki yerinə qədər müşayiət edər və onun üçün əfv diləyərlər".[2]

Dəfn mərasimində aşağıdakı məsələlərə diqqət olunmalıdır:

**Möminin dəfni üçün səfər etmək:** Həzrət Peyğəmbər (s) Həzrət Əliyə (ə) buyurub: "Dəfn mərasimində iştirak etmək üçün iki mil (3600 metr) yol get".[3]

**Dəfn mərasimində iştirak etməyin mükafatı:** Həzrət Əli (ə) buyurur: "Beş nəfərə Behişti zəmanət verirəm. (Onlardan biri) bir müsəlmanın dəfn mərasimi üçün evdən çıxıb dünyasını dəyişəndir. Behişt ona aiddir".[4]

İmam Baqir (ə) buyurur: "Kim müsəlmanın cənazəsini müşayiət etsə (dəfn mərasimində iştirak etsə), Qiyamət günü ona dörd şəfaət haqqı veriləcək. (Allahdan mərhum üçün)[5] nə istəsə, bir mələk ona: "Sənin üçün də onun bənzəri olsun" – deyəcək".[6]

**Dəfn mərasimində gülməyin nəticəsi:** Həzrət Əli (ə) buyurur: "Kim cənazənin başı üstündə (dəfn mərasimində) gülsə, Allah Qiyamət günü onu hamının gözü qarşısında xar edər və duası qəbul olunmaz".[7]

---

[1] "Əl-Kafi", c. 3, səh. 169.
[2] "Əl-Kafi", c. 3, səh. 173.
[3] "Əl-Fəqih", c. 4, səh. 361.
[4] "Əl-Fəqih", c. 1, səh. 140.
[5] "Əl-Əmali", Şeyx Səduq, 218.
[6] "Əl-Kafi", c. 3, səh. 173.
[7] "İrşad əl-qülub", səh. 175.

**Meyit namazının savabı:** Allahın rəsulu (s) buyurur: "Elə bir mömin yoxdur ki, cənazə namazı qılsın, amma Allah Cənnəti ona vacib etməsin. Buna ancaq münafiqlik və ya ata-ana ilə pis davranmaq mane ola bilər".[1]

İmam Sadiq (ə) buyurur: "Mömin ölərsə və qırx mömin onun cənazə namazında iştirak edib: "Allahummə inna la nələmu minhu illa xəyrən və əntə ələmu bihi minna",[2] – deyərsə, Allah buyurar: "Sizin şahidliyinizi qəbul etdim. Mənim onun haqqında bildiklərimi, sizin isə bilmədiklərinizi də bağışladım".[3]

**Meyitin dəfni:** Həzrət Peyğəmbər (s) buyurur: "Kim bir mömin üçün məzar qazsa, Allah onun üçün Cənnətdə bir ev inşa edər".[4]

İmam Baqir (ə) buyurur: "Kim bir meyit üçün qəbir qazsa, Qiyamətə qədər ona münasib bir evdə yer vermiş kimidir".[5]

Həzrət Əlinin (ə) kəlamında bu barədə deyilir: "Kim bir cənazənin dəfnində (sonuna qədər) iştirak etsə, Allah onun üçün dörd karat[6] mükafat yazar. Bir karat müşayiət etdiyi üçün, bir karat ona namaz qıldığı üçün, bir karat dəfnin sonuna qədər gözlədiyi üçün, bir karat da təziyə üçün".[7]

Meyitin dəfnini tezləşdirmək müstəhəbdir. Dəfnin təxirə salınması meyitə hörmətsizlik sayılarsa, buna icazə verilmir. Allahın rəsulunun (s) bu haqda aşağıdakı məzmunda bir açıqlaması var: "Əgər insan günün əvvəlində dünyasını dəyişsə,

---

1 "Kitab əl-xisal", səh. 355.
2 Tərcümə: "İlahi! Biz onun haqqında yaxşılıqdan başqa bir şey bilmirik. Sən onu bizdən daha yaxşı tanıyırsan".
3 "Əl-Fəqih", c. 1, səh. 165.
4 "Müsəkkin əl-fuad", səh. 115.
5 "Əl-Kafi", c. 3, səh. 165.
6 İmam Baqir hədisdə işlədilən karat sözünü izah edərkən buyurur: "Hər karat Ühüd dağı qədərdir" ("əl-Fəqih", c. 1, səh. 161.
7 "Əl-Fəqih", c. 1, səh. 161.

onu günortadan qabaq dəfn edin. Əgər günün sonunda vəfat etsə, gecə torpağa tapşırın".[1]

**C) Dəfndən sonra.**

**Ölüləri ziyarət etməklə bağlı tövsiyələr:** Allahın rəsulu (s) buyurur: "Ölülərinizi ziyarət edin. Onlara salam göndərin. Çünki onlar sizin üçün ibrətdirlər".[2]

Həzrət Əli (ə) buyurur: "Ölüləri ziyarət edin. Çünki onlar sizin ziyarətinizlə sevinirlər. Ata-ananızın məzarı başında onlar üçün dua edərkən (Allahdan) öz hacətlərinizi də istəyin".[3]

**Ölüləri gecə ziyarət etməyin qadağan edilməsi:** Həzrət Peyğəmbər (s) buyurur: "Ey Əbuzər! Məzarları ziyarət et ki, axirəti unutmayasan. Amma bunu gecə vaxtı etmə".[4]

**Qeyd:** Gecə vaxtı məzarlıqdan keçərkən ölülər üçün bağışlanma diləmək də bəyənilən əməllərdəndir.

**Ölülərin ziyarətində orta həddi gözləmək:** Allahın rəsulu (s) buyurur: "Bəzi günlər ölüləri ziyarət et ki, axirəti xatırlayasan. Amma (bu işdə) ifrata varma".[5]

**Ölüləri ziyarət etməyin savabı:** İmam Rza (ə) buyurur: "Elə bir mömin yoxdur ki, bir möminin məzarını ziyarət etsin, yeddi dəfə "Qədr" surəsini oxusun, amma Allah onun və məzar sahibinin günahlarını bağışlamasın".[6]

---

[1] "Dəaim əl-İslam", c. 1, səh. 230.
[2] "Tənbih əl-xəvatir və nəzhə ən-nəvazir", c. 1, səh. 288.
[3] "Əl-Kafi", c. 3, səh. 230.
[4] "Şərhi-Nəhc əl-bəlağə", İbn Əbu əl-Hədid", c. 18, səh. 323.
[5] "Əl-Came əs-səğir", c. 1, səh. 468.
[6] "Əl-Fəqih", c. 1, səh. 181.

**Ölülər üçün dua etməyin savabı:** İmam Sadiq (ə) buyurur: "Kim dünyasını dəyişmiş qardaşlarından on nəfəri üçün cümə axşamı günü dua etsə, Behişt ona vacib olar".[1]

**Ölülərin əvəzinə xeyir işlər görməyin savabı:** İmam Sadiq (ə) buyurur: "Hansı müsəlman ölənin adına saleh bir əməl etsə, onun savabı ikiqat artıq olar və Allah ölünü də bu əməldən faydalandırar".[2]

**Ölüləri söyməyin qadağan edilməsi:** Allahın rəsulu (ə) buyurur: "Ölüləri söyməyin. Bu, dirilərin (ölü sahiblərinin) inciməsinə səbəb olur. Ölülərə nalayiq söz deməyin. Çünki onlar qabaqcadan göndərdiklərini alıblar".[3]

**6. Müsibət görmüş insanlar;**

Ölənin yaxınları köməyə və təskinliyə ehtiyac duyur. Allah-Taala hər şeydən öncə müsibət görmüş insanlara təsəlli verərək buyurur: "*(Ya Peyğəmbər! Belə imtahanlara) səbir edən şəxslərə müjdə ver! O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: "Biz Allahınıq (Allahın bəndələriyik) və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq!" deyirlər. Onları Rəbbi tərəfindən bağışlanma və rəhmət (Cənnət) gözləyir. Onlar doğru yolda olanlardır!*"[4]

---

[1] "Müstədrək əl-vəsail", c. 6, səh. 73.
[2] "Əl-Fəqih", c. 1, səh. 185.
[3] "Came əl-əxbar", səh. 160.
[4] "Bəqərə", 155-157.

## TƏSƏLLİ VERMƏK ZƏRURƏTİ

İmam Sadiq (ə) buyurur: "Əsas təsəlli dəfndən sonradır".[1]

## BAŞSAĞLIĞI VERMƏK QAYDALARI

**Dəfndə iştirak etmək:** İmam Sadiq (ə) buyurur: "Müsibət görmüş adamın səni (dəfn mərasimində) görməsi təsəlli üçün kifayətdir".[2]

**Dil ilə başsağlığı vermək:** İmam Sadiq (ə) başına müsibət gələnlərin (yaxını ölənlərin) yanına gedər və buyurardı: "Allah başınıza gələn müsibətin əvəzini versin, öləninizə rəhmət etsin".[3]

**Başına müsibət gəlmiş adamı yedirmək:** İmam Sadiq (ə) buyurur: "Cəfər ibn Əbu- Talib şəhid olduqdan sonra Həzrət Peyğəmbər Fatiməyə tapşırdı ki, qadınlarla birgə onun həyat yoldaşı Əsma bint Ümeysin yanına getsin, orada qalsın və onun üçün yemək bişirsin".[4]

İmam Sadiq (ə) buyurur: "Yaxşı olar ki, müsibət görmüş adamın qonşuları onun yerinə üç gün yemək hazırlasınlar".[5]

## TƏSƏLLİ VERMƏYİN SAVABI

Allahın rəsulu (ə) buyurur: "Kim müsibət görmüş birinə təskinlik versə, onun savabı eynilə müsibət görmüş adamın savabı kimidir".[6]

---

[1] "Əl-Kafi", c. 3, səh. 204.
[2] "Əl-Fəqih", c. 1, səh. 174.
[3] "Əl-Fəqih", c. 1, səh. 174.
[4] "Əl-Məhasin", səh. 419.
[5] "Əl-Fəqih", c. 1, səh. 174.
[6] "Əl-Kafi", c. 3, səh. 205.

İbrahim əleyhissəlam Allahdan soruşub: "Ey mənim Allahım! Kədərli birini sənin razılığın üçün səbirli olmağa təşviq edənin savabı nədir?"

Allah buyurub: "Ona imandan elə bir libas geydirərəm ki, onunla Behiştdə sığınacaq tapsın və Cəhənnəm əzabından amanda qalsın".[1]

Həzrət Məhəmməd (s) buyurur: "Kim başına müsibət gəlmiş birinə təskinlik versə, Qiyamətdə ona zinətli görünməsinə səbəb olacaq süslü bir paltar geydiriləcək".[2]

Həzrət Əli (ə) buyurur: "Kim övladı ölmüş birinə təskinlik versə, Allah onu ərşinin kölgəsində yerləşdirər. Bu, elə bir gündə baş verər ki, onun kölgəsindən başqa kölgə olmaz".[3]

### 7. Qonaqlar;

İslam mədəniyyətində qonağa xüsusi hörmət var. Allah-Taala Quranda Həzrət İbrahimin qonağa hörməti haqqında buyurur: "*(Ya Peyğəmbər!) İbrahimin möhtərəm qonaqlarının (mələklərin) söhbəti sənə gəlib çatdımı? Onlar (İbrahimin) yanına gəlib salam verdikdə (İbrahim) salamı alıb (öz-özünə): "Bunlar tanımadığım kimsələrdir!" – dedi. O (bir bəhanə ilə) ailəsinin yanına getdi və bir buzov (kəsib qızardaraq) gətirdi. Onu qabaqlarına (qonaqların qabağına) qoyub: "Bəlkə, yeyəsiniz!" – dedi*".[4]

Həmçinin Həzrət Lut (ə) haqqında danışılarkən qonaqlara hörmət göstərməyin, onları müdafiə etməyin dəyəri haqqında buyurulur: "(*Lutun gözəl qonaqları gəldiyini bilən) şəhər əhli (sevinərək) bir-birini muştuluqlayıb (onun yanına) gəldi. (Lut)*

---

[1] "Musəkkin əl-fuad",
[2] "Əl-Kafi", c. 3, səh. 205.
[3] "Əl-Kafi", c. 3, səh. 227.
[4] "Zariyat", 24-27.

*dedi: "Bunlar mənim qonaqlarımdır. (Onlara hörmət etmək mənim borcumdur). Məni (biabırçı hərəkətlərinizlə onların yanında) rüsvay etməyin! Allahdan qorxun və məni xar etməyin!*"[1]

Başqa bir ayədə yoxsul olduqları halda mühacirləri qonaq edən ənsar haqqında oxuyuruq: "*Onlardan (mühacirlərdən) əvvəl (Mədinədə) yurd salmış və (Məhəmmədə qəlbən) iman gətirmiş kimsələr (ənsar) öz yanlarına (şəhərlərinə) mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd (qəzəb) duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar. (Allah tərəfindən) nəfsinin xəsisliyindən (tamahından) qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə (Cənnətə) qovuşanlardır!*"[2]

## QONAĞA HÖRMƏTİN VACİBLİYİ

İmam Sadiq (ə) buyurur: "Həzrət Fatimə atasına bəzi işlərindən gileylənmişdi. Həzrət Peyğəmbər ona bir yazı vermiş və buyurmuşdu: "Burada yazılanı öyrən". Orada yazılmışdı: "Kimin Allaha və Qiyamət gününə inamı var, qonağına hörmət etsin".[3]

Həzrət Əli (ə) buyurur: "Qonağın əskik adam olsa belə, ona hörmət et".[4]

Bir gün Peyğəmbərin (s) qonağı gəlir. Evdə ona təklif edəcək bir şey olmur. Ənsardan olan bir nəfər gəlib, onu öz evinə aparır. Süfrə açır və arvadına çırağı söndürməyi tapşırır. Ev yiyəsi olan şəxs əlini yeməyə uzadaraq özünü yemək yeyirmiş kimi göstərir ki, qonaq yeməyini yesin. Səhər Allahın rəsulu ona buyurur:

---

1 "Hicr", 67-69.
2 "Həşr", 9.
3 "Əl-Kafi", c. 2, səh. 667.
4 "Ğürər əl-hikəm", c. 1, səh. 435.

"Allah sənin qonaqla davranışından heyrətə gəldi". Bu zaman "İsar" ayəsi nazil olur: "*Özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar*[1]".[2]

İmam Sadiq (ə) buyurur: "Oğrulardan iki dəstənin əli kəsilməz: fəhlə və qonaq. Çünki onlar ev sahibinin güvənci olmuşlar".[3]

Allahın rəsulu (s) Əmirülmömininə (ə) buyurmuşdur: "Ey Əli! Qonağın kafir olsa belə, ona hörmət et".[4]

Həzrət Peyğəmbərdən (s) gələn başqa bir hədisdə deyilir: "Bir nəfər bir şəhərə daxil olduqda şəhərdən çıxıncaya qədər oranın əhalisindən olan dindaşlarının qonağıdır".[5]

## QONAQPƏRVƏRLİYİN QAYDALARI

**Qarşılamaq və yola salmaq:** İmam Baqir (ə) buyurur: "Qonağı işlətmək cəfadır. Qonağınız gələndə ona kömək edin (ki, yol ləvazimatını yerbəyer etsin). Gedəndə kömək etməyin, çünki bu, rəzillikdir (sizin onun getməyinə sevindiyinizi göstərir). Ona yol azuqəsi verin, qida ehtiyatını yaxşı edin. Çünki bu, səxavət əlamətidir".[6]

Allahın rəsulu (s) buyurur: "Qonağın hüquqlarından biri budur ki, evdən qapıya qədər ona yoldaşlıq edəsən".[7]

**Oruc tutmamaq:** Allahın rəsulu (s) buyurur: "Ev sahiblərinin qonağın icazəsi olmadan oruc tutması yaxşı deyil. Bu, onun

---

1 "Həşr". 9.
2 "Tənbih əl-xəvatir və nəzhə ən-nəvazir", c. 1, səh. 173.
3 "İləl əş-şərai", səh. 535.
4 "Came əl-əxbar", səh. 84.
5 "İləl əş-şərai", səh. 384.
6 "Əl-Kafi", c. 6, səh. 284.
7 "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 70.

üçündür ki, qonaq utanmasın, ac olduğu halda, ev sahibi oruc olduğuna görə yeməkdən çəkinməsin".[1]

**Qəfil gələn və dəvət olunmuş qonağı yedizdirmək:** İmam Sadiq (ə) bu barədə buyurur:

"Qardaşın sənin yanına gəldikdə onun üçün evdə olandan gətir. Özün dəvət etdikdə isə ona qulluq etməyə çalış".[2]

"Qardaşın sənin evinə gəldikdə heç vaxt bir şey yeyib-yemədiyini soruşma, evdə olandan gətir. Çünki sözün əsl mənasında bağışlayan odur ki, olanından bağışlasın".[3]

**Qonaqla birgə xörək yemək:** İmam Kazım (ə) buyurur: "Allahın rəsulunun qonağı gələndə onunla birgə yemək yeyərdi. Qonaq yeməkdən əlini çəkməyincə o da çəkməzdi".[4]

**Qonaqlıq süfrəsinin qaydaları:** Fəzl ibn Yunus deyir: "Bir gün evdə idim. Xidmətçi daxil olub dedi: "Əbül-Həsən künyəli, Musa ibn Cəfər adlı bir nəfər qapıdadır".

Dedim: "Ey xidmətçi! Əgər mənim düşündüyüm adamdırsa, sən Allah yolunda azadsan".

Tələsik evdən bayıra atıldım və həqiqətən onun gəldiyini gördüm. Dedim: "Mənim ağam! Atdan en".

O, atdan enib içəri gəldi. Onu yuxarı başda oturtmaq istədim.

Buyurdu: "Ey Fəzl! Seyid olmayan yerdə ev sahibi məclisin başına başqalarından daha layiqdir".

Dedim: "Sən ki seyidsən, qurbanın olum. Allah məni sənə fəda etsin. Məclis üçün yemək hazırdır. İzin versəydin, gətirərdim".

---

[1] "İləl əş-şərai", səh. 384.
[2] "Əl-Kafi", c. 6, səh. 276; "əl-Məhasin", səh. 410.
[3] "Kitab əs-sərair", c. 3, səh. 579; "Bihar əl-ənvar", c. 72, səh. 455.
[4] "Məsaili-Əli ibn Cəfər (ə)", səh. 341; "əl-Kafi", c. 6, səh. 286.

Həzrət buyurdu: "Ey Fəzl! Xalq arasında deyirlər ki, bu, çağırılmamış qonağa qulluqdur. Camaat belə qulluğu xoşlamır. Mən isə bir problem görmürəm".

(Əl yumaq üçün) ləyən gətirmələrini tapşırdım. İmam əlini yumaq üçün yaxınlaşıb buyurdu: "Hər şey üçün bir qayda təyin edən Allaha həmd olsun!"

Dedim: "Qurbanın olum, bunun (süfrə başına oturmaq üçün əl yumağın) qaydası nədir?"

Buyurdu: "Onun qaydası budur ki, ev sahibi qonaqları həvəsləndirmək üçün hamıdan qabaq başlasın".

Sonra süfrə salındı. Soruşdum: "Bunun qaydası nədir?"

Buyurdu: "Əvvəlində "Bismillah" demək, yığışdıranda isə Allaha həmd-səna etmək".

(Yeməkdən) sonra dişqurdalayan gətirildi. Soruşdum: "Bunun qaydası nədir?"

Buyurdu: "Onun qaydası budur ki, ucunu sındırasan, diş ətini əzməsin".

Sonra su gətirildi. Soruşdum: "Bəs bunun qaydası nədir?"

Buyurdu: "Qabın tutacaq tərəfindən su içəsən. Əgər sınıq varsa, sınıq tərəfindən su içməyəsən. Çünki Şeytan (mikrob) yığnağıdır. Su içəndə "Bismillah" deyəsən, sonda Allaha həmd-səna edəsən. Ey Fəzl! Ev yiyəsi yeməkdən əlini çəkən sonuncu adam olmalıdır".[1]

[1] "Məkarim əl-əxlaq", səh. 148-149.

## QONAĞA HÖRMƏTİN SAVABI

**Ruzinin təmin olunması və günahların bağışlanması:** Allahın rəsulu (s) buyurur: "Həqiqətən, qonaq gəlişi ilə ruzisini də özü ilə səmadan gətirir. Yemək yeyəndə Allah onun gəlişinin bərəkətindən onları bağışlayır".[1]

O həzrət başqa bir hədisdə buyurur: "Hansı ailəyə qonaq gəlsə, ruzisini də özü ilə gətirir. Gedərkən isə (ailə üzvlərinin) günahlarını aparır".[2]

**Yaxşılığın davamı:** Həzrət Peyğəmbər (s) buyurur: "Nə qədər ki ümmətim bir-birinə sevgi bəsləyir, hədiyyə verir, əmanəti sahibinə qaytarır, haramdan çəkinir və qonağa hörmət edir, daim xeyirdə olacaq (yaxşılıqları davam edəcək)".[3]

**Ruhən güclənmə:** Əmirülmöminin (ə) buyurur: "İnsanın bədəninin gücü qidalanmaqda, ruhunun gücü isə qidalandırmaqdadır".[4]

## QONAĞI GERİ QAYTARMAĞIN CƏZASI

Əbu-Həmzə deyir: "İmam Baqirdən soruşdum: "Onu görməyə və ya ehtiyacını istəməyə gəlmiş, ondan evə daxil olmaq üçün icazə istəyən bir müsəlmanı evdə ola-ola içəri almayan və ya evdən çıxmayan müsəlman haqqında nə düşünürsünüz?"

Həzrət buyurdu: "Ey Əbu-Həmzə! Onu görməyə gəlmiş, ondan evə daxil olmaq üçün icazə istəyən bir müsəlmanı evdə ola-ola içəri almayan və ya evdən çıxıb onu qarşılamayan

---

1 "Əl-Kafi", c. 6, səh. 284.
2 "Bihar əl-ənvar", c. 72, səh. 261.
3 "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 29.
4 "Əd-Dəavat", səh. 142.

müsəlman Allahın qarşısına çıxıncaya (Qiyamətə) qədər rəhmətindən daim uzaq olar".

(Təəccüblənərək) dedim: "Qurbanın olum, Allahın qarşısına çıxıncaya (Qiyamətə) qədər rəhmətindən daim uzaq olar?"

Buyurdu: "Bəli, ey Əbu-Həmzə!"[1]

## QONAQ GETMƏYİN QAYDALARI

**Oruc tutmağın qadağan edilməsi:** Həzrət Məhəmməd (s) buyurur: "Qonağa yaraşmaz ki, ev sahibinin icazəsi olmadan oruc tutsun. Ola bilər ki, onun üçün xörək hazırlasınlar, yeyilməyib xarab olsun".[2]

**Ev sahibinə göstəriş verməyin qadağan edilməsi:** Allahın rəsulu (s) İmam Əliyə (ə) vəsiyyətində buyurur: "Ey Əli! Yeddi dəstə təhqir olunsa, özündən başqasını qınamasan: (onlardan biri) çağırılmamış qonaqdır. Qonaq ev yiyəsinə göstəriş verərsə, düşmənlərindən xeyir istəsin".[3]

**Yeməkdən ev sahibindən qabaq əl götürmək:** İmam Sadiq (ə) buyurur: "Qardaşının yanında (evində) ədəb qaydalarından biri budur ki, onun süfrəsində yemək yeyəndə ondan qabaq əl saxlayasan".[4]

**Hörməti qəbul etmək:** İmam Sadiq buyurur: "İki nəfər Həzrət Əlinin (ə) yanına gəlib. İmam onların hər ikisi üçün xalça sərib. Onlardan biri xalçanın üzərində əyləşib, digəri isə imtina edib. Əmirülmöminin buyurub: "Xalçanın üzərində əyləş. Yalnız nadan hörməti rədd edər".[5]

---

[1] "Əl-Kafi", c. 2, səh. 365.
[2] "Əl-Kafi", c. 4, səh. 152.
[3] "Əl-Fəqih", c. 4, səh. 355.
[4] "Kitab əs-sərair", c. 3, səh. 579.
[5] "Əl-Kafi", c. 2, səh. 659.

**Qonaqlıqda sadəlik:** İmam Rza (ə) buyurur: "Bir kişi Həzrət Əlini (evinə) qonaq çağırıb.

Həzrət buyurub: "Üç şeyə zəmanət versən, dəvətini qəbul edərəm".

Həmin adam soruşub: "Onlar nədir, ey Əmirülmöminin?"

Həzrət buyurub: "Mənim üçün evdən kənardan heç bir şey tədarük görmə, evində olanı məndən əsirgəmə və ailəni sıxıntıya salma".

Kişi razılaşıb və yalnız bu zaman həzrət dəvəti qəbul edib".[1]

**Qonaqlığın həddi:** Allahın rəsulu (s) buyurub: "Qonaqlığın birinci günü qonağın haqqıdır. İkinci, üçüncü və sonrakı günlər isə sədəqə sayılır".

O həzrət sözünün davamında deyib: "Sizdən heç biri qardaşının yanına gedib, onu günaha vadar etməsin".

Soruşublar: "Günaha vadar etmək necə ola bilər?"

Buyurub: "Yanında o qədər qalasan ki, sənə verməyə bir şeyi olmasın".[2]

Həzrət Məhəmməddən (s) gələn digər bir hədisdə deyilir: "Qonağa iki gecə xüsusi qulluq edilir. Üçüncü gecə isə o, ailə üzvü sayılır və evdə olandan (Allah verdiyindən) yeyir".[3]

### 8. Mücahidlər;

Allah yolunda cihad edənlər xüsusi məqama malikdirlər. Onlara hörmət etmək müsəlmanlara vacibdir. Bu hörmət "zirvətül-İslam" (İslamın zirvəsi[4]) adlandırılan cihadın dəyərindən qaynaqlanır. Mücahidlər Allah övliyalarının cərgəsində

---

[1] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 42.
[2] "Kitab əl-xisal", səh. 149.
[3] "Əl-Kafi", c. 6, səh. 283.
[4] "Nəhc əl-bəlağə", xütbə: 110.

hesab olunurlar. Belə ki Həzrət Əli (ə) onların haqqında buyurur: "Cihad (dinə qarşı çıxanlarla döyüş) Allahın özünün xüsusi dostlarının üzünə açdığı Cənnət qapılarından biri, təqva və pəhrizkarlıq libasıdır".[1]

## MÜCAHİDLƏRİN ÜSTÜNLÜYÜ

Allah-Taala buyurur: "*Zərər çəkmədən (üzrsüz səbəbə görə evlərində) əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən (vuruşan) kimsələr bir olmazlar. Allah malları və canları ilə vuruşanları (evlərində) əyləşənlərdən (cihada getməyənlərdən) dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına (hər ikisinə savab) vəd etmişdir. (Lakin) Allah mücahidlərə (evlərində) oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir*".[2]

## DÖYÜŞÇÜLƏRƏ HÖRMƏT

Allahın rəsulu (s) buyurur: "Kim döyüşçünün məktubunu (lazımi ünvana) çatdırsa, qul azad etmiş kimidir və o döyüşçünün savabına şərikdir".[3]

İmam Sadiq (ə) buyurur: "Üç dəstənin duası qəbul olunar. Onlardan biri Allah yolunda döyüşənlərdir. Elə isə onları necə əvəz edəcəyinizi düşünün".[4]

Cəbhəyə yollanmış döyüşçünü əvəz etmək isə onun məişət və digər işləri ilə məşğul olmaqla mümkün ola bilər.

---

[1] "Nəhc əl-bəlağə", xütbə: 27.
[2] "Nisa", 95.
[3] "Təhzib əl-əhkam", c. 6, səh. 123.
[4] "Təhzib əl-əhkam", c. 6, səh. 122.

## DÖYÜŞÇÜLƏRİ İNCİTMƏYİN CƏZASI

Həzrət Məhəmməd (s) buyurur: "KimAllahın itaətində olan mömin bir döyüşçünün qeybətini etsə və ya özü olmadıqda ailəsi ilə pis davransa, Qiyamət günü onun üçün bir nişan qoyular, yaxşılıqları pisliyə çevrilər və Cəhənnəmə qaytarılar".[1]

Əmirülmöminin Əli (ə) buyurur: "Allah yolunda döyüşənləri incitməkdən çəkinin. Çünki Allah onlara görə peyğəmbərə görə qəzəbləndiyi kimi qəzəblənir".[2]

**9. Uşaqlar;**

Uşaqlarla bağlı bəzi mətləblər "Qohumlarla xoş münasibət" fəslində "Yetimlər" başlığı altında diqqətinizə çatdırıldı. Burada isə cəmiyyətdəki uşaqlar haqqında tövsiyələr verən hədisləri diqqətinizə çatdırırıq.

**Uşağın hüququ:** İmam Səccad (ə) buyurur: "Azyaşlı uşağın haqqı budur ki, ona bir şey öyrədərkən mehriban olasan. Qüsurlarından keçəsən, eybini örtəsən, onunla xoş davranasan və kömək edəsən".[3]

**Uşaqları sevmək:** Allahın rəsulu (s) buyurur: "Uşaqları sevin, onlara qarşı mehriban olun".[4]

O həzrətin başqa bir kəlamında deyilir: "Böyüklərinizə hörmət edin, uşaqlarınıza mehriban olun".[5]

İmam Sadiqdən (ə) nəql olunan hədisə görə, Musa ibn İmran Allaha demişdir: "Ey mənim Tanrım! Sənin üçün hansı əməl daha yaxşıdır?" Haqq-Taala buyurmuşdur: "Uşaqlara sevgi

---

[1] "Əl-Kafi", c. 5, səh. 8. Güman ki, bu hədis döyüşçü özü olmadıqda ona zülm edənlərə bir təhdiddir.
[2] "Kənz əl-ümmal", c. 4, səh. 314.
[3] "Əl-Fəqih", c. 2, səh. 625.
[4] "Əl-Kafi", c. 6, səh. 49.
[5] "Əl-Əmali", Şeyx Səduq, səh. 94.

göstərmək. Çünki onları təkallahlılıq fitrətində yaratmışam. Əgər onları öldürərəmsə, öz rəhmətimlə Behiştə apararam".[1]

İmam Kazım (ə) buyurur: "Həqiqətən, Allah-Taala uşaqlara və qadınlara görə qəzəbləndiyi kimi, heç bir şeyə görə qəzəblənmir".[2]

Həzrət Məhəmməd (s) buyurur: "Əgər abid qocalar, pəhrizkar (Allahdan həya edən) gənclər və südəmər uşaqlar olmasaydı, həqiqətən, sizə ağır əzab nazil olardı".[3]

Başqa bir hədisə görə, o həzrət qoşunu yola salarkən deyərmiş: "Allahın adı ilə, Allahla, Allahın yolunda və Allah rəsulunun dinində hərəkət edin. ... Ahılları, uşaq və qadınları öldürməyin".[4]

**Uşaqlara salam vermək:** Həzrət Peyğəmbər (s) buyurur: "Nə qədər ki sağam, beş sünnədən əl çəkməyəcəm. Onlardan biri uşaqlarla salamlaşmaqdır".[5]

**Uşaqlarla oynamaq:** Allahın rəsulu (s) buyurur: "Kimin yanında uşaq varsa, onunla uşaq kimi oynasın".[6]

**Uşaqları sevindirməyin savabı:** Həzrət Məhəmməd (s) buyurur: "Cənnətdə bir ev var ki, ona "sevinc evi" deyirlər. Oraya ancaq uşaqları sevindirənlər girərlər".[7]

**Uşağa dini öyrətməyin savabı:** İslam peyğəmbəri (s) buyurur: "Kim uşağa "La ilahə illəllah" cümləsini öyrətsə, Allah onunla haqq-hesab çəkməyəcək".[8]

---

1 "Əl-Məhasin", səh. 293.
2 "Əl-Kafi", c. 6, səh. 50.
3 "İrşad əl-qülub", səh. 193.
4 "Əl-Məhasin", səh. 355.
5 "Kitab əl-xisal", səh. 271.
6 "Əl-Fəqih", c. 3, səh. 483-484.
7 "Əl-Came əs-səğir", c. 1, səh. 354.
8 "Əl-Möcəm əl-əvsət", c. 5, səh. 130.

Sonuncu peyğəmbərdən (s) gələn daha bir hədisdə deyilir: "Müəllim uşağa "Bismillah" dedikdə Allah müəllimə, uşağa və ata-anasına Cəhənnəm odundan qurtuluş verir".[1]

**Uşaqla münasibətdə çətinliklərə dözmək:** Rəvayətə görə, ad qoymaq və dua oxumaq üçün uşaqları Peyğəmbərin (s) yanına gətirirmişlər. Bir gün bir uşaq gətirirlər. Həzrət onu qucağına alır. Uşaq onun üstünü isladır. Həzrət buyurur: "Sidiyin üzərinə su axıdın" (Yəni həzrət onun uşağın valideynlərinə bildirilmədən, onları narahat etmədən təmizlənməsini istəyir).[2]

Digər bir rəvayətə görə, uşaqları təbərrük və uğur üçün Peyğəmbərin (s) yanına gətirirmişlər. Bir gün bir uşaq gətirirlər. Həzrət onu qucağına alır. Uşaq Peyğəmbərin (s) üstünü isladır. Həzrət su istəyir, sidiyin üzərinə axıdıb onu yuyur.[3] Bu hökm hələ yemək yeməyən, südəmər uşaqlara aiddir.

**10. Gənclər;**

Gənclər cəmiyyətin hər xalqın dost və düşmənləri arasında xüsusi yerə və əhəmiyyətə malik olan üzvləridir. Çünki gənclər, xüsusilə də onların içərisindən çıxan yüksək səviyyəli və layiqli mütəxəssislər bu və ya digər ölkənin mədəniyyətində, siyasətində və iqtisadiyyatında böyük dəyişikliklər edirlər. Məhz elə buna görə də düşmənlər xalqların inkişafının qarşısını almaq üçün ilk növbədə onların gənclərinə tələ qururlar. Gənclər üçün azdırıcı əyləncələrə şərait yaradır, inkişaf və tərəqqilərinə mane olur, onları fiziki və mənəvi inkişafdan

---

[1] "Müstədrək əl-vəsail", c. 15, səh. 166.
[2] "Müsnədi-Əhməd ibn Hənbəl", c. 6, səh. 46.
[3] "Səhihi-Müslim", c. 1, səh. 164.

saxlayır, xalqları ağalıqları altına salmaq üçün zəmin hazırlayırlar. Odur ki gənclərin mövqeyini, həssaslığını, ehtiyaclarını nəzərə alaraq, onların elmi və mənəvi tərəqqisinə yardım etmək hamıya vacibdir. Bu vasitə ilə cəmiyyətin də sağlamlığını və inkişafını təmin etmək böyük bir ibadətdir.

## GƏNCLƏRİN ƏHƏMİYYƏTİ

Əbu-Cəfər əl-Əhvələ Bəsrədən qayıtdıqdan sonra İmam Sadiq (ə) ondan soruşur: "Orada insanlar imamət və imaməti qəbul etmək haqqında nə düşünürlər?"

O deyir: "Allaha and olsun ki, onlar azdırlar. İstədiklərini etdilər".

İmam (ə) buyurur: "Gənclərin üzərində işlə, çünki onlar hər bir yaxşı işə daha tez üz tuturlar".[1]

## GƏNCLƏRLƏ MƏSLƏHƏTLƏŞMƏK

Həzrət Əli (ə) buyurur: "Qarşına çıxan bir məsələ ilə bağlı məsləhətə ehtiyac olsa, öncə cavanlarla məsləhətləş. Çünki onlar daha fərasətlidirlər və tez düşünürlər. Sonra onu böyüklərin və yaşlıların düşüncəsinə burax ki, aqibəti dəyərləndirib yaxşı seçim etsinlər. Çünki onların təcrübəsi daha çoxdur".[2]

---

[1] "Əl-Kafi", c. 8, səh. 93.

[2] "Şərhi-İbn Əbu əl-Hədid", c. 20, səh. 337.

## BACARIQLI GƏNCLƏRDƏN FAYDALANMAQ

Müsəb ibn Ümeyr gənc yaşlarına yenicə çatmışdı. Ata-anasının yanında rifah içində yaşayırdı. Ona hörmət edir, digər övladlarından üstün tuturdular. O, heç vaxt Məkkədən kənara çıxmamışdı. İslamı qəbul etdiyi üçün ata-anası Müsəbə əziyyət verir və o, Peyğəmbərlə (s) birgə "Əbu-Talib" dərəsində mühasirədə qalır. Rəngi solur, çətinlik onu sıxır. Həmin günlərdə Əsəd ibn Zürarə və Zəkvan ibn Qeys rəcəb ayı ümrəsi üçün Məkkəyə gəlib, Peyğəmbərə (s) iman gətirirlər. O həzrətdən xahiş edirlər ki, İslamı onlara öyrətmək üçün Mədinəyə nümayəndə göndərsin. Peyğəmbər (s) Quranı yaxşı mənimsəmiş Müsəbə əmr edir ki, Əsəd ibn Zürarə ilə birgə Məkkədən çıxsın (və Mədinəyə hicrət etsin). O, Mədinəyə gedir və çoxlu sayda gənci İslama yönəldir.[1]

## GƏNCLƏRƏ QARŞI MƏDƏNİ HÜCUMUN QARŞISINI ALMAQ

Əmirülmöminin Əli (ə) oğlu İmam Həsənə (ə) ünvanladığı məktubda buyurur: "Gənc insanın qəlbi (toxum səpilməmiş) boş yer kimidir. Hansı toxum səpilsə, onu qəbul edər (bitirər). Buna görə də ürəyin (dünyaya vurğunluq ucbatından) bərkiməmiş, ağıl və dərrakən (boş və puç işlərə) mübtəla olmamış səni ədəbləndirməyə başladım (din, hikmət, bilik və ibrət qaydalarını sənə xatırlatdım) ki, öz işlərində tam düşüncə ilə, təcrübə edənlərin sənin axtarmaq və sınaqdan keçirmək ehtiyacını aradan qaldırdıqları şeyə üz tutasan, təcrübə etməyə möhtac olmayasan və sınaqdan keçirməkdən qurtulasan".[2]

---

[1] "Elam əl-vəra bi əlam əl-huda", səh. 57.
[2] "Nəhc əl-bəlağə", məktub: 31.

İmam Sadiq (ə) buyurur: " Azğın qruplar bu işdə sizdən önə keçməmiş gənclərə hədis öyrədin".[1]

**Qeyd:** 1. Gəncin qəlbi əkilməmiş, hər növ səpinə hazır yer kimidir; 2. Xam torpağı kim əksə, istədiyini əldə etdiyi kimi, təmiz və hazırlıqlı zehnin üzərində də kim öz fikir və ideologiyası ilə işləsə, onu sahmana salsa, istədiyini əldə edər; 3. İnsanların dini cəhətdən yönləndirilməsi üçün məsuliyyət daşıyan şəxslər başqalarından önə keçərək cəmiyyətin gənc nəslinin qəlbini ilahi maariflə canlandırmalıdırlar.

## GƏNCLƏRƏ MÜBAHİSƏ ETMƏYİ ÖYRƏTMƏK

Həzrət Əli (ə) buyurur: "Cavanlara mübahisə sənətini öyrənməyi tapşırın".[2]

**Qeyd:** İslamın tələbi və bu hədisdə də tövsiyə olunan mübahisə düzgün, haqqı və doğrunu axtaran, batil və yanlışdan çəkinən mübahisədir.

## GƏNCLƏRİ AİLƏ QURMAĞA RƏĞBƏTLƏNDİRMƏK

İmam Sadiq (ə) buyurur: "Ənsardan bir gənc Peyğəmbərin yanına gəlib və o həzrətə öz ehtiyaclarından gileylənib. Həzrət ona buyurub: "Ailə qur".

(Başqa bir yerdə) həmin gənc deyib: "Mən (ailə qurmadığım üçün) Peyğəmbərin yanına getməyə utanıram".

Ənsardan bir kişi ona gözəl bir qızı olduğunu deyib və onunla evlənməyi təklif edib. Sonra qızını onun nikahına salıb. Bu

---

[1] "Təhzib əl-əhkam", c. 8, səh. 111.
[2] "Şərhi-İbn Əbu əl-Hədid", c. 20, səh. 275.

evlilikdən sonra Allah gəncin ruzisini artırıb. O, Peyğəmbərin (s) yanına gələrək özü haqqında məlumat verib. Allahın rəsulu buyurub: "Ey gənclər! Ailə qurmağa ciddi yanaşın".[1]

Öncə qeyd etdiyimiz kimi, İmam Baqir (ə) bir nəfəri ailə qurmağa təşviq etdikdən və nikahın bəzi faydalarını ona izah etdikdən sonra İslam peyğəmbərindən aşağıdakı hədisi nəql edərək buyurmuşdur: "Ailə qurun, çünki ailə qurmaq ruzinin çoxalmasına səbəb olur".[2]

## GƏNCLƏRİN SƏLİQƏ-SAHMANINA ÖNƏM VERMƏK

İmam Baqir (ə) buyurur: "Həzrət Əli xidmətçisi Qənbərlə birgə bazara gedib. Satıcıdan beş dirhəm dəyərində iki köynək istəyib. Satıcı deyib: "Cəmi iki köynəyim var: biri üç, o biri isə iki dirhəmlik".

Həzrət buyurub: "Hər ikisini gətir".

Sonra deyib: "Ey Qənbər! Sən üç dirhəmlik köynəyi götür".

Qənbər deyib: "Ey Əmirülmöminin! Siz buna məndən daha layiqsiniz. Çünki minbərə çıxır, xalqla danışırsınız".

İmam buyurub: "Ey Qənbər! Sən gəncsən, gənclik arzuların var. Mən Allahımdan həya edirəm ki, özümü səndən qabağa salım".[3]

---

[1] "Əl-Kafi", c. 5, səh. 330.
[2] "Əl-Kafi", c. 5, səh. 329.
[3] "Əl-Ğarat", c. 1, səh. 66; "Bihar əl-ənvar", c. 100, səh. 93.

## GƏNCLƏRİ TƏRBİYƏLƏNDİRMƏYİN YOLLARI

Həzrət Əliyə (ə) isnad edilən bir kəlamda deyilir: "Bir gənci danladıqda onun yanlış yoldan dönməsi üçün bir yol göstər ki, inad etməsin".[1]

## GƏNCLƏRİ BİLİK ÜÇÜN TƏNBEH ETMƏK

İmam Baqir (ə) və İmam Sadiq (ə) buyurmuşlar: "Əgər şiə gənclərindən birinin dini öyrənmədiyini görsəm, onu tənbeh edərəm".[2]

### 11. Ahıllar;

Dini təlimlərdə ahılların xüsusi yeri var. Onların hüquqlarını qorumaqla bağlı çox tövsiyələr olunmuşdur. Allah-Taala Həzrət Musa, Həzrət Şüeybin qızları və qızların yaşlı atalarının hüquqlarına riayət etmələri barədə Quranda belə nəql edir: "*(Musa) Mədyən kənarındakı bir quyuya çatanda onun başında (heyvanlarını sulayan) bir dəstə adam və onlardan başqa (qoyunlarını özgə heyvanlara qarışmasın deyə) geri çəkən iki qadın (qız) görüb dedi: "Sizə nə olub (dərdiniz nədir)?" Onlar: "Çobanlar (heyvanlarını) sulayıb getməmiş biz (qoyunlarımıza) su vermirik. Atamız da ixtiyar bir qocadır (buna görə qoyunları sulamağa biz gətiririk)", – deyə cavab verdilər*".[3]

Yaqubun (ə) övladlarının qardaşları Binyamini Misir zindanından xilas etmək üçün göstərdikləri səy isə belə təsvir olunur: "*(Qardaşlar) dedilər: "Ey vəzir! Bunun çox qoca bir atası*

[1] "Şərhi-İbn Əbu əl-Hədid", c. 20, səh. 333.
[2] "Əl-Məhasin", səh. 228.
[3] "Qəsəs", 23.

*vardır. Onun yerinə bizim birimizi tutub saxla. Biz sənin yaxşılıq edən adamlardan olduğunu görürük*".[1]

## AHILLARIN MƏQAMI

Allahın rəsulu (s) buyurur: "Ahıl insan öz ailəsində peyğəmbər öz ümməti arasında olduğu kimidir".[2]

İmam Zeynülabidin (ə) buyurur: "Dindaşlarının hüquqlarından biri budur ki, (sənin gözündə) yaşlı kişiləri atan, gəncləri qardaşın, yaşlı qadınları anan, uşaqları övladın kimi olsunlar".[3]

## YAŞLILARA HÖRMƏT

Həzrət Əli (ə) İmam Həsənə (ə) vəsiyyətində buyurur: "Öz ailənin uşaqları ilə mehriban ol, yaşlılarına hörmət et".[4]

## DÖYÜŞDƏ YAŞLILARI ÖLDÜRMƏKDƏN ÇƏKİNMƏK

İslam dini müsəlmanların ahıllarına hörmət etdiyi kimi, kafirlərin də yaşlılarını unutmamışdır. İmam Sadiq (ə) buyurur: "Allahın rəsulu qoşun göndərəndə döyüşçülərə tövsiyələr verirdi. Tövsiyələrindən biri bu idi ki, əldən düşmüş qocaları öldürməsinlər".[5]

---

[1] "Yusif", 78.
[2] "Rəvzə əl-vaizin", səh. 476.
[3] "Əl-Fəqih", c. 2, səh. 625.
[4] "Əl-Əmali", Şeyx Tusi, səh. 8.
[5] "Əl-Kafi", c. 5, səh. 27.

## YAŞLILARA HÖRMƏTİN MÜKAFATI

Həzrət Peyğəmbər (s) bu haqda buyurur:

"Müsəlman ağsaqqallara hörmət Allaha hörmətdir".[1]

"Kim qoca bir insanı yaşlı olduğu üçün üstün tutsa, ona hörmət etsə, Allah onu Qiyamət gününün qorxusundan amanda saxlayar".[2]

İmam Sadiq (ə) buyurur: "Üç nəfərin haqqını yalnız qatı münafiqlər pozar: müsəlman ağsaqqalların, Quran hafizlərinin və ədalətli rəhbərlərin".[3]

## MÖMİN AĞSAQQALA HÖRMƏTSİZLİYİN CƏZASI

İmam Sadiq (ə) buyurur: "Kim mömin bir ağsaqqala hörmətsizlik etsə, Allah ölməzdən əvvəl onun yanına ona hörmətsizlik edəcək birini göndərər".[4]

### 12. Yetimlər;

Allah-Taala yetimlərə digər ehtiyaclı insanlardan daha çox diqqət ayırmışdır. Quran onlar haqqında müxtəlif ibarələrlə buyurur: "*Elə isə yetimə zülm etmə!*"[5] "*Yetimin malına, xeyirxah məqsəd (onu qoruyub saxlamaq, çoxaltmaq) istisna olmaqla, həddi-büluğa çatana qədər yaxın düşməyin*".[6] "*(Ya Peyğəmbər!) Səndən yetimlər haqqında sual edənlərə söylə: "Onları islah etmək (tərbiyə edib yetişdirmək, mallarını qorumaq və güzəranlarını*

---

[1] "Əl-Kafi", c. 2, səh. 165.
[2] "Əl-Kafi", c. 2, səh. 658.
[3] "Əl-Kafi", c. 2, səh. 658.
[4] "Əl-Kafi", c. 2, səh. 658.
[5] "Zuha", 9.
[6] "Ənam", 152; "İsra", 34.

*yaxşılaşdırmaq) daha xeyirlidir (nəcib əməldir). Əgər onlarla birlikdə yaşayırsınızsa, onlar sizin qardaşlarınızdır*".[1]

Rəvayətlərdə də yetimlərlə bağlı çoxlu sayda göstəriş və təlimlər əks olunmuşdur ki, onlardan bəzilərini diqqətinizə çatdırırıq.

## YETİMLƏRƏ QAYĞI

Allahın rəsulu (s) buyurmuşdur: "Allah yetimlərə yaxşılığı onlar atalarından ayrıldıqları üçün tövsiyə etmişdir. Kim onları qorusa, Allah onu qoruyar".[2]

Əmirülmöminin Əli (ə) buyurur: "Yetimlərə münasibətdə Allahdan qorxun, Allahdan qorxun. Belə ki onların ağızları üçün növbə müəyyənləşdirməyin (onları gah tox, gah da ac saxlamayın). Onlar (ac-yalavaclıq və yiyəsizlik nəticəsində) sizin yanınızda məhv və heç olmasınlar".[3]

Həzrət Peyğəmbər (s) buyurur: "Evlərinizin ən üstünü o evdir ki, onda yetimə yaxşılıq olunur. Evlərinizin ən pisi isə o evdir ki, onda yetimə pislik olunur".[4]

**Peyğəmbərin yetimlərə qayğısı:** Abdullah ibn Cəfər deyir: "Allahın rəsulunun anamın yanına gəlib atamın şəhid olması xəbərini verdiyi gün yadımdadır. Mən ona baxırdım. O, mənim və qardaşımın başına əl çəkir, göz yaşları saqqalından axırdı. Buyurdu: "İlahi! Cəfər yaxşı savaba nail olmuşdur. Sən övladları arasında onun canişini ol. Sənin canişinliyin digər bəndələrinin onun övladları arasında canişinliyindən daha yaxşıdır".

---

[1] "Bəqərə", 220.
[2] "Ət-Təfsir əl-mənsub ilə əl-İmam əl-Əskəri", səh. 338; "Bihar əl-ənvar", c. 72, səh. 12.
[3] "Əl-Kafi", c. 7, səh. 51.
[4] "Müstədrək əl-vəsail", c. 2, səh. 474.

Sonra əlavə etdi: "Ey Əsma! Sənə müjdə verimmi?"

Anam: "Bəli, atam-anam sənə qurban!" – dedi.

Peyğəmbər (s) buyurdu: "Allah Cəfərə Behiştdə iki qanad verdi ki, onlarla pərvazlansın".[1]

**Həzrət Əlinin** (ə) **yetimlərə qayğısı:** “Bir gecə Əmirülmöminin (ə) yoxsul bir qadının evinin yanından keçirdi. Kiçik uşaqları aclıqdan ağlaşır, yazıq qadın onları sakitləşdirməyə, yatırtmağa çalışırdı. Qadın ocağı yandırmış, içində sadəcə su olan qazanı odun üstünə qoymuşdu ki, uşaqlar yemək bişdiyini güman edib bu xəyalla yuxuya getsinlər. Əmirülmöminin (ə) bu səhnəni görüb geri qayıtdı. Bir az xurma, un, yağ, düyü və çörək tədarükü görüb həmin evə yollandı. Qənbər yeməkləri aparmaqda ona kömək etmək üçün nə qədər israr etsə də, həzrət qəbul etmədi. Yükü şəxsən özü çiyninə alıb, dul qadının evinə çatdırdı. İcazə istəyib içəri keçdi. Düyü ilə yağı ocağın üstündəki qazanda bişirdi. Uşaqların hər biri üçün ayrıca qaba düyü çəkdi. Onlardan yemələrini istədi. Uşaqlar doyduqdan sonra həzrət onlarla oynadı. Uşaqları güldürərək sevindirdi. Sonra onların evini tərk etdi. Qənbər dedi: “Mövlam, bu gecə qəribə bir səhnəyə şahid oldum. Bir hissəsini – yoxsul bir ailə üçün qida aparmağınızı anladım. Amma digər hissəsini başa düşmədim. Siz uşaqlarla oynadınız – belə ki əyildiniz, dörd əl-ayaq üzərində otaqda yeridiniz. Uşaqları güldürdünüz. Bu, mənim üçün başa düşüləsi deyil. Bunu anlamadım”.

Əmirülmöminin (ə) Qənbərə cavab olaraq buyurdu: “Mən bu uşaqların evinə girəndə onlar aclıqdan ağlayırdılar. İstədim ki,

---

[1] "Musəkkin əl-fuad", səh. 106.

mən bu evdən çıxanda onlar doymaqla yanaşı, həm də gülsünlər, sevinsinlər. Bunun üçün bundan başqa bir yol tapa bilmədim”.[1]

**Yetimin tərbiyəsi:** Həzrət Əli (ə) buyurur: "Yetimə öz uşağınız kimi tərbiyə verin".[2]

**Yetimə sığınacaq vermək:** İmam Baqir (ə) buyurur: "Dörd şey kimdə olsa, Allah onun üçün Behiştdə bir ev inşa edər: yetimə sığınacaq vermək, zəifə rəhm etmək, anaya qarşı mehribanlıq, kölələrlə yaxşı davranmaq".[3]

## YETİMİN MALINI QORUMAQ VƏ BUNUN QAYDASI

Allah-Taala buyurur: "*Yetimləri nikah yaşına çatıncaya qədər sınayın. Əgər ağla dolduqlarını (həddi-büluğa çatdıqlarını) hiss etsəniz, mallarını özlərinə qaytarın. Böyüyəcəklər (böyüyən kimi mallarına sahib olacaqlar) deyə, o malları israf edib tələm-tələsik yeməyin. Zəngin olan (qəyyum) o mala toxunmasın, kasıb isə qəbul olunmuş qayda üzrə (ehtiyacı olduğu qədər, çəkdiyi zəhmətin əvəzi miqdarında) yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman yanlarında şahid tutun! Haqq-hesab çəkməyə Allah kifayət edər!*"[4]

İmam Sadiq (ə) bu barədə buyurur: "Yetimin yetimlik dövrü onun gücləndiyi dövrə, həddi-büluğa çatıncaya qədərdir. Əgər (cinsi) yetkinliyə çatsa, amma onda inkişaf hiss olunmasa, demək, hələ də zəifdir. Onun qəyyumu (ona qalan) mirası qoruyub saxlamalıdır".[5]

---

[1] “Kəşf əl-yəqin”, c. 41, səh. 29.
[2] "Vəsail əş-şiə", c. 21, səh. 479.
[3] "Səvab əl-əmal", səh. 133.
[4] "Nisa", 6.
[5] "Əl-Kafi", c. 7, səh. 68.

Əbu-Bəsir deyir: "İmam Sadiqdən "*Zəngin olan (qəyyum) o mala toxunmasın, kasıb isə qəbul olunmuş qayda üzrə (ehtiyacı olduğu qədər, çəkdiyi zəhmətin əvəzi miqdarında) yesin*" ayəsi haqqında soruşdum. Həzrət buyurdu: "Ayə özünü yetimin əkin və ya heyvandarlıq işlərinə həsr edənə (yalnız onun işləri ilə məşğul olana) aiddir. Bu halda yetimin malından qaydaya uyğun olaraq (şəriətdə göstərildiyi kimi) faydalana bilər. Amma yetimin nağd pulu ona tapşırılarsa, ondan xərcləmək hüququ yoxdur".[1]

**Qeyd:** Əkinçilik və heyvandarlıq bu hədisdə misal olaraq verilmişdir. Qeyd etmək lazımdır ki, günümüzdə yetimin maşını, dükanı və s. bu kimi mal-mülkü varsa, işlənmədən gəlir gətirmirsə, onun qəyyumu yetim üçün gördüyü işə uyğun olaraq zəhmət haqqını götürə bilər.

## YETİMƏ QAYĞI GÖSTƏRMƏYİN FAYDALARI

**Ürəyiyumşaqlıq:** Həzrət Peyğəmbərin (s) kəlamlarında bu barədə buyurulur:

"Yetimlərə qarşı mehriban olun ki, sizin yetimlərinizə də mehriban olsunlar".[2]

"Kim daşürəkli olduğunu görürsə, yetimlərə yaxın olsun. Onlarla mehriban davransın. Başlarına əl çəksin. Bu halda Allahın izni ilə ürəyi yumşalar. Çünki yetimin haqqı var".

"Onu süfrə başına oturtsun, başına əl çəksin ki, ürəyi yumşalsın".[3]

---

[1] "Təfsir əl-Əyyaşı", c. 1, səh. 248.
[2] "Əl-Əmali", Şeyx Səduq, səh. 94.
[3] "Əl-Fəqih", c. 1, səh. 188.

**Hörmətli olmaq:** Allahın rəsulu (s) buyurur: "Kim yetimə hörmət göstərsə, Allah onu hörmətli edər".[1]

**Behişt ləyaqəti:** Peyğəmbərdən (s) bu mövzuda gələn hədislərə nəzər salaq:

"Yetim ağlayanda Allahın ərşi onun üçün titrəyir və Allah-Taala buyurur: "Uşaq ikən ata-anasını əlindən aldığım bəndəmi ağladan kimdir? İzzət və calalıma and olsun, onu sakitləşdirənə Cənnəti vacib edərəm".[2]

"Ey Əli! Kim öz malı ilə yetimin ehtiyacını təmin edib onu ehtiyacdan çıxarsa, Behişt ona, mütləq, vacib olar".[3]

"Kim bir yetimi ehtiyaclarının qarşılanması üçün müsəlman bir ailəyə qoşarsa, Behişt ona, mütləq, vacib olar".[4]

**Ən üstün köşk:** İmam Baqir (ə) buyurur: "Möminlərdən hansında dörd xislət olsa, Allah ona (Cənnətdə) ən üstün dərəcədə, bütün köşklərdən üstün bir köşkdə çox şərafətli bir yer verəcək. (Bu köşk) yetimə sığınacaq verən, ona qayğı göstərən və onun üçün mehriban ata olan şəxs üçündür".[5]

**Yetimi təmin etməyin mükafatı:** Allahın rəsulu (s) buyurur: "Kim üç yetimə qəyyumluq etsə, gecələri ibadət edən, gündüzləri oruc tutan, hər gün Allah yolunda qılınc çalan adam kimidir. Mən və o, Cənnətdə iki qardaş kimi olacağıq".[6]

**Yetimə sevgi göstərməyin mükafatı:** Həzrət Peyğəmbər (s) buyurur: "Kim əlini mehribancasına (sevgi ilə) yetimin başına çəkərsə, Allah onun üçün əlinin altından keçən tükün sayı qədər

---

[1] "Bihar əl-ənvar", c. 72, səh. 12.
[2] "Səvab əl-əmal", səh. 200.
[3] "Əl-Fəqih", c. 4, səh. 372.
[4] "Mişkat əl-ənvar", səh. 167.
[5] "Əl-Əmali", Şeyx Mofid, səh. 167.
[6] "Kənz əl-ümmal", c. 15, səh. 177.

yaxşılıq yazar. Əgər yetimi ağlayan görsən, lütf və mehribanlıqla sakitləşdir".[1]

O həzrətin başqa bir kəlamında bu barədə belə deyilir: "Ey Əli! Kim əlini mehribancasına (sevgi ilə) yetimin başına çəkərsə, Allah Qiyamətdə ona əlinin altından keçən hər tükün qarşılığında bir nur verər".[2]

## YETİMİ İNCİTMƏYİN CƏZASI

Allah-Taala Quranda buyurur: "*Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar (Qiyamətdə) alovlu Cəhənnəmə girəcəklər*".[3]

Həzrət Peyğəmbərdən (s) gələn hədislərdən birində bu barədə aşağıdakı fikrə rast gəlirik: "Meraca gedəndə alov qarınlarına tökülüb arxadan çıxan bir dəstə adam gördüm. Soruşdum: "Ey Cəbrayıl! Bunlar kimdir?"

Buyurdu: "Onlar zülm edərək yetimlərin malını yeyənlərdir".[4]

İmam Baqir (ə) buyurur: "Həqiqətən, Allah yetimin malını yeyəni iki cəza ilə hədələmişdir: onlardan biri dünyaya, digəri isə axirətə aiddir".[5]

İmam Sadiq (ə) buyurur: "Əlinin kitabında deyilir ki, yetimin malını yeyənin dünya cəzası özündən sonra övladlarına çatar, babalını isə axirətdə özü çəkər".[6]

---

[1] "Bihar əl-ənvar", c. 79, səh. 80.
[2] "Əl-Fəqih", c. 4, səh. 372.
[3] "Nisa", 10.
[4] "Vəsail əş-şiə", c. 17, səh. 248.
[5] "Əl-Fəqih", c. 3, səh. 565.
[6] "Vəsail əş-şiə", c. 17, səh. 247.

## MƏNƏVİ YETİMLƏRİN HİMAYƏSİ

Həzrət Məhəmməd (s) buyurur: "Atasını itirmiş yetimdən daha ağırı imamından ayrı düşmüş, onunla əlaqə saxlaya bilməyən, dini məsələlər haqqında imamının hökmünü öyrənə bilməyən yetimdir. Bilin ki, bizim görüşümüzdən məhrum olan və şəriətimizi bilməyən şiə alimlərinin öhdəsinə qalan şəxs yetimdir. Bilin ki, kim onu doğru yola yönləndirsə, hidayət etsə, şəriətimizi ona öyrətsə, Cənnətin yüksək məqamında bizimlə olacaq".[1]

### 13. Yoxsullar;

Yoxsullara diqqət və qayğı o qədər önəmlidir ki, Allah Quranda bu məsələnin üzərində xüsusi təkidlə dayanmışdır. Onlara yardım edib çətinliklərini aradan qaldıranlar üçün dünya və axirət mükafatı nəzərdə tutulmuşdur. Həmin mükafatlardan biri də günahların bağışlanmasıdır.

İnsanın malının bir hissəsi vacib və müstəhəb sədəqə olaraq yoxsullara aiddir. Quranda bu haqda oxuyuruq: "*Sədəqələr (zəkatlar) Allah tərəfindən müəyyən edilmiş bir fərz (vacib əməl) olaraq ancaq yoxsullara, (ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən) miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri (müsəlmanlığa) isinişib bağlanmaqda olanlara (iman gətirib, hələ kamil mömin olmayanlara), azad ediləcək kölələrə (və ya boynuna kəffarə düşüb, verə bilməyənlərə), həmçinin (borcu ödəməyə imkanı olmayan) borclulara, Allah yolunda cihad edənlərə və yolçulara (pulu qurtardığı üçün yolda qalan, vətəninə*

---

[1] "Ət-Təfsir əl-mənsub ilə əl-İmam əl-Əskəri", səh. 339; "Bihar əl-ənvar", c. 105, səh. 171.

*qayıda bilməyən müsafirlərə) məxsusdur*"[1] Başqa bir ayədə oxuyuruq: "*Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır, lakin onu gizlicə versəniz, daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər. Allah tutduğunuz hər bir işdən xəbərdardır!*"[2]

Bunun müqabilində yoxsulların hüquqlarını nəzərə almamaq isə ilahi qəzəb və əzaba səbəb olur. Allah-Taala buyurur: "*Biz vaxtilə o bağ sahiblərini imtahana çəkdiyimiz kimi, bunları da (Məkkə müşriklərini də) imtahana çəkdik. O vaxt (o bağ sahibləri) səhər açılanda (onun meyvələrini), mütləq, dərəcəklərinə and içmişdilər. Və heç bir istisna yeri də qoymamışdılar (inşallah deməmişdilər). Onlar yuxuda ikən (Ya Peyğəmbər!) sənin Rəbbindən o bağa bir bəla gəldi. Və o (yanıb) qapqara qaraldı (külə döndü)*".[3]

Həzrət Peyğəmbər (s) buyurur: "Kim yoxsullara kömək etsə, onlarla ayaqlaşsa, camaatla insaflı davransa, o, həqiqi mömindir".[4]

Əbu-İsmayıl deyir: "İmam Baqirə dedim: "Bizim yanımızda şiə çoxdur". Buyurdu: "İmkanlılar imkansızlara qayğı göstərirlərmi? Yaxşılar pisləri bağışlayırmı? Onlarla ayaqlaşırlarmı?"

Dedim: "Xeyr!" Buyurdu: "Onlar şiə deyillər. Şiə bu xususiyyətlərə malik olandır".[5]

---

[1] "Tövbə", 60.
[2] "Bəqərə", 271.
[3] "Qələm", 17-20.
[4] "Kitab əl-xisal", səh. 47.
[5] "Əl-Kafi", c. 2, səh. 173.

## YOXSULLARA SEVGİ GÖSTƏRMƏK

Rəvayətlərdən birinə görə, Allah Həzrət İsaya (ə) buyurmuşdur: "Ey İsa! Özünüzə dindarlıq və miskinlərə sevgi ilə zinət verin".[1]

Allahın rəsulu (s) buyurur: "Allaha yaxınlığa səbəb olan şeylərdən biri səfillərə mehribanlıq göstərmək və onlara yaxın olmaqdır".[2]

İmam Səccad (ə) Allaha duasında deyir: "Yoxsullarla ünsiyyəti mənə sevdir, mənə onlarla ünsiyyətdə səbirli olmaqda yardım et!"[3]

## ƏL TUTANIN ƏLİNİN BƏRƏKƏTİ

"Sədəqə verəndə əlinizi öpün. Çünki Allah sədəqəni yoxsula çatmazdan qabaq alır. "*Məgər onlar bilmirlər ki, Allah qullarından tövbə qəbul edər, sədəqə (zəkat) alar və Allah tövbələri qəbul edəndir, rəhmlidir?!*" ("Tövbə", 104)

## YOXSULLARA QAYĞI GÖSTƏRMƏYİN SAVABI

**Axirət sevinci:** "Hər bir şeyin yolu var. Axirətdə sevinməyin yolu isə dörd xislətdir: yetimlərin başına əl çəkmək, dul qadınlara qayğı göstərmək, möminlərin ehtiyaclarını təmin etmək, yoxsullar və səfillərlə məşğul olmaq".[4]

**Mələklərin Qiyamətə qədər əfv diləməsi:** İmam Sadiq (ə) buyurur: "Kim yoxsul müsəlmana bir köynək geyindirsə, yaxud

---

[1] "Əl-Kafi", c. 8, səh. 135.
[2] "Came əl-əxbar", səh. 183; "Bihar əl-ənvar", c. 63, səh. 331.
[3] "Səhifeyi-Səccadiyyə", 30.
[4] "Əl-Fəzail", səh. 152.

ona yaşam xərcini təmin edəcək bir şey versə, Allah yetmiş min mələk ayırar ki, Qiyamətə qədər onun üçün əfv diləsinlər".[1]

**Behişt suyu və yeməyi:** Allahın rəsulu (s) buyurur: "Kim ac bir mömini doyursa, Allah ona Behişt meyvəsi verər. Kim susuz olana su versə, Allah ona Behişt şərabı verər".[2]

**Allah rizası:** Həzrət Peyğəmbər (s) buyurur: "Kim yoxsul bir müsəlmana hörmət etsə, Allahın qarşısına Rəbbi ondan razı halda çıxacaq".[3]

**Yoxsulların şəfaəti:** İmam Sadiq (ə) buyurur: "Qiyamətdə Allah tərəfindən bir carçı belə çağırar: "Yoxsullar haradadır?" Bu zaman onlara deyərlər: "Baxın, insanların simasından sizə yaxşılıq edənləri tapın və əllərindən tutub Cənnətə aparın".[4]

**Yoxsulların duasının qəbul olunması:** İmam Səccad (ə) buyurur: "Yoxsulun duası cavabsız qalmır".[5]

## YOXSULLARA ƏL TUTMAĞIN QAYDASI

Vacib sədəqələri aşkarda vermək daha yaxşıdır. İmam Sadiq (ə) bu barədə buyurur: "Allahın sənə vacib etdiyini aşkarda etmək gizlində etməkdən daha yaxşıdır".[6]

Müstəhəb sədəqələri isə gizlin vermək daha məsləhətlidir. Buna görə də İmam Sadiq (ə) Allahın "*Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır, lakin onu gizlində versəniz, daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər. Allah tutduğunuz hər bir*

1 "Əl-Kafi", c. 2, səh. 204-205.
2 "Qürəb əl-əsnad", səh. 57.
3 "Əl-Fəqih", c. 4, səh. 13-14.
4 "Səvab əl-əmal", səh. 183.
5 "Üddə əd-dai", səh. 68; "Vəsail əş-şiə", c. 9, səh. 425.
6 "Əl-Kafi", c. 3, səh. 501.

*işdən xəbərdardır!*"[1] kəlamı haqqında buyurur: "Bu sədəqələr zəkatın bir hissəsidir. Həqiqətən, zəkat gizli yox, aşkardır".[2]

## YOXSULA LAQEYDLİYİN NƏTİCƏLƏRİ

**Allahın qəzəbi:** İmam Rza (ə) buyurur: "Kim yoxsul bir müsəlmanı görüb, ona varlılardan fərqli cavab versə, Qiyamət günü Allahın qarşısına çıxarkən Allah ona qəzəbli olar".[3]

İmam Sadiq (ə) Abdullah ibn Cündəbə buyurmuşdur: "Elə bir ümmət olmamışdır ki, onun insanları öz yoxsul qardaşlarına yuxarıdan aşağı baxsınlar və Allah onlara əzab göndərməsin".[4]

**Yoxsulların şikayəti:** İslam peyğəmbəri (s) buyurur: "Vay olsun varlılara yoxsullar sarıdan! Qiyamət günü yoxsullar deyəcəklər: "İlahi! Onlar öz mallarından Sənin vacib etdiyin hüquqlarda bizə zülm etdilər".[5]

**Yoxsulların yanında alçalmaq:** İmam Sadiq (ə) buyurur: "Peyğəmbərin yanına təmiz və səliqəli paltarda imkanlı bir kişi gəlib. Bu zaman əynində çirkli paltar olan bir yoxsul da gələrək imkanlının yanında oturub. İmkanlı şəxs libasını yoxsulun ayağının altından çəkib. Peyğəmbər buyurub: "Yoxsulluğu sənə keçər deyəmi qorxdun?"

Varlı deyib: "Xeyr!"

Həzrət buyurub: "Sərvətinin azalacağındanmı qorxdun?"

Deyib: "Xeyr!"

---

1 "Bəqərə", 271.
2 "Əl-Kafi", c. 3, səh. 502.
3 "Üyun əxbar ər-Rza", c. 2, səh. 52.
4 "Tühəf əl-üqul", səh. 303.
5 "İrşad əl-qülub", səh. 36.

Peyğəmbər buyurub: "Paltarının çirklənəcəyindənmi qorxdun?"

Deyib: "Xeyr!"

Buyurub: "Bəs səni bunu etməyə vadar edən nədir?"

Deyib: "Ey Allahın rəsulu! Mənimlə birgə bir Şeytan gəzir ki, çirkinliyi mənim üçün bəzəyir, yaxşılığı çirkin göstərir. Mən malımın yarısını o yoxsul üçün ayırıram".

Allahın rəsulu (s) yoxsuldan soruşub: "Bunu ondan qəbul edirsənmi?"

Yoxsul deyib: "Xeyr!"

İmkanlı soruşub: "Nə üçün qəbul etmirsən?"

Deyib: "Qorxuram ki, səndə olan hal məndə də yaransın".[1]

**Qiyamətdə xar olmaq:** Allahın rəsulu (s) buyurur: "Kim yoxsula zülm etsə, yaxud ona özünü göstərsə və ona əhəmiyyət verməsə, Qiyamət günü Allah onu qarışqa kimi kiçik bir kişinin şehrəsinə döndərər və beləcə də Cəhənnəm oduna daxil olar".[2]

İmam Sadiq (ə) buyurur: "Kim yoxsul bir mömini xar və önəmsiz bilsə, yoxsulluğuna görə kiçik saysa, Allah Qiyamət günü onu xar edərək bütün yaradılmışların qarşısında rüsvay edər və ona qarşı daim qəzəbli olar".[3]

**Kəbəni dağıtmağa bərabər günah:** Həzrət Əli (ə) buyurur: "Kim yoxsul bir mömini haqsız yerə incitsə, sanki Məkkə və Beyti-məmuru on dəfə viran qoymuş, Allah dərgahına yaxın olan min mələyi öldürmüşdür".[4]

---

[1] "Əl-Kafi", c. 2, səh. 262-263.
[2] "Vəsail əş-şiə", c. 12, səh. 268; "Səvab əl-əmal", səh. 284.
[3] "Üddə əd-dai", səh. 191.
[4] "İrşad əl-qülub", səh. 94.

**Əlacsızın qarğışı:** Allahın rəsulu (s) buyurur: "Əlacsızın qarğışından qorxun".[1]

**Münafiqlərin əməli:** Həzrət Peyğəmbər (s) buyurur: "İmkanlıya imkanına görə hörmət edənə Allahın lənəti olsun. Yoxsula yoxsulluğuna görə həqarət edənə Allahın lənəti olsun. Belə işi yalnız münafiq tutar".[2]

**Duanın qəbul olunmaması:** Həzrət Peyğəmbər (s) buyurur: "Kim imkanlıya imkanına görə hörmət etsə, yoxsulu yoxsulluğuna görə təhqir etsə, göylərdə Allahın və peyğəmbərin düşməni adlanar, duası qəbul olunmaz və istəkləri verilməz".[3]

**14. İmdad diləyənlər;**

**A) Borclular;**

Borclarını ödəməkdə çətinliyə düşən borclular[4] köməyə ehtiyacı olan insanlar içərisində Allah tərəfindən diqqətə alınmışlar. Quran onlara kömək etməyi tövsiyə etmişdir: "*Əgər sizə borclu olan şəxs çətin vəziyyətdə olarsa, ona vəziyyəti yaxşılaşıncaya qədər möhlət verin! Əgər bilmək istəyirsinizsə, (borcu) ona sədəqə olaraq bağışlamağınız daha yaxşıdır!*"[5]

Digər bir ayədə zəkatın səkkiz dəstəyə aid olduğu bildirilir və yoxsullar, miskinlər, borclular da onların sırasına daxil edilir. Ayədə bu, çox mühüm ilahi fərz (vacib əməl) hesab olunur.[6]

---

1 "Kənz əl-ümmal", c. 62, səh. 220.
2 "İrşad əl-qülub", səh. 194
3 "İrşad əl-qülub", səh. 194.
4 Burada günah və israfla yox, düzgün yolla borca düşənlər nəzərdə tutulur. ("əl-Muqniə", səh. 241; "İrşad əl-qülub", səh. 194).
5 "Bəqərə", 280.
6 "*Sədəqələr (zəkatlar) Allah tərəfindən müəyyən edilmiş bir fərz (vacib əməl) olaraq, ancaq yoxsullara, (ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən) miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri (müsəlmanlığa) isinişib bağlanmaqda olanlara (iman gətirib, hələ kamil mömin olmayanlara), azad ediləcək kölələrə (və ya boynuna*

## ƏN SEVİMLİ ƏMƏL

Həzrət Peyğəmbər (s) buyurur: "Allah yanında ən sevimli əməllər üçdür: ac müsəlmanı doyurmaq, borclunun borcunu ödəmək və onun kədərini dağıtmaq".[1]

## BORCLUNU SIXIŞDIRMAMAQ

Allahın rəsulu (s) buyurur: "Sənə borclu olanın – imkanı olduğu halda – borcu yubatmasına icazə verilmədiyi kimi, sənin də – ödəmək imkanı olmadığında – onu sıxışdırmağına icazə verilmir".[2]

## BORCLUYA MÖHLƏT VERMƏK

**Möhlətin sədəqə olması:** İmam Sadiqdən (ə) gələn hədislərdən birində deyilir: "Bir gün Allahın rəsulu minbərə çıxıb Allaha həmd-səna etdikdən, peyğəmbərinə salam göndərdikdən sonra buyurub: "Ey camaat! Burada olanlar olmayanlara çatdırsınlar ki, kim borcunu ödəyə bilməyənə möhlət versə, borcda olan malı qaytarılana qədər hər gün onun üçün həmin miqdarda sədəqə yazılır".[3]

**İlahi rəhmətin kölgəsində olmaq:** Həzrət Məhəmməd (s) buyurur: "Kim borcunu ödəyə bilməyən borcluya möhlət versə,

---

*kəffarə düşüb, verə bilməyənlərə), həmçinin (borcu ödəməyə imkanı olmayan) borclulara, Allah yolunda cihad edənlərə və yolçulara (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə) məxsusdur. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!*" ("Tövbə", 60).

[1] "Əl-Məhasin", səh. 294.

[2] "Təhzib əl-əhkam", c. 6, səh. 193.

[3] "Əl-Kafi", c. 4, səh. 35-36.

Allah öz rəhmətinin kölgəsindən başqa kölgə olmayacaq gündə onu öz kölgəsinə alacaq".[1]

**Duanın qəbul olunması:** İslam peyğəmbəri (s) buyurur: "Kim duasının qəbul olunmasını və kədərinin dağılmasını istəyirsə, borcunu ödəməyə gücü çatmayanın kədərini dağıtsın".[2]

## BORCLULARIN BORCUNU ÖDƏMƏYİN SAVABI

**Axirət fəzilətlərinə nail olmaq:** İslam peyğəmbəri (s) buyurur: "Əlinə gəlmiş pulla gedib qohumlarına baş çəkən, borclulara, yolda qalanlara, yoxsullara və mühacirlərə kömək edən şəxs savab qazanmaqda və hüquqlara riayət etməkdə səbirli olsun. Çünki bu xüsusiyyətlərlə dünyada şərafətə, axirətdə isə fəzilətə nail olacaq".[3]

**Şiəlik əlaməti:** İmam Baqir (ə) buyurur: "Ey Cabir! Allaha and olsun ki, Allahdan qorxmayan, təvazökarlığı ilə tanınmayan, qonşulara və borclulara əl tutmayan şəxs bizim şiəmiz deyil".[4]

### B) Dilənçilər;

İslam dini dilənçiliyi pisləmiş, qınamış, insanlara əl açmamağı isə yüksək qiymətləndirmişdir. Allah abırlı yoxsullar haqqında buyurur: "*(Sədəqə) Allah yolunda canından keçərək (dolanmaq, ruzi kəsb etmək üçün) yer üzündə hərəkət edə bilməyən (və ya buna imkanı olmayan) yoxsullar üçündür. Belə şəxslər həyalı olub dilənçilikdən çəkindiklərinə görə nadanlar onları dövlətli hesab edirlər. (Ya Rəsulum!) Sən isə onları*

---

[1] "Əl-Kafi", c. 8, səh. 9.
[2] "Kənz əl-ümmal", c. 6, səh. 215.
[3] "Tühəf əl-üqul", səh. 186.
[4] "Əl-Kafi", c. 2, səh. 74.

*üzlərindən tanıyırsan. Onlar heç kəsdən israrla bir şey istəməzlər. Sizin mallarınızdan (bunlara) nə verdiyinizi, şübhəsiz ki, Allah bilir!*"[1]

## DİLƏNÇİNİ ƏLİBOŞ QAYTARMAQDAN ÇƏKİNMƏK

Dilənçilik və başqalarına əl açmaq pislənsə də, dilənçiləri əliboş qaytarmamaq Allahın mərhəmətinin nazil olmasına zəmin yaradır. Buna görə də Allah dilənçiləri qapıdan qovmağı yasaqlamışdır.[2]

Həzrət Peyğəmbər (s) buyurur: "Dilənçinin istəyini kəsməyin. Yoxsullar yalan deməsələr, onları özündən uzaqlaşdıran şəxs əsla xilas olmaz".[3]

İmam Sadiq (ə) buyurur: "Allahın rəsulu heç vaxt dilənçini qapıdan qovmayıb. Bir şeyi varsa, verib, olmayanda isə buyurub: "Allah onu sənə verər".[4]

Əhli-Beytdən nəql olunan hədislərdə deyilir: "Biz haqqı olmayana da bir şey veririk ki, haqqı olanı qapıdan qaytarmayaq".[5]

İmam Sadiq (ə) buyurur: "Dilənçini qapıdan qovan şəxs tutduğu işin aqibətindən xəbərdar olsaydı, heç vaxt belə etməzdi".[6]

---

1 "Bəqərə", 273.
2 "*Dilənçini də (qapıdan) qovma!*" ("Zuha", 10)
3 "Əl-Kafi", c. 4, səh. 15.
4 "Əl-Kafi", c. 4, səh. 15.
5 "Üddə əd-dai", səh. 101.
6 "Üddə əd-dai", səh. 99.

## DİLƏNÇİ – MƏLƏK

## DİLƏNÇİYƏ BƏXŞİŞİN SAVABI

İmam Baqir (ə) buyurur: "Qapısına dilənçi gələn şəxs verəcəyi bəxşişin mükafatından xəbərdar olsaydı, heç kim heç vaxt dilənçini geri qaytarmazdı".[1]

## DİLƏNÇİ İLƏ DAVRANIŞ QAYDASI

**Dilənçiyə hörmət:** Rəvayətə görə, İmam Əli (ə) ehtiyac üzündən onun yanına gəlmiş bir nəfərə buyurub: "İstəyini yerə yaz. Çünki başqasına ağız açmağın xəcalətini dilənçinin üzündə görmək istəmirəm".[2]

**Vasitəsiz bəxşiş:** İmam Sadiq (ə) buyurur: "Ən üstün sədəqə odur ki, insan bəxşişi dilənçiyə öz əli ilə versin".[3]

**Dilənçini yoxlamaq:** İmam Sadiq (ə) buyurur: "Atam bəzən dilənçiləri sınayırdı ki, qane olanını qane olmayanından ayırsın. (Qurban kəsəndə) dilənçi gəlirdi. Öncə ona heyvanın başını verirdi. Əgər qəbul etsəydi, buyururdu: "Onu yerə qoy. Buna ətindən verin". Qəbul etməsəydi, ona bir şey vermirdi".[4]

**Tanımadığın dilənçiyə az bəxşiş vermək:** İmam Sadiqdən (ə) tanımadığın dilənçiyə sədəqə vermək haqqında soruşublar. Həzrət buyurub: "Ürəyin onun üçün rəhmə gəldisə, ona bir dirhəmdən az ver".

Soruşublar: "(Belə yoxsullara) ən çox bəxşiş nə qədər olmalıdır?"

---

[1] "Əl-Kafi", c. 4, səh. 20.
[2] "İrşad əl-qülub", səh. 136.
[3] "Müstədrək əl-vəsail", c. 7, səh. 20.
[4] "Dəaim əl-İslam", c. 2, səh. 185.

Buyurub: "Dörd daniq (hər daniq dirhəmin altıda biridir)".[1]

**Dilənçidən dua etməsini istəmək:** İmam Zeynülabidin (ə) buyurur: "Yoxsulun ona bəxşiş verən kəs üçün etdiyi dua rədd edilmir".

Buna görə də imam (ə) xidmətçisinə buyurarmış: "Dilənçiyə bir şey verdikdə ondan dua etməsini istə".[2]

İmam Sadiq (ə) buyurur: "Müstəhəbdir ki, xəstə öz əli ilə dilənçiyə bir şey versin və ondan (sağalması üçün) dua etməsini istəsin".[3]

**Verən əli öpmək:** Həzrət Əli (ə) buyurur: "Dilənçiyə bəxşiş verən kəs öz əlini öpsün. Çünki sədəqə yoxsula çatmazdan qabaq Allah onu alır".[4]

## GÜNDƏLİK SƏDƏQƏNİN MİQDARI

İmam Sadiq (ə) bu barədə buyurur: "Üç dilənçiyə yemək verin. Əgər bunu artırmaq istəsəniz, artırın. Artırmasanız da, bir günün haqqını ödəmiş hesab olunursunuz".[5]

## GECƏ DİLƏNÇİYƏ CAVAB VERMƏK

Allahın rəsulu (s) buyurur: "Gecə vaxtı qapınızı döyən dilənçini əliboş qaytarmayın".[6]

---

1 "Əl-Fəqih", c. 2, səh. 68.
2 "Üddə də-dai", səh. 68.
3 "Əl-Kafi", c. 4, səh. 3-4.
4 "Üddə də-dai", səh. 68.
5 "Əl-Kafi", c. 4, səh. 17.
6 "Əl-Fəqih", c. 2, səh. 67.

C) **Yolda qalanlar;**[1]

Yolda qalanlar Allahın xüsusi diqqət yetirdiyi ehtiyaclılardır. Allah-Taala onları himayə etmək haqqında Quranda belə buyurur: "*Allahın Öz Peyğəmbərinə (fəth olunmuş) məmləkətlərin əhalisindən (dinc yolla) verdiyi qənimət Allaha, Peyğəmbərə, (Məhəmməd əleyhissəlama yaxın olan) qohum-əqrəbaya, yetimlərə, yoxsullara və (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara) məxsusdur. Bu ona görədir ki, (həmin mal-dövlət) içərinizdəki zənginlər arasında əldən-ələ dolaşan bir sərvət olmasın (ondan yoxsullar da faydalansın). Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir*".[2]

## YARDIM ETMƏYİN YOLLARI

Yolda qalmış yolçulara kömək etməyin müxtəlif yolları var. Bunlardan biri onlara yol göstərmək, bələdçilik etmək üçün xüsusi məkanlar ayırmaqdır. Quran bunu zəkatın xərclənməli olduğu yerlərdən biri hesab etmişdir.[3]

---

[1] "Yolda qalanlar" dedikdə öz yaşadığı yerdə imkanlı olduğuna baxmayaraq, günah məqsədi ilə olmayan səfərdə pulu qurtarıb yolda qalmış yolçular nəzərdə tutulur. ("Təhzib əl-əhkam", c. 4, səh. 50).

[2] "Həşr", 7; "Bəqərə", 177; "Ənfal", 41; "Rum", 38.

[3] "*Sədəqələr (zəkatlar) Allah tərəfindən müəyyən edilmiş bir fərz (vacib əməl) olaraq, ancaq yoxsullara, (ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən) miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri (müsəlmanlığa) isinişib bağlanmaqda olanlara (iman gətirib, hələ kamil mömin olmayanlara), azad ediləcək kölələrə (və ya boynuna kəffarə düşüb, verə bilməyənlərə), həmçinin (borcu ödəməyə imkanı olmayan) borclulara, Allah yolunda cihad edənlərə və yolçulara (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə) məxsusdur. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!*" ("Tövbə", 60)

Həzrət Peyğəmbər (s) isə buyurur: "Möminin ölümdən sonra da ona çatacaq yaxşı işlərindən biri yolda qalanların rifahını təmin etmək üçün məkanlar qurmasıdır".[1]

## YOLDA QALANA YARDIM ETMƏYİN SAVABI

Həzrət Əlinin (ə) kəlamlarına əsasən, malını yolda qalan müsafirə sərf etmək dünya və axirət şərəfinə səbəb olur.[2]

### Ç) Sığınacaq verilmişlər;

Sığınacaq və aman vermək Quranın göstərişlərindən biridir. Quranda oxuyuruq: "*Əgər (basqına uğrayan) müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını (Quranı) dinləsin. Sonra (İslamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir tayfadır!*"[3]

Din öndərlərinin dualarında da qeyd olunduğu kimi, bu, ilahi xüsusiyyətlərdən biridir. Dualardan birində oxuyuruq: "Ey naəlaclar səsləyərkən cavab verən, qorxanlar sığınarkən onlara aman verən Allah!"[4]

Allahın rəsulu (s) buyurmuşdur: "Allaha sığınana sığınacaq verin".[5]

İmam Sadiq (ə) buyurur: "Biz bizə sığınanların pənahıyıq".[6]

---

1 "Əl-Came əs-səğir", c. 1, səh. 382.
2 "Əl-Kafi", c. 4, səh. 32.
3 "Tövbə", 6.
4 "Misbah əl-müctəhid", səh. 516.
5 "Əlam əd-din", səh. 350.
6 "Kəşf əl-ğimmə", c. 2, səh. 422; "Bihar əl-ənvar", c. 50, səh. 299.

Osmanın xilafətində üsyan qalxdıqda Həzrət Əlidən (ə) yardım istəmiş və ona sığınmışdı. Həzrət də onu müdafiə etmişdi. Hərçənd bu müdafiənin bir faydası olmamışdı.[1]

## AMAN VERMƏK SƏLAHİYYƏTİNİN HƏR BİR MÖMİNƏ AİD OLMASI

Həzrət Peyğəmbər (s) buyurur: "Allahın pənahı hamı üçün eynidir. Möminlərin ən aşağı fərdi də aman verə bilər".[2]

O həzrət başqa bir hədisdə buyurur: "Müsəlmanlar əcnəbilər qarşısında birdirlər. Ən aşağı olanları da onlara aman verə bilər ".[3]

## AMAN VERMƏYİN SAVABI

Hədislərdən birinə görə, Həzrət Məhəmməd (s) iki barmağını birləşdirərək buyurmuşdur: "Mən və Əli Qiyamət günü bu iki barmaq kimi olacağıq. Şiələrimiz də bizimlə olacaq. Bizim zülmə məruz qalmışlarımıza kömək edənlər (aman verənlər) də bizimlə olacaq".[4]

---

[1] "Şərhi-Nəhc əl-bəlağə", İbn Əbu əl-Hədid, c. 9, səh. 26.
[2] "Məkatib ər-rəsul", c. 3, səh. 23.
[3] "Əl-Əmali", Şeyx Tusi, səh. 263.
[4] "Üyun əxbar ər-Rza (ə)", c. 2, səh. 58.

## AMAN VERİLMİŞ KƏSƏ XƏYANƏT ETMƏYİN CƏZASI

İmam Baqir (ə) buyurur: "Kim öz öhdəçiliyi ilə bir nəfərə aman verib, sonra onu öldürsə, Qiyamət günü çiynində xəyanət bayrağı ilə məhşərə daxil olacaq".[1]

**D) Məhbuslar;**

Qanuna görə, cinayətkar məhbuslar həbsxanada qalmalıdırlar. Amma onların da İslam dövləti üzərində hüquqları var və insanlar tərəfindən yaxşılığa layiqdirlər.

## MƏHBUSLARIN DÖVLƏT ÜZƏRİNDƏ HAQLARI

**Sübutsuz həbsin qadağan edilməsi:** Həzrət Əli (ə) buyurur: "Qətldə ittiham olunandan başqa heç kimi sırf ittihama görə həbs etmək olmaz".[2]

Çünki qətl ittihamı ağır ittihamdır. Onun sübuta yetirilməsi uzun çəkə bilər. Digər tərəfdən isə təqsirləndirilən şəxsin sərbəst buraxılması onun qaçmasına şərait yarada və qətlə yetirilmiş insanın yaxınlarının hüquqları pozula bilər.

**Uzunmüddətli həbsin qadağan edilməsi:** İmam Sadiq (ə) buyurur: "Həzrət Peyğəmbər qətldə ittiham olunanı altı günə qədər həbsdə saxlayardı. Qətlə yetirilənin yaxınları sübut ola biləcək bir əsas gətirsəydilər, onu həbsdə saxlayar, əks təqdirdə sərbəst buraxardı".[3]

**Cəzadan sonra həbsin qadağan edilməsi:** Həzrət Əli (ə) buyurur: "Məhkumun cəza verildikdən sonra həbs edilməsi ona zülmdür".[4]

---

[1] "Əl-Kafi", c. 5, səh. 31.
[2] "Dəaim əl-İslam", c. 2, səh. 539.
[3] "Təhzib əl-əhkam", c. 10, səh. 174-175.
[4] "Əl-Fəqih", c. 3, səh. 32.

**Haqq üzə çıxandan sonra həbs etmənin qadağan edilməsi:** Həzrət Əli (ə) buyurur: "Haqq üzə çıxandan sonra müttəhimi həbs etmək ona zülmdür".[1]

Çünki bu zaman həbsin yox, haqqı bərqərar etməyin vaxtıdır.

**Məhbusların hava və məkanını dəyişmək:** Həzrət Əli (ə) Rifaəyə tapşırmışdı ki, gecələr məhbusları dincəlmələri üçün həyətə çıxarsın.[2]

**Həbsxanadan müvəqqəti çıxış:** Bəzi məhbusların müsəlmanların dini və rəsmi toplantılarında, mərasimlərində iştirak etmək üçün müvəqqəti olaraq həbsxanadan çıxmaq hüququ var. İmam Baqir (ə) buyurur: "Həzrət Əli borc və ya iftira atmaq səbəbi ilə həbsxanaya düşənlərə cümə namazında iştirak etməyə icazə verirdi. Yaxınları onun qayıdacağına zamin dururdular".[3]

O həzrətdən gələn digər bir hədisdə deyilir: "Həzrət Əli məhbusları cümə namazı üçün həbsxanadan çıxarır və (qaçmasınlar deyə) nəzarətdə saxlamağı əmr edirdi".[4]

İmam Sadiq (ə) buyurur: "Hakim cümə və bayram günlərində borclu məhbusları cümə və bayram namazlarında iştirak etmək üçün həbsdən çıxarmalı, namazdan sonra onları həbsxanaya qaytarmaq üçün məmurlar göndərməlidir".[5]

---

[1] "Dəaim əl-İslam", c. 2, səh. 539.
[2] "Dəaim əl-İslam", c. 2, səh. 532.
[3] "Əl-Cəfəriyyat", səh. 44.
[4] "Müstədrək əl-vəsail", c. 6, səh. 27.
[5] "Əl-Fəqih", c. 3, səh. 31.

## MƏHBUSLARA YAXŞILIQ

**Qeyd:** Məhbusları cümə və bayram günlərində namaza aparmaq onların əhval-ruhiyyəsinin dəyişməsinə, İslam cəmiyyətində yaşayan digər insanlardan ibrət almalarına şərait yaradır. Bu iş məhbuslara yaxşılıq hesab olunur. Müsəlmanlara yaxşılıq üçün nəzərdə tutulan savab məhbuslara yaxşılıq etməyə də aiddir.

İmam Sadiq (ə) buyurur: "Bir müsəlman digər müsəlmanın ehtiyacını təmin etdikdə Allah ona səslənir ki, sənin mükafatın Mənim öhdəmə düşür və Mən sənin üçün Cənnətdən başqa bir şey istəmirəm".[1]

### E) Əsirlər;

Bəşəri cəmiyyətlərdə döyüş zamanı düşmən qüvvələrini əsir götürmək geniş yayılmışdır. İslam dini də müharibədə daha çox qan axmasının, insanların məhv edilməsinin qarşısını almaq üçün bunu rəva görmüşdür.[2] Lakin dinimiz döyüşdən, müsəlmanların təhlükəsizliyi təmin olunduqdan sonra münasib şərait yaradıb maarifləndirmə işləri aparmaqla əsirlərə şüurlu və iradi şəkildə İslamı qəbul etdirməyi tövsiyə edir. Yaxud onları müsəlman əsirlərə dəyişməyi, fidyə qarşılığında, ya da minnət qoyaraq əvəzsiz azad etməyi tapşırır.[3] Buna görə də əsirləri

---

[1] "Əl-Kafi", c. 2, səh. 194.

[2] "*Heç bir peyğəmbərə yer üzündə (küfrün belini qırmayana, bacardığı qədər çox kafir) öldürməyənə qədər əsirləri özünə mal etmək yaramaz" ("Ənfal", 67).*

[3] "*(Ey möminlər!) Kafirlərlə (döyüş meydanında) qarşılaşdığınız zaman boyunlarını vurun. Nəhayət, onları məğlub (əzib şil-küt) etdikdə, (qaçmasınlar deyə, əl-ayaqlarını) kəndirlə möhkəm bağlayın. Sonra da müharibə bitdikdə onları ya (boyunlarına minnət qoyub) məccani, ya da fidyə müqabilində azad edin! (İstəsəniz, əsirləri bağışlayıb pulsuz-parasız azad edər, ya onları mübadilə edər, ya da müəyyən məbləğ pul, mal müqabilində buraxarsınız). (Əmr) budur! Əgər Allah istəsəydi, onlardan (başqa cür – müharibəsiz də) intiqam ala bilərdi*" ("Məhəmməd", 4).

azad etmək müsəlmanlar üçün ibadət hesab olunur və bu işin qarşılığında mükafat nəzərdə tutulmuşdur.

## RAMAZAN AYINDA ƏSİR AZAD ETMƏK

Ramazan ayı gəlib çatanda Allahın rəsulu bütün əsirləri azad edir və ona müraciət edən hər ehtiyaclıya bir şey bağışlayırdı.[1]

## ƏSİRİN AZAD OLUNMASI ÜÇÜN VASİTƏÇİLİK ETMƏK

İslam peyğəmbəri (s) buyurmuşdur: "Ən yaxşı sədəqə dilin sədəqəsidir".

O həzrətdən soruşmuşlar: "Ey Allahın elçisi! Dilin sədəqəsi nədir?"

Buyurmuşdur: "Əsirin azad olunması və qan axıdılmasının qarşısını almaq üçün vasitəçilik etmək".[2]

## ƏSİRLƏRƏ YAXŞILIQ

**Əsiri doyurmaq:** Allah yaxşı və xeyirxah əməl sahibləri haqqında Quranda buyurur: "*Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya: Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər*".[3]

İmam Sadiq (ə) buyurur: "Əsirə yemək vermək onu tutana vacibdir. Əgər sabah onu öldürmək istəsə belə, yenə də ona yemək və su verməlidir".[4]

---

[1] "Səvab əl-əmal", səh. 72.
[2] "Üddə əd-dai", səh. 71.
[3] "İnsan", 8.
[4] "Əl-Kafi", c. 5, səh. 35.

**Əsirlə yaxşı davranmaq:** İmam Sadiq (ə) buyurur: "Əsirin gündəlik yeməyi onu tutanın öhdəsinə düşür, hərçənd növbəti gün öldürüləcək olsa belə. Çünki əsirə yemək və su vermək, onunla yaxşı davranmaq yaxşı işdir – istər müsəlman olsun, istərsə də kafir".[1]

**Əsiri öldürməkdən çəkinmək:** İmam Səccad (ə) buyurur: "Yeriyə bilməyən bir əsir tutmusansa və onu aparmaq üçün bir şey də yoxdursa, sərbəst burax və öldürmə".[2]

**Əsirləri azad etmək:** Həzrət Peyğəmbər (s) buyurur: "Allah əsirlərə etdiyiniz yaxşılıqla düşmənlərinizi xar edər".[3]

Həzrət Əli (ə) qohumlara yaxşılıq, qonağa qulluq, əsirləri azad etmək və yolda qalmış müsafirə kömək etmək kimi işlər üçün mal və pul sərf etməyi tövsiyə etdikdən sonra buyurmuşdur: "Bu kimi işlər dünyada mənəvi sərvət, axirətdə isə şərafətdir".[4]

**Ə) Təbii fəlakətdən zərər çəkənlər;**

Sel, zəlzələ, müharibə və yanğın kimi təbii fəlakətlərdən zərər çəkənlər himayə edilməsi təkid olunmuş ehtiyaclılardır. Bu himayənin müxtəlif yolları var ki, belə insanları ərzaq, geyim, dərman, yaşayış yeri və s. ilə təmin etmək də buraya daxildir. Bu çətin anlarda dindaşlarının, həmvətənlərinin – insan övladının problemlərini müşahidə etmək, keçilməsi çətin olan aşırımlar kimidir. Belə ki Quranda bu haqda oxuyuruq: "*Biz ona iki yol (xeyir və şər, küfr və iman yollarını) göstərmədikmi?! Lakin o, əqəbəni (maneəni) keçə bilmədi (özünə verilən bu qədər*

---

[1] "Əl-Kafi", c. 5, səh. 35.
[2] "Əl-Kafi", c. 5, səh. 35.
[3] "Əl-Came əs-səğir", c. 2, səh. 474.
[4] "Əl-Kafi", c. 4, səh. 32.

*nemətlərə şükür etmədi). (Ya Peyğəmbər!) Sən nə bilirsən (haradan bilirsən) ki, əqəbə nədir?! (O) bir kölə azad etməkdir; Yaxud aclıq günü (zamanı) yemək verməkdir – Qohumluq əlaqəsi çatan bir yetimə. Və ya (taqətsizlikdən) torpağa sərilmiş bir miskinə! Sonra da iman gətirən və bir-birinə səbir tövsiyə edən, mərhəmət tövsiyə edən kimsələrdən olmaqdır!*"[1]

İslam peyğəmbəri (s) buyurur: "Kim sel və ya yanğın təhlükəsini müsəlmanlardan uzaqlaşdırsa, Cənnət ona vacib olar".[2]

Həzrət Əli (ə) buyurur: "Kim sel, yanğın və ya təcavüzkar düşmənin təhlükəsini müsəlmanlardan uzaqlaşdırsa, Allah onun günahını bağışlayar".[3]

### F) Fiziki və əqli cəhətdən qüsurlu insanlar.

Dini təlimlərə görə, fiziki və zehni cəhətdən qüsuru olan insanlara ehtiramla yanaşmaq lazımdır. Allah-Taala bu çatışmazlıqların qarşılığında onlara savab verdiyi kimi, onlara yaxşılıq edənlərə də savab verir. İmam Sadiq (ə) buyurur: "Elə bir mömin yoxdur ki, hər qırx gündə bir dəfə onun malına, övladına və ya özünə bəla göndərilməklə xəbərdarlıq edilməsin. Demək, ona savab verilir".[4]

---

[1] "Bələd", 11-16.
[2] "Əl-Kafi", c. 5, səh. 55.
[3] "Bihar əl-ənvar", c. 72, səh. 15-16.
[4] "Qürəb əl-əsnad", səh. 62.

## BƏLA İLƏ ÜZLƏŞMİŞ İNSANLARI GÖRƏRKƏN TÖVSİYƏ EDİLƏN ZİKR

Allahın rəsulu (s) buyurmuşdur: "Bəla ilə üzləşənləri gördükdə Allaha elə şükür edin ki, onlar eşitməsinlər. Çünki bu, onların kədərlənməsinə səbəb olur".[1]

İmam Sadiq (ə) buyurur: "Bəla ilə üzləşmiş birini görsən – halbuki Allah həmin şeydə sənə nemət vermişdir – de: "İlahi! Nə istehza edirəm, nə də iftixar, amma mənə verdiyin böyük nemətlərə görə Sənə sitayiş edirəm".[2]

## ƏLİLLƏRLƏ DAVRANIŞ QAYDASI

İslam peyğəmbəri (s) buyurur: "Əlillərə və cüzama yoluxanlara çox baxmayın. Çünki bu, onların kədərlənməsinə səbəb olur".[3]

## ƏLİLLƏRƏ YAXŞILIĞIN SAVABI

Həzrət Peyğəmbərdən (s) gələn hədislərdə deyilir:

"Kim bir kora hamar yerdə qırx addım bələdçilik etsə, günəş onun üstünə qızıl belə saçsa, gördüyü işin əvəzi iynənin ucu qədər də ödənməz. Əgər o koru təhlükəli bir keçiddən keçirsə, Qiyamətdə – əməl tərəzisində dünyadan yüz min dəfələrlə böyük yaxşılıqla qarşılaşar".[4]

"Kim bir korun dünya ehtiyaclarından birini təmin etsə və ya təmin olunmasına çalışsa, Allah ona ikiüzlülükdən uzaq olmağı

---

[1] "Əl-Kafi", c. 2, səh. 98.
[2] "Əl-Kafi", c. 2, səh. 98.
[3] "Tibb əl-əimmə", səh. 106; "Bihar əl-ənvar", c. 72, səh. 15.
[4] "Bihar əl-ənvar", c. 72, səh. 15-16.

və Cəhənnəm odundan amanda qalmağı nəsib edər. Onun yetmiş dünya ehtiyacını təmin edər. Gördüyü iş başa çatana qədər Allahın rəhməti onun bütün vücudunu əhatə edər".[1]

"Kim bir koru evinə, məscidə və ya ehtiyacı olan yerə çatdırsa, Allah atdığı hər addımın qarşılığında ona bir qul azad etməyin savabını yazar, ondan ayrılana qədər mələklər ona salam göndərərlər".[2]

### 15. Müsafirlər (yolçular).

**Müsafirlərə köməyin savabı:** Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Kim mömin bir yolçunun ehtiyacını təmin etmək üçün ona kömək etsə, Allah onun yetmiş üç çətinliyini həll edər. Onlardan biri dünyaya aiddir – qəm-qüssəsini aparar. Yetmiş iki çətinliyi isə böyük çətinlik günü ondan uzaq edər".

O həzrətdən soruşmuşlar: "Ey Allahın rəsulu! Böyük çətinlik günü hansı gündür?"

Buyurmuşdur: "Bu, o gündür ki, Qiyamətin çətin anlarında hamının başı özünə qarışacaq. Hətta Həzrət İbrahim də deyir: "İlahi! Səni dostluğumuza and verirəm, məni o çətinliyə düçar etmə!"[3]

---

[1] "Əl-Fəqih", c. 4, səh. 16.
[2] "Vəsail əş-şiə", c. 16, səh. 343.
[3] "Ən-Nəvadir", səh. 8; "əl-Məhasin", səh. 362; "əl-Fəqih", c. 2, səh. 293.

# Mündəricat

ÖN SÖZ ...3
BİRİNCİ FƏSİL ...23
QOHUMLAR ...23
QOHUMLARLA MÜNASİBƏT ...23
QOHUMLARLA XOŞ MÜNASİBƏTİN ÖNƏMİ ...24
QOHUMLARLA XOŞ MÜNASİBƏTİN FAYDALARI ...25
QOHUMLARLA ƏLAQƏNİ KƏSMƏYİN NƏTİCƏLƏRİ ...26
QOHUMLARLA ƏLAQƏNİN KƏSİLMƏSİNƏ SƏBƏB OLAN BƏZİ AMİLLƏR ...27
QOHUMLARLA MÜNASİBƏTİN QAYDASI VƏ NÜMUNƏLƏRİ ...28
QOHUMLARLA MÜNASİBƏTİN HÜDUDLARI ...29
QOHUMLUQ MÜNASİBƏTLƏRİNİN PRİORİTET ARDICILLIĞI ...31
QOHUMLUQ MÜNASİBƏTLƏRİNƏ NÜMUNƏLƏR ...32
VALİDEYNƏ YAXŞILIQ ETMƏK ÜÇÜN MÜNASİB OLAN BƏZİ VAXTLAR ...34
VALİDEYNƏ YAXŞILIĞIN BƏZİ NƏTİCƏLƏRİ ...34
ANANIN HAQQININ BİRİNCİLİYİ ...36
ANAYA DAHA ÇOX YAXŞILIQ ETMƏK ...36
ATA ...37
ATA NEMƏTLƏRİN KÖKÜDÜR ...38
ATAYA YAXŞILIĞIN DAVAMLILIĞI ...39
VALİDEYNLƏ MÜNASİBƏTİ POZMAQ ...40
ATA-ANAYA QARŞI PİS DAVRANMAĞIN BƏZİ NƏTİCƏLƏRİ ...41
VALİDEYN ÜÇÜN DUA ...42
AİLƏ İLƏ BİRGƏ SÜFRƏYƏ OTURMAQ ...47
AİLƏYƏ ÜSTÜNLÜK VERMƏK ...48
CÜMƏ GÜNÜ (İSTİRAHƏT GÜNÜ) AİLƏYƏ QAYĞI ...48
AİLƏYƏ YAXŞILIĞIN MÜKAFATI ...48
AİLƏ ÜÇÜN KƏDƏRLƏNMƏYİN SAVABI ...49
AİLƏYƏ QAYĞI GÖSTƏRMƏMƏYİN CƏZASI ...50
AİLƏ İLƏ PİS DAVRANMAĞIN CƏZASI ...50
ÖVLADLAR ...51
UŞAĞIN SAĞLAMLIĞI ...53
UŞAĞIN QİDALANMASI ...55

UŞAĞIN TƏLİM-TƏRBİYƏSİ ....55
ÖVLADA QURAN VƏ ŞƏRİƏT HÖKMLƏRİNİ ÖYRƏTMƏYİN MÜKAFATI ....56
ÖVLADLARA DİNİ ÖYRƏTMƏMƏYİN CƏZASI ....57
UŞAQLARA İCTİMAİ BACARIQLAR VƏ DÖYÜŞ MƏHARƏTİ ÖYRƏTMƏK ....57
ÖVLADLARA SEVGİ BƏSLƏMƏK ....58
ÖVLADA SOYUQ MÜNASİBƏTİN CƏZASI ....58
ÖVLADLARA HÖRMƏT ....59
ÖVLADA YAXŞI AD QOYMAQLA ONA HÖRMƏT ETMƏK ....59
UŞAĞA PEYĞƏMBƏRİN ADINI QOYMAĞIN MÜKAFATI ....60
ÖVLADA KÖMƏK ETMƏK ....60
ÖVLADLAR ARASINDA AYRI-SEÇKİLİYƏ YOL VERMƏMƏK ....60
QIZ UŞAĞINA YAXŞILIĞIN BİRİNCİLİYİ ....61
ÖVLADLAR ÜÇÜN DUA ....61
KİŞİNİN ÖZ HƏYAT YOLDAŞINA QAYĞISI ....64
HƏYAT YOLDAŞININ VARLIĞININ DƏYƏRİ ....64
HƏYAT YOLDAŞINA (QADINA) YAXŞILIĞIN SAVABI ....67
HƏYAT YOLDAŞINA (QADINA) YAXŞILIĞIN AXİRƏT MÜKAFATI ....68
KİŞİNİN ÖZ HƏYAT YOLDAŞININ PİS XASİYYƏTİNƏ DÖZMƏSİNİN SAVABI ....68
KİŞİNİN QADINA YAXŞILIĞININ SƏRHƏDİ ....68
KİŞİNİN HƏYAT YOLDAŞINA KOBUD MÜNASİBƏTİNİN CƏZASI ....70
QADININ MEHRİNİ ÖDƏMƏMƏYİN CƏZASI ....70
ƏRƏ YAXŞILIQ ....71
BÖYÜK QARDAŞIN YERİ ....76
SÜD QARDAŞ-BACISINA YAXŞILIQ ....77
XALAYA YAXŞILIĞIN MÜKAFATI ....78
QOHUMLARLA ÜNSİYYƏTİN BU DÜNYADAKI FAYDALARI ....79
SEYİDLƏRƏ HÖRMƏT VƏ YAXŞILIQ ....80
SEYİDLƏRƏ YAXŞILIĞIN MÜKAFATI ....81
İKİNCİ FƏSİL ....83
DİNDAŞLAR (MÜSƏLMANLAR) ....83
DİN QARDAŞLARININ HÜQUQLARI ....83
MÖMİNLƏRİN BİRLİKDƏ OLMASININ VACİBLİYİ ....85
MÖMİNLƏRİN BİRLİKDƏ OLMASININ FAYDALARI ....86
MÖMİNLƏRƏ YAXŞILIQ VƏ ONUN NÖVLƏRİ ....86

MÖMİNİ YEDİRMƏYİN ÖNƏMİ ....87
MÖMİNƏ SU VERMƏK ....89
MÖMİNİN GEYİM EHTİYACINI TƏMİN ETMƏYİN MÜKAFATI ....90
MÖMİNƏ YER VERMƏMƏYİN NƏTİCƏSİ ....91
MÖMİNİ EVLƏNDİRMƏK ....91
MÖMİNƏ QAYĞI ....91
TİCARƏTDƏ MÖMİNLƏ YOLA GETMƏK ....93
MÜSƏLMAN (ƏHLİ-SÜNNƏ) QARDAŞLARA YAXŞILIQ ....103
GÜNAHKARLA YOLA GETMƏK ....105
GÜNAHKARLARA HÖRMƏTİN NƏTİCƏSİ ....106
MÜNAFİQLƏRİN BƏZİ ƏLAMƏTLƏRİ ....106
MÜNAFİQLƏRLƏ DAVRANMA QAYDASI ....110
ƏCNƏBİLƏR ....111
ÜNSİYYƏTİN ÜMUMİ QANUNU ....111
KİTAB ƏHLİ İLƏ İNSANSEVƏR DAVRANIŞA NÜMUNƏLƏR ....112
KİTAB ƏHLİNİ DOST TUTMAĞIN YASAQ EDİLMƏSİNİN SƏBƏBLƏRİ ....116
YƏHUDİ VƏ XAÇPƏRƏSTLƏR ....118
XAÇPƏRƏSTLƏRİN YƏHUDİLƏRDƏN ÜSTÜN OLMASI VƏ MÜNASİBƏTDƏ İMTİYAZLARI ....119
MƏCUSİLİK ....119
MƏCUSİLƏRİ TƏHQİR ETMƏYİN YASAQ OLUNMASI ....120
DÖRDÜNCÜ FƏSİL ....123
ÇARƏSİZLƏR (MÜSTƏZƏFLƏR) ....123
ÇARƏSİZLƏRDƏN ÜZ DÖNDƏRMƏK OLMAZ ....123
ÇARƏSİZLƏRƏ MADDİ DƏSTƏK ....124
BEŞİNCİ FƏSİL ....125
TƏCAVÜZKARLAR VƏ DÜŞMƏNLƏR ....125
DÜŞMƏNİN NÖVLƏRİ ....126
MÖMİNDƏN ŞİKAYƏT EDƏNİN HÜQUQU ....128
DÜŞMƏNÇİLİYİ AZALDAN AMİLLƏR ....129
DÜŞMƏNİN ŞƏRİNİ DƏF ETMƏK ÜÇÜN DUA ....133
ALTINCI FƏSİL ....135
HƏMVƏTƏNLƏR ....135
XOŞXASİYYƏTLİLİKLƏ BAĞLI BƏZİ MƏQAMLAR ....135

GÖZƏL XASİYYƏTİN DƏYƏRİ ....136
GÜLƏRÜZLÜLÜYÜN FAYDALARI ....136
GÜLƏRÜZLÜLÜYÜN MÜKAFATI ....136
BƏDXASİYYƏTLİLİYİN NƏTİCƏLƏRİ ....137
ƏXLAQİ ZİDDİYYƏTDƏN ÇIXIŞ YOLU ....138
ƏXLAQİ TƏZADIN NÜMUNƏLƏRİ ....139
TİBBİ MƏSƏLƏLƏRDƏ ƏXLAQİ TƏZAD ....141
HƏMVƏTƏNLƏRDƏN NÜMUNƏLƏR ....142
QONŞUNUN MƏQAMI ....143
QONŞUNUN HÜQUQLARI ....143
QONŞUNUN SİRLƏRİNİ QORUMAQ ....144
QONŞULUĞUN HÜDUDLARI ....144
QONŞUYA YAXŞILIĞIN SAVABI ....145
QONŞUYA DİQQƏTSİZLİYİN CƏZASI ....145
QONŞUNU İNCİTMƏYİN CƏZASI ....146
QONŞULAR ÜÇÜN DUA ....147
ELM VƏ ALİMİN DƏYƏRİ ....149
ALİMƏ BAXMAĞIN FƏZİLƏT VƏ MÜKAFATI ....149
ALİMİ ZİYARƏT ETMƏYİN FƏZİLƏT VƏ MÜKAFATI ....150
ALİMLƏRƏ HÖRMƏT ETMƏYİN MÜKAFATI ....150
ALİMLƏRİN BAŞQALARI ÜZƏRİNDƏ HAQQI ....150
ALİMLƏ ÜNSİYYƏTİN QAYDALARI ....151
ALİMLƏ ÜNSİYYƏTİN MÜKAFATI ....151
ELMİ MƏCLİSLƏRDƏ İŞTİRAK ETMƏYİN SAVABI ....151
QURANDA HÖRMƏTƏ LAYİQ BİLİNƏN ALİMLƏRİN XÜSUSİYYƏTLƏRİ ....152
İTAƏTİ VACİB OLAN FƏQİHİN NİŞANƏLƏRİ ....154
ALİMLƏRƏ HÖRMƏTSİZLİYİN CƏZASI ....154
ALİMƏ HÖRMƏTSİZLİYİN NƏTİCƏLƏRİ ....155
ƏMƏLSİZ ALİMLƏRDƏN UZAQ OLMAQ ....155
MÜƏLLİMİN HÜQUQLARINA RİAYƏT ETMƏK VƏ BUNUN SAVABI ....157
MÜƏLLİMƏ HÖRMƏTSİZLİYƏ YOL AÇAN AMİL ....157
ELM ÖYRƏNƏNLƏRİN FƏZİLƏTİ ....158
ELM ÖYRƏNƏNLƏRİN SEVİLMƏSİ ....158
ELM ÖYRƏNƏNLƏRİN ŞƏFAƏTİ ....158

ELM ÖYRƏNƏNLƏRƏ HÖRMƏTİN MÜKAFATI ....159
ELM ÖYRƏNƏNƏ KÖMƏYİN MÜKAFATI ....159
ELM ÖYRƏNƏNİ İNCİTMƏYİN VƏ ONA KİN BƏSLƏMƏYİN CƏZASI ....159
XƏSTƏYƏ BAŞ ÇƏKMƏK....161
XƏSTƏYƏ BAŞ ÇƏKMƏYİN MÜKAFATI ....163
XƏSTƏYƏ BAŞ ÇƏKMƏYİN QAYDALARI....165
ÖLÜLƏRLƏ DAVRANIŞ QAYDASI ....167
TƏSƏLLİ VERMƏK ZƏRURƏTİ....174
BAŞSAĞLIĞI VERMƏK QAYDALARI ....174
TƏSƏLLİ VERMƏYİN SAVABI ....174
QONAĞA HÖRMƏTİN VACİBLİYİ ....176
QONAQPƏRVƏRLİYİN QAYDALARI....177
QONAĞA HÖRMƏTİN SAVABI....180
QONAĞI GERİ QAYTARMAĞIN CƏZASI ....180
QONAQ GETMƏYİN QAYDALARI....181
MÜCAHİDLƏRİN ÜSTÜNLÜYÜ....183
DÖYÜŞÇÜLƏRƏ HÖRMƏT....183
DÖYÜŞÇÜLƏRİ İNCİTMƏYİN CƏZASI ....184
GƏNCLƏRİN ƏHƏMİYYƏTİ....187
GƏNCLƏRLƏ MƏSLƏHƏTLƏŞMƏK....187
BACARIQLI GƏNCLƏRDƏN FAYDALANMAQ ....188
GƏNCLƏRƏ QARŞI MƏDƏNİ HÜCUMUN QARŞISINI ALMAQ ....188
GƏNCLƏRƏ MÜBAHİSƏ ETMƏYİ ÖYRƏTMƏK ....189
GƏNCLƏRİ AİLƏ QURMAĞA RƏĞBƏTLƏNDİRMƏK ....189
GƏNCLƏRİN SƏLİQƏ-SAHMANINA ÖNƏM VERMƏK....190
GƏNCLƏRİ TƏRBİYƏLƏNDİRMƏYİN YOLLARI....191
GƏNCLƏRİ BİLİK ÜÇÜN TƏNBEH ETMƏK....191
AHILLARIN MƏQAMI....192
YAŞLILARA HÖRMƏT....192
DÖYÜŞDƏ YAŞLILARI ÖLDÜRMƏKDƏN ÇƏKİNMƏK....192
YAŞLILARA HÖRMƏTİN MÜKAFATI....193
MÖMİN AĞSAQQALA HÖRMƏTSİZLİYİN CƏZASI ....193
YETİMLƏRƏ QAYĞI ....194
YETİMİN MALINI QORUMAQ VƏ BUNUN QAYDASI....196

YETİMƏ QAYĞI GÖSTƏRMƏYİN FAYDALARI ....197
YETİMİ İNCİTMƏYİN CƏZASI ....199
MƏNƏVİ YETİMLƏRİN HİMAYƏSİ ....200
YOXSULLARA SEVGİ GÖSTƏRMƏK ....202
ƏL TUTANIN ƏLİNİN BƏRƏKƏTİ ....202
YOXSULLARA QAYĞI GÖSTƏRMƏYİN SAVABI ....202
YOXSULLARA ƏL TUTMAĞIN QAYDASI ....203
YOXSULA LAQEYDLİYİN NƏTİCƏLƏRİ ....204
BORCLUNU SIXIŞDIRMAMAQ ....207
BORCLUYA MÖHLƏT VERMƏK ....207
BORCLULARIN BORCUNU ÖDƏMƏYİN SAVABI ....208
DİLƏNÇİNİ ƏLİBOŞ QAYTARMAQDAN ÇƏKİNMƏK ....209
DİLƏNÇİ – MƏLƏK ....210
DİLƏNÇİYƏ BƏXŞİŞİN SAVABI ....210
DİLƏNÇİ İLƏ DAVRANIŞ QAYDASI ....210
GÜNDƏLİK SƏDƏQƏNİN MİQDARI ....211
GECƏ DİLƏNÇİYƏ CAVAB VERMƏK ....211
YARDIM ETMƏYİN YOLLARI ....212
YOLDA QALANA YARDIM ETMƏYİN SAVABI ....213
AMAN VERMƏK SƏLAHİYYƏTİNİN HƏR BİR MÖMİNƏ AİD OLMASI ....214
AMAN VERMƏYİN SAVABI ....214
AMAN VERİLMİŞ KƏSƏ XƏYANƏT ETMƏYİN CƏZASI ....215
MƏHBUSLARIN DÖVLƏT ÜZƏRİNDƏ HAQLARI ....215
MƏHBUSLARA YAXŞILIQ ....217
RAMAZAN AYINDA ƏSİR AZAD ETMƏK ....218
ƏSİRİN AZAD OLUNMASI ÜÇÜN VASİTƏÇİLİK ETMƏK ....218
ƏSİRLƏRƏ YAXŞILIQ ....218
BƏLA İLƏ ÜZLƏŞMİŞ İNSANLARI GÖRƏRKƏN TÖVSİYƏ EDİLƏN ZİKR ....221
ƏLİLLƏRLƏ DAVRANIŞ QAYDASI ....221
ƏLİLLƏRƏ YAXŞILIĞIN SAVABI ....221